# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

İLHAM
ƏLİYEV

# SƏKSƏN ÜÇÜNCÜ KİTAB

## OKTYABR 2017 - NOYABR 2017

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiya Federasiyasına, Türkiyə və İran respublikalarına səfəri, həmçinin Bolqarıstan və Türkiyə prezidentlərinin Azərbaycana səfərləri zamanı bu ölkələrin rəhbərləri ilə görüş və danışıqları, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar toplanmışdır.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Kitabda, həmçinin dövlət başçısının Azərbaycanda 2 milyardıncı ton neftin hasil olunması münasibətilə Bakıda keçirilən təntənəli mərasimdə, Bakı–Tbilisi–Qars dəmir yolunun açılışında, Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley tədbirində və digər beynəlxalq səviyyəli toplantılarda çıxış və nitqləri də verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я $\frac{0801000000}{М – 651(07) – 2019}$** **ББК - 32**

© Azərnəşr, 2019

## AVROPA İTTİFAQI ŞURASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Avropa İttifaqının Brüsseldə akkreditə olunmuş səfirlərinin daxil olduğu Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı görüşdə giriş nitqi söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Əziz qonaqlar, xoş gəlmisiniz! Düşünürəm ki, bu, Avropa Komissiyasından indiyədək Azərbaycana səfər etmiş ən böyük nümayəndə heyətidir. Şadam ki, bu otaqda kifayət qədər yerimiz vardır. Bir daha Azərbaycana xoş gəlmisiniz!

Bilirəm, səfəriniz qısadır, lakin ümidvaram ki, çox məhsuldar olacaqdır. Siz Azərbaycan haqqında daha çox məlumat əldə edəcək, daha çox görəcəksiniz. Əlbəttə, uğurlu əməkdaşlığımızı necə davam etdirə biləcəyimizlə bağlı qərara gələcəksiniz. Azərbaycan nisbətən gənc müstəqil dövlətdir. Bildiyiniz kimi, bizim cəmi 25 yaşımız vardır. Bu ay biz müstəqilliyimizin bərpa olunmasının 26-cı ildönümünü qeyd edəcəyik. Lakin düşünürəm ki, bu müddət ərzində biz müxtəlif sahələrdə yaxşı irəliləyişə nail olmuşuq. Bu gün Azərbaycan gələcəyə aydın baxışı olan çox sabit, müasir, inkişaf edən ölkədir.

Qarşımızda duran əsas çağırışlardan biri – mən söhbətimizə bu mövzu ilə başlamaq istərdim – əlbəttə, artıq 25 ildən çoxdur davam edən Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Əslində bu, Sovet İttifaqının süqutu ərəfəsində başlanıb və

Sovet İttifaqı dağılandan dərhal sonra Ermənistan və digər xarici qüvvələrin dəstəyi ilə Dağlıq Qarabağdakı erməni separatçıları bəşəriyyətə qarşı cinayət törətdilər. Onlar azərbaycanlılara qarşı etnik təmizləmə apardılar və 1 milyondan artıq azərbaycanlı məcburi köçkün və qaçqına çevrildi. Onlar Dağlıq Qarabağı tamamilə işğal etdilər, orada olan 30 faizə yaxın Azərbaycan əhalisini qovdular və ermənilərin heç vaxt yaşamadığı Dağlıq Qarabağın ətrafındakı 7 rayonu işğal etdilər. Bundan əlavə, bu işğal nəticəsində Ermənistanda yaşayan 250 min azərbaycanlı da etnik təmizləməyə məruz qaldı. 1 milyon nəfər! Həmin vaxt Azərbaycanın əhalisi 8 milyondan bir qədər artıq idi. Bu, adambaşına düşən qaçqın və məcburi köçkünlərin sayına görə ən yüksək rəqəmlərdən biri idi.

İşğal olunmuş ərazilərdəki vəziyyət beynəlxalq ictimaiyyətə məlumdur. ATƏT işğal olunmuş torpaqlara 2 dəfə faktaraşdırıcı və qiymətləndirmə missiyaları göndərib və onların hesabatlarında həmin torpaqlarda vandalizm aktlarının törədildiyi göstərilib. Bütün binalar, məzarlar və qəbiristanlıqlar, məscidlər ermənilər tərəfindən dağıdılıb. Onlar Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədərək, 613 günahsız insanı qətlə yetirdilər. Onların 100-dən çoxu qadın, 60-dan çoxu uşaq idi. Onlar bizim tarixi və dini abidələrimizi dağıdaraq, mədəni irsimizə qarşı soyqırımı törətdilər. Vəziyyət belədir.

Əfsuslar olsun ki, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar heç bir praktiki nəticə əldə olunmadan uzun illərdir davam edir. Ermənistan status-kvonu dəyişməz olaraq saxlamağa çalışır. Münaqişənin həll olunmamasının əsas səbəbi budur. Bundan əlavə, Ermənistan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, erməni qoşunlarının işğal olunmuş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrə əməl etmir. Əfsuslar olsun ki, bu qətnamələr kağız üzərində qalır. Bəzən bir neçə gün ərzində yerinə yetirilən digər qətnamələrdən fərqli olaraq, bizə gəlincə, biz onların yerinə yetirilməsini 20 ildən artıqdır, daha dəqiq desək 24 ildir ki,

gözləyirik. Status-kvo qəbuledilməzdir. Bunu təkcə Azərbaycan deyil, həm də ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələr deyir. Bu ölkələrin prezidentləri bir neçə dəfə bəyan ediblər ki, status-kvo dəyişdirilməlidir, bu qəbuledilməzdir. Ermənistan buna sadəcə olaraq, göz yumur və status-kvonu dəyişməz olaraq saxlamaq üçün əlindən gələni edir. Onlara qarşı beynəlxalq səviyyədə təzyiq artanda, onlar 2014-cü ildə olduğu kimi, təmas xəttində hərbi təxribatlara başlayırlar. Onlar hərbi helikopterlərlə bizim mövqelərimizə hücum edəndə və biz cavab vermək məcburiyyətində qalanda bu, bütünlükdə 2015-ci il ərzində danışıqların dondurulmasına səbəb oldu. 2016-cı ildə təzyiq yenidən artmağa başlayanda, onlar kəndlərimizi atəşə tutdular və 6 mülki şəxsi qətlə yetirdilər, 20-dən artıq adam yaralandı və biz yenə də cavab verməli olduq. Cavab çox ciddi və effektiv oldu. Biz ərazilərimizin mühüm hissəsini azad etməyə müvəffəq olduq. Ermənilər yenə də bunu bəhanə edərək, bizi təcavüzdə günahlandırdılar və danışıqlara yenidən başlamaq üçün şərtlər irəli sürməyə başladılar. Sözsüz ki, Azərbaycan bu şərtlərin heç birini qəbul etmədi. Ermənilər bizim bunu heç vaxt qəbul etməyəcəyimizi yəqin ki, başa düşürlər. Bu, ola bilsin ki, onlar üçün məlum səbəblərə görə daha bir vaxt qazanmaq fürsəti idi. Beləliklə, 2016-cı ilin ikinci yarısında və 2017-ci ildə danışıqlarla bağlı vəziyyət bir növ dondurulmuşdur. Onların taktikası status-kvonu bacardıqları qədər dəyişməz saxlamaqdır. Hazırda onlar regionun keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və Dağlıq Qarabağ ətrafındakı 7 rayonun qondarma «Dağlıq Qarabağ respublikası»nın bir hissəsi kimi təqdim olunduğu yeni xəritələrini tərtib edirlər. Bu onların münaqişənin sülh yolu ilə həllində maraqlı olmadıqlarını göstərir. Bizim mövqemiz çox aydın və sadədir, dəfələrlə ifadə olunub. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. Tarix bu faktı təsdiqləyir. Dağlıq Qarabağ Azərbaycanın qanuni hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Biz tarixən bizə məxsus olan torpaqlarda ikinci qondarma erməni dövlətinin yaradılmasına

razılıq verməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməli, Ermənistanın işğalçı qüvvələri işğal olunmuş bütün ərazilərdən qeyd-şərtsiz çıxarılmalıdır. Sonra sülh olacaq və vəziyyət sabit hesab ediləcəkdir.

Bu gün bu münaqişənin mövcudluğu regional təhlükəsizliyə və sabitliyə daimi təhlükədir. Beləliklə, görüşümüzün əvvəlində sizə nə baş verdiyi və nə ediləcəyi ilə bağlı fikirlərimi təqdim etmək istədim. Düşünürəm ki, qarşıdakı ayda Minsk qrupunun əsas fəaliyyət sahəsi – yəqin ki, onların regiona səfər etməyi planlaşdırdığını bilirsiniz – beynəlxalq hüquq normalarına əməl etməsi üçün Ermənistanın işğalçı rejiminə daha çox təzyiq göstərmək olmalıdır. Münaqişənin həll olunmamasının səbəblərindən biri təcavüzkara qarşı beynəlxalq səviyyədə təzyiqin olmamasıdır. Əgər Ermənistana qarşı sanksiyalar tətbiq olunsaydı, beynəlxalq hüquq normalarını və humanitar normaları kobud şəkildə pozan ölkəyə qarşı ciddi sanksiyalar tətbiq edilsəydi, bəlkə də münaqişə çoxdan həll edilmiş olardı. Beynəlxalq ictimaiyyətin Ermənistana münasibətdə belə mülayim siyasəti onlarda belə təsəvvür yaradır ki, onlar bizim torpaqlarımızda qanunsuz şəkildə qalmağa davam edə bilərlər və bu, səbəblərdən biridir. Lakin düşünürəm, onlar başa düşməlidirlər ki, bu, mümkün olmayacaqdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Mənim buna şübhəm yoxdur. Məsələ burasındadır ki, biz bunu sülh yolu ilə etmək istəyirik.

İnkişafımız və problemlərimizlə bağlı digər məsələlərə gəlincə, demək istərdim ki, münaqişə, dağıntılar və iqtisadi çətinliklərə baxmayaraq, ölkə inkişaf etməyə müvəffəq olub. Biz on milyardlarla birbaşa xarici sərmayə cəlb etmişik, Azərbaycanda yaxşı investisiya mühiti yaratmışıq, iqtisadiyyatımızı müasirləşdirmişik, əsasən infrastruktur və insan kapitalına sərmayə yatırmışıq. Düşünürəm ki, bu gün Azərbaycan iqtisadi cəhətdən sovet keçmişindən, planlaşdırılan iqtisadiyyatdan müasir sistemə və bazar iqtisadiyyatına keçən ölkə kimi, yaxşı nümunələrdən biridir. İqtisadiyyatımızın 80 faizdən çoxu özəl sektorun payına düşür. Biz işsizlik, yoxsulluq kimi

əsas, çox ciddi sosial problemləri həll etməyə müvəffəq olmuşuq. Hazırda yoxsulluq və işsizlik səviyyəsi 5-6 faizə yaxındır. Düşünürəm ki, bu, dünya miqyasında ən yaxşı göstəricilərdən biridir. Biz əsasən təhsilə sərmayələr yatırırıq. Çünki əminik ki, yalnız təhsilli və təlim keçmiş insanlar uzunmüddətli inkişafı təmin edə bilərlər. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Biz səhiyyə sahəsinə böyük sərmayələr yatırırıq. Son 15 ildə 600-dən artıq müasir xəstəxana tikilib və yenidən qurulubdur. Hazırda hər il 5 milyondan artıq adam, əhalimizin yarısı pulsuz tibbi müayinədən keçir. Bu, insanların sağlam qalmasına kömək edir.

Bizim iqtisadi göstəricilərimiz Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi beynəlxalq təşkilatlar tərəfindən aparılan qiymətləndirmələrdə də əks olunub. Onların bizim islahatlarla bağlı qiymətləndirmələri çox müsbətdir. Əlavə olaraq, Davos İqtisadi Forumunun son dəfə dərc etdiyi iqtisadiyyatın rəqabət qabiliyyəti üzrə yeni hesabatında Azərbaycan iqtisadiyyatın qlobal rəqabət qabiliyyəti indeksində 35-ci yerdə qərarlaşıb. Axırıncı dəfə biz 37-ci yerdə idik, indi isə 35-ci yerdəyik. Biz MDB ölkələri arasında birinciyik və 140 ölkə arasında 35-ci olmaq həqiqətən də böyük uğurdur. Bu bizim dediklərimiz deyil. Bu, Davosun dedikləridir. Azərbaycanın iqtisadiyyatı uğurla inkişaf edir. Biz qeyri-enerji sektoruna böyük diqqət yetiririk. Bu il ixracatın artımı 20–30 faiz təşkil edir, kənd təsərrüfatı sahəsində ixrac artımı isə 50 faizdən çoxdur. Beləliklə, iqtisadiyyatın şaxələnməsi artıq bir reallıqdır. Buna görə də neftin qiymətinin çevik düşməsinin bizə müəyyən problemlər yaratmasına baxmayaraq, çox qısa müddətdə biz bu problemlərin öhdəsindən gələ bildik. Əlbəttə ki, Azərbaycan böyük enerji ehtiyatları olan ölkə kimi tanınır və bu ehtiyatları dünya bazarlarına nəql etmək üçün əsasən sərmayələr yatırır. Bu gün Avropa İttifaqının üzvü olan bəzi ölkələr üçün enerji balansında bizim neftimiz təqribən 25–30 faiz təşkil edir. Beləliklə, bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında biz öz rolumuzu oynayırıq. Bu yaxınlarda aparıcı beynəlxalq enerji

şirkətlərinin konsorsiumu ilə yeni meqaneft müqaviləsi imzalanıb. Bu müqavilə bizə nəhəng neft yataqlarımızın 2050-ci ilə qədər işlənməsinə imkan verəcəkdir. Sabit neft istehsalat profilini saxlamaq üçün on milyardlarla əlavə investisiya yatırılacaqdır. Əlbəttə, Azərbaycandan təbii qazın Avropa bazarlarına nəql edilməsi layihəsi hazırda Avropanın enerji gündəliyində duran ən vacib məsələlərdəndir və biz Avropa Komissiyası ilə sıx əməkdaşlıq şəraitində bu məsələ üzərində çalışırıq. Azərbaycan «Cənub Qaz Dəhlizi» layihəsinin işlənilməsində aparıcı qüvvə olub. Bu gün bu layihəyə 7 ölkə qoşulub. Bunlar Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadır. Bir neçə Balkan ölkəsi də artıq bu layihəyə qoşulmaq niyyətindədir. Minimum təbii qaz ehtiyatları 2,6 trilyon kubmetr təşkil edir. Bu, böyük rəqəmdir və bu rəqəm artacaqdır. Çünki biz hazırda yeni nəhəng qaz yataqlarının kəşfiyyat işlərini aparırıq. Bu, böyük bir ehtiyatdır. Biz Azərbaycanı qeyd etdiyim ölkələr vasitəsilə Avropa, İtaliya ilə birləşdirən boru xəttinin inşasını aparırıq. Boru xəttinin uzunluğu 3500 kilometrdir və bu xəttin inşaat işləri uğurla gedir. Ümid edirik ki, gələn il birinci faza olacaq və 2020-ci ildə layihə tamamlanacaqdır. Bu layihənin dəyəri ən azından 40 milyard ABŞ dolları təşkil edir və Azərbaycan «Cənub Qaz Dəhlizi» layihəsində fəal investor qismində çıxış edərək, öz töhfəsini verir. Bizim toplanılmış maliyyə ehtiyatlarımız istənilən layihəni həyata keçirmək üçün kifayət edir, hazırda 40 milyard dollardan da artıqdır. Bizim çox az xarici borcumuz var və bu, ümumi daxili məhsulun 20 faizindən də azdır. Buna görə də biz beynəlxalq maliyyələşməni cəlb etməkdə heç bir problem yaşamırıq. Bizim etdiklərimiz isə əsasən «Cənub Qaz Dəhlizi» layihəsi ilə əlaqəli məqsədlər üçündür.

Digər infrastruktur layihələri və yerli səviyyədə həyata keçirdiyimiz layihələr üçün biz dövlət büdcəsinin vəsaitlərindən istifadə edirik. Buna görə də iqtisadiyyat və enerji təhlükəsizliyi nöqteyi-nəzərindən, əlbəttə ki, Azərbaycanın gələcəyi daha da yaxşı olacaqdır. Bununla bağlı mənim heç bir şübhəm yoxdur.

Qeyd etmək istədiyim digər məsələ isə nəqliyyatdır. Bu sahə təkcə bizim üçün önəm kəsb etmir. Enerji resurslarının işlənilməsi kimi layihələrdə nəqliyyat sahəsində regional və ya qitə səviyyəsində əməkdaşlıq olmasa, heç bir uğur qazanmaq olmaz. Buna görə də bizim hədəfimiz Azərbaycanı vacib regional nəqliyyat mərkəzinə çevirməkdir. Bu məqsədlə biz keçmişdə artıq böyük sərmayələr yatırmışıq. Biz ölkəmizi qonşu ölkələrlə birləşdirən bütün magistrallarımızı müasirləşdirmişik. Biz 6 beynəlxalq aeroport inşa etmişik və həm sərnişindaşıma, həm də yükdaşımalar üçün təyyarə parkımızı yeniləmişik. Biz dəmir yolu infrastrukturunun fəal modernləşdirilməsi mərhələsindəyik. Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanması – 300-ə yaxın gəmimiz vardır. Bakıda bütün növ gəmiləri inşa edə bilən müasir Gəmiqayırma zavodumuz var və biz faktiki olaraq, bu işləri görürük. Gələn il biz Xəzər dənizində ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanını istismara verəcəyik. Bu limanın maksimum yükqəbuletmə, yükgöndərmə tutumu ildə 25 milyon ton olacaqdır. Bütün bu işlər qonşularımız, yaxın qonşularımız və o qədər də yaxın olmayan qonşularımızla əlaqə yaratmaq üçün görülür. Şərq–Qərb nəqliyyat dəhlizi çox tezliklə fəaliyyət göstərəcəkdir. Bu, Xəzər dənizindən, Azərbaycandan keçən, Asiyadan Avropaya gedən bir yoldur və bu, Asiyadan Avropaya ən qısa nəqliyyat yolu olacaqdır. Digər bir yol isə cənubdan şimala, yaxud cənubdan qərbə doğru gedir və bu yol da Azərbaycan ərazisindən keçir. Azərbaycan buraya da sərmayə yatırıbdır. Bu, əlbəttə ki, bizə qeyri-neft sektorundan gələcəkdə daha çox pul qazanmaq imkanı verəcəkdir. Bu, ölkənin geosiyasi əhəmiyyətini artıracaqdır. Çünki dənizə çıxışı olmayan, açıq bazarlara, açıq dənizlərə çıxışı olmayan ölkə olaraq və eyni zamanda, dəmir yolları, hava ilə yükdaşımaları, magistral daşımalar və dəniz daşımalarından ibarət inteqrasiya edilmiş bir sistem olan nəqliyyat mərkəzini yaratmaq, hesab edirəm ki, həqiqətən də böyük bir aktivdir.

Avropa İttifaqı ilə əməkdaşlığımızla bağlı sonuncu bir məsələni də qeyd etmək istəyirəm. Bu ilin fevral ayında mənim

Brüsselə çox uğurlu səfərim oldu. Səfərdən bir gün sonra biz Avropa İttifaqı və Azərbaycan arasında yeni saziş üzərində rəsmi danışıqlara başladıq. Məndə olan məlumata görə, danışıqlar uğurla davam edir. Bizdə danışıqları gec olmaqdansa, daha tez yekunlaşdırmaq istəyi var və biz Avropa İttifaqı ilə münasibətlərdə yeni bir səhifənin açılışını etmək istəyirik. Avropa bizim əsas ticarət tərəfdaşımızdır və bizim Avropa ilə ənənəvi əlaqələrimiz vardır. XIX əsrdə Azərbaycana Avropa kapitalı sərmayə qoyulmuşdu və Azərbaycanda Avropa mədəniyyətinin mədəni irsi vardır. Bu da müsəlman dünyasında ilk olaraq Azərbaycanda baletin səhnəyə qoyulması, ilk teatrın yaradılması, habelə 1918-ci ildə ilk demokratik respublikanın yaradılması faktında öz əksini tapır. Bütün bunlar əsasən Avropanın təsiri ilə olubdur. Respublika yalnız 2 il müddətində fəaliyyət göstərdi, sonra bizi müstəqillikdən məhrum etdilər. Lakin o 2 il müddətində Azərbaycan xalqı müasirliyə, modernləşməyə doğru irəlilədiyini nümayiş etdirdi. Həmin vaxtın ən vacib nailiyyətlərindən biri də qadınlara bir çox Avropa ölkələri ilə müqayisədə daha erkən səsvermə hüququnun verilməsi idi. Avropa irsi həmişə Azərbaycanda mövcud olub və indi təhlükəsizlik, siyasi inkişaf, ticarət, enerji, nəqliyyat, multikulturalizm kimi bütün vacib məsələləri özündə ehtiva edəcək yeni sazişlə biz Avropa İttifaqı ilə münasibətlərin uğurla inkişaf edəcəyinə ümid edirik. Bu arada biz vaxt itirmədik, biz Avropa İttifaqına üzv ölkələrlə ikitərəfli format-da fəal çalışdıq və indi Azərbaycanın Avropa İttifaqına üzv olan ölkələrin üçdəbirindən çoxu ilə strateji tərəfdaşlıq formatı vardır, ya saziş, ya bəyannamə formasında. Beləliklə, biz Avropa İttifaqına üzv ölkələrin üçdəbirindən çoxu üçün strateji tərəfdaşıq. Hesab edirəm ki, bu, Avropa İttifaqı və Azərbaycan arasında gələcək saziş üçün yaxşı zəmindir. Mənim Brüsselə uğurlu səfərimin çox yaxşı nəticələri vardır. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

**V a l t e r  S t i v e n s** (*Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin sədri*): Cənab Prezident, məmnunedici sözlərə görə çox sağ olun. Bizi qəbul etmək üçün ayırdığınız vaxta və göstərilmiş qonaqpərvərliyə görə də minnətdarıq. Haqlı olaraq qeyd etdiyiniz kimi, bu, ola bilsin, qəbul etdiyiniz ən böyük nümayəndə heyətidir. Əslində biz 28 ölkənin səfirlərindən ibarət qrupuq. Biz faktiki olaraq, Avropa İttifaqı və nazirlər üçün xarici siyasətin əsaslandırılması ilə məşğuluq. Qeyd etməliyəm ki, mən burada 2006-cı ildə olmuşam və həmin vaxt ATƏT-in fəaliyyətdə olan sədri Karel de Quxt ilə gəlmişdim. İndi isə yenidən qayıtmışam və görürəm ki, ölkədə çox böyük dəyişikliklər baş verib. Bu, kifayət qədər sevindiricidir.

Bildirməliyəm ki, biz bu səfərə böyük əhəmiyyət veririk. Fikrimcə, səfər yerinədüşəndir, çünki «Şərq Tərəfdaşlığı» Sammitinə hazırlıq gedir. Eyni zamanda, biz «Şərq Tərəfdaşlığı»na, xüsusən də Azərbaycana əhəmiyyət veririk. Siz də bunu haqlı olaraq qeyd etdiniz.

Brüsselə səfərinizdən sonra əlaqələrimizdə yüksək dərəcədə dinamik inkişaf baş verib. Hazırda yeni saziş üzrə danışıqlar gedir. Danışıqların artıq bir neçə raundu keçirilib. Fikrimcə, onlar çox yaxşı istiqamətdə davam edir. Ümid edirik ki, yaxın zamanlarda danışıqlar başa çatacaqdır. 1996-cı il tarixli «Tərəfdaşlıq və Əməkdaşlıq haqqında» əvvəlki Saziş üzərində də böyük iş gedir. Bir daha qeyd edirəm ki, münasibətlər təbii olaraq həmin əsaslarla, o cümlədən «Şərq Tərəfdaşlığı» ilə tənzimlənir. Sizi «Şərq Tərəfdaşlığı» Sammiti münasibətilə Brüsseldə böyük məmnuniyyətlə salamlamağı arzulayırıq. Fikrimcə, bu yeni saziş sayəsində irəliləyişlə ola bilsin ki, biz aviasiya haqqında saziş barədə də danışıqlar apara bilərik. Bu, Zirvə görüşü üçün çox yaxşı nəticə sayıla bilərdi və göstərərdi ki, bizim Azərbaycanla əlaqələrimiz nə dərəcədə yaxın və sıxdır. Bildirməliyəm ki, Sizin qeyd etdiyiniz regional hadisələr

baxımından Azərbaycan beynəlxalq arenada çox mühüm müstəqil iştirakçıdır. Mənə elə gəlir ki, bu məsələlər gələcəkdə işləyə biləcəyimiz xarici siyasətin, eləcə də təhlükəsizliyin də mühüm sahəsidir.

Siz həmçinin tolerantlıq mədəniyyəti məsələsini qeyd etdiniz. Dini tolerantlığa gəldikdə, müxtəlif dinlər burada yan-yana mövcud olublar. Bu, gözəl nümunədir. İqtisadiyyatın şaxələndirilməsinə və ölkənin müasirləşdirilməsinə yönəlmiş səylərinizi də xüsusi olaraq qeyd etdiniz. Ölkədə uzunmüddətli artım və sabitlik perspektivlərini təmin etmək olduqca vacibdir. Siz həmçinin təhsil sahəsində də çox işlərin görüldüyünü, qeyd olunmuş məsələlərin reallaşması üçün cəmiyyətin bütün təbəqələrinin səfərbər olunduğunu söylədiniz. Eyni zamanda, investorların üzünə açıq olduğunuzu, xarici investisiyalara yol açan sərmayə mühitinə diqqət yetirdiyinizi bildirdiniz. Fikrimcə, sərmayədarlar üçün hüquqi əsasları və qanunun aliliyini də təmin etmək vacibdir. Bu halda, onlar da gözlənilən fəaliyyətdə şəffaf olurlar.

Bu baxımdan, icazə verin, narahatlıq doğuran bəzi məsələləri də qeyd edim. Söhbət ölkədə ifadə azadlığı, toplaşmaq azadlığından gedir. Müəyyən şəxslərin azadlıqdan məhrum olunması ilə bağlı bəzi məlum işlər vardır. Bilirəm ki, Siz penitensiar sistemin humanistləşdirilməsi sahəsində bir çox işlər görürsünüz. Ümid edirəm ki, təklifləriniz parlamentdə razılaşdırılacaq və qəbul olunacaqdır. Fikrimcə, bunu Avropa Şurasının üzvü kimi, göstərmək vacibdir. Həmçinin nəzərə alsaq ki, belə məsələlərin həlli ilə bağlı Avropa Məhkəməsinin qərarı da var, onda həmin addım bizə də yardımçı ola bilərdi, çünki biz münasibətlərimizin genişləndirilməsində, vətəndaş cəmiyyəti ilə işləməyimizdə və ikitərəfli əlaqələrimizin inkişaf etdirilməsində çox maraqlıyıq.

Dağlıq Qarabağa gəldikdə, fikrimcə, Siz Ermənistan prezidenti ilə Brüsseldə olduğunuz zaman prezident Tusk fikrini çox aydın şəkildə qeyd etdi. Biz çox istərdik ki, status-kvo deyil, siyasi nizamlanma tapılsın. Həmsədrləri bu baxımdan tam

dəstəkləyirik. Siz qeyd etdiyiniz kimi, mən də bilirəm ki, həmsədrlər regiona səfərə gəlir. Bilirəm ki, prezidentlər arasında görüşün keçirilməsi plandadır. Bəlkə də bu məsələni bir az aydınlaşdırardınız. Bu baxımdan, yaxşı olardı ki, fransalı həmkarıma söz verim.

**N o k a l a s  S u r a n** (*Avropa İttifaqının Brüsseldə akkreditə edilmiş Fransadan olan səfiri*): Cənab Prezident, icazə versəydiniz, mən qısa olaraq üç məsələni qeyd etmək istərdim. Birincisi, Dağlıq Qarabağla bağlıdır. Bildiyiniz kimi, sentyabrın əvvəlində burada olmuş Xarici Məsələlər üzrə Dövlət katibi tərəfindən bəyan edilmişdir ki, danışıqların indiki durumu və təmas xəttində baş verən silahlı toqquşmalar bizi çox narahat edir. Biz də Siz düşündüyünüz kimi, hesab edirik ki, status-kvo qəbuledilməzdir və biz mütləq siyasi nizamlanmaya nail olmalıyıq. Məqsədimiz çox aydındır: beynəlxalq hüququn prinsiplərinə, xüsusən də hamımız üçün sarsılmaz olan Helsinki Yekun Aktına uyğun şəkildə məsələnin həllinə nail olmaq. Bildiyimiz kimi, güclə təhdid etməmək və ya ondan istifadə etməmək, dövlətlərin tam ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmək həmin Aktın prinsipləridir. Bu baxımdan, tərəflər arasında ən yaxşı həll variantının tapılmasında qərəzsiz olmaqda Minsk qrupunun həmsədri kimi, bizə arxalana bilərsiniz.

Bilirik ki, BMT Baş Assambleyasının sessiyası zamanı Xarici İşlər nazirləri sentyabrın 23-də görüş keçiriblər. Minsk qrupu həmsədrlərinin bəyanatında da qeyd olunub ki, bu ilin sonuna qədər görüşün keçirilməsi mümkündür. Bildiyiniz kimi, prezident Makron şəxsən bəyan etdi ki, biz sizə məsələnin həllinin tapılmasında kömək etməyə hazırıq. Sədrimiz Avropa İttifaqının tam siyasi dəstəyini vurğuladı. Fikrimcə, həmsədrlərin irəli sürdüyü təşəbbüslər üzərində işin aparılması çox vacibdir. Bu baxımdan, biz güclü siyasi dialoq apardığınız Avropa İttifaqı ilə tam yekdilik. Bizim üçün ən vacib olan odur ki, danışıqlar tezliklə bərpa olunsun, çünki bu çox vacibdir və yekun nəticədə bölgədə və

əlbəttə, onun xalqları üçün sabitliyi və təhlükəsizliyi təmin edə bilər.

Dağlıq Qarabağla bağlı sonuncu məsələni də qeyd edim. Çünki bunu kifayət qədər vacib hesab edirəm. Hazırda biz «Şərq Tərəfdaşlığı» Sammitinin yekun Bəyannaməsinin razılaşdırılması mərhələsindəyik. Əlbəttə, biz regionda münaqişələr barədə müddəanı kənarda qoymayacağıq. Bu çox vacibdir. Hesab edirik ki, Bəyannamə mümkün qədər bitərəf olmalıdır və beləliklə, bütün tərəflərin maraqlarına cavab verən güzəştlər əsasında sənəd tərtib ediləcəkdir. Bu, olduqca vacib məsələdir.

Çox qısa olaraq, iki digər məqamı da qeyd edim. Birincisi, Sizi əmin etmək istərdik ki, bu məsələ Azərbaycan və Avropa İttifaqının bütün üzv dövlətləri üçün qarşılıqlı maraq doğurur. Söhbət enerji sektorundan, xüsusən də «Cənub Qaz Dəhlizi»nə verdiyimiz dəstəkdən gedir. Bilirik ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, o cümlədən Azərbaycanın hakimiyyət orqanları bu işdə çox mühüm rol oynayır. Avropa İnvestisiya Bankından ayrılan kreditlərə, eləcə də Avropa İttifaqında enerji mənbələrinin və təchizatın şaxələndirilməsində açılan imkanlara gəldikdə, Siz bizə arxalana bilərsiniz.

Nəhayət, sonuncu məqamı da bildirim. Siz bunu çox düzgün olaraq qeyd etdiniz. Söhbət Azərbaycanın multikulturalizm sahəsindəki fəaliyyətindən gedir. Azərbaycan və Avropa İttifaqının üzləşdiyi ümumi çağırışla, terrorçuluğa qarşı mübarizə ilə bağlı fikirlərinizi öyrənmək mənim üçün maraqlı olardı. Biz terrorçuluğun mövcud olduğu regiondayıq. Cənubda Suriya, İraq hadisələri baş verir. Bilirik ki, bizim, o cümlədən sizin bəzi vətəndaşlarınız xaricdə döyüş əməliyyatlarına qoşulur. Bu barədə bir az fikirlərinizi öyrənmək, problem haqqında, edə biləcəyimiz əməkdaşlıq barədə nə düşündüyünüzü bilmək bizim üçün maraqlı olardı. Çox sağ olun.

**Gergana Karadjova** (*Avropa İttifaqının Brüsseldə akkreditə edilmiş Bolqarıstandan olan səfiri*): Cənab Prezident, bizi qəbul etdiyinizə görə minnətdarıq. Siyasi və Təhlükəsizlik

Məsələləri Komitəsində Bolqarıstanın təmsilçisi olaraq, həmkarlarımla birlikdə Sizinlə görüşməkdən böyük məmnunluq və şərəf hissi duyuruq.

Azərbaycanın yerləşdiyi region iki məqam baxımından bizim üçün çox vacibdir. Birincisi, Qara dəniz və Xəzər dənizi bölgəsində sabitlik, təhlükəsizlik və demokratiya məsələləri ilə bağlıdır. İkinci məqam isə fransız həmkarımın və Sizin də qeyd etdiyiniz kimi, enerji və nəqliyyat dəhlizlərini nəzərdə tutur. Həqiqətən, «Cənub Qaz Dəhlizi» çox mühüm marşrutdur. Biz enerji mənbələrinin və təchizat yollarının şaxələndirilməsi üzərində birgə çalışırıq. Bu baxımdan, Azərbaycanın oynadığı aparıcı rolu alqışlayırıq. Həmin layihənin başa çatdırılması mənim ölkəm və Avropa İttifaqının enerji təhlükəsizliyi üçün olduqca əhəmiyyətlidir. Siz də qeyd etdiniz ki, 2020-ci ildən başlayaraq, bu marşrutla enerji daşıyıcılarının nəqlinin reallaşması vacibdir. Körfəz ölkələrindən Qara dəniz regionuna multimodal daşımalar marşrutu da çox əhəmiyyətlidir. Bu baxımdan, Asiyadan Avropaya marşrutun qurulmasında geosiyasi çağırışların üstünlüklərə çevrilməsi məqsədəuyğundur. Əlbəttə ki, enerji məsələsi Avropa İttifaqının gündəliyində əsas yer tutur. Sədrimiz də qeyd etdi ki, Azərbaycanla münasibətlərimiz təkcə bununla məhdudlaşmalı deyil. Biz Avropa İttifaqı ilə yeni əhatəli sazişin razılaşdırılmasını çox alqışlayırıq. Ümid edirəm ki, sazişin mətni tezliklə yekunlaşdırılacaqdır. Siz bir sıra ölkələrlə strateji tərəfdaşlıq sazişlərini qeyd etdiniz. Mənim də ölkəm onların sırasındadır və həmin münasibətləri yaradıbdır. Fransalı həmkarımın sualından irəli gələrək, regional kontekst, mühüm qonşularınızın və tərəfdaşlarınızın, xüsusən də İranın və Türkiyənin regional siyasəti barədə daha ətraflı danışsanız, Sizə minnətdar olardım. Sağ olun.

**M i x a e l F l ü g e r** *(Avropa İttifaqının Brüsseldə akkreditə edilmiş Almaniyadan olan səfiri)*: Cənab Prezident, bizi burada qəbul etdiyinizə görə təşəkkür edirəm. Ölkənizlə qurduğumuz diplomatik münasibətlərin 25-ci ildönümündən çox məmnunuq. Əlbəttə ki, gözlərimiz Brüsseldə keçiriləcək «Şərq

Tərəfdaşlığı» Sammitinə yönəlib. Mən sadəcə, sədrimizin söylədiyini bir daha təkrar etmək istərdim. Çox istərdik ki, Siz də orada olasınız. 6 ölkənin əhalisi üçün «Şərq Tərəfdaşlığı»nın faydalı olması barədə işarə vermək, eləcə də nəinki iqtisadi əməkdaşlığın yaxşılaşdırılması, o cümlədən terrorçuluğa qarşı mübarizə barədə daha ətraflı danışmaq, praktiki xarici siyasət sahəsində əməkdaşlıq etmək baxımından Azərbaycanın yüksək səviyyədə təmsil olunması zəruridir. Bütün bunlar bizim marağımızdadır.

Bir məsələni də qeyd etmək istərdim. Siz bunu artıq açıqladınız. Azərbaycan Demokratik Respublikasının 100-cü ildönümü qarşıdadır. Bu, müsəlman Şərqində həmin dövrdə çox müasir və dünyəvi respublika idi. Məlumdur ki, bizim ölkələrimizdə qadınlara səsvermə hüququ ondan xeyli gec verilib. Bu münasibətlə Sizi təbrik edirik.

Əvvəldə qeyd edilən tolerantlıq məsələsinə gəldikdə, ümid edirik ki, bu, bir məsələyə də tətbiq olunsun. Hazırda vətəndaş cəmiyyətindən eşidirik ki, cinsi və gender mənsubiyyətinə görə ayrıseçkilik halları baş verir. Bilirik ki, həbs olunmuş həmin şəxslərin əksəriyyəti artıq azadlığa buraxılıb. Bu, yaxşı işarədir. Əminik ki, Azərbaycan BMT, ATƏT və Avropa Şurası çərçivəsində öz beynəlxalq öhdəliklərini yerinə yetirəcəkdir.

Bir böyük xahişimiz də var. Fikrimizcə, Avropa Şurasından çıxmaq ideyası həm Avropa Şurası, həm Azərbaycan üçün olduqca pis ideyadır. Ümid edirik ki, Siz burada fikrinizi bildirib, bu mövqe barədə yenidən düşünəcəksiniz. Hesab edirik ki, bütün bunlar Azərbaycana beynəlxalq arenada öz potensialını tam şəkildə reallaşdırmaq imkanı verəcəkdir. Biz birmənalı olaraq istərdik ki, Azərbaycan təşkilatda qalsın. Bir sual da vermək istərdim. Ukraynada ərazi bütövlüyü məsələsi ilə bağlı mövqenizi öyrənmək istərdik. Sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin yekun nitqi

Əvvəlcə ölkəmizin inkişafının qiymətləndirilməsinə görə sizə təşəkkürümü bildirmək istəyirəm. Siz qeyd etdiniz ki, son dəfə burada 2006-cı ildə olmusunuz. O zamandan bəri çoxlu dəyişikliklər olub. Bu isə onun göstəricisidir ki, ölkə sürətlə inkişaf edir. Bu, təkcə Bakıya aid deyil, biz Azərbaycanın bütün bölgələrində sakinlər və biznes dairələri üçün maksimum imkanların yaradılması məqsədilə nəhəng infrastruktur və inkişaf layihələri həyata keçirmişik. Hazırda vəziyyət elədir ki, regionlar çox uğurla inkişaf edir. İqtisadiyyatımızın şaxələndirilməsi əsasən regional infrastrukturun yaradılması və regional inkişafın təmin olunması sayəsində mümkün olub. Bu sahəyə böyük sərmayə yönəldilib. Mən prezidentlik müddətimin əvvəlində – 2004-cü ildə demişdim ki, biz «qara qızıl»ı insan kapitalına çevirməliyik. Biz o vaxtdan təhsil və səhiyyə infrastrukturuna böyük sərmayə yatırmışıq. Qaçqınların və məcburi köçkünlərin yerləşdirilməsi sahəsində müvafiq işlər görülüb, onların 250 min nəfəri yeni ev və mənzillərlə təmin olunub və bu proses davam etməkdədir. Onların bir hissəsi hələ də çətin vəziyyətdə yaşayır, lakin siz də anlayırsınız ki, bu, böyük vəsait tələb edən layihələrdir. Biz həmin insanların daha yaxşı şəraitdə yaşamaları üçün milyardlarla dollar sərf etmişik.

Burada Fransa səfiri Dağlıq Qarabağ məsələsinə toxundu. Bizə belə gəlir ki, Ermənistan danışıqlar prosesinə qayıdır və bu, olduqca vacib məsələdir. Onların danışıqları boykot etmək siyasəti, birincisi, ağılsız, ikincisi isə səmərəsiz idi. Bildiyimə görə, Ermənistan rəhbərliyinə müxtəlif mənbələrdən, o cümlədən Avropadan mesajlar verilib ki, bu ölkə özünü belə apara bilməz. Onlar əraziləri işğal etməklə yanaşı, etnik təmizləmə aparıb və işğal olunmuş əraziləri viran ediblər. Bütün bunlardan sonra onlar danışıqların bərpası üçün hələ şərtlər də irəli sürürlər. Ancaq bu gün hesab edirəm ki, danışıqlar formatı bərpa olunmaqdadır. Bir neçə gündən sonra mən ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin səfirləri ilə görüşəcəyəm və biz gələcək danışıqları, habelə prezidentlər səviyyəsində

mümkün görüşü müzakirə edəcəyik. Münaqişəyə yanaşma məsələsinə gəldikdə, xüsusilə də «Şərq Tərəfdaşlığı» Zirvə görüşü zamanı bizim gözləntimiz ondan ibarətdir ki, postsovet məkanında mövcud olan bütün münaqişələrə münasibətdə Avropa Komissiyası tərəfindən vahid yanaşma nümayiş etdirilsin. Əks təqdirdə, biz haqlı olaraq bunu ikili standartlar yanaşması kimi qəbul edəcəyik. Bu səbəbdən Dağlıq Qarabağla bağlı yekun Bəyannamənin mətnində ərazi bütövlüyünə dair məsələnin aydın ifadə olunması çox vacibdir. Ümumilikdə isə bütün beynəlxalq formatlarda belə məsələlər müzakirə edilərkən bizim mövqemiz ondan ibarətdir ki, bütün münaqişələrlə bağlı vahid yanaşma olmalıdır. Bütün ölkələrin ərazi bütövlüyü məsələsinə gəldikdə, biz hər bir dövlətin ərazi bütövlüyünü tanıyırıq və bu mövqe tərəfimizdən BMT Baş Assambleyasında və Avropa Şurasında keçirilən səsvermələrdə açıq ifadə olunur. Bu bizim üçün sual deyil, biz istənilən ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşırıq. Bundan əlavə, hesab edirik ki, ölkə rəhbərliyinin və xalqının razılığı olmadan onun sərhədləri dəyişdirilə bilməz. Bu gün biz İspaniyada və İraqda nələrin baş verdiyini görürük və nəhayət ki, beynəlxalq ictimaiyyət separatizmlə bağlı məsələlərə daha çox diqqət ayırmağa başlayır. Çünki separatizm böyük təhlükədir. Hesab edirəm ki, ərazi bütövlüyü və öz müqəddəratının təyin edilməsi arasında tarazlığı müəyyən etmək çox asandır. Helsinki Yekun Aktına nəzər salsaq görərik ki, burada hər şey aydın ifadə olunub. Ermənistan isə hər 2 prinsipin bərabər hüquqa malik olduğunu iddia edərək, ictimai rəyi manipulyasiya etməyə çalışır. Öz müqəddəratının müəyyən edilməsi ərazi bütövlüyünü pozmamalıdır. Dağlıq Qarabağın gələcəyi məsələsinə gəldikdə isə bizim mövqemiz hər zaman ondan ibarət olub ki, gələcəkdə azərbaycanlılar Dağlıq Qarabağa, öz əzəli torpaqlarına geri dönməli, ermənilər isə onlarla birlikdə Dağlıq Qarabağda yaşamalıdırlar.

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Bunu siz də qeyd etdiniz və bu, məlum məsələdir ki, bizim ölkədə dini və

etnik tolerantlıq yüksək səviyyədədir. Biz multikulturalizmin mərkəzlərindən biri kimi tanınırıq və ötən il Azərbaycanda «Multikulturalizm ili» elan edilmişdi. Bütün etnik və dini qrupların nümayəndələri Azərbaycanda sülh şəraitində, bir ailə kimi yaşayır və hesab edirəm ki, bu bizim uğurlu inkişafımızın vacib elementidir. Yeri gəlmişkən, düşünürəm ki, bu məsələ müzakirələrin bir hissəsi olmalı və sazişə daxil edilməlidir. Azərbaycan Avropa ilə müsəlman dünyası arasında coğrafi körpü rolu ilə yanaşı, mədəni və müəyyən dərəcədə siyasi körpü rolunu oynayır. 2008-ci ildə biz «Bakı prosesi»nə start verdik. Həmin il biz Avropa Şurasına üzv dövlətlərin Mədəniyyət nazirlərinin iclasına İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin müvafiq nazirlərini dəvət etdik. İlk dəfə idi ki, 100-dən artıq dövlətin nümayəndəsi bir araya gəldi və artıq bu gün o, «Bakı prosesi» adlanır. Həmin proses inkişaf etməkdə davam edir və BMT tərəfindən dəstəklənir. Müasir, dünyəvi müsəlman ölkəsi kimi, Azərbaycanın rolu artır və deyərdim ki, ölkəmizdə cəmiyyətin dünyəvilik statusunun dəstəklənməsi üçün gördüyümüz işlər təkcə bizim üçün deyil, region üçün də olduqca əhəmiyyətlidir.

Beynəlxalq terrorizmlə bağlı məsələlərə gəldikdə, bir qədər əvvəl qeyd etdiklərim bununla bilavasitə əlaqəlidir. Bizim mövqemiz ondan ibarətdir ki, beynəlxalq terrorizmlə mübarizədə yalnız hərbi vasitələrlə uğur qazanmaq mümkünsüzdür. Çünki əvvəlcə ideoloji təhlükələrdən qorunmaq lazımdır. İnsanları qane edəcək yaşayış standartları və rahatlıq təmin olunmalıdır ki, onlar həyatlarından məmnun olsunlar. Onlar təhsil almalıdırlar. Qeyd etdiyim kimi, Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır.

Azərbaycanda getdikcə daha çox savadlı gənclər müxtəlif mühüm vəzifələrdə çalışırlar. Yəni bu ekstremizmə qarşı əsas səddir. Terrorizm prosesin son mərhələsidir. Manipulyasiya, savadsızlıq, təbliğat, narazılıq, sosial qeyri-bərabərlik, yoxsulluq, işsizlik və nəhayət, terrorizm – yəni bütün bu amillər aradan

qaldırılmalıdır. İşsizlik bizdə 5 faiz təşkil edir. Əslində bundan da az ola bilər, ancaq bəziləri işləməyərək, yalnız dövlətdən ianə almaq istəyir. Biz yoxsulluğu, demək olar ki, aradan qaldırmışıq. Çünki 2003-cü ildə bu göstərici 49 faizə bərabər idi, indi isə 6 faizdir. Bir məsələni də nəzərə almaq lazımdır ki, Ermənistandan fərqli olaraq, əhalimizin sayı artır. Orada əhali azalmaqdadır. Əhalimiz ildə 100 min nəfərdən çox artır. Bu səbəbdən işsizliyin aşağı səviyyədə saxlanılması olduqca ciddi çağırışdır. Təbii ki, biz terrorizmlə mübarizə sahəsində beynəlxalq səylərə töhfəmizi veririk. Bu mənada bizim ölkədə daxili təhlükə mövcud deyil. Bütün təhlükələr xaricdən qaynaqlanır.

Bolqarıstan səfiri enerji və nəqliyyat məsələlərini qeyd etdi. Bolqarıstan enerji sahəsinin inkişafında bizim yaxşı tərəfdaşımızdır. Ümid edirəm ki, Bolqarıstan 3 ildən sonra Azərbaycan qazını qəbul edəcəkdir. Çıxışımın əvvəlində də qeyd etdiyim kimi, Azərbaycanda enerji sahəsinin inkişafı sərhədlərimizin hüdudları ilə məhdudlaşmır. Enerji təhlükəsizliyimizə gəldikdə, bütün işlər görülüb, biz müxtəlif istiqamətlərdə neft, qaz və elektrik enerjisi ixrac edirik. Bizim 7 kəmərimiz vardır. Onların 3-ü ilə neft nəql olunur – ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Qaz kəmərlərinin sayı 4-ə bərabərdir ki, onlar vasitəsilə biz bütün istiqamətlərə – Gürcüstan, Türkiyə, İran və Rusiyaya qaz nəql edə bilirik. Sonuncu ən böyük qaz kəməri Bakıdan İtaliyaya qədər uzanan kəmərdir ki, onun da tikintisi davam edir. Müasir nəqliyyat infrastrukturunun yaradılması üçün tərəfimizdən bütün işlər görülüb. Bizim ehtiyatlarımız məlumdur, bazar müəyyən edilib. Bizim üçün ən böyük bazar Avropadır və Avropanın daha çox qaza ehtiyacı olacaqdır. Biz bilirik ki, Avropada təbii qaza tələbat artacaq və Azərbaycan Avropa üçün yeganə yeni enerji mənbəyidir. Avropanı hazırda qazla təmin edən bütün digər mənbələr istifadə olunmaqdadır. Azərbaycan yeni mənbədir, yaxında yerləşir, ehtiyatlar böyükdür və növbəti onilliklərə kifayət edəcək potensiala malikdir. Biz Avropa Komissiyası ilə sıx əməkdaşlıq edirik. Artıq

üçüncü dəfədir ilin əvvəlində biz Bakıda «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının toplantısını keçiririk ki, həmin iclaslarda Avropa Komissiyasının vitse-prezidentləri iştirak edirlər.

Azərbaycanda azadlıqların təmin olunması və demokratiyanın inkişafı məsələsinə gəldikdə, mən hər zaman həmkarlarımız və dostlarımıza məsələnin mahiyyətinə nəzər salmağı tövsiyə edirəm. Azərbaycan medianın kəskin hücumuna məruz qalmaqdadır. Bizim inkişafımıza sevinməyən və ya Azərbaycanda hökmranlıq etmək arzusunda olan müəyyən dairələr ölkəmizi gözdən salmağa çalışırlar. Onu totalitar, avtoritar, hüquqların tapdalandığı və azadlıqların pozulduğu bir ölkə kimi göstərməyə cəhd edirlər. Bu, bir tendensiyadır. Mən prezident seçildiyim gündən bu tendensiya bizim hökuməti müşayiət edir. Bunun müxtəlif səbəbləri vardır. Bunlardan biri erməni lobbisi və diasporudur ki, o, Qərbdə böyük siyasi, ictimai və media köklərinə malikdir. Qarayaxmanın böyük hissəsi onların payına düşür, ancaq təkcə onlar deyil. Müəyyən QHT-lər, bizdən istədiklərini əldə edə bilməyən müəyyən xarici dairələr və Azərbaycanın müstəqil siyasət yürütməsindən, başqalarının işlərinə qarışmamasından və başqalarının da bizim daxili işlərimizə qarışmasına imkan verməməsindən narazı olanlar da bu siyahıdadır. Burada müəyyən digər amillər də ola bilər, ancaq əsas məsələ ondan ibarətdir ki, bizə qarşı böhtan və dezinformasiya kampaniyası aparılır. Lakin mahiyyətə baxsanız görərsiniz ki, Azərbaycan demokratik ölkədir, biz 2001-ci ildən Avropa Şurasının üzvüyük, qanunvericiliyimiz, demək olar ki, 100 faiz Avropa standartlarına uyğundur. Azərbaycanda bütün azadlıqlar təmin olunur, əhalimizin 70 faizindən çoxu internet istifadəçisidir və dövlət hər bir şəhər və qəsəbəyə genişzolaqlı internetin çəkilməsi sahəsinə sərmayə yatırır – yəni mətbuat azadlığının tərəfimizdən məhdudlaşdırılmasından söhbət gedə bilməz və bizim belə bir niyyətimiz də yoxdur. Əks təqdirdə, biz bütün bu işləri görməzdik. Daha bir azadlıq toplaşma azadlığıdır. Bu azadlıq tam təmin olunur, heç bir məhdudiyyət tətbiq edilmir və müxalifət müntəzəm surətdə mitinqlərini keçirir. Həmin mitinqlərdə 1000

nəfərə yaxın insanın iştirakı isə digər bir məsələdir. Bunlar əsasən partiyaların üzvləri və onların qohumlarıdır. Bu mitinqlər normal, adi vətəndaşları cəlb etmir və burada bizim günahımız yoxdur. Həmin mitinqlər şəhərin mərkəzində, metro stansiyasının yaxınlığında keçirilir, heç bir məhdudiyyət qoyulmur və sonuncu mitinq isə zənnimcə, bir həftə əvvəl baş tutub. Beləliklə, hər hansı bir azadlığın məhdudlaşdırılması ilə bağlı niyyət və əməldən söhbət gedə bilməz. Həbslərə gəldikdə, onlar hər bir ölkədə baş verir. Polis zorakılığına dair deyə bilərəm ki, siz Azərbaycanda onun şahidi ola bilməzsiniz, çünki o, mövcud deyil. Bəzən biz sizin təmsil etdiyiniz ölkələrdə polis zorakılığını görürük. Ancaq heç kəs sizi demokratiyanın olmamasında və zorakılıqda ittiham etmir. Biz itlərin dinc etirazçılara hücum etmə səhnələrini yaxşı xatırlayırıq. Atlardan və dəyənəklərdən istifadə olunmasını biz televizordan izləyirik. Yəni bu baxımdan da yanaşma obyektiv və vahid olmalıdır. Azərbaycan etmədiyi əməllərə görə gözdən salınmamalıdır. Demokratiyanın rəmzi hesab olunan dövlətlərin hərəkətləri normal qəbul edildiyi halda, biz atdığımız bənzər addımlara görə tənqidə məruz qalmamalıyıq. Ancaq şübhəsiz ki, insan haqları və demokratik inkişafla bağlı məsələlər bizim Avropa Komissiyası ilə sazişimizin tərkib hissəsi olacaqdır.

Burada Avropa Şurasından çıxmaq məsələsinə toxunuldu. Siz bizim kütləvi informasiya vasitələrimizi yaxşı tanıyırsınız, çünki hər hansı bir azərbaycanlı rəsminin belə bir fikir bildirməsi ilə bağlı məndə məlumat yoxdur. Lakin media azaddır və istədiklərini yaza bilər. Təbii ki, biz ictimaiyyətin əhval-ruhiyyəsinə reaksiya veririk və hər bir hökumət ilk olaraq, ictimai rəyi nəzərə almalıdır. Təəssüf ki, Avropa Şurası ilə bağlı ictimai rəy o qədər də müsbət deyil. Bunun bir neçə səbəbi vardır. Birincisi, bu təşkilata üzv olarkən bizim gözləntimiz ondan ibarət idi ki, o bizə Dağlıq Qarabağ münaqişəsinin həllində yardım edəcəkdir. Lakin Avropa Şurası bu işdə uğursuz oldu, bu iş baş tutmadı və baş tutmayacaq da. İkincisi, üzvlüyümüzün əvvəlində mən bizim nümayəndə heyətinin ilk

rəhbəri olmuşam. O zaman mən Azərbaycan parlamentinin üzvü idim və 2001–2003-cü illərdə Azərbaycanın Avropa Şurasının Parlament Assambleyasındakı nümayəndə heyətinə rəhbərlik edirdim. Yəni onun necə təşkilat olmasını mən bilirəm və orada Azərbaycana qarşı münasibətin də necə olduğundan xəbərdaram. Münasibət olduqca mənfi idi. Biz həmin təşkilata Ermənistanla eyni gündə üzv olmuşuq və biz Azərbaycana qarşı kəskin mənfi münasibətlə Ermənistana olan müsbət münasibəti müqayisə edirdik. Seçkilərin daim saxtalaşdırıldığı, siyasətçilərin parlamentdə qətlə yetirildiyi, terrorizmin, demək olar ki, rəsmi siyasət səviyyəsində qəbul edildiyi, digər dövlətin ərazisini işğal etmiş və hərbi cinayətlər törətməklə, milyonlarla insana əzab verən Ermənistan AŞPA-dakı lobbi qrupları tərəfindən hər zaman himayə olunur, Azərbaycan isə hər zaman hücumlara məruz qalırdı. Təəssüf ki, son vaxtlar Avropa Şurasının bəzi rəsmiləri Azərbaycana qarşı yeni hücum təşkil ediblər. Onlar bizi üzvlükdən məhrum etmək və bizə qarşı sanksiya tətbiq etməklə hədələyirlər. Təbii ki, bizim siyasətçilər, parlamentarilər, jurnalistlər və insanlar adekvat reaksiya nümayiş etdirirlər. Birincisi, onlar üzv ölkələrlə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin 10 mindən artıq qərarının icrasını təmin etsinlər. Ondan sonra Azərbaycanın üzvlükdən çıxarılmasından və ya sanksiyalardan bəhs edə bilərlər. Bu, baş vermiş olsa, bu hal ikili standartların təntənəsi olacaqdır. Müxtəlif səbəblərdən Avropa Məhkəməsinin 10 min qərarının icra edilmədiyi bir halda, Azərbaycan o qərarları icra edir, lazım gəldikdə təzminat ödəyir və ümumilikdə, olduqca konstruktiv davranır. Beləliklə də Azərbaycana qarşı məqsədyönlü hücum məyusluq yaradır və «bizim o təşkilatda nə işimiz var?» kimi fikirlər meydana gəlir. Belə fikirlərin üstünlük təşkil etməməsi üçün biz konstruktiv qaydada çalışmalıyıq. Hesab edirəm ki, bunun yollarından biri bizim Avropa Komissiyası və Avropa İttifaqı ilə əlaqələrimizin möhkəmləndirilməsidir. Bizim üçün prioritet budur. Biz artıq 16 ildir ki, Avropa Şurasının üz-

vüyük. Sizə səmimi, dostcasına deyim ki, Azərbaycan Avropa Şurasını tərk etsə, heç kəs buna əhəmiyyət verməyəcəkdir. Həyatımızda heç nə dəyişməyəcək, biz bundan sonra nə yaxşı, nə də pis, nə zəngin, nə də yoxsul yaşamayacağıq. İnsan haqları və demokratiya bundan sonra da diqqət mərkəzimizdə olacaqdır. Biz bunları hazırda Azərbaycana qarşı həyata keçirilən əsassız hücumun mərkəzində dayanan Avropa Şurasının baş katibinə xoş gəlsin deyə etmirik. Biz bunları ölkəmizi inkişaf etdirmək məqsədilə edirik.

Avropa təsisatlarına gəldikdə, bir daha qeyd etmək istəyirəm, Avropa İttifaqı bizim prioritetimizdir və sizin də səfəriniz onu nümayiş etdirir ki, Azərbaycan da Avropa üçün vacib tərəfdaş hesab olunur.

Mən «Şərq Tərəfdaşlığı» Sammitində iştiraka dəvətə görə minnətdaram. Mən bu dəvəti prezident Tuskdan fevral ayında aldım və bildirdim ki, birmənalı olaraq, Zirvə görüşündə iştirak edəcəyəm. Fikrimcə, orada olmaq çox vacibdir. Azərbaycan lap əvvəldən «Şərq Tərəfdaşlığı» Proqramına dəstək verib. Mən şəxsən «Şərq Tərəfdaşlığı»nın ilk Sammitində olmuşam və bütün sonrakı sammitlərdə iştirak etmişəm, sonuncunu istisna etməklə. Orada olmamağımın da səbəbini, yəqin ki, bilirsiniz. İndi isə həmin mühüm toplantını kənara qoymaq üçün əsas yoxdur. Bir sözlə, ümidlərimiz böyükdür. Lap əvvəldən razılaşmamağım onunla bağlı idi ki, üzv dövlətlərə daha fərdi yanaşma tətbiq edilməlidir, çünki həmin ölkələr fərqlidir. Biz Azərbaycanıq. Biz geniş imkanlara malik, müasir, öz hesabına yaşayan, siyasi, təhlükəsizlik, iqtisadi və maliyyə resursları baxımından özünü təmin edən müstəqil ölkəyik. Bu səbəbdən biz həmin qrupa dəvət olunduq. Lakin həmin vaxtdan etibarən qrupda iki ölkə Avrasiya İqtisadi İttifaqına üzv, 3 ölkə isə Assosiasiya Sazişini imzalamış ölkədir. Qalan bir ölkə – Azərbaycan hazırda tərəfdaşlıq haqqında saziş üzərində iş aparır. Buna görə ölkələrə daha fərdi yanaşmanın tətbiq edilməsi lap əvvəldən mövqemizin əsasını təşkil edirdi. Əfsuslar olsun ki, əvvəlki Avropa komissiyaları zamanı mövqemizə yaxşı yanaşılmadı.

Əksinə, biz bəzən hücum hədəfinə çevrildik. Hansısa xüsusi razılaşmanı tələb edən tərəf kimi ittiham olunduq. Bu belə deyildi. Əslində biz Komissiya ilə xüsusi ünsiyyəti yaratmaq istəyirdik. Saziş üzərində fəal danışıqlara başlamağımız faktı göstərir ki, bu yanaşma artıq üstünlük təşkil etməyə başlayır. Bu çox müsbətdir. «Şərq Tərəfdaşlığı», əlbəttə ki, vacib çərçivədir. Lakin bu çərçivədə, fikrimcə, Azərbaycan ilə Avropa Komissiyası arasında ayrıca razılaşma ən mühüm məsələdir.

Söyləyəcəyim sonuncu məqama gəldikdə, almaniyalı səfirə deməliyəm ki, almanların Azərbaycanda 200 il ərzində olması bu il qeyd edilir. Onlar ölkəmizin qərb hissəsində 2 və ya 3 şəhərin təməlini qoymuşlar. İlk almanlar Azərbaycana 200 il əvvəl gəliblər. Biz həmin irsi Azərbaycanın qərb şəhərlərində qoruyub saxlayırıq. Biz alman kilsəsini və məşhur şərab anbarlarını bərpa etmişik. Onlar yaxşı şərab istehsal edirdilər. 200 və 100 il əvvəl tikdikləri evlər isə hələ də qalır.

* * *

**V a l t e r  S t i v e n s** *(Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin sədri):* Cənab Prezident, mən Sizə «Çox sağ olun» – deməliyəm. Bizi qəbul etdiyinizə görə çox minnətdaram. Sizinlə fikir mübadiləsi aparmaq imkanına görə təşəkkür edirəm.

Siz burada «Şərq Tərəfdaşlığı» çərçivəsində fərqləndirməni qeyd etdiniz. Bu həmçinin «Şərq Tərəfdaşlığı»na yenidən baxılmasına dəlalət edən elementdir. Bu sizinlə razılaşdırdığımız yeni saziş üzərində irəliləyişin əldə olunmasının vacibliyini bir daha göstərir. Fikrimcə, artıq böyük irəliləyiş əldə olunub. Bunun mümkün qədər tez tamamlanmasını səmimiyyətlə arzulayırıq.

Aviasiya haqqında saziş də vacibdir, tamamlanmalıdır. Hesab edirəm ki, Zirvə görüşünə Azərbaycan artıq bir neçə

nəticələrlə gələcək və bu, əlaqələrimizin gücləndirilməsində maraqlı olduğumuzu göstərəcəkdir. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Sizə Bakıda xoş səfər arzulayıram. Bilirəm, sizin bir çox mühüm görüşləriniz vardır. Yenidən səfər etmək qərarına gəlsəniz, sizi bir daha görməyimə ümid edirəm.

**V a l t e r S t i v e n s:** Sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan yeni həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi, gələcək yüksək səviyyəli görüş haqqında söhbət aparıldı.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun ABŞ-dan olan yeni həmsədri Endrü Şoferi qəbul etdi.*

*Endrü Şoferə fəaliyyətində uğurlar arzulayan dövlətimizin başçısı ABŞ-dan olan əvvəlki həmsədrlərin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində digər həmsədrlərlə birgə səylərini əsirgəmədiklərini bildirərək, münaqişənin həllinə indiyədək nail olunmadığını təəssüflə qeyd etdi və dedi ki, buna səbəb Ermənistanın status-kvonu dəyişməz olaraq saxlamağa çalışması, işğal olunmuş torpaqlarımızdan çıxmaması və Ermənistanın BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə məhəl qoymamasıdır. Hazırda danışıqlar prosesinin bərpa olunduğunu deyən prezident İlham Əliyev beynəlxalq hüququn normalarına əsaslanan ədalətli həll yolunun tapılması istiqamətində konstruktiv işlər görüldüyünü qeyd etdi, Azərbaycanın bu münaqişənin tezliklə həllində maraqlı olduğunu bildirdi.*

*ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Endrü Şofer Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Dövlət Departamentinin rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı. Endrü Şofer vurğuladı ki, prezident İlham Əliyevin də qeyd etdiyi kimi, status-kvo qəbuledilməzdir və buna görə də münaqişənin beynəlxalq hüququn normaları əsasında sülh yolu ilə həlli istiqamətində aparılan prosesdə səylərini əsirgəməyəcəkdir.*

*Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Dövlət Departamentinin rəhbərliyinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Amerika Birləşmiş Ştatlarının Prezidentinə və Dövlət Departamentinin rəhbərliyinə çatdırmağı xahiş etdi.*

**İSPANİYA KRALI ƏLAHƏZRƏT**
**VI FELİPEYƏ**

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı və xoşbəxtlik, dost İspaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 oktyabr 2017-ci il*

## NAZİRLƏR KABİNETİNİN 2017-ci İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* İŞTİRAK

*9 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 9-da Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

İlin 9 ayı arxada qalır. Bu 9 ayda ölkəmiz uğurla və hərtərəfli inkişaf etmişdir. Bütün sahələrdə dinamik inkişaf təmin olunmuşdur.

Doqquz ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir. Qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb. Hesab edirəm ki, bu çox gözəl göstəricidir. Bu, son illərdə apardığımız siyasətin nəticəsidir. Çünki qeyri-neft sektorunun inkişafı bizim əsas prioritetimizdir və 2,5 faiz artan qeyri-neft iqtisadiyyatımız həm

---

*Nazirlяr Kabinetinin 2017-ci ilin доггуз ayыныn sosial-iqtisadi inkiшafыныn yekunlarыna vя qarшыda duran vяzifяlяrя hяsr olunmuш iclasыnda Tяhsil naziri Mikayıl Cabbarov, «Azяravtoyol» Aчыq Sяhmdar Cяmiyyяtinin sяdri Saleh Məmmədov və Bakы Nяqliyyat Agentliyinin baш direktoru Vüsal Kərimli çıxış etdilər.

uğurlu islahatlarımızın göstəricisidir, həm də onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi məsələləri öz həllini uğurla tapıbdır. Qeyri-neft sektorunun sənaye hissəsi də uğurla inkişaf edir. Qeyri-neft sənayesi 9 ayda 3,1 faiz artıbdır. Bu da sənayeləşmə siyasətimizin gözəl nəticəsidir. Bildiyiniz kimi, son illər kənd təsərrüfatında çox böyük inkişaf vardır, böyük investisiyalar qoyulur. Kənd təsərrüfatının hərtərəfli inkişafı dövlət prioritetidir və bu sahədə də nəticələr özünü göstərir. Kənd təsərrüfatı 2,8 faiz artıbdır.

Xarici ticarət dövriyyəmiz 7 faiz artıbdır. Burada da ixrac idxalı böyük fərqlə üstələyir. Hər bir inkişafın göstəricisi, o cümlədən xarici ticarətin tarazlığından asılıdır. Bizdə isə ilin 9 ayında xarici ticarətin müsbət saldosu 4,4 milyard dollara bərabərdir. Əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaqdır. Əlbəttə, bu bizim iqtisadi uğurlarımızı əks etdirir, milli valyutamız manatın məzənnəsinə çox müsbət təsir göstərir. Valyuta bazarının tənzimlənməsi istiqamətində bu çox böyük imkanlar açır. Eyni zamanda, bu bizim uğurlu inkişafımızın təzahürüdür. İxracımız idxaldan 4,4 milyard dollardan çoxdur.

Baxmayaraq ki, dünya bazarlarında neftin qiyməti hələ də aşağı səviyyədədir, bu il biz qarşıya məqsəd qoymuşduq ki, valyuta ehtiyatlarımızı artıraq. Çünki bu bizim iqtisadi və siyasi müstəqilliyimizin əsas şərtlərindən biridir. Xərclərimizin artmasına və ölkə qarşısında duran vəzifələrin də çoxalmasına baxmayaraq, biz çalışırıq ki, bütün vəzifələri icra edək. Bunu etmək üçün, əlbəttə, maliyyə resursları lazımdır. Valyuta ehtiyatlarımızdan qənaətlə istifadə etməyimiz, düzgün investisiya proqramımızın uğuru imkan verdi ki, valyuta ehtiyatlarımızı artıraq. İlin 9 ayında Azərbaycanın valyuta ehtiyatları artıb, hazırda bu rəqəm 42 milyard dollar səviyyəsindədir. İlin əvvəlindən valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıbdır. Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişafı haqqında düşünürük. Ona görə bir daha qeyd etmək istəyirəm ki, valyuta

ehtiyatlarımız, ümumiyyətlə, iqtisadi imkanlarımız müstəqilliyimizin əsas şərtlərindən biridir.

Bu gün biz özümüzü dünya miqyasında müstəqil ölkə kimi təqdim edə bilmişik, müstəqil siyasət aparan ölkə kimi tanınırıq. Əlbəttə ki, bunun təməlində güclü siyasi iradə, xalq–iqtidar birliyi, bir çox başqa amillər dayanır. Onların arasında iqtisadi müstəqillik xüsusi yer tutur. Ona görə 4,5 milyard dollar həcmində artan valyuta ehtiyatlarımız hesab edirəm ki, 9 ayın ən uğurlu nəticələrindən biridir.

Doqquz ayda həm Bakıda, həm bölgələrdə yeni iş yerlərinin yaradılması prosesi uğurla gedib. Həmin dövrdə 226 min yeni iş yeri yaradılıbdır ki, onlardan 171 mini daimi iş yeridir. Bu da işsizliyin aşağı səviyyədə saxlanılmasına imkan verir. Bu, daimi proses olmalıdır. Çünki bizim əhalimiz artır və belə olan halda, daim yeni iş yerlərinin yaradılması haqqında düşünməliyik.

Əsas infrastruktur layihələri 9 ayda uğurla icra edilibdir. 700 kilometrdən çox içməli su xətti çəkilib, qazlaşdırılma ölkəmizdə 93 faiz səviyyəsindədir və bu proses davam edir. Bunlar özlüyündə çox gözəl göstəricidir. Elektrik enerjisi ilə təminat yaxşılaşır, yeni yarımstansiyalar tikilir, elektrik xətləri çəkilir. Meliorasiya məsələləri öz həllini tapır. İlin əvvəlində qarşıya məqsəd qoyulmuşdur ki, bu günə qədər suvarılmayan, yaxud da ki, suvarılması zəif olan 150 min hektar torpaqlarımızda bu il müasir suvarma sistemləri quraşdırılsın. Əminəm ki, biz bu rəqəmə ilin sonuna qədər çatacağıq. Mənə verilən məlumata görə, bu ilin əvvəlindən 50 min hektardan çox torpaqda meliorativ tədbirlər görülüb, suvarma suyu təmin edilibdir. Qalan 2 ay yarım ərzində bütün işlər başa çatmalıdır. İnfrastruktur layihələrimizin uğurlu icrası ümumi iqtisadi inkişafa, regionların inkişafına təkan verir. Əlbəttə, bu günə qədər həyata keçirə bilmədiyimiz infrastruktur layihələrini biz növbəti illərdə tam icra etməliyik.

Sosial infrastrukturla bağlı siyasətimiz uğurla aparılır. Bu ilin əvvəlindən 100-ə yaxın məktəb tikilib, təmir edilibdir. Bu

proses davam etdirilir. 27 tibb ocağı tikilib və təmir edilibdir. Digər sosial infrastruktur layihələri uğurla icra edilir.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il tarixi hadisə baş veribdir. Cocuq Mərcanlı kəndi bərpa edilibdir, indi orada yeni qəsəbə salınır, 50 evdən ibarət qəsəbənin açılışı olubdur, əlavə 100 evin tikintisi prosesi gedir. Məktəb, məscid tikilib, tibb mərkəzi tikilməkdədir. Orada iş yerləri ilə bağlı bir çox məsələlər öz həllini tapır. Cocuq Mərcanlı kəndinin yenidən qurulması, bərpası tarixi hadisədir.

Digər məsələlər, köçkünlərlə bağlı məsələlər də öz həllini tapır. Bakıda, Sumqayıtda, digər bölgələrdə tikinti işləri geniş vüsət alıb. Bu il minlərlə ailə yeni evlərlə, mənzillərlə təmin olunacaq, bu proses gələn il də davam etdiriləcəkdir. Hələ ki, ağır vəziyyətdə yaşayan köçkünlərimiz çoxdur. Dövlət əlindən gələni edir ki, bu məsələ tezliklə öz həllini tapsın. Bilirsiniz ki, 250 mindən çox məcburi köçkün dövlət tərəfindən mənzillərlə təmin edilibdir.

Bu il idman sahəsində uğurlarımız kifayət qədər çoxdur. Onların arasında İslam Həmrəyliyi oyunlarında qazandığımız uğurları qeyd etməliyəm. İslam Həmrəyliyi oyunlarının Bakıda keçirilməsi əslində böyük uğurumuzdur və bu oyunlar ən yüksək səviyyədə keçirildi. Azərbaycan komandası bu oyunların qalibi oldu, 1-ci yerə layiq görüldü. Bu, idmanımızın inkişafını bir daha göstərən çox ciddi amildir.

Bu il beynəlxalq arenada mövqelərimiz daha da möhkəmlənib. Bizim xarici əlaqələrimiz çoxşaxəlidir. Biz bütün ölkələrlə qarşılıqlı faydalı və bərabərhüquqlu münasibətlər qurmuşuq, buna nail olmuşuq. Bu gün Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli ölkə kimi tanınır. Xarici siyasətimiz də açıqdır, müstəqildir və bu da dünya birliyi tərəfindən böyük rəğbətlə qarşılanır.

Bu ilin 9 ayında mənim xarici ölkələrə 14 səfərim olubdur. Hələ ilin qalan hissəsində də səfərlər nəzərdə tutulur. Bu səfərlərin hər biri ölkəmiz üçün faydalı olubdur. Azərbaycan öz mövqeyini birbaşa xarici tərəfdaşlara çatdırır. Rəsmi səfərlərdə

və beynəlxalq tədbirlərdə etdiyim çıxışlar Azərbaycanın siyasətini əks etdirir, əldə etdiyimiz uğurları və Dağlıq Qarabağ problemini bir daha dünya ictimaiyyətinə çatdırır. Ölkəmizə isə bu il 10-dan çox dövlət və hökumət başçısı gəlibdir. İlin sonuna qədər yenə də səfərlər gözlənilir. Yəni bizim beynəlxalq əlaqələrimiz çoxşaxəlidir. Xarici siyasətimiz milli maraqlarımızı təmin edir və beynəlxalq arenada Azərbaycan, bir daha demək istəyirəm ki, böyük hörmətə və çox müsbət reputasiyaya malik olan ölkədir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqemiz dəyişməz olaraq qalır. Bu mövqe dünyanın ən ali tribunalarından açıq bəyan edilibdir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, biz bu torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Ölkəmizin ərazi bütövlüyü danışıqların predmeti deyil və heç vaxt olmayacaqdır. Biz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik və ərazi bütövlüyümüzün bərpası bizim əsas vəzifəmizdir.

Bilirsiniz ki, son vaxtlar danışıqlarda heç bir irəliləyiş yoxdur. Ermənistan çalışırdı və hesab edirdi ki, danışıqların pozulmasına nail olacaqdır. Yəni müxtəlif bəhanələrlə bizi ittiham etməklə çalışırdı ki, danışıqlar bərpa edilməsin və buna nail olmaq üçün bir neçə şərt qoymuşdu. Əlbəttə, mən qabaqcadan bəyan etmişdim ki, heç bir şərt qəbul edilməyəcəkdir. Onlar bu şərtləri irəli sürərkən, özlərini çox axmaq vəziyyətdə qoyurlar və məcbur olub bu siyasətdən əl çəkməli olacaqlar. Həyat və reallıq bir daha göstərdi ki, həmişə olduğu kimi, bizim təhlilimiz və siyasətimiz tam reallığı əks etdirir.

Bu gün danışıqlar prosesi heç bir şərt qəbul olunmadan bərpa edilir. Ermənistan növbəti dəfə özünü dünya ictimaiyyəti qarşısında biabır etdi və danışıqların bərpası bizə edilən hər hansı bir minnət deyildir. Onların isterik bəyanatları, başqa ölkələrə qorxu ilə dolu müraciətləri əslində açıq etirafdır ki, döyüşdə onların bizim qarşımızda duruş gətirməsi qeyri-mümkündür. Aprel hadisələri bunu göstərdi. Təmas xəttindəki vəziyyət onu göstərir ki,

bu gün biz təmas xəttində hakim mövqelərə tam sahibik. Əlbəttə, Ermənistan daha çox maraqlı olmalıdır ki, danışıqlar bərpa edilsin. Çünki əks təqdirdə onları çox acı nəticələr gözləyir. Məsələ ilə məşğul olan vasitəçilər çalışırlar ki, danışıqlar prosesi bərpa edilsin. Biz də, əlbəttə ki, bunu dəstəkləyirik. Ona görə bir daha demək istəyirəm ki, bu il də bu istiqamətdə real nəticə əldə olunmasa da, Ermənistan növbəti dəfə özünü dünya ictimaiyyəti qarşısında aciz, gücsüz, asılı ölkə kimi təqdim etmişdir.

Bu il neft-qaz sektorunda çox əlamətdar hadisələr baş veribdir. Xüsusilə neft sektorunda «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun gələcəkdə işlənilməsi ilə bağlı yeni müqavilə imzalanıbdır. Müqavilənin müddəti 2050-ci ilə qədər uzadıldı. Bu müqavilə bizim üçün daha da yaxşı şərtlərlə təmin edildi. Baxmayaraq ki, «Əsrin müqaviləsi» də Azərbaycana çox böyük faydalar gətirdi. O vaxt üçün mümkün qədər ən gözəl şərtlər təmin edilmişdir. Ancaq indiki şərtlər bizim üçün daha əlverişli, daha da yaxşıdır. Bu şərtlərin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın iştirak payı 11 faizdən 25 faizə qaldırılır. Mənfəət neftinin 75 faizi Azərbaycan tərəfinə veriləcəkdir. Dövlət Neft Şirkəti yeni müqavilənin podratçısı kimi iştirak edəcək və ölkəmizə xarici neft şirkətləri tərəfindən 3,6 milyard dollar bonus ödəniləcəkdir. Bu çox gözəl şərtlərdir və «Əsrin müqaviləsi»nin uzadılması, yeni müqavilənin imzalanması tarixi hadisədir.

Digər nəhəng layihə «Cənub Qaz Dəhlizi» layihəsidir. Bu istiqamətdə də işlər yaxşı gedir. «Şahdəniz-2» layihəsinin icrası 96 faiz səviyyəsindədir. «Cənubi Qafqaz» kəməri, hansı ki, qazımızı Gürcüstana qədər çatdırır, 98 faiz səviyyəsində, TANAP layihəsi 82 faiz, TAP layihəsi isə 53 faiz səviyyəsində icra edilibdir. Bu rəqəmlər əslində göstərir ki, müqavilənin uğurlu icrası təmin edilir.

Digər vacib olan sahələrdə də yaxşı nəticələr vardır. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi, demək olar ki, başa çatıb. Yaxın vaxtlarda bu yolun rəsmi açılışı nəzərdə tutulur. Bu da tarixi layihədir. Yəni Azərbaycanın iştirak etdiyi və bir çox hallarda təşəbbüskarı olduğu layihələr qlobal xarakter daşıyır. Onların əsas

məqsədi və mahiyyəti ondan ibarətdir ki, bu layihələr, bu müqavilələr ölkəmizi gücləndirir. Azərbaycanın qüdrəti, iqtisadi potensialı, siyasi çəkisi, regional müstəvidə rolu artır və bu müqavilələr bizə böyük iqtisadi mənfəət, səmərə verir. Təsəvvür etmək mümkün deyil ki, əgər «Əsrin müqaviləsi» imzalanmasaydı, biz indi hansı vəsaitlə bütün bu abadlıq-quruculuq işlərini görə bilərdik. Düzdür, bu gün əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və biz əsas gücü bu istiqamətə yönəldirik. Ancaq onu da hamımız bilməliyik ki, əgər neft gəlirlərindən səmərəli şəkildə istifadə etməsəydik, Neft Fondunda böyük vəsaiti yığmasaydıq, infrastruktur layihələrinə və digər layihələrə yönəltməsəydik, əlbəttə, bizim indiki vəziyyətimiz kəskin şəkildə fərqlənə bilərdi.

Biz bütün bu işləri düşünülmüş şəkildə görmüşük, neftdən və qazdan gələn gəlirlər insan kapitalına yönəldilib, infrastruktur layihələrinin icrasına, özəl sektorun inkişafına istiqamətləndirilibdir. Eyni zamanda, bu layihələr ölkəmizin beynəlxalq arenadakı rolunu, çəkisini artırır. Bu gün bizim iştirakımız olmadan bu regionda heç bir layihə, hətta heç bir siyasi təşəbbüs reallaşa bilməz. Azərbaycan bu gün dünya miqyasında özünü güclü dövlət kimi təsdiqləyib. Əlbəttə, bu hamımızı çox sevindirir. Növbəti illərdə ölkəmizin qüdrəti daha da artacaqdır.

Bu il iqtisadi islahatlarla bağlı çox ciddi addımlar atılıbdır. «Strateji yol xəritələri»nin icrası təmin edilir. Düzdür, bəzi hallarda yubanmalara da yol verilir, ancaq bütövlükdə çox ciddi islahatlar olmuşdur. Sahibkarlığın inkişafı təmin edilir. İnvestisiya təşviqi mexanizmi tam işə düşübdür. 200-dən çox investisiya təşviqi sənədi verilibdir. Bu layihə, bu istiqamət çərçivəsində ölkəmizə özəl sektor tərəfindən 1,7 milyard manat həcmində investisiya qoyuluşu təmin ediləcəkdir. Yəni bir ciddi islahatın aparılması ilə biz 1,7 milyard manat özəl sektor sərmayəsini Azərbaycana cəlb etdik. Deməli, biz buna çoxdan keçməli idik. Biz əvvəlki dövrlərdə də investisiya təşviqi mexanizmi

haqqında danışmışdıq. Burada müəyyən əngəllər, müxtəlif fikirlər olmuşdur. Ancaq həyat göstərir ki, bu nə qədər düzgün addım idi.

İxracın təşviqi mexanizmi işə düşüb. Mən ixracla bağlı bəzi rəqəmləri sonra səsləndirəcəyəm. Bu mexanizm də çox ciddi təsir göstərmişdir. Ona görə bu il Azərbaycan tarixində ciddi iqtisadi islahatlar ili kimi qalacaqdır. Bu gün bölgələrdə, böyük şəhərlərdə, Bakıda quruculuq, abadlıq işləri geniş vüsət alıbdır. Sənaye istehsalı, kənd təsərrüfatının inkişafı, sənaye zonalarının yaradılması – bütün bunlar reallıqdır. Bizim siyasətimiz ictimaiyyət tərəfindən, sahibkarlar tərəfindən bəyənilir və dəstəklənir.

Əlbəttə ki, bizim iqtisadi sahədə uğurlarımızı göstərən, əks etdirən Davos Dünya İqtisadi Forumunun hesablamalarıdır. Azərbaycan bu il 2 pillə irəliləyərək, 37-ci yerdən 35-ci yerə qalxıb və öz reytinqini daha da yaxşılaşdırıbdır. Beləliklə, 140 ölkə arasında keçirilmiş bu təhlil, ölkələrin rəqabətqabliyyətliliyini əks etdirən bu hesabat göstərir ki, Azərbaycan dünya miqyasında iqtisadi cəhətdən 35 ən rəqabətqabliyyətli ölkə sırasındadır. Bu, böyük uğurumuzdur, tarixi nailiyyətdir. Onu da qeyd etməliyəm ki, biz MDB məkanında liderliyi saxlayırıq, qoruyuruq. Bu əslində bizim iqtisadi siyasətimizin uğurlarını dünyanın ən mötəbər iqtisadi forumu olan Davos Forumu tərəfindən qiymətləndirilməsi deməkdir.

Biz onsuz da bilirdik ki, düzgün yoldayıq. Bizim iqtisadi siyasətimiz real həyatda öz əksini tapır. Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, xalq–iqtidar birliyi iqtisadi sahədə də həm investisiyaların cəlb edilməsini, həm yerli investorların investisiyaları ölkəmizə həvəslə yatırmalarını təmin etmişdir. Həm xarici investorlar, həm də yerli sahibkarlar tərəfindən ölkəmizin gələcəyinə çox böyük inam vardır və bu inam əsaslıdır. Təsadüfi deyil ki, bu ilin 9 ayında ölkə iqtisadiyyatına 8,3 milyard dollar sərmayə qoyulubdur. Onun böyük hissəsi xarici sərmayədir.

İlin sonuna qədər qalan işlər də görüləcəkdir. Əminəm ki, gələn il daha da yaxşı iqtisadi göstəricilərimiz olacaqdır. Bu ilin göstəriciləri də çox müsbətdir. İlin 9 ayının yekunları göstərir ki, istər beynəlxalq sahədə, istər daxili siyasətlə, iqtisadi siyasətlə bağlı bütün istiqamətlər üzrə çox gözəl nəticələr vardır. Bu bir daha bizim düzgün yolda olmağımızı göstərir.

## YEKUN NİTQİ

İlin sonuna 3 aydan az vaxt qalır. Bu müddət ərzində Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapmalıdır. Bu il Dövlət İnvestisiya Proqramı lazımi səviyyədə təmin edilir, kifayət qədər vəsait nəzərdə tutulubdur. Nəzərdə tutulmuş bütün məsələlər ilin sonuna qədər öz həllini tapmalıdır.

Maliyyə məsələləri ilə bağlı heç bir problem yoxdur. Büdcə göstəriciləri yaxşıdır, tam icra edilir. Ona görə investisiya proqramının icrası, əlbəttə, təmin ediləcəkdir. Mən buna şübhə etmirəm.

Gələn ilin Dövlət İnvestisiya Proqramı ilə bağlı ilkin təkliflər gəlməkdədir. Gələn il kifayət qədər vəsait nəzərdə tutulmalıdır ki, həm infrastruktur layihələri, həm ölkə qarşısında duran əsas vəzifələr icra edilsin. Hesab edirəm ki, gələn ilin investisiya proqramı ilin sonuna qədər təsdiq edilə bilər. Gələn ilin büdcəsi bu ilin büdcəsindən daha böyük olmalıdır. Buna bütün imkanlar vardır. Yaxın zamanlarda bu məsələyə də baxılacaqdır.

Bildiyiniz kimi, sahibkarlığın inkişafı üçün bir çox işlər görülür. Onların arasında güzəştli kreditlərin verilməsi də vardır. Artıq uzun illərdir ki, bu proses davam edir. Hazırda sahibkarlara verilən güzəştli kreditlərin, demək olar ki, tam həcmi əvvəllər verilmiş və qaytarılmış kreditlər hesabına təşkil edilir. Bu il kifayət qədər böyük proqram nəzərdə tutulubdur. Mənə məruzə edilib ki, bu proqramın böyük hissəsi icra edilibdir.

Amma hələ də Sahibkarlığa Kömək Milli Fondunun sərəncamında kifayət qədər vəsait – bölüşdürülməmiş, yaxud da ki, bölüşdürülmüş, ancaq verilməmiş kreditlər vardır. Çalışmaq lazımdır ki, ilin sonuna qədər nəzərdə tutulmuş kreditləşmə tam həcmdə təmin edilsin.

Yol infrastrukturu ilə bağlı görülmüş işlər haqqında burada məruzədə göstərildi. Qeyd etməliyəm ki, ilin əvvəlində nəzərdə tutulmuş layihələrin hamısı təbii ki, icra ediləcəkdir. Bundan əlavə, il ərzində mənim bölgələrə səfərlərim çərçivəsində və yerlərdən gələn təkliflər nəticəsində yeni yol layihələri də icra edilməyə başlanılıb. Bunlar əsasən kənd və şəhərlərarası yollardır. Onların arasında əvvəlcədən nəzərdə tutulmamış, ancaq builki proqrama salınmış və indi icrası gedən Qax–Zaqatala–Balakən yolunu qeyd etməliyəm. Bu yolun əsaslı təmiri bu il nəzərdə tutulmamışdır. Ancaq bölgəyə səfərim zamanı bu məsələ qaldırıldı və göstəriş verildi. İndi bu layihə icra edilir. Cəlilabad–Yardımlı yolunun bir hissəsi əvvəlki dövrdə əsaslı təmir edilmişdi. Ancaq bu layihə yarımçıq qalmışdı. Cənub bölgəsinə səfərim zamanı bu məsələ də qaldırıldı və göstəriş verildi. Cəlilabad–Yardımlı yolunun tam istifadəyə verilməsi ilə bağlı bütün lazımi tədbirlər görülübdür. Bu, Yardımlıya Bakıdan və digər bölgələrdən ən qısa yol olacaq və bir çox kəndləri birləşdirəcəkdir.

Bizim gözəl turizm məkanımız olan Göygölə gedən yol artıq uzun illərdir ki, təmirsiz qalmışdı. Biz indi Göygölü turizm mərkəzinə çevirərək, oraya böyük turist axınına nail olmuşuq. Əlbəttə, oraya gedən yol yüksək səviyyədə təmir edilməlidir. Bu göstəriş artıq verilibdir.

Bu yaxınlarda Şamaxı rayonunda olarkən, Şamaxını Lahıcla birləşdirən yol haqqında məsələ də öz həllini tapdı. Bu yolun bir hissəsi istifadəyə verilib, qalan hissə isə bu il və gələn il istifadəyə veriləcəkdir. Lahıc nadir yaşayış mərkəzidir. Oraya hər il on minlərlə turist gəlir. İndi Lahıca həm alternativ, həm

də ən qısa yol Şamaxı–Dəmirçi–Lahıc yolu olacaqdır. Bu da bir neçə kəndi birləşdirən yoldur.

Biz proqramı tərtib edirik, vəsait ayırırıq. Ancaq il ərzində yeni təkliflər gəlir və bu təkliflər həmişə təmin edilir. Bizim əsas fəaliyyət istiqamətimiz ondan ibarətdir ki, Azərbaycan xalqının maraqları təmin edilsin, xalqı narahat edən məsələlər öz həllini tezliklə tapsın. Çalışmalıyıq ki, gələn ilin kənd yolları proqramının tərtibində və təşkilində bütün yerlərdən gələn təkliflər nəzərə alınsın. Mənə artıq ilkin məruzə edilibdir. Biz gələn il bu ilə nisbətən daha çox kəndi yeni yollarla təmin edəcəyik. Baxmayaraq ki, bu il də yüzlərlə kəndə yol salınıb. Bu proses hələ neçə il bundan sonra da davam etməlidir, o vaxta qədər ki, bir dənə də təmirsiz və yaxşı vəziyyətdə olmayan kənd yolu qalmasın.

Mən giriş sözümdə qeyd etdim ki, infrastruktur layihələri arasında meliorasiya məsələləri indi ön plandadır. Bu layihələrin icrası artıq öz səmərəsini verib. Bu il nəzərdə tutulub ki, 150 min hektar yeni sahəyə suyun verilməsi təmin edilsin və biz bu hədəfə çatmalıyıq. Gələn il isə ən azı bu günə qədər suvarılmayan, yaxud da suvarılması lazımi səviyyədə olmayan 100 min hektar sahəyə yeni kanallar çəkilməlidir ki, bu proses daha da sürətlə getsin. Beləliklə, suvarılan torpaqların həcmi hər il artacaqdır. Bu da təbii ki, özlüyündə kənd təsərrüfatının sürətli inkişafını təmin edəcəkdir. Çünki bu gündən sonra – əslində bu məqsəd, bu vəzifə əvvəlki dövrlərdə də qarşıya qoyulmuşdur – kənd təsərrüfatının intensiv inkişafı təmin edilməlidir.

Bizim torpaq fondumuz məhduddur. Kənd təsərrüfatının sürətli inkişafı ancaq intensiv metodlardan asılı olacaqdır. Onların arasında aqrotexniki tədbirlər, laboratoriyaların qurulması, torpağın düzgün təhlili – bütün bu məsələlər Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təmin edilir – və suvarma məsələləridir. Ona görə meliorativ tədbirlər həm növbəti ilin Dövlət İnvestisiya Proqramında, həm ondan sonrakı illərdə daim prioritet olmalıdır.

Onu da qeyd etməliyəm ki, bu il yerlərdən gələn təkliflər nəticəsində bir neçə önəmli layihənin icrasına başlanılıb. Şəmkirçay su anbarından kanalın Goranboy rayonuna qədər uzadılması, Neftçala su kanalının tikintisinin davam etdirilməsi və digər layihələr on minlərlə hektar yeni torpaq sahəsinə suyun verilməsini təmin edəcəkdir. Taxtakörpü su anbarının mövcudluğu və yeni kanalların çəkilməsi Xızı, Siyəzən, Şabran rayonlarındakı böyük torpaq sahələrinə suyun verilməsini təmin edəcəkdir.

Bu il kənd təsərrüfatı ilə bağlı bir çox önəmli tədbirlər həyata keçirilibdir. Mənim sədrliyimlə müxtəlif sahələr üzrə müşavirələr keçirilib, pambıqçılıq, baramaçılıq, tütünçülük, fındıqçılıq, çəltikçilik, sitrusçuluq, çayçılıq – bütün bu məsələlər çox geniş müzakirə edilibdir. Dövlət proqramları hazırlanıb, təsdiq olunub və bütün hədəflər müəyyən edilibdir. Bu proqramlar çox konkret xarakter daşıyır. Orada həm icra mexanizmləri, həm maliyyə vəsaiti nəzərdə tutulur. Gələn ilin dövlət büdcəsində bu proqramların reallaşması nəzərdə tutulmalıdır.

Bir daha demək istəyirəm ki, müşavirələrdə bütün rəqəmlər qeyd edildi, qarşıya hədəflər qoyuldu. Həmin rəqəmləri və hədəfləri təkrar etmək istəmirəm. Əsas odur ki, bu proqramların çox operativ icra mexanizmləri və maliyyə resursları təmin edilməlidir.

Hesab edirəm ki, bu il kənd təsərrüfatı texnikasının alınması ilə bağlı rekord il olubdur. Bu il artıq 8000 texnika gətirilib. Biz bu il 10 min texnika gətirməli idik. Yəqin ki, qalan texnika da ilin sonuna qədər gətiriləcəkdir. Deməliyəm ki, mən indi bölgələrdə olarkən texnika ilə bağlı heç bir şikayət, yaxud da əlavə təklif yoxdur. Biz, demək olar ki, bu məsələni də həll etmişik. Bəzi kənd təsərrüfatı sahələrinin inkişafı üçün xüsusi texnikanın alınması davam etdirilməlidir və biz bunu edəcəyik. Amma prinsipcə hesab edirəm ki, biz bu problemi də köklü şəkildə həll etmişik.

Heyvandarlığın sürətli inkişafı da prioritetlərdən biridir. Bu il bu istiqamətdə çox işlər görülüb və gələn il də görüləcəkdir. Göygöl rayonunda Süni Mayalanma Mərkəzinin yaradılması bu sahədə dünyanın ən mütərəqqi təcrübəsini Azərbaycana gətirməyi təmin edir. Yerli cinslərin sağlamlaşdırılması, yaxşılaşdırılması, cins mal-qaranın alınması məsələnin həllini kompleks şəkildə təmin edəcək və əminəm ki, biz bir neçə ildən sonra südçülük və ətçilik sahəsində daha da böyük uğurlara nail ola biləcəyik. Azərbaycanda yeni süd zavodları yaradılmalıdır. Çünki bu sahədə bu qədər ki, inkişaf gözlənilir, mövcud istehsal gücü bizi qane etməyəcəkdir.

Bölgələrdə logistika mərkəzlərinin tikintisinə başlanılıbdır. Biz əslində artıq neçə ildir ki, soyuducu anbarlar, taxıl anbarları, logistika ilə bağlı digər məsələləri uğurla həll edirik. Demək olar ki, bütün bölgələrdə bu məsələlər öz həllini tapıb. İndi vaxt gəlib ki, böyük ixraca hesablanmış logistika mərkəzlərinin yaradılması təmin edilsin. Çünki biz əvvəlki dövrlərdə bu işləri daha çox məhsulun xarab olmaması, saxlanılması və daxili tələbatın təmin edilməsi üçün görürdük. Ancaq bizim ixrac imkanlarımız artacaq – indi mən bu barədə də danışacağam – və belə olan halda, mütləq böyük logistika mərkəzləri tikilməlidir. Onlardan birini mən Şəmkir rayonunda olarkən görmüşəm. Əslində o Logistika Mərkəzinin təməlini də mən qoymuşam. İndi deyə bilərəm ki, bu bölgədə ən böyük Logistika Mərkəzi yaradılıbdır. Hesab edirəm ki, bundan sonra bizə ən azı 3 böyük Logistika Mərkəzi lazımdır – Mərkəzi Aran, şimal və cənub zonalarında. Mən sahibkarları da bu işlərə dəvət edirəm. Dövlət öz dəstəyini verəcək, kreditlər ayıracaq, bütün lazımi infrastruktur təşkil ediləcəkdir. Çünki bu bizim böyük ixrac potensialımızın inkişafı üçün mütləq lazım olacaqdır.

İstixanaların salınması Azərbaycanda çox geniş vüsət alıb. Çox şadam ki, mənim çağırışım və tövsiyələrim reallaşır. Mənə bu yaxınlarda verilən məlumata görə, biz bu təşəbbüsü irəli sürəndən sonra 400 hektardan çox sahədə yeni, müasir istixana

kompleksləri yaradılır. Onların bir hissəsi istifadəyə verilib, böyük hissəsi isə hələ yaradılmaqdadır. İndi təsəvvür edin, məhsuldarlıq yüksək olan 400 hektarda yeni istixanalar yaradılır. Bu istixanaların böyük hissəsi ixraca hesablanıb və beləliklə, bizim ixracımız daha da artacaqdır. Böyük logistika mərkəzlərinin yaradılması da bu potensiala uyğun şəkildə nəzərdə tutulmalıdır.

Ölkəmizdə 38 aqroparkın yaradılması prosesi gedir. Onlardan ikisi artıq fəaliyyət göstərir. Qalan aqroparklarda işlər gedir. Bu işlər tam nəzarət altındadır, mənə müntəzəm olaraq məlumat verilir. Hesab edirəm ki, bu aqroparkların uğurlu fəaliyyəti bizim bütün sahibkarların diqqətini cəlb edəcəkdir. Bu həm sahibkarlar, həm dövlət, həm də bizim valyuta ehtiyatlarımızın artırılması üçün çox gəlirli sahədir.

Sənaye zonalarının yaradılması artıq reallaşır. Mən bu barədə bir neçə il bundan əvvəlki müşavirələrdə də demişdim ki, hər rayonda müasir sənaye zonaları yaradılmalıdır. Biz artıq buna nail oluruq. Bu yaxınlarda Neftçala Sənaye Məhəlləsinin açılışı oldu. Balaxanıda, Masallıda sənaye zonaları yaradılır. Mingəçevirdə böyük tekstil yönümlü Yüngül Sənaye Zonası, Hacıqabul rayonunda sənaye məhəlləsi yaradılır.

İqtisadiyyat Nazirliyinə göstəriş verilibdir ki, gələn il də bir neçə rayonda sənaye zonalarının yaradılması ilə bağlı praktiki işlər başlanılsın. Neftçala rayonunda və digər rayonlarda olduğu kimi, burada da dövlət əsas yükü öz üzərinə götürəcəkdir. Bütün infrastruktur, bütün tikililər – anbarların, istehsalat sahələrinin binaları dövlət tərəfindən inşa ediləcəkdir. Qoy sahibkarlar təkliflər versinlər, bazarın düzgün monitorinqini aparsınlar. Xüsusilə o sahələrə üstünlük verilməlidir ki, biz o sahələrdə hələ idxaldan asılıyıq. Yəni birinci növbədə, idxal təhlil edilməli və idxalı əvəzləyən məhsulların istehsalı ilə bağlı təkliflər verilməlidir. Bununla bərabər, ixrac potensialı olan istehsalın yaradılması da diqqət mərkəzində olmalıdır. Yəni daxili tələbat və ixrac sənaye zonalarının əsas meyarları

olmalıdır. Ona görə ixrac bazarları da düzgün təhlil edilməlidir ki, biz hansı məhsulla hansı bazara çıxa bilərik. Elə olmasın ki, belə zonalar yaradılsın, orada məhsul istehsal olunsun, sonra da onu sata bilməsinlər. Sahibkarlar da bu işlərdə çox fəal iştirak etməlidirlər – həm bölgələrdə, həm də Bakıda yaşayan sahibkarlar. Bu zonaların çox böyük potensialı vardır. Çünki bizim – mən bu barədə dəfələrlə demişəm – bir neçə ənənəvi sənaye mərkəzimiz vardır – Bakı, Sumqayıt, Gəncə, indi Mingəçevir şəhəri və digər bölgələr. Hesab edirəm ki, əksər rayonlarda sənaye zonalarının yaradılması yaxşı nəticə verəcəkdir.

Təqribən 1 il, bəlkə də bundan bir qədər əvvəl xalçaçılığın inkişafı istiqamətində çox ciddi addımlar atılmağa başlanmışdır. Bu il 10 Xalça fabrikinin istifadəyə verilməsi nəzərdə tutulur. Onlardan 2-si mənim iştirakımla açılıb, 8-i ilin sonuna qədər açılmalıdır. İndi verilən təkliflərə baxılır, gələn il də bölgələrdə təqribən 10-a yaxın fabrik açılacaqdır. Bu çox müsbət irəliləyişdir. Xalçaçılıq bizim milli sənətimizdir, eyni zamanda, xarici bazarlara çıxışı olan məhsuldur, ölkəmizə valyuta gətirən sahədir, işsizliyi, xüsusilə qadınlar arasında işsizliyi aradan qaldıran sahədir. Xalçaçılığın çox böyük potensialı vardır. Dövlət vəsait ayırıb, bütün bu fabriklər dövlət hesabına tikilir, həm dəzgahlar, həm də bütün digər avadanlıqlar dövlət vəsaiti hesabına alınır. Biz bütün istehsal zəncirini ardıcıllıqla yaratmalıyıq. Ona görə göstəriş verilib, bu il və gələn il müxtəlif bölgələrdə yun qəbulu məntəqələri açılacaqdır. Bu məsələ təhlil edildi və aydın oldu ki, burada da xaotik bir vəziyyət yaranıbdır. Bizim cəmi 1 və ya 2 yerdə yun qəbulu məntəqəmiz vardır. Onlar da elə vəziyyətdədir ki, heç olmasaydı, bəlkə bundan yaxşı idi. Ona görə yeni, müasir məntəqələr yaradılacaqdır. Rayonlar müəyyən edilib, vəsait nəzərdə tutulub – bu, birinci məsələ. İkincisi, Sumqayıt şəhərində Əyirici-Boya fabrikinin tikintisi nəzərdə tutulur. Bu məqsəd üçün də vəsait ayrılıb. Ümid edirəm, gələn il fabrikin açılışı olacaq ki, biz həm boyadan, həm də iplikdən xarici asılılığa son qoyaq. Biz bundan

sonra xarici bazarlara çıxışı təmin etməliyik. Bunun üçün yəqin ki, sərgilərdə, beynəlxalq tədbirlərdə daha fəal iştirak etməliyik. Həmçinin reklam xarakterli tədbirlər də görülməlidir ki, Azərbaycan öz milli sənətini dünyaya təqdim etsin.

Tikinti sektorunda da canlanma gedir. Bu, tikinti materialları sektoruna da müsbət təsir göstərir. Gələn il bu sahədə işlər daha da sürətlə gedəcəkdir. Hazırda Bakı şəhərində  95 yaşayış binası tikilir. Bu binaların özəlliyi ondan ibarətdir ki, onlar yararsız, qəzalı vəziyyətdə olan binaların, bəzi hallarda daxmaların yerində tikiləcəkdir. Orada yaşayan vətəndaşlara kompensasiya ödənilir, yaxud da ki, kirayə pulu verilir. Sonra onlar daha da böyük mənzillərlə təmin ediləcəklər. Artıq 1 layihə icra edilib. Orada əvvəllər yaşamış və bu gün yaşayan sakinlər çox razıdırlar. Onlara təmirli, müasir və daha böyük həcmli mənzillər verilibdir.

Bu həm sosial, həm də iqtisadi layihədir. Bunun tikinti sektoruna çox böyük təsiri vardır. MİDA-nın – Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə Yasamal rayonunda böyük şəhərcik tikilir. Gələn ilin dövlət büdcəsində vəsait nəzərdə tutulmalıdır ki, həm bu layihə davam etdirilsin, həm də Hövsan qəsəbəsində MİDA-nın yeni layihəsi icra olunsun.

«ASAN xidmət» mərkəzlərinin tikintisi davam etdirilir. Yaxın aylarda Mingəçevir və Quba şəhərlərində yeni mərkəzlər açılacaqdır. Şəki və İmişli şəhərlərində isə gələn il yeni mərkəzlərin açılması nəzərdə tutulur. Mən hesab edirəm ki, gələn il əlavə bir neçə şəhərdə «ASAN xidmət» mərkəzlərinin tikintisi başlanılmalıdır. Çünki bu layihənin çox böyük səmərəsi var, xalq tərəfindən yüksək qiymətləndirilir, bəyənmə əmsalı 100 faizə yaxındır. Ona görə biz çalışmalıyıq ki, bütün bölgələrdə – indi biz buna yaxınlaşırıq – bundan sonra hər bir yerdə «ASAN xidmət» fəaliyyət göstərsin.

«ASAN» öz funksiyalarını genişləndirir. İndi kommunal xidmətlər göstərilir. ABAD mərkəzləri yaradılır. Mən Masallıda, Balakəndə olarkən artıq orada kəndli-fermerlərin məhsulları

ilə də tanış oldum. Bunun çox böyük faydası vardır. ABAD mərkəzlərin yaradılması özünüməşğulluq proqramının icrasına da böyük dəstək olacaq. Özünüməşğulluq proqramına gəldikdə, mən əvvəlki müşavirələrdə bu barədə göstərişlər vermişəm. İndi qanunvericilikdə də lazımi düzəlişlər edilibdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kifayət qədər böyük vəsaiti yaranacaq və bu vəsait də özünüməşğulluq proqramının icrasına yönəldiləcəkdir. İlkin məlumat müsbətdir. Bu məsələ yerlərdə çox böyük həvəslə qarşılanır. Dövlət ağır vəziyyətdə yaşayanlar üçün öz hesabına pulsuz imkan yaradır, vəsait verir ki, onlar bundan sonra öz dolanışıqlarını lazımi səviyyədə təmin etsinlər.

Turizmin inkişafı növbəti reallıqdır. Son 1-2 il ərzində bu sahədə sürətli inkişafı görürük. Yerlərdəki turizm mərkəzlərində mənə deyirlər ki, xüsusilə yay aylarında və əsas turist mövsümündə hotellərdə yer olmur. Ona görə yeni hotellərin tikintisi mütləq təmin edilməlidir. Yerli icra orqanları şərait yaratmalıdır, yerlər ayırmalıdır və özəl sektor bu sahəyə fəal investisiya qoymalıdır.

«Strateji yol xəritələri»nin icrası ilə bağlı monitorinq aparılır. Monitorinqin nəticələri mənə məruzə edildi. Monitorinq göstərir ki, bəzi hallarda nəzərdə tutulan tədbirlərin icrası gecikir. Buna yol vermək olmaz. Bütün dövlət qurumları qarşısında vəzifə qoyulubdur. Hər bir dövlət qurumu bilir nə etməlidir. Amma bəzi qurumlarda «Strateji yol xəritələri»nin icrası 50 faizdir, 70 faizdir, bəzi qurumlarda isə 10 faizdir, 15 faizdir. Bunun izahatı tələb olunmalıdır. Mən göstəriş verirəm ki, gecikməyə yol verən qurumlar tezliklə işlərində dönüş yaratsınlar. Bütövlükdə «Strateji yol xəritələri»nin qəbulu və elan edilməsi çox ciddi islahatdır – 164 prioritet və 683 tədbir nəzərdə tutulubdur. Onların hamısı 2020-ci ilə qədər öz həllini tapmalıdır. Bu məsələ ilə bağlı monitorinqin nəticələri təhlil olunmalı və burada qüsurlara yol verən qurumlar tezliklə düzəlişlər etməlidir. Mənə mütəmadi olaraq məlumat

veriləcəkdir. Yubanma aradan qaldırılmalıdır. Aidiyyəti dövlət qurumları nəticə çıxarsınlar.

İndi isə mən bu il qeyri-neft ixracımızla bağlı bəzi rəqəmləri səsləndirmək istəyirəm ki, Azərbaycan ictimaiyyəti bilsin, bizim işimiz necə gözəl nəticə verir. Bu rəqəmlər 8 ayı əks etdirir. 9 ayın rəqəmləri yəqin ki, bir qədər sonra məlum olacaqdır. Yəni indi 8 ayın göstəriciləri Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırılacaqdır.

Deməli, ixracımız hansı səviyyədə artıb? Tərəvəz ixracı 68 faiz, o cümlədən pomidor 60 faiz. Bu gün qeyri-neft sektorunun ən çox gəlir gətirən sahəsi pomidor ixracıdır. 8 ayda bu, ölkəyə 128 milyon dollar gətirib və 59 faiz artım vardır. Kartof 63 faiz, salat tərəvəzi 20 faiz, soğan ixracı 15 dəfə artıbdır. Pambıq 2,4 dəfə, o cümlədən pambıq lifi 8,4 dəfə, meyvə ixracı bütövlükdə 12 faiz artıbdır. Ancaq alma və şaftalı üzrə artım 2 dəfədən çox olub. Süd məhsullarının ixracı 4 dəfə artıb. Spirtli və spirtsiz içkilər 28 faiz, onun içərisində şərab 56 faiz artıb. Meyvə-tərəvəz emalı məhsulları 50 faiz, tütün məmulatları 45 faiz, çay 63 faiz, bitki və heyvan mənşəli yağlar 19 faiz, şokolad 65 faiz artıb.

Sənaye məhsulları – qızıl 56 faiz, elektrik enerjisi 4,1 dəfə, alüminium 28 faiz, kimya sənayesi məhsulları 25 faiz, plastiklər 14 faiz, mis-filiz konsentratları 94 faiz, avadanlıqlar, mexaniki qurğular 48 faiz, mis və ondan hazırlanan məmulatlar 54 faiz, toxuculuq məmulatları 92 faiz, elektrik avadanlıqları və hissələri 75 faiz, daş, gips, sement 34 dəfə artıb.

Bu rəqəmlər ən yaxşı göstəricidir. Onlar göstərir ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı bizim bütün vəzifələrimiz uğurla icra edilir. Mən əvvəlki dövrlərdə də qeyd etmişdim ki, bizim əsas prioritetimiz qeyri-neft sektorunun inkişafıdır. Ondan sonrakı dövrlərdə qarşıya daha çox məsələ qoyulur ki, biz qeyri-neft ixracının artımına nail olaq və buna da nail oluruq. Çünki budur bizim inkişaf perspektivlərimiz. Qeyri-neft sektorunun ixracı bizə böyük həcmdə valyuta gətirir. Bu hələ

işimizin birinci mərhələsidir. İndi aqroparklar, istixanalar, heyvandarlığın inkişafı, sənayeləşmə siyasətimiz bundan sonra daha da böyük nəticələr verəcəkdir. Mən deyəndə ki, ölkəmizin gələcək inkişafı ilə bağlı çox nikbin fikirlərim var, bax, buna əsaslanıram.

Ölkəmizin ictimai-siyasi vəziyyəti də bir çox ölkələr üçün nümunə ola bilər. Xalq–iqtidar birliyi həmişə olduğu kimi, möhkəmdir. İqtisadi göstəricilər – bu gün müşavirədə bu göstəricilər səsləndirildi – hər bir ölkə üçün nümunə ola bilər. Perspektivlərimiz bunlardır: sənayenin, kənd təsərrüfatının inkişafı, infrastruktur, Bakı–Tbilisi–Qars dəmir yolu, «Cənub Qaz Dəhlizi» layihələrinin icrası, «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun işlənilməsi. Bunlar yalnız sadaladığım əsas istiqamətlərdir.

Əminəm ki, nəinki bu ilin sonuna qədər, bundan sonrakı illərdə də ölkəmiz uğurla inkişaf edəcək, Azərbaycan həmişə zirvələrdə olacaqdır. Sağ olun.

## RUSİYA FEDERASİYASININ SOÇİ ŞƏHƏRİNƏ SƏFƏR

*11 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Rusiya Federasiyasının Soçi şəhərinə səfərə gəlmişdir.*

*Soçi Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Krasnodar vilayətinin qubernatoru Veniamin Kondratyev, Soçi şəhərinin meri Anatoli Paxomov və digər rəsmi şəxslər qarşıladılar.*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ MƏHDUD TƏRKİBDƏ İCLASINDA İŞTİRAK

*Soçi*

*11 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Rusiya Federasiyasının Soçi şəhərində keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirak etmişdir.*

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycan və Rusiya prezidentləri birgə foto çəkdirdilər.*

*Dövlət başçıları birgə foto çəkdirdikdən sonra iclas öz işinə başladı. İclasın gündəliyinin kifayət qədər zəngin olduğunu deyən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bildirdi ki, burada MDB çərçivəsində qarşılıqlı əlaqələrin gələcəkdə möhkəmləndirilməsi yolları müzakirə olunacaqdır. Rusiya Prezidenti vurğuladı ki, iclasda əsas diqqət ənənəvi olaraq iqtisadi, ticari və investisiya qoyuluşu sahələrində, həmçinin humanitar sahədə əlaqələrin inkişafına yönələcəkdir. Prezident Vladimir Putin qarşılıqlı maraqlara əsaslanan yeni iri layihələrin həyata keçirilməsi üçün bütün imkanların mövcud olduğunu vurğuladı, görüşün mədəniyyət, təhsil, elm, turizm sahələrində təcrübə mübadiləsinin genişləndirilməsinə təkan verəcəyinə əminliyini ifadə etdi.*

*Sonra MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev qeyd etdi ki, iclasın gündəliyi 16 məsələdən ibarətdir. Təqdim olunan sənədlərin layihələri ekspertlər tərəfindən araşdırılıb, ölkələrin nümayəndələri ilə razılaşdırılıbdır. İqtisadi*

*sahəyə aid sənədlər isə MDB İqtisadiyyat Şurası tərəfindən təsdiq olunubdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Yenidən Rusiyada, Soçidə olmağıma şadam. Əvvəlcə demək istərdim ki, Azərbaycan ənənəvi olaraq MDB-nin işində iştirak etməyə çox böyük əhəmiyyət verir, bu təşkilatın fəal üzvüdür və əmindir ki, MDB-nin böyük gələcəyi vardır. Bu məkan bizə müntəzəm surətdə fikir mübadiləsi aparmaq imkanı verir.

Mən çıxışımda əsasən humanitar xarakterli məsələlərə toxunmaq istərdim. Azərbaycan beynəlxalq humanitar əməkdaşlıqda mühüm rol oynayır. Bizim ölkədə müntəzəm surətdə beynəlxalq xarakterli mühüm tədbirlər keçirilir. Onların arasında Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında keçirilən və artıq ənənə halı almış Bakı Beynəlxalq Humanitar Forumunu xüsusi qeyd etmək istərdim. Deyə bilərəm ki, bu forum müəyyən mənada nadir, əsasən humanitar əməkdaşlıq, konfessiyalararası dialoq, sivilizasiyaların dialoqu ilə bağlı məsələlərə diqqət yetirən tədbirə çevrilib. Azərbaycanda həm də mütəmadi olaraq Mədəniyyətlərarası Dialoq üzrə Beynəlxalq Forum keçirilir. Bu forumun gündəliyi də Bakı Humanitar Forumunun gündəliyi ilə təxminən eynidir. Beləliklə, Azərbaycan hər il bu mövzularda diskussiyalar üçün məkana çevrilir. Düşünürəm ki, multikulturalizm, konfessiyalararası dialoq ilə bağlı məsələlər üzərində diqqətin cəmləşdirilməsinə yönəlmiş səylərin birləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Həmçinin ötən il Bakıda BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilib. Beləliklə, bizim ölkəmiz humanitar xarakterli məsələlərin müzakirəsi üzrə dünya mərkəzlərindən biri kimi, artıq özünü tanıdıbdır. Bizim indiyə qədər keçirdiyimiz və keçirməkdə olduğumuz idman tədbirlərini, xüsusən 2015-ci ildə birinci Avropa oyunlarını və bu il IV

İslam Həmrəyliyi oyunlarını da bu məsələlərə aid etmək olar. İştirakçı ölkələrin ümumi sayı 100-dən çox idi. Bu oyunlar həm də mədəniyyətlərarası, konfessiyalararası dialoqun yaxşı formatı oldu. 2 il ərzində eyni şəhərdə həm Avropa oyunlarının, həm də İslam Həmrəyliyi oyunlarının keçirilməsi bizim iradəmizi, mədəniyyətlərarası və dinlərarası dialoqa Azərbaycanın töhfəsini bir daha təsdiq edir.

Turizm ilə bağlı məsələlər, xüsusən müəyyən dərəcədə valyuta mədaxilləri azalmış ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir. Bunlar neft-qaz resurslarına malik olan ölkələrdir. Mən deyərdim ki, turizm ixracın vacib istiqamətidir və burada, bizim bu məkanda turizmin inkişafı, müəyyən birgə turizm marşrutları məsələlərinin müzakirəsi də çox böyük əhəmiyyət kəsb edir.

Qeyd etmək istədiyim sonuncu mövzu təhlükəsizliyin möhkəmləndirilməsi məsələləri ilə bağlıdır. Biz şadıq ki, Azərbaycan bu istiqamətdə də risklərin azaldılması üçün imkan yaradır. Xüsusi qeyd etmək istərdim ki, Rusiya və ABŞ ordularının Baş Qərargah rəislərinin birinci görüşü Bakıda keçirilib. Biz şadıq ki, bu görüşün keçirilməsi üçün bizim ölkəmiz seçilib. Biz məkan təqdim etdik, hesab edirəm ki, belə bir görüşün Azərbaycanda keçirilməsi faktının özü, əlbəttə, bizi sevindirir və həm də risklərin azaldılması məsələsində Azərbaycanın oynadığı rolu göstərir. Rusiyanın Baş Qərargah rəisinin və NATO-nun hərbi komandanlığının birinci görüşü də Bakıda keçirilib. Biz gələcəkdə də təhlükəsizliyin möhkəmləndirilməsi və risklərin azaldılması işinə töhfəmizi verməyə hazırıq.

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ GENİŞ TƏRKİBDƏ İCLASINDA İŞTİRAK

*Soçi*

*11 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Rusiya Federasiyasının Soçi şəhərində keçirilən MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclasında iştirak etmişdir.*

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putin məhdud tərkibdə görüşdə qarşılıqlı fəaliyyət və əməkdaşlıqla bağlı ətraflı müzakirələrin aparıldığını dedi. Rusiya dövlətinin başçısı gələn il yanvarın 1-dən quruma sədrliyin Tacikistana keçəcəyini bildirdi.*

*Tacikistan prezidenti Emoməli Rəhmon qeyd etdi ki, əldə olunmuş nəticələrin möhkəmləndirilməsi ölkəsinin MDB-yə sədrliyi dövründə prioritet məsələ kimi qalacaqdır. Tacikistan Prezidenti iqtisadi, energetika, alternativ enerji, yüklərin tranziti, logistika, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyinin təmini məsələlərinə diqqət yetiriləcəyini vurğuladı, humanitar, turizm, innovasiya, ətraf mühitin mühafizəsi, terrorizmin və mütəşəkkil cinayətkarlığın qarşısının alınması istiqamətində əlaqələrin genişləndiriləcəyini dedi.*

*MDB-nin beynəlxalq qurumlarla əlaqələrinə toxunan Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov siyasi sahədə əməkdaşlıqdan danışdı. Qeyd etdi ki, MDB ölkələri arasında qarşılıqlı etimadın artırılması olduqca vacib məsələlərdən biridir.*

*MDB Parlamentlərarası Assambleya Şurasının və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko Parlamentlərarası Assambleya Şurasının fəaliyyətindən danışdı, humanitar sahədə dinamik əməkdaşlığın inkişaf etdiyini vurğuladı.*

*Sonda çıxış edən Rusiya prezidenti Vladimir Putin siyasi dialoqun, təhlükəsizlik, iqtisadiyyat sahələrində əməkdaşlığın genişləndiyini bildirdi, bu ilin əvvəlindən qarşılıqlı ticarət dövriyyəsinin 25 faiz artdığını qeyd etdi.*

*Çıxışlardan sonra sənədlərin imzalanması mərasimi oldu. Ümumilikdə, qurumun fəaliyyəti ilə bağlı 18 sənəd imzalandı.*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ VƏ ALİ AVRASİYA İQTİSADİ ŞURASININ İCLASLARINDA İŞTİRAK EDƏN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*11 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Rusiyanın Soçi şəhərində MDB Dövlət Başçıları Şurasının və Ali Avrasiya İqtisadi Şurasının iclaslarında iştirak edən dövlət və hökumət başçılarının şərəfinə verilmiş naharda iştirak etmişdir.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərinə səfəri oktyabrın 11-də başa çatdı.*

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUMEN RADEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*13 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin oktyabrın 13-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Bolqarıstan Respublikası Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev və xanımı Desislava Radevanı qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Bolqarıstan Respublikasının Prezidentinə raport verdi.*

*Bolqarıstanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycanın və Bolqarıstanın dövlət və hökumət nümayəndələri prezidentlər və xanımları ilə görüşdülər.*

*Prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.*

## PREZİDENTLƏRİN VƏ XANIMLARININ BİRGƏ GÖRÜŞÜ

*13 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, xanımı Mehriban Əliyevanın və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin və xanımı Desislava Radevanın oktyabrın 13-də rəsmi qarşılanma mərasimindən sonra görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi, humanitar, energetika sahələrində və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bolqarıstan Prezidentinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu. Ölkələrimiz arasındakı əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*13 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin oktyabrın 13-də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Çox şadam ki, ölkəmizə səfərə gəlmisiniz. Nyu Yorkda BMT Baş Assambleyasının iclasında qısa görüşümüz oldu. Dəvəti qəbul edib Azərbaycana səfərə gəldiyinizə görə minnətdaram. Bu, ölkəmizə Sizin ilk səfərinizdir. Əminəm ki, səfər çox uğurlu olacaqdır.

Tərəfdaşlığımızın inkişaf etdirilməsi ilə bağlı bu gün artıq fikir mübadiləsi apardıq. Əminəm ki, bölüşdüyümüz ideyalar ölkələrimiz arasında daha geniş əməkdaşlığa yol açacaqdır. Siyasi və iqtisadi sahələrdə əməkdaşlığın səviyyəsindən məmnunuq. Əminəm ki, iqtisadi sahədəki potensialımız bu gün mövcud olan potensialdan daha üstündür. Belə yaxşı siyasi münasibətlərə malik olmaqla yanaşı, biz ticarət, investisiya və digər sahələrə də diqqət yetirməliyik. Nəticədə tərəfdaşlığımız daha da genişlənəcək və şaxələnmiş olacaqdır.

Bolqarıstan bizim üçün çox sıx tərəfdaşdır, dost ölkədir. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində də çox fəal əməkdaşlıq edirik. Səfəriniz bir daha göstərir ki, biz yaxın dostuq və əməkdaşlığımız uğurla davam edəcəkdir.

Sizə Azərbaycanda xoş səfər arzulayıram. Bir daha ölkəmizə xoş gəlmisiniz!

**R u m e n  R a d e v**: Cənab Prezident, əvvəlcə, icazə verin, dəvətə və gözəl ölkənizə səfər etmək imkanına görə nümayəndə heyətim adından Sizə təşəkkürümü bildirim.

Ölkələrimizin rəhbərliyi arasında müzakirələrin aparılması və dialoqun davam etdirilməsi üçün burada olmağımızdan məmnunuq. Hesab edirik, siyasi dialoqun intensivliyi göstərir ki, xalqlarımız və ölkələrimiz arasında çox yaxşı münasibətlər vardır. Bununla belə, Siz də qeyd etdiyiniz kimi, siyasi dialoqun səviyyəsi əməkdaşlığımızın bir çox digər sahələrdə inkişafı üçün yaxşı şərait yaradır. İndicə iqtisadi və enerji əməkdaşlığını, imkanlarını və potensialını müzakirə etdik. Biz «Cənub Qaz Dəhlizi»nə dəstək veririk. Azərbaycan Şərqi və Mərkəzi Avropada şaxələndirmə imkanlarının təmin edilməsində mühüm rol oynayır. Buna görə biz həmin layihəyə dəstəyimizi veririk. Daşımalar, nəqliyyat dəhlizinin yaradılması ilə bağlı çox böyük potensial vardır. Biz həmçinin ölkələrimiz üçün vacib olan Bakı ilə Sofiya arasında birbaşa uçuşları müzakirə etdik. Əgər həmin hava xəttini aça bilsək, bütün digər sahələrin inkişafına da töhfə vermiş olacağıq.

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUMEN RADEV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*13 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev oktyabrın 13-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

*Əvvəlcə prezident İlham Əliyev çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Mən çox şadam ki, Siz mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəlmisiniz. Səfərin çox böyük əhəmiyyəti var və əminəm ki, çox gözəl nəticələri də olacaqdır.

Bu gün həm təkbətək formatda, həm də nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş görüşlərdə biz Bolqarıstan–Azərbaycan əlaqələrinin müxtəlif aspektlərini geniş müzakirə etdik. Bir daha təsdiqlədik ki, Bolqarıstan və Azərbaycan dost, tərəfdaş ölkələrdir və bizim tərəfdaşlığımızın çox böyük əhəmiyyəti vardır. 2 il bundan əvvəl biz strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzaladıq və əslində bu Bəyannamənin adı özlüyündə bir göstəricidir. Bolqarıstan və Azərbaycan strateji tərəfdaşlardır. Siyasi əlaqələrimiz ən yüksək səviyyədədir və bu gün əsas müzakirə mövzusu iqtisadi, nəqliyyat, energetika, turizm və digər sahələrdə əməkdaşlığa əsaslanırdı.

Bu sahələrdə böyük perspektivlər ola bilər. Təbii ki, qarşılıqlı ticarət dövriyyəsinin həcmi bizi qane edə bilməz. Bugünkü görüşdə müvafiq göstərişlər verildi ki, aidiyyəti orqanlar ticarət dövriyyəsinin artması ilə bağlı konkret təkliflər təqdim etsinlər.

Bu gün mən Prezidentə məlumat verdim ki, onun səfəri ərəfəsində göstəriş verilib, AZAL – Azərbaycan Hava Yolları şirkəti Bakıdan Sofiyaya birbaşa təyyarə uçuşlarını təşkil edəcəkdir. İndi hazırlıq işləri gedir. Əminəm ki, bütün danışıqlar uğurla nəticələnəcək və tezliklə Bakıdan Sofiyaya, Sofiyadan Bakıya təyyarə reysləri açılacaqdır. Mən bunu da səfərin gözəl nəticəsi kimi qiymətləndirirəm.

Əlbəttə, bu gün biz energetika sahəsindəki əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Biz bu sahədə də strateji tərəfdaşıq. Bolqarıstan «Cənub Qaz Dəhlizi»nin üzvüdür. Bolqarıstan Bakıda bir neçə dəfə keçirilmiş «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının iclasında həmişə yüksək səviyyədə təmsil olunubdur və «Cənub Qaz Dəhlizi»nin icrası ölkələrimizi bir-birinə daha da yaxın edəcəkdir. Bu, nəhəng transmilli layihədir. «Cənub Qaz Dəhlizi»nin maliyyə tutumu 40 milyard dollara bərabərdir və bu layihə 7 ölkəni birləşdirir. Azərbaycanın nəhəng «Şahdəniz» yatağından qaz Avropa ölkələrinə, region ölkələrinə, o cümlədən Bolqarıstana çatdırılacaqdır. Əminəm ki, Azərbaycan qazı Bolqarıstanın enerji təhlükəsizliyi məsələlərinin həllində öz rolunu oynayacaqdır.

Bununla paralel olaraq, bu gün biz energetika sahəsində, xüsusilə qaz sahəsində növbəti əməkdaşlıq planları haqqında fikir mübadiləsi apardıq. Bir halda ki, Azərbaycan qazı bir neçə ildən sonra Bolqarıstan bazarına çatdırılacaq, əlbəttə, gələcək əməkdaşlıq üçün də çox yaxşı imkanlar açılacaqdır.

Mən Prezidenti məlumatlandırdım ki, Bakı–Tbilisi–Qars dəmir yolu yaxın vaxtlarda istifadəyə veriləcəkdir. Bu da tarixi layihədir və əminəm ki, Bolqarıstan da bu layihədə fəal iştirak edəcəkdir. Bu layihə bütün ölkələr, o cümlədən dəmir yolu boyu yerləşən ölkələr üçün yeni imkanlar açacaqdır.

Əlbəttə ki, biz humanitar sahədə əməkdaşlıq haqqında da danışdıq. Bu sahə həm Bolqarıstan, həm də Azərbaycan üçün çox önəmlidir. İnsanlararası əlaqələr, humanitar əməkdaşlıq, təhsil sahəsində əməkdaşlıq, əlbəttə ki, əlaqələrimizin möhkəm zəminini daha da gücləndirəcəkdir.

Bir sözlə, qeyd etdiyim məsələlər artıq əyani şəkildə göstərir ki, bizim əməkdaşlığımız çoxşaxəlidir və çox uğurludur. Prezidentin səfəri bu sözlərimi bir daha təsdiqləyir.

Cənab Prezident, Sizi bir daha salamlayıram və Sizə ən xoş arzularımı bildirirəm.

**Bolqarıstan prezidenti Rumen Radevin bəyanatı**

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Azərbaycana ilk rəsmi səfərimdən məmnunam. Öz adımdan və Bolqarıstan nümayəndə heyətinin adından prezident İlham Əliyevə dəvətə, gözəl ölkənizə gəlmək və bu gün baş tutan məzmunlu, konstruktiv danışıqlar aparmaq imkanına görə böyük təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan Respublikası və Bolqarıstan Respublikası dost, uzunmüddətli siyasi, mədəni və mənəvi əlaqələr bazasında tərəfdaş ölkələrdir. Bu gün prezident Əliyev ilə biz əlaqələrin mümkünlüyünü, həm də uzun illər həyata keçirilən intensiv siyasi və iqtisadi dialoqu təsdiq etməklə yanaşı, həm də əməkdaşlığın inkişafı, dərinləşməsi üçün ölkələrimiz arasında münasibətlərin böyük əhəmiyyətini də vurğuladıq. Biz həqiqətən də energetikadan, nəqliyyatdan, əmtəə mübadiləsindən, mədəniyyətdən, təhsildən, turizmdən tutmuş – gəlin turizmi unutmayaq – qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlıq aparılmasına imkan verən və 2 il əvvəl imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə çərçivəsində mövcud olan yaxşı bünövrənin gerçəkləşdirilməsi istiqamətində əməli addımlar atmağa keçmişik. Bizim həqiqətən, konkret

addımlar atmağımızın zəruriliyi çox vacibdir. Çünki bizim siyasi əlaqələrimizin daha da inkişaf etməsi üçün böyük imkanlar mövcuddur. Prezident Əliyevin də qeyd etdiyi kimi, ölkələrimiz arasında əmtəə mübadiləsinin həcmi bizi qane etmir. Biz daha yaxşı nəticələrə nail ola bilərik. Yaxşı xəbər budur ki, Azərbaycan rəhbərliyi artıq gələn il yanvarın 1-dən Sofiya ilə Bakı arasında ilk reysi açmağa hazırdır. Bu, Bolqarıstanın Avropa İttifaqında sədrliyə keçməsi prosesi ilə üst-üstə düşür. Bu cəhətdən Bolqarıstan Azərbaycan Respublikasına öz dəstəyini təsdiq edir. Avropa İttifaqı ilə qarşıdakı hərtərəfli razılaşmanın imzalanması ilə əlaqədar Bolqarıstan Avropa İttifaqının «Şərq Tərəfdaşlığı»nı, onun qüdrətli, sabit, perspektivli regiona çevrilməsi cəhətdən səylərini və bu istiqamətdə Azərbaycanın siyasətini, bütün mühüm missiyalarda və NATO-da Azərbaycan kontingentinin iştirakını dəstəkləyir. Biz daha böyük nəticələrə nail ola bilərik.

Bolqarıstan Azərbaycanın kənd təsərrüfatının inkişafına, kənd təsərrüfatında, xüsusilə emal sənayesində yeni texnologiyaların tətbiq olunmasına, Azərbaycan Respublikasında əczaçılıq istehsalının inkişafının təşkilinə öz töhfələrini verə bilər. Energetika sahəsindəki yüksək texnoloji imkanları sayəsində Azərbaycan da Bolqarıstan qurumları ilə bizim ölkəmizdə fəal inkişaf etməli olan məişət sektorunun qazlaşdırılmasında, eləcə də Bolqarıstanın yanacaqdoldurma stansiyaları şəbəkəsinin inkişafında birgə işləməyə hazırdır.

Energetika bizi uzun illər birləşdirəcək sahədir və biz «Cənub Qaz Dəhlizi» layihəsinin gerçəkləşdirilməsinə dəstəyimizi təsdiq edirik. Azərbaycan qazın nəqli mənbələrinin və marşrutlarının inkişafı, onun Cənubi və Mərkəzi Avropada real şaxələnməsinə kömək üçün bu layihənin gerçəkləşdirilməsində həlledici rol oynayır. Biz Asiya və Avropa arasında nəqliyyat və qaz dəhlizlərinin inkişafında qarşılıqlı maraqları təsdiq etdik. Bizim ölkələrimiz regionda strateji mövqeyə malikdir və biz bu mövqenin təqdim etdiyi bütün imkanlardan istifadə etməliyik.

Son illərdə bizim mədəniyyət, təhsil və elmi sahələrdə əlaqələrimiz intensiv inkişaf edir. Mən prezident Əliyevə Heydər Əliyev Fondu sayəsində Trapezitsa qalasının bərpası layihəsinin həyata keçirilməsinə görə təşəkkür edirəm. Biz hesab edirik ki, bu həm təhsil, həm də mədəniyyət sahələrində məhsuldar əməkdaşlığın yalnız başlanğıcıdır.

Təhlükəsizlik sahəsinə gəldikdə, əlbəttə ki, mən Azərbaycan Respublikasının müvafiq strukturları ilə əməkdaşlığı dəstəkləyirəm. Həmçinin istəyirəm ki, təhsil sahəsində əməkdaşlıq edərək, sizin tələbələriniz bizim ali məktəblərimizdə təhsil alsınlar. Bolqarıstan həqiqətən, təkcə Balkan yarımadasında deyil, həm də Qara dəniz regionunda təhlükəsizlik və sabitlik mərkəzidir. Mən ümid edirəm ki, bizim bugünkü görüşlərimiz xalqlarımızın rifahı və təhlükəsizliyi naminə bütün sahələrdə məhsuldar əməkdaşlıq üçün böyük əhəmiyyət kəsb edəcəkdir. Təşəkkür edirəm, cənab Prezident.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*13 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından oktyabrın 13-də ölkəmizdə rəsmi səfərdə olan Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin və xanımı Desislava Radevanın şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanım Desislava Radeva!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Sizin Azərbaycana səfəriniz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünə təsadüf edir. Diplomatik əlaqələrimiz 25 illik dövrü əhatə etsə də, xalqlarımız arasında münasibətlərin zəngin tarixi vardır. Bu münasibətlər mədəniyyət, incəsənət, elm və digər sahələri əhatə edir. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin şeirləri hələ XIX əsrdə bolqar dilinə tərcümə olunub nəşr edilmişdir. Bolqar ədəbiyyatının klassikləri – İvan Vazov, Xristo Botev, Emilian Stanev və bir çox başqaları Azərbaycanda sevilərək oxunur. Belə gözəl ənənə üzərində qurulmuş əlaqələrimiz yüksələn xətlə inkişaf edir.

Bu gün də ölkələrimiz arasında humanitar sahədə münasibətlərin inkişafı məmnunluq doğurur. Bakı Slavyan Universitetində bolqar dili, tarixi, mədəniyyəti tədris edilir, 2004-cü ildən isə Bolqar dili və mədəniyyəti mərkəzi fəaliyyət göstərir. 2013-cü ildə Sofiya Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzi yaradılıbdır. Hazırda həmin universitetdə Azərbaycan multikulturalizmi fənni tədris olunur. Balkanlarda açıq səma altında ən böyük muzey kompleksi olan Bolqarıstanın Veliko Tırnovo şəhərindəki Trapezitsa Memarlıq Muzeyi Qoruğunun Heydər Əliyev Fondunun dəstəyi ilə bərpası ölkələrimiz arasındakı dostluq münasibətlərinin təzahürüdür.

Azərbaycan Bolqarıstan ilə bütün sahələrdə əməkdaşlığın daha da dərinləşməsinə və möhkəmlənməsinə böyük əhəmiyyət verir. Bu gün ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın, o cümlədən kənd təsərrüfatının, turizmin, informasiya-kommunikasiya texnologiyalarının, əczaçılığın inkişafı üçün yaxşı perspektivlər mövcuddur.

İnanıram ki, səfəriniz zamanı keçirdiyimiz görüşlər və apardığımız fikir mübadiləsi ölkələrimiz arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlərin daha da güclənməsinə təkan verəcəkdir. Azərbaycan iqtisadiyyat, ticarət və nəqliyyat sahələrində əlaqələrin genişlənməsi üçün böyük imkanlar yaradan Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Eyni zamanda, Azərbaycan bir sıra irimiqyaslı beynəlxalq enerji layihələrinin təşəbbüskarı və iştirakçısıdır. Belə layihələrdən biri – «Cənub Qaz Dəhlizi» həm Avropanın enerji təhlükəsizliyi, həm də ikitərəfli və çoxtərəfli formatda Avropa dövlətləri ilə əməkdaşlıq üçün mühüm əhəmiyyət daşıyır. Əminəm ki, Bolqarıstanın da iştirakçısı olduğu bu layihə reallaşaraq, həmçinin digər Şərqi Avropa ölkələri ilə əməkdaşlıq üçün geniş imkanlar açacaqdır. Bu yaxınlarda açılışı nəzərdə tutulan Bakı–Tbilisi–Qars dəmir yolu da Avropanı Asiya ilə birləşdirəcək və ölkələri bir-birinə daha da yaxınlaşdıracaqdır.

Azərbaycanın xarici siyasətində Avropa İttifaqı ilə əlaqələr mühüm yer tutur. Bu ilin əvvəlində Brüsselə etdiyim səfərdən sonra biz yeni tərəfdaşlıq sazişi üzərində işləməyə başladıq. Bolqarıstan 2018-ci ilin yanvar ayından Avropa İttifaqına sədrlik edəcəkdir. İnanıram ki, bu sədrlik müddətində əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

Azərbaycan regionda təhlükəsizliyə, sabitliyə, inkişafa və əməkdaşlığa mühüm töhfə verir. Lakin regionun ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi – tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunub, bu ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirilib, 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Beynəlxalq təşkilatlar münaqişə ilə bağlı öz mövqelərini bildiriblər. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. ATƏT, NATO, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Azərbaycan və Bolqarıstan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədə vurğulandığı kimi, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı prinsipi çərçivəsində nizamlanmalıdır. Belə ədalətli mövqeyə görə Bolqarıstana minnətdarlığımı bildirirəm.

Hörmətli cənab Prezident, bir daha Sizi ürəkdən salamlayır, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram.

### Bolqarıstan prezidenti Rumen Radevin çıxışı

Hörmətli cənab Prezident!
Hörmətli xanım Əliyeva!
Hörmətli xanımlar və cənablar!

İcazə verin, bu gün keçirilmiş məhsuldar görüşlərdən və aparılmış səmimi danışıqlardan məmnun qaldığımı bildirim. Xüsusi məmnunluqla bəyan edə bilərəm ki, onlar səmimi, açıq və dostluq şəraitində keçdi. Azərbaycan Respublikası Bolqarıstan Respublikasının xarici siyasət prioritetləri sistemində mühüm yer tutur. Şadam ki, belə yüksək səviyyəyə uyğun olaraq, aramızda təşəkkül tapmış təmaslar həm siyasi, həm iqtisadi baxımdan ali səviyyədə böyük dinamika ilə səciyyələnir. İcazə verin qeyd edim ki, 2015-ci ilin martında Bolqarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə qarşılıqlı maraqlarımıza, böyük potensiala və bu sahədə mövcud perspektivlərə uyğun olaraq aramızdakı münasibətlərin əla səviyyəsinə verilən qiymətdir və əlaqələrimizin daha da dərinləşdirilməsinə olan ümumi arzunun təzahürüdür. İnanıram ki, Azərbaycana etdiyimiz səfərin əsas məqsədlərindən birinə bu gün artıq nail olduq.

Cənab Prezident, biz Sizinlə Bolqarıstan ilə Azərbaycan arasında ənənəvi, xoş, mehriban münasibətləri təsdiq etdik və qarşılıqlı maraq doğuran bütün sahələrdə ölkələrimizin və xalqlarımızın inkişafı və rifahı naminə həmin əlaqələrin dərinləşməsi istiqamətində çalışmağa hazır olduğumuzu bildirdik. Gələcəyə əminliklə nəzər salaraq, keçmişi bilməliyik və əziz tutmalıyıq. 25 illiyini 2017-ci il iyunun 5-də qeyd etdiyimiz dövlətlərarası münasibətlərimizin tarixi zaman baxımından qısa olsa da, çox əhəmiyyətli və hadisələrlə zəngindir. Ötən 25 il ərzində Bolqarıstan ilə Azərbaycan arasında münasibətlər ümumi maraq doğuran bütün sahələrdə bərabərhüquqlu əməkdaşlıqla, qarşılıqlı hörmət və anlaşma ilə, eləcə də açıq qalan məsələlərin olmaması ilə xarakterizə edilir.

Xəzər dənizinin mirvarisi, böyük İpək yolunun ayrılmaz hissəsi olan Bakı şəhərində həmin İpək yolunun bərpasına ümumi marağımızı qeyd etmək istərdim. Asiya ilə Avropa arasında nəqliyyat və enerji dəhlizlərinin yaradılmasında geostrateji üstünlüklərdən istifadəni vacib sayıram: Bolqarıstan Avropaya qapı,

Azərbaycan isə Avropa ilə Asiya arasında körpü və Mərkəzi Asiyaya qapı olaraq öz rolunu oynaya bilər. Bolqarıstanın və Azərbaycanın geosiyasi yerləşməsi ölkələrimizin üstünlüyüdür. Mən əminəm ki, biz bu üstünlüyü ölkələrimizin rifahı naminə birgə səylərlə inkişaf etdirərək, bundan yararlanacağıq. Təsadüfi deyil ki, məhz enerji sahəsində qarşılıqlı fəaliyyət gün ərzində gələcək əməkdaşlığımızın təfərrüatlı qaydada nəzərdən keçirilmiş imkanları və prioritetləri sırasında olub. Bu baxımdan, icazə verin, enerji resurslarının təchizatında mənbələrin və marşrutların şaxələndirilməsi sahəsində gələcək əməkdaşlıq üçün böyük potensialın olduğunu bir daha qeyd edim.

Avropa İttifaqı ilə münasibətlərə gəldikdə, biz həm «Şərq Tərəfdaşlığı» çərçivəsində, həm də münasibətləri yeni inkişaf mərhələsinə daxil edəcək hərtərəfli sazişin bağlanması ilə əlaqədar danışıqların aparılmasında Azərbaycanın Avropa İttifaqı ilə daha sıx əməkdaşlıq etmək arzusunu yüksək dəyərləndiririk və dəstəkləyirik. Bu şübhəsiz ki, Bolqarıstan ilə Azərbaycan arasında iqtisadi mübadilənin, qarşılıqlı təmasların və sərmayələrin artması üçün yeni perspektivlər açacaqdır.

Ölkələrimiz arasında rəsmi münasibətlərlə yanaşı, xalqlarımız arasında əlaqələr əsrlərboyu davam etmişdir. Bolqarıstanda Nizami Gəncəvi, Şah İsmayıl Xətai kimi dahi şairlərin yaradıcılıq fəaliyyəti və bütövlükdə Azərbaycan mədəniyyətinin nailiyyətləri ilə tanışdırlar. Məmnuniyyətlə qeyd edirik ki, son illər ərzində ikitərəfli münasibətlərimizin mədəniyyət, təhsil və elm sahələrində inkişafı, eləcə də mədəni-tarixi irsin qorunması istiqamətində ciddi addımlar atılıbdır.

Mədəni və mənəvi sahələrdə layihələrin mühüm sosial elementi mövcuddur və bu layihələr xalqlarımız arasında yaxınlaşmaya xidmət edir. Bu baxımdan, icazə verin, Veliko Tırnovo şəhərinin yaxınlığında Trapezitsa qalasının ictimaiyyətə açıq elan olunması, bərpası və konservasiyası layihəsinin həyata keçirilməsində göstərilmiş maliyyə dəstəyinə görə Heydər Əliyev Fondu qismində Azərbaycan tərəfinə, xüsusən də belə nəcib missiyanın

reallaşmasında şəxsi xidmətlərinə görə Mehriban xanım Əliyevaya xüsusi təşəkkürümü bildirim.

Hörmətli cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Hörmətli xanımlar və cənablar!

Göstərilmiş qonaqpərvərliyə və səfərimizi əla təşkil etdiyinizə görə təşəkkürümü qəbul etməyinizi xahiş edirəm. Sağ olun.

**QIRĞIZ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SOORONBAY JEENBEKOVA**

Hörmətli cənab Jeenbekov!

Qırğız Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qırğız xalqı arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qırğız xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 oktyabr 2017-ci il*

## AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*Cenevrə*

*16 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təşkil edilmiş Azərbaycan və Ermənistan prezidentlərinin görüşündə iştirak etmək üçün İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə gəlmişdir.*

*Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan arasında görüş keçirildi.*

*Görüşdə ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi iştirak etdilər.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 16-da İsveçrə Konfederasiyasına səfəri başa çatdı.*

## YUNANISTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ NİKOLAOS KANELLOS İLƏ GÖRÜŞ

*17 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Nikolaos Kanellosun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Nikolaos Kanellos Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Nikolaos Kanellos etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Söhbət zamanı Yunanıstan–Azərbaycan əlaqələrinin müxtəlif aspektləri ətrafında fikir mübadiləsi aparıldı, energetika sahəsində əməkdaşlıq və ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər müzakirə edildi.*

## KÖRFƏZ ƏRƏB DÖVLƏTLƏRİNİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ ƏBDÜLLƏTİF BİN RƏŞİD ƏL-ZƏYYƏNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının baş katibi Əbdüllətif bin Rəşid əl-Zəyyəninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Əbdüllətif bin Rəşid əl-Zəyyəni Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv ölkələrin rəhbərlərinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, mövcud əlaqələrin səviyyəsini yüksək qiymətləndirdiklərini və əlaqələrimizin daha da möhkəmləndirilməsində maraqlı olduqlarını söylədi və bu münasibətlərin inkişafındakı roluna görə prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdi.*

*Azərbaycan–Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının biznes-forumunda iştirak edəcəklərini məmnunluqla qeyd edən Əbdüllətif bin Rəşid əl-Zəyyəni bu tədbirin Azərbaycan ilə təşkilata üzv dövlətlər arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün əhəmiyyətli olduğunu vurğuladı. O bildirdi ki, Azərbaycan ilə əməkdaşlığın gücləndirilməsi regionda təhlükəsizliyin, sabitliyin və iqtisadi inkişafın təmin olunması baxımından önəmlidir. Qonaq qeyd etdi ki, Azərbaycana körfəz dövlətlərindən gələn turistlərin sayının artması məmnunluq doğurur.*

*Təşkilata üzv dövlətlərlə Azərbaycan arasında əlaqələrin uğurla inkişaf etdiyini, bu dövlətlərlə güclü siyasi münasibət-*

*lərimizin mövcud olduğunu deyən prezident İlham Əliyev yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Azərbaycanda turizmin inkişafı üçün böyük işlərin görüldüyünü bildirən dövlətimizin başçısı respublikamıza xarici ölkələrdən, o cümlədən körfəz dövlətlərindən gələn turistlərin sayının durmadan artdığını məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda turistlərə yüksək qonaqpərvərlik göstərildiyini dedi, bunun da ölkələrimiz və xalqlarımız arasında əlaqələrin genişlənməsi işinə töhfəsini verdiyini vurğuladı.*

*İqtisadi əməkdaşlığımız üçün də yaxşı imkanların mövcud olduğunu qeyd edən dövlətimizin başçısı ölkəmizdə investisiya qoyuluşu üçün əlverişli şəraitin olduğunu vurğulayaraq, bu baxımdan Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv ölkələrin Azərbaycana investisiya qoyması üçün yaxşı imkanların mövcud olduğunu bildirdi. Azərbaycan iqtisadiyyatının rəqabətə davamlılığının artdığını məmnunluqla qeyd edən prezident İlham Əliyev vurğuladı ki, bu il Davos Dünya İqtisadi Forumu ölkəmizin iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə dünya dövlətləri arasında 37-ci yerdən 35-ci yerə layiq görübdür.*

*Dövlətimizin başçısı Azərbaycanın islam həmrəyliyi işinə öz töhfəsini verdiyini, ölkəmizdə bu yaxınlarda İslam Həmrəyliyi oyunlarının keçirildiyini qeyd edərək, bu oyunların islam ölkələri arasında əlaqələrin möhkəmləndirilməsi baxımından önəmini vurğuladı. Söhbət zamanı üzv dövlətlər ilə Azərbaycan arasında hava əlaqələrinin genişləndirilməsinin məqsədəuyğun olduğu qeyd edildi.*

*Prezident İlham Əliyev Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv dövlətlərin rəhbərlərinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv dövlətlərin rəhbərlərinə çatdırmağı xahiş etdi.*

*Sonda prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.*

## POLŞA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ VİTOLD VAŞÇİKOVSKİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Polşa Respublikasının Xarici İşlər naziri Vitold Vaşçikovskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Polşaya builki səfərini məmnunluqla xatırladaraq bu səfərin uğurla keçdiyini və yaxşı nəticələr verdiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın və əldə edilmiş uğurların siyasi, iqtisadi, qarşılıqlı ticarət, investisiya, enerji, nəqliyyat sahələrində daha da genişləndirilməsinin önəmini qeyd etdi və bildirdi ki, Azərbaycan bu istiqamətdə fəal iş aparır.*

*Prezident İlham Əliyev «Şərq Tərəfdaşlığı» Proqramına üzv dövlətlərə eyni münasibət göstərilməsinin vacibliyini vurğuladı.*

*Polşanın Xarici İşlər naziri Vitold Vaşçikovski Polşa Respublikasının Prezidenti Andjey Dudanın salamlarını dövlətimizin başçısına çatdırdı. Vitold Vaşçikovski prezident İlham Əliyevin Polşaya səfərini məmnunluqla xatırladaraq, bu səfərin əlaqələrimizin möhkəmləndirilməsi baxımından böyük önəm daşıdığını qeyd etdi. Polşanın Xarici İşlər naziri bildirdi ki, ölkəsi Azərbaycan ilə əlaqələri genişləndirmək və inkişaf etdirmək niyyətindədir. «Şərq Tərəfdaşlığı» çərçivəsində əməkdaşlığa toxunan Vitold Vaşçikovski Avropa İttifaqının xarici siyasətində bu istiqamətin xüsusi əhəmiyyət daşıdığını qeyd etdi və Avropa İttifaqının əlaqələrin genişləndirilməsində maraqlı olduğunu dedi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti ətrafında fikir mübadiləsi aparıldı, Ermənistan tərəfinin danışıqlar prosesini uzatmağa meyilli olduğu qeyd edildi. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında, «Cənub Qaz Dəhlizi»nin və nəqliyyat dəhlizlərinin yaradılmasında Azərbaycanın əhəmiyyətli rolu vurğulandı.*

*Dövlətimizin başçısı Polşa prezidenti Andjey Dudanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Polşa Prezidentinə çatdırmağı xahiş etdi.*

## MDB SƏRHƏD QOŞUNLARI KOMANDANLARI ŞURASININ 78-ci İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*18 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də MDB Sərhəd Qoşunları Komandanları Şurasının Bakıda keçiriləcək 78-ci iclasının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Xoş gəlmisiniz! Sizi Azərbaycanda salamlamağa məmnunam. Şadam ki, MDB dövlətlərinin sərhəd xidmətləri rəhbərlərinin iclası bizim ölkəmizdə keçirilir. Azərbaycanın belə bir tədbirə ev sahibliyi etməsi birinci dəfə deyil. Biz sizinlə görüşmüşük, ola bilsin ki, tam indiki tərkibdə olmayıb, amma sizin çoxunuz artıq bizim ölkəmizdə olmusunuz. Bu, həyata keçirilməsi çox vacib olan tədbirdir. Bu, təkcə sərhəd xidmətlərinin rəhbərləri arasında deyil, həm də ölkələrimiz arasında əməkdaşlığı möhkəmləndirir.

Bu yaxınlarda Soçidə MDB-nin növbəti sammiti keçirildi. Azərbaycan həmin tədbirdə fəal iştirak etdi. Ümumiyyətlə, biz MDB məkanında bir çox mühüm işlərdə fəal iştirak edirik. Əlbəttə, təhlükəsizliyin, sərhədlərin qorunmasının möhkəmləndirilməsi bizim bütün ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edir. Bu, ölkələrimizin və xalqlarımızın təhlükəsizliyinin əsasıdır. Bizim vətəndaşların normal, rahat həyatı da çox cəhətdən sizin rəhbərlik etdiyiniz xidmətlərin uğurlu fəaliyyətindən asılıdır. Buna görə də heç şübhəsiz, bizim ölkələrimizin rahat, normal, sabit inkişafı da sizin aranızda olan əməkdaşlıqdan, informasiya mübadiləsindən, qarşılıqlı fəaliyyətdən asılıdır.

Azərbaycanda sərhəd xidmətinin infrastrukturunun, bütövlükdə sərhəd xidmətinin inkişafına çox böyük diqqət yetirilir. Son illərdə sərhədlərin möhkəmləndirilməsi, müasir avadanlıqlarla təchizatı sahəsində çox iş görülüb. Hesab edirəm ki, bu sahə təhlükəsizliyin möhkəmləndirilməsi işində mühüm sahələrdən biridir.

Təəssüf ki, bizim ölkələrimizin yerləşdiyi regionlarda, bütövlükdə dünyada risklər artır. Buna görə səylərin əlaqələndirilməsi, informasiya mübadiləsi və təhlükəli hallara qarşı birgə mübarizə bizim təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda vəziyyət sabitdir, ölkə uğurla inkişaf edir, daxili risklər və potensial təhlükələr yoxdur. Əlbəttə, biz əlimizdən gələni etməliyik ki, təhlükəli elementlər bizim sərhədlərdən keçməsin. Biz bunu öz qonşularımızla, MDB ölkələri ilə əlaqələndirilmiş şəkildə təmin edirik.

Beynəlxalq terrorizmə qarşı mübarizə məsələləri bugünkü gündəlikdə başlıca yer tutur. Bu gün praktiki olaraq, bütün beynəlxalq sammitlərdə ekstremizmə, mütəşəkkil cinayətkarlığa, narkotrafikə qarşı mübarizə ən aktual mövzulardır. Təbii ki, bizim ölkələrimiz bütün bu müasir təhdidlərə və təhlükələrə adekvat şəkildə cavab verməlidir. Mən şadam ki, bütövlükdə MDB məkanında vəziyyət kifayət qədər sabitdir. Xüsusilə bugünkü dünyada bir sıra regionlarda çox həyəcanlı proseslər – sabitliyin pozulması, daxili münaqişələr, müharibələr, qanlı toqquşmalar getdiyi vaxtda biz öz ölkələrimizin təhlükəsizliyini möhkəmləndirməliyik və ölkələrimiz arasında, o cümlədən sizin başçılıq etdiyiniz sahədə əməkdaşlığın daha da möhkəmlənməsinə təkan verməliyik.

Mən əminəm ki, Komandanlar Şurasının iclası yüksək səviyyədə keçiriləcək və müzakirə olunacaq məsələlər ölkələrimizin təhlükəsizliyinin daha da möhkəmlənməsinə, sərhədlərin qorunmasının möhkəmlənməsinə gətirib çıxaracaqdır. Hamımız sərhədlərimizin bizə ziyan vurmaq istəyənlərdən etibarlı müdafiə olunmasında, eyni zamanda, dostlarımız, turistlər, iş adamları, ölkələrimizlə tanış olmağa gələnlər üçün açıq

olmasında maraqlıyıq. Belə bir tarazlığı tapmaq asan deyil. Biz Azərbaycanda buna cəhd edirik və bizim bir çox ölkələrlə həyata keçirdiyimiz viza rejiminin liberallaşdırılması, bir çox ölkələrdən əcnəbi vətəndaşların Azərbaycana kifayət qədər sərbəst gələ bilməsi, əlbəttə, bu il 20 faizdən çox, ötən il isə hətta 25 faiz artan turizmin hiss olunacaq dərəcədə inkişafına gətirib çıxarıbdır. Bununla yanaşı, təhlükəsizliyin etibarlı təminatı göstərir ki, tənasüb tapıla bilər. Biz də buna cəhd edirik. Sözsüz ki, qonşularla, MDB-yə üzv ölkələrlə, bizim çoxdankı dostlarımızla iş əlaqələndirilmədən buna hansısa ölkədə nail olmaq çətin olacaqdır. Buna görə də biz məhz bu sahədə MDB çərçivəsində əməkdaşlığa çox böyük önəm veririk. Düşünürəm ki, sizin həm bu gün, həm də sabah görüşləriniz olacaq, bizim sərhəd xidmətinin rəhbərliyi sizi görülən işlər barədə məlumatlandıracaq və siz fikir və təcrübə mübadiləsi aparacaqsınız.

Bir daha sizi salamlayıram və sizə uğurlu iş arzulayıram.

* * *

**Vladimir Kulişov** *(MDB Sərhəd Qoşunları Komandanları Şurasının sədri, Rusiya Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini, Sərhəd Xidmətinin rəhbəri)*: Möhtərəm cənab Prezident!

İlk növbədə, MDB Sərhəd Qoşunları Komandanlar Şurasının üzvləri adından Sizi və bütün Azərbaycan xalqını dövlət bayramı – Müstəqillik Günü münasibətilə təbrik etmək və Şuranın növbəti iclasını qonaqpərvər Azərbaycanın paytaxtında keçirmək imkanına görə təşəkkürümü bildirmək istərdim.

Mən bizim planlarımız barədə qısa məlumat vermək istəyirəm. Komandanlar Şurasının 78-ci iclasında 8 dövlətin nümayəndə heyəti, MDB-nin İcraiyyə Komitəsi, MDB-nin Antiterror Mərkəzi iştirak edir. Gündəliyə çıxarılan məsələlər arasında biz Birlik dövlətlərinin xarici sərhədində operativ şəraitin vəziyyətini müzakirə edəcəyik, yaxın perspektivdə onun

inkişafının proqnozunu dəqiqləşdirməyə çalışacağıq, Şuranın 2017-ci ildəki işinin yekunlarına nəzər salacağıq və 2018-ci il üçün fəaliyyətini planlaşdıracağıq. Həmçinin transsərhəd cinayətkarlıqla mübarizə, sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi üzrə 6 ümumdövlət proqramının yerinə yetirilməsi ilə bağlı bir sıra məsələləri dinləməyi planlaşdırırıq.

Ənənəvi olaraq biz öz iclaslarımızda veteran hərəkatının möhkəmləndirilməsi məsələsini və bir sıra digər məsələləri nəzərdən keçiririk. Lakin qeyd etmək istərdim ki, onların hamısı sırf tətbiqi xarakter daşıyır və Sizin qeyd etdiyiniz kimi, bizim vətəndaşlarımızın təhlükəsizliyinin təminatına, beynəlxalq terror təşkilatlarına, narkotrafiklərə, qanunsuz miqrasiyaya mənsub şəxslərin keçid kanallarının qarşısının alınmasına, vətəndaşlarımızın və ölkələrimizin təhlükəsizliyində əksini tapan bütün təzahürlərin aradan qaldırılmasına xidmət edir.

Praktiki hissənin gedişində biz Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətində mövcud olan yeni təşəbbüslərlə məmnunluqla tanış olacağıq. Qeyd etmək istərdim ki, bizim iclaslarımız zamanı çoxtərəfli formatla yanaşı, biz ikitərəfli əlaqələrə də böyük diqqət yetiririk. Bu gün mən həmkarlarımın fikrini bilirəm və şəxsən öz fikrimi bildirirəm ki, biz Azərbaycanın Dövlət Sərhəd Xidməti ilə sərhəd fəaliyyətində mütləq qaydada zəruri olan çox etibarlı münasibətləri dəstəkləyirik.

Hörmətli İlham Heydər oğlu!

Bu il Komandanlar Şurası üçün yubiley ilidir. 2017-ci il iyulun 6-da Şuranın yaradılmasının 25 ili tamam oldu. Mən sərhəd təhlükəsizliyinə töhfənizə, Komandanlar Şurasına dəstəyinizə görə hamımız adından Sizə dərin minnətdarlığımı bildirmək və xatirə hədiyyələrimizi təqdim etmək istərdim.

* * *

*MDB Sərhəd Qoşunları Komandanları Şurasının sədri Vladimir Kulişov MDB Sərhəd Qoşunları Komandanları Şura-*

*sının yaradılmasının 25 illiyinə həsr olunmuş xatirə medalını və hədiyyələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etdi.*

## UKRAYNA RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ STEPAN KUBİVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ukrayna Respublikası Baş nazirinin birinci müavini, İqtisadi İnkişaf və Ticarət naziri Stepan Kubivin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Stepan Kubiv Ukrayna prezidenti Petro Poroşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Ukrayna prezidenti Petro Poroşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukrayna Prezidentinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASINA SƏFƏR

*19 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə D-8 Zirvə görüşündə xüsusi qonaq qismində iştirak etmək üçün İstanbula gəlmişdir.*

*İstanbulun Atatürk Beynəlxalq Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsini salamladı.*

*Azərbaycan Prezidentini İstanbul valisi Vasip Şahin və digər rəsmi şəxslər qarşıladılar.*

## İRAN İSLAM RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİ ESHAQ CAHANGİRİ İLƏ GÖRÜŞ

*İstanbul*

*19 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da İstanbulda İran İslam Respublikasının Birinci vitse-prezidenti Eshaq Cahangiri ilə görüşmüşdür.*

*Görüşdə prezident İlham Əliyev ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu vurğuladı. Azərbaycan Prezidenti iqtisadi əməkdaşlığın genişləndiyini, ölkələrimiz arasında mühüm infrastruktur layihələrinin həyata keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı prezidentlər səviyyəsində keçirilən görüşlərin əlaqələrimizin genişləndirilməsi işinə töhfə verdiyini bildirdi.*

*İranın Birinci vitse-prezidenti Eshaq Cahangiri Azərbaycan ilə İran arasında iqtisadi əməkdaşlığın uğurla inkişaf etdiyini dedi, Astara(Azərbaycan)–Astara(İran) dəmir yolu xəttinin həm ikitərəfli sahədə, həm də bölgədə əməkdaşlıq baxımından əhəmiyyətini qeyd etdi.*

*Eshaq Cahangiri regionda terrorizm təhdidlərinin olduğunu söylədi və buna qarşı mübarizədə ölkələrin səylərinin artırılmasının əhəmiyyətindən danışdı.*

*İqtisadi əlaqələrimizin uğurla inkişaf etdiyini deyən prezident İlham Əliyev Astara(Azərbaycan)–Astara(İran) dəmir yolu layihəsinə dünyada böyük marağın olduğunu qeyd edərək bildirdi ki, bu layihə bölgədə iqtisadi əməkdaşlığın inkişafına xidmət edir. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan beynəl-*

*xalq terrorizmə qarşı fəal mübarizə aparan ölkələrdəndir və bu sahədə səylərini əsirgəmir.*

*Söhbət zamanı Azərbaycan ilə İran arasında energetika, əczaçılıq, sərmayə qoyuluşu, sənaye, o cümlədən birgə avtomobil istehsalı və digər sahələrdə əməkdaşlığın yaxşı perspektivlərə malik olduğu bildirildi və əlaqələrimizin inkişafına dair fikir mübadiləsi aparıldı.*

## D-8 İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ IX ZİRVƏ GÖRÜŞÜNDƏ XÜSUSİ QONAQ QİSMİNDƏ İŞTİRAK

*İstanbul*

*20 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də İstanbulda inkişaf etməkdə olan 8 ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının «Əməkdaşlıq yolu ilə imkanları artırmaq» devizi altında keçirilən IX Zirvə görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə xüsusi qonaq qismində iştirak etmişdir.*

*Əvvəlcə birgə foto çəkdirildi.*

*Zirvə görüşü müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlandı.*

*İnkişaf etməkdə olan 8 ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının – D-8-in baş katibi Seyid Əli-Məhəmməd Musəvi Zirvə görüşünü açıq elan edərək, tədbirin əhəmiyyətindən danışdı. D-8 təşkilatının hazırkı sədri, Pakistanın Baş naziri Şahid Xaqan Abbasi qurumun müasir dövrdə fəaliyyətinin daha da genişləndirilməsində üzv ölkələrin səylərinin gücləndirilməsinin vacibliyini vurğuladı. Qeyd etdi ki, Pakistan D-8 təşkilatına sədrliyi dövründə bu qurumun möhkəmlənməsinə və inkişafına çalışıbdır. Məhz bu dövrdə D-8 BMT-də müşahidəçi statusu əldə edərək, beynəlxalq səviyyədə mövqeyini gücləndiribdir. Pakistanın Baş naziri dedi ki, qurumun üzvləri 20 il ərzində iqtisadiyyat, ticarət, nəqliyyat, turizm və digər sahələrdə əlaqələri inkişaf etdiriblər.*

*Baş nazir Şahid Xaqan Abbasi D-8 təşkilatına sədrliyin Pakistandan Türkiyəyə keçdiyini elan etdi.*

*Təşkilatın yeni sədri, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında üç qitədə yerləşən ölkələri əhatə edən D-8-in son 20 ildə fəaliyyətinin uğurlu olduğunu vurğulayaraq, dünyada baş verən gərginliklər fonunda Zirvə görüşünün keçirilməsinin önəmini qeyd etdi. Son illər müsəlmanların yaşadıqları bölgələrdə baş verən münaqişələrin, terrorizmin, təbii fəlakətlərin ciddi fəsadlarla nəticələndiyini deyən Türkiyə Prezidenti təəssüflə bildirdi ki, qlobal ədalətsizlik azalmaq əvəzinə, daha da artır. Dünyada islamla terrorizmin əlaqələndirilməsi cəhdlərinin, islamofobiyanın və ksenofobiyanın artdığını, miqrant böhranının dərinləşdiyini bildirən Türkiyə Prezidenti vurğuladı ki, D-8 ölkələri dünyada çox az ölkənin sahib olduğu gənc və dinamik artan əhaliyə, zəngin təbii sərvətlərə, sürətli inkişafa malikdir. Prezident Rəcəb Tayyib Ərdoğan üzv ölkələrin bu potensialından tam səmərəli istifadə olunması nəticəsində qarşılıqlı ticarət dövriyyəsinin hazırkı 100 milyard dollardan qısa müddətdə 500 milyard dollara çatdırıla biləcəyini qeyd etdi. Türkiyə Prezidenti iqtisadiyyat, ticarət, nəqliyyat, müdafiə sənayesi, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayaraq, D-8 üzvlərinin sayının artırılmasının, qarşılıqlı ticarətin milli valyutalarla aparılmasının təşkilatın daha da güclənməsinə imkan yarada biləcəyini bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev D-8 IX Zirvə görüşündə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli prezident Rəcəb Tayyib Ərdoğan!

Hörmətli baş katib!

Xanımlar və cənablar!

İlk növbədə, əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana D-8 İqtisadi Əməkdaşlıq

Təşkilatının IX Zirvə görüşünə dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm.

Azərbaycan D-8-in üzvü olmamasına baxmayaraq, prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanı bu tədbirə dəvət edib. Mən buna görə öz qardaşıma dərin təşəkkürümü bildirirəm.

2015-ci ilin noyabr ayında «Böyük İyirmilik»in Zirvə görüşü Türkiyənin Antalya şəhərində keçirildi. Türkiyə bu görüşə qrupa üzv olmayan yalnız bir ölkəni xüsusi qonaq kimi dəvət edə bilərdi və prezident Rəcəb Tayyib Ərdoğan bu tədbirə Azərbaycanı dəvət etmişdir. Bu bir daha Azərbaycan–Türkiyə qardaşlığının, dostluğunun bariz nümunəsidir.

Hörmətli görüş iştirakçıları, mən sizin diqqətinizi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək istəyirəm. Ermənistan 25 ildən artıqdır ki, Azərbaycanın tarixi torpaqlarını – Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal edibdir. Həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. 1992-ci ildə Ermənistan Xocalı soyqırımını törədibdir. Bu hərbi cinayət nəticəsində 613 dinc azərbaycanlı qətlə yetirilib, onlardan 106-sı qadın və 63-ü uşaqdır. Minlərlə insan itkin düşüb və yaralanıbdır. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edibdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və azərbaycanlı mülki əhaliyə qarşı hərbi cinayətlərini davam etdirir.

Ötən ilin aprelində təmas xəttində Ermənistanın silahlı hücumu nəticəsində mülki şəxslər və hərbçilər həlak olub, yüzlərlə yaşayış evi dağıdılıbdır. Azərbaycan Ermənistanın bu təxribatının qarşısını qətiyyətlə aldı, ordumuz torpaqlarımızın bir hissəsini erməni işğalçılarından azad etdi. Bundan sonra Ermənistan tərəfindən tamamilə dağıdılmış Cocuq Mərcanlı qəsəbəsi yenidən quruldu.

150 evdən ibarət bu qəsəbədə məktəb, tibb məntəqəsi və məscid tikildi. Bu məscid ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəridir.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək ki, onun əzəli torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaqdır.

Hörmətli görüş iştirakçıları, Azərbaycan islam həmrəyliyinə xüsusi əhəmiyyət və öz töhfəsini verir. 2017-ci il Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunub. Eyni zamanda, bu il Azərbaycanda 54 müsəlman ölkəsindən 3000-ə yaxın idmançının iştirak etdiyi IV İslam Həmrəyliyi oyunları keçirilib. Biz bu gün dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Özünü müsəlman ölkələrinin dostu kimi qələmə verməyə çalışan Ermənistan Dağlıq Qarabağ və ətraf bölgələrdə məscidləri və dini abidələri dağıdıbdır. Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz.

İki gün əvvəl Azərbaycan müstəqilliyinin bərpasının 26-cı ildönümünü qeyd edib. Qısa müddət ərzində ölkəmiz uğurlu inkişaf yolu keçibdir. 2004-cü ildən başlayaraq, iqtisadiyyatımız 3 dəfədən çox artıb, 2 milyona yaxın iş yeri açılıbdır. Yoxsulluq 5 faizə düşüb, savadlılıq 100 faizə yaxındır. Valyuta ehtiyatlarımız ölkənin ümumi daxili məhsuluna bərabərdir. Xarici dövlət borcu ümumi daxili məhsulun 20 faizindən azdır. Azərbaycanın bu uğurları beynəlxalq təşkilatlar tərəfindən də qeyd olunur. Davos İqtisadi Forumunun iqtisadiyyatın rəqabətqabliyyətliliyi üzrə builki hesabatında Azərbaycan 35-ci yeri tutubdur.

Azərbaycan beynəlxalq miqyaslı layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Bu gün biz tərəfdaşlarımızla birlikdə «Cənub Qaz Dəhlizi» layihəsini icra edirik. Bu, dünyanın ən böyük infrastruktur layihələrindən biridir. «Cənub Qaz Dəhlizi»nin

əsas hissəsi olan TANAP qaz kəməri üzrə Saziş 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında İstanbul şəhərində imzalanıbdır və bu kəmər gələn il istifadəyə veriləcəkdir.

Tezliklə rəsmi açılışı olacaq Bakı–Tbilisi–Qars dəmir yolu Avropa ilə Asiya arasında ən qısa yol olacaqdır. Azərbaycan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin yaradılmasına böyük sərmayələr qoyur. Bu nəqliyyat dəhlizləri Avrasiyanın iqtisadi inkişafı üçün yeni imkanlar açacaqdır. Diqqətinizə görə minnətdaram.

* * *

*Zirvə görüşündə D-8 Şurasının 16-cı, 17-ci və xüsusi sessiyalarının hesabatları dinlənildi, gündəlikdə duran məsələlər müzakirə olundu.*

*IX Zirvə görüşünə yekun vuran Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan D-8-in dünyada sülhün, sabitliyin və rifahın inkişafına bundan sonra da töhfə verəcəyinə əminliyini bildirdi. Türkiyə Prezidenti təşkilatın güclənməsi və böyüməsi üçün bir sıra islahatların aparılmasının vacibliyini diqqətə çatdırdı, qurumun inkişafında fəallığına və Zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə katibliyə, tədbirdə iştirak edən dövlət və hökumət başçılarına və nümayəndə heyətlərinin rəhbərlərinə minnətdarlığını bildirdi.*

*Sonra Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın, Azərbaycan prezidenti İlham Əliyevin və digər ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə D-8 təşkilatı ilə İslam İnkişaf Bankı arasında Anlaşma Memorandumu imzalandı.*

*D-8 formatına Türkiyə, İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriya daxildir. Təşkilatın üzvlərindən ikisi – Türkiyə və İndoneziya «Böyük İyirmilik»in (G-20) üzvüdür. D-8-in fəaliyyətinin əsas məqsədi üzv ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək, iqtisadi və sosial sahələrdə əlaqələri gücləndirməkdir.*

*Bu qurumun yaranması ideyası İslam Əməkdaşlıq Təşkilatının 1996-cı il oktyabrın 22-də İstanbulda keçirilmiş toplantısında irəli sürülübdür. 1997-ci il iyunun 15-də İstanbulda keçirilən dövlət və hökumət başçılarının Zirvə görüşündə D-8 rəsmi olaraq təsis edilibdir.*

*IX Zirvə görüşü ilə D-8 təşkilatının fəaliyyətinin 20 illik dövrü əhatə edən birinci mərhələsinə yekun vurulub, yeni mərhələ üçün hədəflər və fəaliyyətin əsas istiqamətləri müəyyənləşdirilibdir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri oktyabrın 20-də başa çatdı.*

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDER VAN DER BELLENƏ**

Hörmətli cənab Federal Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 oktyabr 2017-ci il*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikqulıyeviç!

Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Türkmənistanı tarixən təşəkkül tapmış dostluq və mehriban qonşuluq münasibətləri birləşdirir. Əminəm ki, belə möhkəm təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz, qarşılıqlı faydalı əməkdaşlığımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 oktyabr 2017-ci il*

**ÇEX RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİLOŞ ZEMANA**

Hörmətli cənab Prezident!

Çex Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Çexiya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2017-ci il*

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ, ÇİN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNİN BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

Zati-aliləri!

Çin Kommunist Partiyasının XIX Qurultayının uğurla başa çatması, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi və rəhbərlik etdiyiniz partiyanın bütün üzvlərini şəxsən öz adımdan və Yeni Azərbaycan Partiyasının üzvləri adından səmimi-qəlbdən təbrik edirəm.

Ölkənizin ictimai-siyasi həyatında tarixi hadisə olan XIX Qurultay Çin Kommunist Partiyasının yeniləşməsi, onun gələcək fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşməsi, bütövlükdə xalqınızın rifahı, ölkənizin sosial-iqtisadi inkişafı, eləcə də xarici siyasət xətti ilə bağlı irəli sürdüyünüz yeni konsepsiyanın qəbul olunması kimi mühüm qərarlar ilə əlamətdar olmuşdur.

Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikasını xoş ənənələrə malik dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Bu gün ölkələrimizin aparıcı siyasi qüvvələri kimi, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı fəal dialoq eyni zamanda, xalqlarımız arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, bütün sahələrdə əməkdaşlığımızın dərinləşməsinə və bütövlükdə Azərbaycan–Çin münasibətlərinin inkişafına mühüm töhfələr verir.

Əminəm ki, dərin tarixi kökləri olan Azərbaycan–Çin əlaqələrinin daha da genişləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar və layihələr çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın müvəf-

fəqiyyətlə davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə və Çin Kommunist Partiyasının bütün üzvlərinə bir daha təbriklərimi və ən xoş arzularımı yetirir, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2017-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Türkiyə Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün qardaş Türkiyə öz dövlətçilik ənənələrinə və prinsiplərinə sadiq qalaraq, müstəqillik, demokratiya və iqtisadi yüksəliş yolu ilə inamla irəliləyir. Dünyada və regionda cərəyan edən proseslərdə fəal rolu və mövqeyi Türkiyəyə ən mötəbər beynəlxalq təşkilatların toplantılarını, yüksək zirvə görüşlərini keçirməyə imkan verir. Ev sahibi kimi, öz müstəsna hüququndan istifadə edərək, Türkiyənin Azərbaycanı bu forumlara dəvəti əsl qardaşlıq nümunəsidir.

Əminəm ki, Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı, strateji tərəfdaşlığı və müttəfiqliyi dərin tarixi kökləri, ortaq milli-mənəvi dəyərləri ilə bir-birinə sıx bağlı olan xalqlarımızın iradəsinə uyğun olaraq, bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir xoş gündə Sizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 oktyabr 2017-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB BİNƏLİ YILDIRIMA**

Hörmətli cənab Baş nazir!

Əziz qardaşım!

Türkiyə Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Bu gün Türkiyə demokratik və hüquqi dövlət quruluşuna malik, iqtisadi yüksəlişini inamla davam etdirən qüdrətli ölkədir. Qardaş Türkiyənin uğurları, dünyada və regionda artan nüfuzu bizi son dərəcə sevindirir.

İnanıram ki, Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı bundan sonra da bütün birgə təşəbbüslərimizin gerçəkləşməsində mühüm rol oynayaraq, ölkələrimizin inkişafına, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 oktyabr 2017-ci il*

## QVATEMALA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ LARS HENRİK PİRA PEREZ İLƏ GÖRÜŞ

*27 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Qvatemala Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Lars Henrik Pira Perezin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Lars Henrik Pira Perez Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Lars Henrik Pira Perez etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Görüşdə Azərbaycanla Qvatemala arasında ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı və ölkələrimizin iqtisadi, sərmayə qoyuluşu, ticarət və mədəni əlaqələrin inkişaf etdirilməsi istiqamətində səy göstərməkdə maraqlı olduğu bildirildi.*

*Görüşdə, həmçinin Azərbaycanla Qvatemala arasında əlaqələrin daha da genişləndirilməsi üçün ölkələrimizin bir-birini daha yaxından tanımasının və məlumatlandırılmasının zəruriliyi qeyd olundu.*

*Söhbət zamanı səfir Lars Henrik Pira Perez Bakı–Tbilisi–Qars dəmir yolunun yaxın günlərdə nəzərdə tutulan açılışı münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

## AVSTRALİYA İTTİFAQININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MARK İNNES-BRAUN İLƏ GÖRÜŞ

*27 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Mark İnnes-Braunun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Mark İnnes-Braun Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Mark İnnes-Braun etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında parlament üzvlərinin, nazirlər və digər səviyyədə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd etdi. İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı qarşılıqlı ticarətin artırılması üçün iqtisadi əməkdaşlıq formatının müəyyənləşdirilməsinin zəruri olduğunu dedi. Prezident İlham Əliyev ölkələrimizin bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, geniş liman şəbəkəsindən istifadə edərək, yeni əməkdaşlıq sahələrinin qurulmasının mümkünlüyünü qeyd etdi. Dövlət başçısı turizm sahəsində də əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Mark İnnes-Braun səfirlik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin inkişafı işinə töhfəsini verəcəkdir.*

*Avstraliya İttifaqının Azərbaycanda yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Mark İnnes-Braun ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25-ci ildönümündə*

*etimadnaməsini təqdim etməkdən qürur hissi duyduğunu bildirdi. O, ölkəsinin Azərbaycan ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirərək dedi ki, Avstraliya hər zaman Azərbaycanın Dağlıq Qarabağla bağlı suverenliyini və ərazi bütövlüyünü dəstəkləmişdir.*

*Sonra səfir Mark İnnes-Braun ölkələrimiz arasında ticarət və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsinin zəruriliyini bildirdi.*

## İRAN İSLAM RESPUBLİKASININ İQTİSADİ İŞLƏR VƏ MALİYYƏ NAZİRİ MƏSUD KƏRBASİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri Məsud Kərbasianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Məsud Kərbasianı İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi. Hökumətlərarası birgə Komissiyanın işinə toxunan prezident İlham Əliyev Komissiyanın bundan sonra da uğurla və səmərəli fəaliyyət göstərəcəyinə əmin olduğunu bildirdi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin çox sürətlə və uğurla inkişaf etdiyini söyləyən dövlətimizin başçısı bu əlaqələrin genişləndirilməsində dövlət başçıları arasında keçirilən görüşlərin xüsusi önəm daşıdığını vurğuladı. Əməkdaşlığımızın gözəl nəticələr verdiyini deyən prezident İlham Əliyev ölkələrimiz arasında ticarət dövriyyəsinin ötən il 70 faiz, bu il isə 30 faiz artdığını bildirərək, əldə edilən bütün razılaşmaların icra olunduğunu dedi. Birgə önəmli transmilli layihələrin uğurla həyata keçirildiyini vurğulayan dövlət başçısı bundan sonrakı illərdə də bu istiqamətdə səmərəli əməkdaşlığımızın davam etdiriləcəyini əminliklə söylədi.*

*Məsud Kərbasian İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri kimi, ölkəmizə ilk dəfə səfər etməsindən məmnunluğunu*

*bildirdi. Qonaq bu vəzifədə ona göstərilən etimadın və məsuliyyətin öhdəsindən gələcəyinə və ölkələrimizin əlaqələrinin inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu deyərək, dövlət başçısını Azərbaycanın inkişafında əldə olunan gözəl nailiyyətlər münasibətilə təbrik etdi.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi, ticarət, nəqliyyat, Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi, səhiyyə, kənd təsərrüfatı, bank, maliyyə sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

## BAKININ SƏBAİL RAYONUNDA YENİ İDMAN VƏ İSTİRAHƏT PARKINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*28 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Bakının Səbail rayonunda yeni idman və istirahət parkında yaradılan şəraitlə tanış olmuşdur.*

*Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov parkda görülən işlər barədə dövlət başçısına məlumat verdi. Qeyd edildi ki, rayonda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri, həyata keçirilən layihələr və sosial proqramlar çərçivəsində bu ilin may ayından 20-ci yaşayış sahəsindəki Su İdmanı Sarayı ilə üzbəüz 1,7 hektarlıq ərazidə yeni idman və istirahət parkının salınmasına başlanılıb və artıq işlər başa çatdırılıbdır. Parkın layihəsi dünya şöhrətli memar və dizaynerlər tərəfindən ingilis layihəsi əsasında hazırlanıb və Azərbaycanda ilk dəfə olaraq həyata keçirilibdir. Xüsusi layihə çərçivəsində görülən işlər yüksək keyfiyyətlə və zövqlə yerinə yetirilibdir.*

*Son illərdə prezident İlham Əliyevin rəhbərliyi ilə Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıbdır. Əhalinin istirahəti üçün hərtərəfli şəraitə malik olan bu parkın salınması da həmin işlərin tərkib hissəsidir. Digər tərəfdən, bu park Su İdmanı Sarayının ətrafında həyata keçirilən genişmiqyaslı yenidən qurulma və abadlıq işlərinə mühüm töhfə olub. Parkın digər özəlliyi buraya istirahətə gələnlərin idmanla məşğul olmasına şərait yaradılmasıdır. Bu məqsədlə parkda 900 kvadratmetr sahədə 2 basketbol, habelə həndbol və mini-futbol meydançaları qurulubdur.*

*Bundan əlavə, açıq havada məşq etmək üçün müxtəlif idman trenajorları qoyulub. Ekstremal idman növlərinə həvəs göstərən uşaq və yeniyetmələrin marağı da nəzərə alınıb. Onlar üçün 450 kvadratmetr sahədə ikihissəli – həm böyüklər, həm də balacalar üçün skeytbordinq meydançası düzəldilibdir. Parkın digər hissəsində stolüstü tennis, uşaq əyləncə qurğuları, yelləncəklər quraşdırılıb. İdman və istirahət parkı xüsusi işıqlandırma sistemi ilə təchiz edilibdir.*

*Parkın giriş-çıxışını dekorativ arkalar bəzəyir. Üzəri müasir dizaynla rənglənən və cizgi filmləri qəhrəmanlarının şəkilləri ilə bəzədilən 350 metrlik divar parka xüsusi yaraşıq verir. Parkda yaşıllaşdırma işlərinə də xüsusi diqqətlə yanaşılıb. 5000 kvadratmetrlik sahədə müxtəlif ağaclar və bəzək kolları əkilib, gül kompozisiyaları yaradılıb, suvarma sistemi qurulubdur. Bununla da park rayon sakinləri və şəhərimizin qonaqları üçün gözəl idman, əyləncə və istirahət məkanına çevrilibdir.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Əlcəzair arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 oktyabr 2017-ci il*

## BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*30 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev, Gürcüstan Respublikasının Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, həmçinin Tacikistan və Türkmənistan respublikalarının nümayəndə heyətləri oktyabrın 30-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanında Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişlər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı səmimiyyətlə salamlayıram və Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bugünkü təntənəli mərasimdə qardaş, dost ölkələrdən qonaqlar gəlmişlər. Mən xüsusilə bu gün Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı, Gürcüstanın, Qazaxıstanın, Özbəkistanın Baş nazirlərini, Tacikistanın, Türkmənistanın nazirlərini salamlayıram və bu mərasimdə iştirak etdiklərinə görə onlara dərin təşəkkürümü bildirirəm.

Əziz qonaqlar, sizin bu gün bu mərasimdə iştirakınız Bakı–Tbilisi–Qars dəmir yolunun əhəmiyyətini bir daha əyani şəkildə göstərir. Bakı–Tbilisi–Qars dəmir yolu tarixi, strateji əhəmiyyətli layihədir. Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı–Tbilisi–Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bir sözlə, Bakı–Tbilisi–Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaqdır. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcəkdir. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət edəcəkdir. Bu yolun istifadəsi zamanı əminəm ki, turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaqdır. Bakı–Tbilisi–Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və bizim üçün əlavə imkanlar yaradacaqdır.

Biznesin inkişafı, qarşılıqlı faydalı əməkdaşlıq üçün Bakı–Tbilisi–Qars dəmir yolunun çox böyük əhəmiyyəti vardır. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi ilə bağlı anlaşma Gürcüstanda imzalanmışdır, ondan sonra Türkiyədə təməlqoyma mərasimi keçirilmişdir və nəhayət, bu gün biz Azərbaycanda – Ələtdə bu yolun açılışını qeyd edirik. Bu yolun tikintisi Azərbaycan–Gürcüstan–Türkiyə arasındakı dostluğun, qardaşlığın nəticəsidir. Üç ölkə bütün sahələrdə uğurla əməkdaşlıq edir, bir-birini dəstəkləyir, ölkələrimiz, xalqlarımız, eləcə də dünya üçün önəmli olan layihələri icra edirlər. Bakı–Tbilisi–Qars bu layihələrin arasında öz layiqli yerini tutmuş bir layihədir.

Ondan əvvəlki dövrdə biz böyük tarixi əhəmiyyətə malik olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılışını bərabər qeyd etmişdik. Ceyhan şəhərində o təntənəli mərasim mənim xatirimdədir, 2006-cı ildə əziz qardaşım prezident Ərdoğanla birlikdə o

kəməri açmışdıq. Bakı–Tbilisi–Ceyhan neft kəməri Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən böyük infrastruktur layihəsidir və bu gün bu kəmərlə eyni zamanda, Xəzərin şərq hissəsindən də neft nəql edilir. Yəni ölkələrimiz eyni zamanda, başqa ölkələr üçün də tranzit imkanlarını təmin edibdir. Ondan 1 il sonra – 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum kəməri yenə də Azərbaycan–Gürcüstan–Türkiyə arasındakı əməkdaşlıq hesabına inşa edilmişdir. Bu layihə həm Azərbaycanın, həm Gürcüstanın, həm də Türkiyənin enerji təhlükəsizliyini təmin edir və 10 ildir ki, uğurla fəaliyyət göstərir. Üç ölkə eyni zamanda, öz elektrik xətlərini də birləşdirmiş və bu gün bu sahədə əməkdaşlıq uğurla inkişaf edir. Təbii ki, dünya miqyaslı, Avropanın ən böyük infrastruktur layihələrindən olan «Cənub Qaz Dəhlizi» də məhz Azərbaycan, Gürcüstan, Türkiyə və digər ölkələrin birgə fəaliyyəti nəticəsində yaradılır. Bu layihənin icrası uğurla gedir. Bildiyiniz kimi, «Cənub Qaz Dəhlizi»nin 4 hissəsi vardır. «Şahdəniz-2» layihəsi 98 faiz icra edilib. «Cənubi Qafqaz» kəməri Azərbaycanı Gürcüstanla birləşdirən qaz xəttidir, orada icra səviyyəsi 99 faizdir. «Cənub Qaz Dəhlizi»nin əsas hissəsini təşkil edən TANAP layihəsinin icrası 84 faiz səviyyəsindədir. TAP layihəsinin icrası isə təqribən 60 faizə yaxındır. Yəni Bakı–Tbilisi–Qars dəmir yolu da əvvəl icra edilmiş layihələrin əsasında yaradılıbdır. Təbii ki, əgər biz əvvəlki dövrlərdə enerji, neft-qaz sahəsində bu nəhəng, böyükmiqyaslı layihələri icra etməsəydik, bu gün Bakı–Tbilisi–Qars haqqında ancaq danışa bilərdik.

Onu da qeyd etməliyəm ki, bir çoxları, xüsusilə bəzi xarici dairələr Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə inanmırdılar. Hesab edirdilər ki, bunun reallaşması mümkün deyil, bunun reallaşması üçün lazım olan texniki imkanlar və maliyyə vəsaiti imkan verməyəcək ki, bu layihə gerçəkləşdirilsin. Ancaq üç ölkə göstərdi və sübut etdi ki, bu mümkündür. Bizim güclü iradəmiz, qarşılıqlı dəstək, bir-birimizə inam olan yerdə bütün işləri görmək mümkündür. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi bunun əyani misalıdır. Əminəm ki, regional

əməkdaşlığa ən böyük töhfə verən ölkələr – Azərbaycan, Gürcüstan və Türkiyə bundan sonra da daim bir yerdə olacaq, bir-birini dəstəkləyəcəklər. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi kimi nəhəng layihələr bizim birliyimizi, dostluğumuzu daha da möhkəmləndirir.

Bu dəmir yolu layihəsinə Orta Asiya ölkələri, o cümlədən Qazaxıstan böyük maraq göstərir. Həmin ölkələrdən gəlmiş nümayəndə heyətlərinin, yüksəkvəzifəli şəxslərin bu mərasimdə iştirakı bunu əyani şəkildə göstərir. Biz əminik ki, yüklərin daşınması istiqamətində əlavə imkanlar yaranacaq və bizim ölkələrimizin Orta Asiya ölkələri ilə ənənəvi dostluq əlaqələri də bu dəmir yolu vasitəsilə möhkəmləndiriləcəkdir. Avropa üçün bu yolun böyük əhəmiyyəti vardır. Azərbaycan bir neçə Avropa ölkəsi ilə artıq müvafiq danışıqlar aparıbdır. Avropa ölkələri də bu yolun tikintisinə çox böyük maraq göstərir.

Onu da qeyd etməliyəm ki, Azərbaycan eyni zamanda, Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində önəmli addımlar atır. Azərbaycan ərazisində Şimal–Cənub dəmir yolu layihəsi ilə bağlı bütün işlər tamamlanıb, yəni bütün infrastruktur hazırdır. Azərbaycan digər ölkələrdə də infrastrukturun yaradılması ilə bağlı öz texniki və maliyyə imkanlarını ortaya qoyur. Biz indi Şimal–Cənub və Bakı–Tbilisi–Qars nəqliyyat dəhlizlərinin inteqrasiyası istiqamətində işləyirik, çalışırıq və hesab edirəm ki, bu mümkündür. Əminəm ki, gələcəkdə Şimal–Qərb və Cənub–Qərb nəqliyyat yolları istifadəyə veriləcəkdir. Bu 2 nəhəng layihə bir çox böyük ölkələri birləşdirəcəkdir.

Bakı–Tbilisi–Qars tarixi İpək yolunun bir hissəsinin bərpası deməkdir və bundan Çin, Qazaxıstan, Orta Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa ölkələri istifadə edəcəkdir. Şimal–Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Avropa ölkələrini birləşdirəcəkdir. Azərbaycan hər 2 layihədə fəal iştirakçıdır və öz maliyyə resurslarını ortaya qoyan ölkədir.

Bütövlükdə deyə bilərəm ki, Azərbaycan nəqliyyat sektoruna çox böyük önəm verir. Azərbaycanda bu sahəyə çox böyük sərmayə qoyulur. 2004-cü ildən bu günə qədər Azərbaycanda 11000 kilometr avtomobil yolu tikilibdir, 6 beynəlxalq aeroport istifadəyə verilibdir. Bu gün Azərbaycanın çox böyük yük təyyarəsi parkı vardır. Azərbaycanda 20-yə yaxın iri yük təyyarəsi fəaliyyət göstərir. Azərbaycanın Xəzər dənizində ən böyük dəniz donanması vardır – 270 gəmidən ibarət donanma Xəzərdə yükdaşımalarının təşkili üçün xüsusi rol oynayır. Azərbaycanda bir neçə il bundan əvvəl böyük Gəmiqayırma zavodu tikilibdir. Bu zavod bütün növ gəmiləri istehsal edir. Gələcəkdə Xəzərdə yükdaşımalarının gözlənilən artımı ilə bağlı bu zavod daha böyük həcmlə işləyəcəkdir. Əlbəttə, nəqliyyat infrastrukturumuzun önəmli hissəsi, bax, bu gün burada toplaşdığımız Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır. Bu limanın tikintisi uğurla gedir, artıq liman fəaliyyət göstərir. Ancaq limanın birinci fazasının istismara verilməsi gələn ilin ortalarında nəzərdə tutulur. Ondan sonra ildə 15 milyon ton yük və 100 min konteyner bu limandan keçəcəkdir. İkinci mərhələsinin başa çatması nəticəsində isə Ələt limanının imkanları 25 milyon ton yükə və 1 milyon konteynerə bərabər olacaqdır. Yəni son illər ərzində Azərbaycanda nəqliyyat sektoruna qoyulan sərmayə artıq çox güclü infrastruktura gətirib çıxarıbdır. Bu infrastruktur həm ölkəmiz, həm bölgə, həm də dünya üçün böyük əhəmiyyət kəsb edir.

Bir daha qeyd etmək istəyirəm ki, Bakı–Tbilisi–Qars tarixi layihədir, qlobal layihədir. Bu layihə ölkələri bir-birinə daha yaxın edəcəkdir. Bu layihə bölgədə sabitliyin, təhlükəsizliyin təminatı işində öz rolunu oynayacaqdır. Bu layihə bizim iqtisadi imkanlarımızı artıracaq və biz böyük vəsait əldə edəcəyik. Əlbəttə, bir daha demək istəyirəm ki, bu layihənin həyata keçirilməsi ancaq Azərbaycan, Gürcüstan və Türkiyənin birgə səyləri hesabına mümkün olubdur. Biz heç bir yerdən heç bir

yardım, heç bir kredit almadıq, öz daxili imkanlarımız hesabına bu yolu tikdik və bu gün istifadəyə veririk.

Əziz dostlar, bu gözəl tarixi hadisə münasibətilə sizi bir daha təbrik etmək istəyirəm. Əminəm ki, Bakı–Tbilisi–Qars yolu həmişə açıq olacaqdır. Sağ olun.

## Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Hörmətli Prezident!

Hörmətli Baş nazirlər, hörmətli nazirlər, dəyərli qonaqlar!

Sizləri sevgi ilə salamlayıram!

Əvvəlcə əziz dostum İlham Əliyevə və bu mühüm tədbirə ev sahibliyi edən Azərbaycanın aidiyyəti qurumlarına qonaqpərvərliyə görə təşəkkür edirəm.

Qazaxıstanın, Gürcüstanın və Özbəkistanın Baş nazirlərinə də bu gün bu sevincimizə şərik olduqları üçün xüsusilə təşəkkür edirəm.

Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı münasibətilə dostlarımla, qardaşlarımla bir yerdə olmağımdan böyük məmnunluq duyduğumu xüsusi qeyd etmək istəyirəm.

Bu gün yaşadığımız dövrlə yanaşı, gələcəyimiz üçün də çox mühüm addım atırıq. Bu mərasimlə Asiyanı, Avropanı və Afrikanı bir-biri ilə birləşdirmək məqsədilə başlanılan yeni İpək yolu təşəbbüsünün vəsilələrindən birini istifadəyə veririk. Bakı–Tbilisi–Qars dəmir yolunda ilk səfərin reallaşması ilə «Orta dəhliz» layihəsinin ən önəmli mərhələsi başa çatdırılmış olur. Beləliklə, Londondan Çinə birbaşa dəmir yolu xəttinin qurulduğunu da bəyan edirik.

Qətiyyətimizin və uzaqgörənliyimizin əsəri olan bu layihə hamımızın birgə uğurudur. Azərbaycanlı qardaşlarım «Zəhmətlə yeyilən acı soğan minnətlə yeyilən baldan şirindir» deyirlər. Məhz bu baxımdan bu layihə zəhmətlə, fədakarlıqla, alın təri ilə reallaşdırıldığı üçün həqiqətən, çox önəmlidir. Ölkəm və xalqım

adından layihənin bütün bölgəmiz və bütün xalqlarımız üçün xeyirli olmasını Allahdan arzu edirəm.

Dəyərli qardaşlarım, biz dünyanın qəlbi olan, son dərəcə strateji coğrafiyada yaşayırıq. Regionumuz nəqliyyatdan ticarətə, turizmdən enerjiyə qədər böyük potensiala malikdir. Türkiyə xüsusilə son 15 ildə yatırdığımız sərmayələrlə bu potensialı həyata keçirməyə çalışır. Bu günədək Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin davamı olaraq, bir çox xidməti xalqımızın istifadəsinə vermişik. «Mərmərə» sürətli qatar xətlərinin inşası, mövcud dəmir yolu xətlərinin yenilənməsi, İstanbulda inşa etdiyimiz və üzərindən dəmir yolu xəttinin də keçəcəyi üçüncü körpü bu layihələrdən bəziləridir. Yatırdığımız bu sərmayələrlə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin üstünlüyünü və cəlbediciliyini daha da artırdıq. Azərbaycanın Ələt limanı ilə də yalnız 3 ölkəni deyil, bütün Orta Asiya respublikalarını Qərb nəqliyyat marşrutları ilə birləşdiririk. Eyni qaydada Türkmənbaşı limanı vasitəsilə Türkmənistanın Aktau limanı vasitəsilə Qazaxıstanın Avropaya çıxışını təmin edirik. Bakı–Tbilisi–Qars dəmir yolu xətti 1 milyon sərnişin və 6,5 milyon ton yükdaşıma qabiliyyətinə malik olacaqdır. Bu dəmir yolu xəttinin daşıma imkanları 2034-cü ildə isə 3 milyon sərnişin, 17 milyon ton yükə çatacaqdır. Təbii ki, bu, yükdaşımalarda xərcləri ciddi şəkildə azaldacaqdır.

Layihənin əhəmiyyəti tarixi İpək yolu üzərində vaxt və məsafə baxımından nəqliyyatçılarımız üçün ən sərfəli imkanları təqdim etməsindədir. Sürətli qatar xətlərimizin hamısının istifadəyə verilməsindən sonra Çindən gələn yük Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi sayəsində «Orta dəhliz» vasitəsilə 12–15 gündə Avropa İttifaqı ölkələrinə çatacaqdır. Hazırda Çindən Avropaya gedən yükün həcmi 240 milyon tondan çoxdur. Ölkələrimizdən keçən «Orta dəhliz»lə bu yükün 10 faizi daşınacağı halda, bu, 24 milyon ton əlavə yük daşınması deməkdir.

Hörmətli qonaqlar, əlbəttə, belə bir yolun regionumuza faydası yalnız iqtisadi cəhətdən olmayacaqdır. Layihə siyasi

cəhətdən sülh, təhlükəsizlik və sabitlik, sosial baxımdan rifah gətirəcək, yük və sərnişin daşınması ilə yanaşı, məlumat mübadiləsi ilə də ölkələrimizin qlobal inkişafına töhfə verəcəkdir. Regionun qədim dövlətləri kimi, biz həmrəylik və əməkdaşlıq şəraitində fəaliyyət göstərdiyimiz müddətdə daha çox böyük layihələrə imza ata bilərik. Bu günədək həyata keçirdiyimiz Bakı–Tbilisi–Qars, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və TANAP kimi layihələr bundan sonra da edəcəklərimizin təminatıdır. Bu düşüncələrlə Bakı–Tbilisi–Qars dəmir yolunun açılışının və ilk səfərinin bir daha xeyirli olmasını Allahdan diləyirəm. Bu qürur günümüzdə iştirak edən bütün qonaqlarımıza təşəkkürlərimi bildirir, sizi ən səmimi duyğularımla salamlayıram.

**Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin çıxışı**

Çox hörmətli prezident Əliyev!

Çox hörmətli prezident Ərdoğan!

Çox hörmətli Baş nazir Saqintayev!

Çox hörmətli Baş nazir Aripov!

Tacikistandan və Türkmənistandan olan hörmətli hökumət üzvləri, hörmətli xanımlar və cənablar!

İcazə verin, əvvəlcə bu mötəbər mərasimə təşrif buyurduğunuz üçün hamınızı salamlayım. Bugünkü toplantımız ölkələrimiz və bütövlükdə region üçün əlamətdar hadisəyə həsr olunur. Biz bu gün rəsmən Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını elan edirik. Bu da öz növbəsində, birgə layihələrin uğurla həyata keçirilməsinin bariz nümunəsidir.

Bu tədbiri yüksək səviyyədə təşkil etdiyinə və qonşu, dost ölkələrin rəsmilərini dəvət etdiyinə görə mən ilk növbədə, prezident İlham Əliyevə təşəkkürümü bildirmək istəyirəm. Bu da birgə baxışların və maraqların nümayişidir.

Mən fürsətdən istifadə edərək, prezident Ərdoğanı və bütövlükdə Türkiyə xalqını Respublika Günü münasibətilə təbrik et-

mək istəyirəm. Türkiyə, Azərbaycan və Gürcüstanın bu layihədə birgə iştirakı, Qazaxıstanın və Özbəkistanın Baş nazirlərinin, həmçinin Türkmənistan və Tacikistanın hökumət üzvlərinin mərasimdə iştirakı layihənin mühüm əhəmiyyətini, cəlbediciliyini və onun strateji önəmini nümayiş etdirir.

Bu gün region və dünya bir çox təhlükələrlə üz-üzədir. Təəccüblü deyil ki, bizim ölkələrin inkişafına, ölkələr arasında ticari və iqtisadi əlaqələrin genişlənməsinə və bundan irəli gələn sabitliyə yönələn layihə belə yüksək diqqətə layiqdir. Ölkələrimizin geostrateji mövqeyi bizə Avropanı Asiya ilə birləşdirən körpü olmağa nadir imkan yaradır. Əminəm ki, yeni dəmir yolu xətti təkcə bizim regionda deyil, onun ətrafında da mövcud iqtisadi şəraiti dəyişəcək və inkişafın yeni mərhələsini yaradacaqdır. Əminliklə demək olar ki, bu gün yeni Avrasiya körpüsünün təməli qoyulur. Bu, təkcə bizim iqtisadiyyatlarımızı deyil, həmçinin vətəndaşlarımızı da bir-birinə bağlayacaq, onların rifah halını daha da yaxşılaşdıracaqdır.

Yeni dəmir yolu marşrutunun tam işə düşməsi ölkələrimizin tranzit və logistik potensialından daha səmərəli istifadə etməyə imkan yaradacaq, regionun nəqliyyat və ticari statusunu möhkəmləndirəcəkdir. Bakı–Tbilisi–Qars dəmir yolu yükdaşımalarından başqa, ildə 1 milyon sərnişinə xidmət göstərəcəkdir. Yeni dəmir yolunun istismarı müasir infrastrukturun inkişafına da töhfə verəcək, yeni bazarlar mənimsəniləcək, turizm və emal sektoru inkişaf edəcək, yeni iş yerləri yaradılacaqdır. Bu bizim regionumuzun iqtisadi inkişafı üçün mühüm amildir.

Son illər ölkələrimiz arasında əldə olunan uğurları alqışlayırıq. Qeyd etmək istərdim ki, hər bir ölkənin uğuru digər ölkələrin inkişafına, sabitliyinə və təhlükəsizliyinə təminatdır. Bu gün biz nəinki ticari potensialımızı, eyni zamanda, dünyanın ən iri bazarlarına çıxışımızla ölkələrimizi bir-birinə bağlayırıq. Həm dünya bazarlarının məhsulları, həm öz məhsullarımız yeni kommunikasiyanın yaradılmasını tələb edir. Beynəlxalq

yükdaşımaların stimullaşdırılması və ticari-iqtisadi əlaqələrin dərinləşdirilməsi üçün bizim ölkələrimiz yeni nəqliyyat infrastrukturu layihələrinin həyata keçirilməsinə, mövcud olan infrastrukturun modernləşdirilməsi və səmərəli işləməsinə böyük əhəmiyyət verir.

Dəmir yolunun tikintisi və modernləşdirilməsindən başqa, biz liman infrastrukturunu da inkişaf etdiririk və nəqliyyat infrastrukturuna maliyyə dəstəyi göstəririk. Bu da Gürcüstan ərazisində tranzit dəhlizin dördzolaqlı magistral yolunun inşasına yönəldilibdir. Bundan əlavə, Gürcüstan İpək yolunun dirçəlişinə və «Bir kəmər – bir yol» layihəsinin reallaşmasına təşəbbüs göstərir.

Bakı–Tbilisi–Qars dəmir yolunun uğuru öz növbəsində, Çinlə ticari əlaqələrin genişlənməsinə kömək edəcəkdir. Biz şadıq ki, Çin və Avropa İttifaqının ticari tranzit xəritəsində bu marşrut yeni «orta dəhliz» rolunu oynayır. Bu dəhlizi məhz prezident Ərdoğan belə adlandırmışdı. Ərdoğan bu sözləri Çində keçirilən sammitdə söyləmişdi. Bu gün konteyner qatarı Çindən Gürcüstana Qazaxıstan və Azərbaycan ərazisindən keçməklə, 8 günə çatır. Mən fürsətdən istifadə edərək, şəxsi diqqətinə görə prezident Nazarbayevə təşəkkürümü bildirmək istəyirəm. O həmişə bu marşruta böyük diqqət göstərib. Mən əminəm ki, «Bir kəmər – bir yol»un nikbin effekti Orta Asiyanın digər ölkələrinə də yayılacaqdır. İndi artıq imkan var ki, konteynerlər Türkiyə istiqamətinə bu dəmir yolu ilə daşınsın. Biz istəyirik ki, bu yol vasitəsilə Gürcüstan və region maksimal dərəcədə Avropa İttifaqının Transavropa nəqliyyatı şəbəkəsi ilə inteqrasiya olunsun. Əminəm ki, Bakı–Tbilisi–Qars yeni dəmir yolu marşrutu bu məqsədə çatmaqda müstəsna rol oynayacaqdır.

Diqqətinizə çatdırmaq istəyirəm ki, bu il noyabrın 28–29-da Tbilisidə böyük İpək yoluna həsr olunan yüksək səviyyəli beynəlxalq forum keçiriləcəkdir. Bu, artıq Gürcüstanda ikinci görüş olacaqdır. Burada 40-dan çox ölkənin hökumət və özəl sektorunun nümayəndələri iştirak edəcəklər. Belə miqyaslı

görüş bizə bir daha yuxarıda qeyd etdiyimiz dəhlizin əhəmiyyətini nümayiş etdirməyə imkan verəcəkdir. Əlbəttə ki, bu dəmir yolunun əhəmiyyəti çox böyükdür və burada ölkələrin fəal təmsil olunması da çox vacibdir.

Bugünkü tədbirə görə prezident İlham Əliyevə, eyni zamanda, öz dostlarımıza, dost ölkələrin liderlərinə, hökumət nümayəndələrinə, bu illər ərzində öz fədakar və yorulmaz əməyi ilə bu mürəkkəb layihənin reallaşmasına dəstək verən insanlara bir daha təşəkkürümü bildirmək istəyirəm. Ən əsası isə odur ki, bu layihədə burada təmsil olunan ölkələrin mütəşəkkilliyi və birliyi nümayiş olundu. Əminəm ki, belə layihələr və bir-birimizin yanında olmağımız əlaqələrimizi daha da dərinləşdirəcək və təkcə bizim ölkələrimizə deyil, eyni zamanda, regionumuza uğur gətirəcəkdir. Bir daha sizə təşəkkür edirəm. Diqqətinizə görə sağ olun, hamınıza uğurlar diləyirəm.

### Qazaxıstanın Baş naziri Bakıtjan Saqintayevin çıxışı

Hörmətli Azərbaycan və Türkiyə prezidentləri!

Hörmətli Gürcüstan və Özbəkistanın Baş nazirləri!

Hörmətli tədbir iştirakçıları!

Biz bu gün tarixi bir hadisəyə şahidlik edirik. Bu gün gerçəkləşən Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi Türkiyəyə və Şərqi Avropaya, Aralıq dənizinə çıxışı təmin edir. O həm də Avropaya qədər uzanacaq və Transxəzər beynəlxalq daşımalarında əsas təməl layihələrdən biri olacaqdır. Bu yeni dəmir yolu ölkələrimizin nəqliyyat və logistik imkanlarının inkişaf etdirilməsinə töhfə verəcəkdir.

Hörmətli dostlar, Avrasiyanın düz mərkəzində yerləşən Qazaxıstan Avropa ilə Asiya arasında transkontinental daşımaların inkişafi üzrə fəal iş aparır. Biz Bakı–Tbilisi–Qars layihəsinin reallaşdırılmasını dəstəkləyən ilk ölkə olmuşuq. Bu qərar Qazaxıstanın və Çinin dəstəyi ilə Azərbaycan, Türkiyə və Gürcüstan tərəfindən 2016-cı ildə qəbul edilib. Bu mühüm qərarın

paytaxtımız Astanada qəbul edilməsi bizim üçün rəmzi xarakter daşıyır. Layihə Qazaxıstanın Xəzər infrastrukturunda yük axını layihələrini stimullaşdırır, optimal logistikanı formalaşdırır, regionda iqtisadi artımı və ticarəti genişləndirir. Öz tranzit, nəqliyyat potensialının inkişafı və «qızıl körpü» qismində Avrasiyanın qitələrarası sisteminə qoşulması Qazaxıstanın strateji vəzifəsidir. Biz bu vəzifənin yerinə yetirilməsi ilə «Nurlu yol» Dövlət Proqramının reallaşdırılması çərçivəsində səylə məşğuluq. Son 9 il ərzində Qazaxıstanın nəqliyyat-logistik sisteminə yatırılan sərmayə 28 milyard ABŞ dolları həcminə yaxın olub. Biz Transxəzər dəhlizinə dəstək göstərmişik, 1700 kilometr yeni dəmir yolu və 3500 kilometr avtomobil yolu inşa etmişik, Aktau limanının modernləşdirilməsi həyata keçirilib, Kurık bərə limanı tikilibdir. Bu yeni strateji layihə artıq öz zəruriliyini və səmərəliliyini təsdiq edib. Bu yaxınlarda həmin liman vasitəsilə 1 milyon ton yükün daşınma göstəricisi qeydə alınıb. Perspektivdə Xəzərdə Qazaxıstan limanlarının iş qabiliyyəti ildə 25 milyon ton yükdən artıq olacaqdır. Qazaxıstan Transxəzər istiqamətində optimal marşrutların formalaşdırılmasına vəsait ayırıb. Həmin investisiyaların həcmi 10 milyard ABŞ dollarından çox olub. Beləliklə, Çindən, Mərkəzi Asiya ölkələrindən, Rusiyanın Ural–Sibir regionundan Transxəzər dəhlizinə yük axınının ən qısa yolunu təmin etmişik. 2020-ci ilə qədər Qazaxıstanın nəqliyyat-logistika sisteminin inkişafına qoyulacaq əlavə investisiyalar 8 milyard ABŞ dollarından çox olacaqdır. Bu isə böyük İpək yolunun ticari axınına yeni impuls verəcəkdir. Beləliklə, Qazaxıstanın formalaşmış səmərəli nəqliyyat-logistika infrastrukturu optimal logistik bəndin istifadəsi ilə Şərq–Qərb, Çin–Avropa istiqamətləri üzrə yük axınını təmin edir. Bu bənd yükləri Xəzərdən keçməklə, Çinin Lyanyunqan limanından Türkiyəyə, Cənubi Avropaya dəniz nəqliyyatına nisbətən iki dəfə az vaxtda çatdırmağa imkan verir.

Hörmətli mərasim iştirakçıları! Əminəm ki, Bakı–Tbilisi–Qars dəmir yolu dəhlizi regional ticarətin inkişafına hiss olunacaq təkan verəcəkdir. O, iqtisadi artım üçün əlavə potensial yaradacaqdır. Dəhliz bütün Cənubi Qafqaz regionunun sabit və təhlükəsiz inkişafına stimul olacaqdır.

Bu gün Qazaxıstanın Kurık limanından bərə ilə Bakının Ələt limanına Qazaxıstanda və Çində formalaşmış ilk konteyner qatarları gəlibdir. Daha sonra qatarlar Bakı–Tbilisi–Qars marşrutu ilə Türkiyədə yükü qəbul edən məntəqəyə qədər yollarını davam etdirəcəkdir.

Bu tarixi hadisə münasibətilə dövlət başçılarını, bu təntənəli mərasimin bütün iştirakçılarını təbrik etmək istəyirəm. Diqqətinizə görə sağ olun.

## Özbəkistanın Baş naziri Abdulla Aripovun çıxışı

Salam, Türkiyə və Azərbaycanın möhtərəm prezidentləri, Gürcüstan və Qazaxıstanın Baş nazirləri!

Salam, hörmətli xanımlar və cənablar!

İcazənizlə, bizi bu açılışa dəvət etdiyinə görə İlham Heydər oğlu Əliyevə minnətdarlığımı bildirirəm. Məmnunluqla Özbəkistan prezidenti Şavkat Mirziyoyevin salamlarını Sizə çatdırıram.

Hörmətli xanımlar və cənablar! Zənnimizcə, bu mühüm dəmir yolu xəttinin açılması tarixi böyük İpək yolunun bərpası istiqamətində görülən işlərə çox qiymətli töhfədir. Bu yol vaxtilə bizim ölkələrimizin ərazisindən keçib və xalqlarımız arasında ticari, mədəni və mənəvi mübadiləyə təkan veribdir.

Özbəkistan Respublikasının rəhbərliyi Mərkəzi Asiya və qonşu regionların nəhəng tranzit və nəqliyyat-kommunikasiya potensialının istifadəsi sahəsində bizim xarici tərəfdaşlarımızla əməkdaşlığın möhkəmlənməsinə xüsusi diqqət yetirir. Bu gün Özbəkistanda bu istiqamətdə genişmiqyaslı işlər görülür. Belə ki, 2016-cı ildə Kamçi yüksək dağ aşırımından keçən 19 kilometrlik dəmir yolu tuneli ilə Anqreyen Pap dəmir yolu magistralının

tikintisi layihəsi yekunlaşıb. Bu layihə Özbəkistanın vahid dəmir yolu – nəqliyyat sisteminin formalaşdırılması prosesini başa çatdırmağa imkan verib və nəqliyyat infrastrukturunun yeni perspektivlərini açıbdır.

Hörmətli dostlar, biz həmişə böyük diqqətlə və nikbinliklə xarici tərəfdaşlarımızın dəmir yolu, avtomobil, dəniz və hava nəqliyyatı da daxil olmaqla, multimodal tipli şaxələnmiş infrastruktur layihələrinin reallaşdırılmasını müşahidə edir və onların uğurlarına səmimi-qəlbdən sevinirik. Ürəkdən əminik ki, qarşılıqlı əlverişli və səmərəli nəqliyyat dəhlizlərinin işə salınması qlobal iqtisadi inkişaf prosesində ölkələrimizin uğurlu inteqrasiyasına hər cür şərait yaradacaqdır. Bu layihələr xarici investisiyaların cəlb olunması, ixrac potensialının davamlı təminatının uğurlu inkişafı və ölkələrimizdə istehsal olunan məhsulların satışının coğrafiyasının genişləndirilməsi baxımından olduqca vacibdir.

Bu gün zamanın özü gömrük prosedurlarının sinxronlaşdırılmasını, tranzitin və yüklərin gətirilməsinin təşkili zamanı uzunmüddətli əsasda tarif və qeyri-tarif üstünlüklərinin təqdim edilməsi təcrübəsinin davamını diktə edir. Bütün bunlar bizim ölkələrimizdən keçən tranzit dəhlizlərinin cəlbediciliyinin artırılmasına, nəqliyyat infrastrukturunun səmərəli işlənilməsinə və müxtəlif istiqamətlərdə yükdaşımaları həcminin artırılmasına təkan verəcəkdir. Bu cəhətdən bu gün genişmiqyaslı Şərq–Qərb nəqliyyat dəhlizinin mühüm bəndinə çevriləcək Bakı–Tbilisi–Qars dəmir yolunun həm Mərkəzi Asiya ölkələri, həm də bütövlükdə qitənin müvafiq hissəsi üçün əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Şübhə yoxdur ki, regionda işə salınan iri dəmir yolu magistralı Çin ilə Avropa arasında ən qısa dəmir yolu dəhlizi yaratmağa imkan verəcəkdir. Öz növbəsində, Özbəkistan tərəfi bu dəhlizdən fəal istifadə etməkdə və oradan öz xarici ticarət yüklərinin daşınma həcmlərinin artırılmasında maraqlıdır.

Yekunda əminliyimi bildirmək istəyirəm ki, Bakı–Tbilisi–Qars dəmir yolunun işə salınması bizim ticarət-iqtisadi münasibətlərimizin daha da möhkəmlənməsinə, ölkələrimizin tranzit və iqtisadi potensialının əhəmiyyətli dərəcədə artırılmasına imkan yaradacaq, bütövlükdə bütün regionun tərəqqisinə təkan verəcəkdir.

İcazə verin, Sizi – Azərbaycan Respublikasının hörmətli Prezidenti İlham Heydər oğlunu, Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanı, Gürcüstanın Baş naziri Giorgi Camaloviçi və bütün qonaqları bugünkü tarixi hadisə münasibətilə bir daha təbrik edim, eləcə də qardaş Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarına firavanlıq və tərəqqi arzulayım. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Çıxışlardan sonra Türkiyənin Baş naziri Binəli Yıldırımın müraciəti oxundu.*

*Türkiyə hökumətinin başçısı müraciətində Azərbaycan paytaxtında yaşanan tarixi gün – Bakı–Tbilisi–Qars dəmir yolunun açılması münasibətilə təbriklərini çatdırdı və bu layihəni ölkələrimiz arasındakı münasibətlərin göstəricisi kimi qiymətləndirdi. Bundan əlavə, o, Çindən başlayaraq, bütün Orta Asiya ölkələrini əhatə etməklə, Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirərək, Avropaya uzanan, tarixi İpək yolunun önəmli hissəsini təşkil edən Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin Avrasiya coğrafiyasında mədəniyyətlərin birləşməsinə xidmət etdiyini bildirdi. Layihənin hər üç ölkənin birgə səyləri ilə ərsəyə gəldiyini deyən Binəli Yıldırım bu dəmir yolu xəttinin xalqlarımıza və ölkələrimizə səmərə verəcəyinə əminliyini ifadə etdi.*

*Sonra Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi ilə bağlı qısa film nümayiş olundu. Filmdə layihənin icrasına başlanıldığı vaxtdan görülən işlər, onun texniki-iqtisadi əhəmiyyəti, region və dünya üçün önəmi haqqında danışıldı.*

*Dövlət və hökumət başçıları Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin çivlərini vurdular və yoldəyişən qurğunu işə saldılar. Bununla da Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə hərəkət edən ilk yük qatarı yola salındı.*

*Dövlət və hökumət başçıları memorial daşın üzərindən örtüyü götürdülər və birgə foto çəkdirdilər.*

*Sonda qatarla açılış mərasiminin keçirildiyi Ələt limanından Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə Ələt dəmir yolu stansiyasına yola düşdülər.*

* * *

*Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı–Tbilisi–Qars dəmir yolu xətti qədim İpək yolunun polad magistrallar üzərində bərpasıdır.*

*Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə dair Saziş 2007-ci il fevralın 7-də Tbilisidə imzalanıb. Elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli qoyulub, 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars–Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirilibdir. Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin 504 kilometri Azərbaycan, 263 kilometri Gürcüstan, 79 kilometri isə Türkiyə ərazisindən keçir.*

*Proqnozlara görə, Bakı–Tbilisi–Qars dəmir yolu ilə üçüncü istismar ilində 3–5 milyon ton, beşinci istismar ilində 6–8 milyon ton yük, bundan sonra isə ildə 3 milyon sərnişin və 17 milyon ton yük daşınacaqdır. Bu dəmir yolu ilə 1 günə Qarsa, 2 gün yarıma isə İstanbula getmək mümkün olacaqdır. Bu isə regionda turizmin inkişafına güclü təsir göstərəcəkdir. Bütün bunlar Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin əhəmiyyətini, onun təhlükəsizliyini, etibarlılığını, sürət və vaxt tezliyini aydın göstərir. Belə ki, bu yol istifadəyə veriləndən sonra mövcud yükdaşımalarla müqayisədə zaman fərqi 2 dəfəyədək azalacaqdır.*

*Müstəqillik tariximizin möhtəşəm layihələrindən birinin reallaşmasına rəhbərlik etməklə, Azərbaycan növbəti dəfə təsdiqlədi ki, regional və qlobal əhəmiyyətli layihələri uğurla həyata keçirə bilər. Bunu Bakı–Tbilisi–Qars dəmir yolunun geosiyasi və geoiqtisadi səmərəsinə nəzər saldıqda da görürük. Belə ki, bu dəmir yolu xəttinin işə düşməsi regionda sabitliyə və iqtisadi inkişafa böyük töhfədir və onun imkanları sayəsində Azərbaycan, Gürcüstan və Türkiyə mühüm tranzit qovşağına çevrilir. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin perspektivlərindən danışarkən qeyd etməliyik ki, Asiyada yüklərin əsas istehsal ölkəsi olan Çin artıq bu xəttə böyük maraq göstərir. Bu layihə Qazaxıstan üçün də səmərəlidir. Çünki bu yol Türkiyənin Mersin limanı vasitəsilə Aralıq dənizi regionuna çıxışı təmin edir. Odur ki, bu dəmir yolu xətti Transavropa və Transasiya dəmir yolu şəbəkələrinin birləşməsində çatışmayan bağlantını tamamlayır, bununla da Avropa ilə Asiya arasında daşımalarda yekun bənd kimi çıxış edir. Bu layihənin tarixi İpək yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və eyni zamanda, bu coğrafiyada yerləşən türkdilli ölkələrin inteqrasiyasında mühüm əhəmiyyət daşıyır. Bakı–Tbilisi–Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.*

*Bakı–Tbilisi–Qars layihəsinin əsas üstünlüklərindən biri də odur ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə, Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu isə iki dövlət arasında münasibətləri daha da möhkəmləndirməyə xidmət edir. Digər məsələ bu layihənin Naxçıvan Muxtar Respublikasına qədər uzanmasıdır. Gələcəkdə Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da muxtar respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə səbəb olacaqdır.*

*Bununla da Avropa ilə Asiyanı birləşdirən və dünyanın 100 böyük layihəsi siyahısına daxil olan Bakı–Tbilisi–Qars dəmir yolu*

*xəttinin inşası xüsusi strateji əhəmiyyət daşıyır. Çünki Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amildir. Bu həm də layihənin icrasında nadir əməkdaşlıq formatı göstərən 3 ölkə – Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı əlaqələrin strateji təzahürünü bütün dünyaya nümayiş etdirir. Ən əsası isə bu dəmir yolunun işə düşməsi regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa ən böyük töhfədir. Bu töhfənin təməlində Azərbaycan, Gürcüstan və Türkiyənin sarsılmaz dostluğu və qardaşlığı dayanır.*

# BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN AÇILIŞI MƏRASİMİNİN İŞTİRAKÇILARI ÜÇÜN VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*30 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev, Gürcüstan Respublikasının Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər oktyabrın 30-da Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı mərasiminin iştirakçıları üçün verilmiş ziyafətdə iştirak etmişlər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*31 oktyabr 2017-ci il*

*Bakıda oktyabrın 31-də Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası keçirilmişdir. Bununla əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Respublikasının Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və prezident Rəcəb Tayyib Ərdoğan Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Türkiyənin və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Azərbaycanın və Türkiyənin dövlət və hökumət nümayəndələri prezidentlərlə görüşdülər.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*31 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 31-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının əlaqələrimizin perspektivlərinin müəyyənləşdirilməsi və ikitərəfli münasibətlərimizin daha da dərinləşdirilməsi baxımından önəmi vurğulandı. Qlobal layihə olan Bakı–Tbilisi–Qars dəmir yolunun açılışının əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN–TÜRKİYƏ YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ ALTINCI İCLASINDA İŞTİRAK

*31 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə oktyabrın 31-də Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası keçirilmişdir.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Cənab Prezident, biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Bu gün biz təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik. Bir daha gördük ki, Türkiyə–Azərbaycan əlaqələri ən yüksək səviyyədədir, ən yüksək zirvədədir. Əlaqələrimizin inkişafı ilə bağlı bizim fikirlərimiz üst-üstə düşür.

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının bugünkü toplantısı da əminəm ki, çox uğurlu nəticə verəcəkdir. Gündəlikdə bir çox məsələlər var – siyasi əlaqələr, beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimiz, iqtisadi sahədə əməkdaşlıq, hərbi, hərbi-texniki əməkdaşlıq, təbii ki, enerji, nəqliyyat məsələləri. Yəni gündəlik kifayət qədər genişdir və bütün istiqamətlər üzrə çox yaxşı nəticələr vardır. Bizim qəbul etdiyimiz qərarlar icra edilir və hökumətlərarası birgə Komissiya da çox uğurla fəaliyyət göstərir.

Əminəm ki, bu gün geniş tərkibdə müzakirə ediləcək məsələlər də yaxşı nəticələr verəcəkdir. Bir daha xoş gəlmisiniz!

**Rəcəb Tayyib Ərdoğan:** Hörmətli Prezident, dəyərli heyət üzvləri!

Əvvəlcə, gəldiyimiz andan bəri göstərdiyiniz qonaqpərvərliyə görə həm öz adımdan, həm də nümayəndə heyətinin adından çox təşəkkür edirəm.

Dünən və bu gün keçirdiyimiz görüşlərdə Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığın, dostluğun necə yüksək səviyyəyə çatdırıldığını xüsusi sevinc hissi ilə müşahidə edirik.

Xüsusilə indi Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsini, atdığımız addımın nəticəsini görmək bizi çox qürurlandırır. Dünən 15 dəqiqəlik dəmir yolu səyahətimizi vətəndaşlarımız, xalqlarımız gördülər. İnşallah, onların tezliklə təkcə Qarsdan Bakıya deyil, Pekinə, Londona getdikləri günləri də hamımız birlikdə görəcəyik və dualarını eşidəcəyik. Bu münasibətlə dəyərli qardaşım, Sizə, həmçinin memarından mühəndisinə, podratçısına qədər bütün firmalara, əməyi olan bütün nazir yoldaşlarımıza çox təşəkkür edirəm.

Bu münasibətlə bu gün keçirdiyimiz Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasının da xeyirli olmasını diləyirəm. Sağ olun.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*31 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə oktyabrın 31-də Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası başa çatdıqdan sonra Azərbaycan–Türkiyə sənədlərinin imzalanması mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının Protokolu»nu imzaladılar.*

*«Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında ali təhsil sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Təhsil naziri Mikayıl Cabbarov və Türkiyə Respublikasının Ali Təhsil Şurasının rəhbəri Yekta Saraç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Təhsil naziri Mikayıl Cabbarov və Türkiyə Respublikasının Təhsil naziri İsmət Yılmaz imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial ticarət sazişinin imzalanmasına dair Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının İqtisadiyyat naziri Şahin Mustafayev və Türkiyə Respublikasının İqtisadiyyat naziri Nihat Zeybekci imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında müdafiə sənayesi sahəsində əmək-*

*daşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Müdafiə naziri Zakir Həsənov və Türkiyə Respublikasının Milli Müdafiə naziri Nurəttin Canikli imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında yem bitkiləri toxumu istehsalı və sertifikatlaşdırılması sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu imzaladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*31 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 31-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Əziz qardaşım, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Biz dünən tarixi Bakı–Tbilisi–Qars dəmir yolunun açılışında birlikdə iştirak etmişik və bu gün Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının növbəti toplantısını keçirmişik. Toplantıda müzakirə olunan məsələlər, demək olar ki, həyatımızın əsas sahələrini əhatə edir. Həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş görüşdə bir daha gördük ki, Türkiyə–Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən ikinci ölkələr yoxdur. Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir. Təbii ki, müzakirə olunan məsələlərlə bağlı bizim aramızda fikir birliyi vardır. Bütün məsələlər öz həllini, həyatda öz əksini tapır.

Təbii ki, bu gün biz siyasi əlaqələrimizin gələcək inkişafını müzakirə etdik. Siyasi əlaqələr çox uğurla inkişaf edir. Yüksək səviyyəli qarşılıqlı səfərlər həyata keçirilir. Mən bu il iki dəfə Türkiyədə olmuşam. Bu gün Türkiyə Prezidenti Azərbaycanda səfərdədir. Nazirlər, digər vəzifəli şəxslər tez-tez görüşürlər. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində də biz hər zaman olduğu kimi, bir-birimizi dəstəkləyirik. Bütün beynəlxalq təşkilatlarda Türkiyə–Azərbaycan həmişə bir-birinin yanındadır.

Bu gün region üçün ən ağrılı problemlərdən biri olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də müzakirə edildi. Mən prezident Ərdoğana danışıqlarla bağlı son vəziyyət haqqında məlumat verdim. Əfsuslar olsun ki, bu münaqişə hələ də öz həllini tapmayıb. Azərbaycanın tarixi, əzəli torpağı olan Dağlıq Qarabağ və digər 7 rayon işğal altındadır. İşğal nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma torpağında köçkün vəziyyətinə düşübdür. Beynəlxalq təşkilatlar, xüsusilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edibdir. O qətnamələrdə göstərilir ki, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, bu qətnamələr kağızda qalır, Ermənistan buna məhəl qoymur və münaqişə öz həllini tapmır. Bu bizə qarşı göstərilən ikili standartlar siyasətidir. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir. Bizə gəldikdə isə 20 ildən çoxdur ki, bu qətnamələr, qərarlar icra olunmamış qalır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməz ki, bizim tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Mən prezident Ərdoğana Türkiyənin bu məsələ ilə bağlı Azərbaycana verdiyi dəstəyə görə bir daha öz minnətdarlığımı bildirmişəm. Türkiyə hər zaman, bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işini dost kimi, qardaş kimi dəstəkləyir.

Bu gün biz hərbi sahədə əməkdaşlıq haqqında geniş müzakirə apardıq. Bu məsələ gündəlikdə duran məsələlərdəndir. Bu il Azərbaycanda 3 dəfə – 2 dəfə Bakıda, 1 dəfə Naxçıvanda birgə hərbi təlimlər keçirilib. Bu da hərbi sahədə bizim əməkdaşlığımızı gücləndirən amildir. Eyni zamanda, hərbi texniki sahədə birgə fəaliyyətimiz davam edir. Türkiyənin gündən-günə inkişaf edən hərbi sənaye kompleksi bizim üçün böyük maraq kəsb edir. Biz Türkiyədən hərbi təyinatlı məhsulları alırıq və bundan sonra da alacağıq.

Bu gün iqtisadi sahədə imzalanmış sənəd böyük əhəmiyyət kəsb edir. Preferensial, yəni imtiyazlı ticarət sazişi böyük məna daşıyır. Əminəm ki, bu sazişin qüvvəyə minməsi nəticəsində aramızda olan ticarət dövriyyəsi də xeyli artacaqdır. Bu gün eyni zamanda, qarşılıqlı sərmayə qoyuluşu – investisiyalar haqqında aidiyyəti qurumların rəhbərləri məruzələr etdilər. Bu günə qədər Azərbaycandan Türkiyəyə 10 milyard, Türkiyədən Azərbaycana isə 11 milyard dollar sərmayə qoyulubdur. Bu sərmayələrin həcmi artacaq və Azərbaycandan Türkiyəyə yatırılacaq sərmayə 20 milyard dollara çatmalıdır.

Türkiyə şirkətləri Azərbaycanda uzun müddətdir ki, uğurla fəaliyyət göstərir. Türkiyə firmaları bu günə qədər dövlət xətti ilə, Azərbaycanın dövlət büdcəsi hesabına 11 milyard dollar dəyərində müxtəlif işlər görmüşlər. Biz çox şadıq. Onların gördükləri işlər çox keyfiyyətlidir. Bu da iş adamları arasındakı dostluğu, əməkdaşlığı gücləndirir.

Təbii ki, bugünkü toplantıda enerji, nəqliyyat məsələləri ənənəvi olaraq müzakirə edildi. Burada da qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapdı. Biz qarşıya qoyduğumuz hədəflərə doğru inamla irəliləyirik. Əminəm ki, TANAP layihəsi yaxın zamanlarda başa çatacaqdır. Bu layihənin icrası ilə bağlı heç bir problem yoxdur. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi isə dünən artıq istismara verildi. Bu tarixi günü biz qardaşımla birlikdə, bizim Türkiyədən gəlmiş qardaş-bacılarımızla birlikdə qeyd etdik. Bu bizim böyük uğurumuzdur, böyük qələbəmizdir.

Bu bir daha göstərir ki, Türkiyə və Azərbaycanın iştirak etdikləri və təşəbbüskarları olduqları bütün layihələr icra edilir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TANAP və Bakı–Tbilisi–Qars layihələri bu sıradan olan qitə miqyaslı böyük transmilli layihələrdir. Bizim birliyimiz, bizim dostluğumuz bütün bunları mümkün edibdir.

Bu gün Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı, birliyi bölgə üçün önəmli amildir, bölgədə sabitləşdirici rol oynayır. Güclənən Türkiyə bizim gücümüzü artırır və biz də sizin uğurlarınıza ürəkdən sevinirik. Əziz qardaşımın liderliyi sayəsində Türkiyə bu gün dünya miqyasında böyük gücə çevrilibdir. Dostlar sevinir, düşmənlər isə məyus olur. Qoy həmişə dostlarımız sevinsin. Əminəm ki, biz bundan sonra da ancaq inkişaf, tərəqqi və qələbə yolu ilə gedəcəyik. Türkiyə–Azərbaycan birliyi, qardaşlığı əbədi olacaqdır. Sağ olun.

## Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Çox hörmətli qardaşım prezident İlham Əliyev!

Hörmətli nazirlər, mətbuat nümayəndələri!

Əvvəlcə, gəldiyimiz andan etibarən heyətimizə göstərilən qonaqpərvərliyə görə dəyərli qardaşıma şəxsən öz adımdan və heyətim adımdan çox təşəkkür edirəm.

Hazırda biz təbii ki, xarici ölkədə deyilik, evimizdəyik. Ona görə bu səfərimizin özünəməxsus tərəfi Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısını keçirməyimiz, digər tərəfdən, bildiyiniz kimi, dünən Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını etməyimiz bizi Asiya–Avropa xəttinin, qitələrin birləşməsi nöqtəsində daha güclü bir səviyyəyə çatdırıbdır.

Göründüyü kimi, artıq yalnız müəyyən sahələr üzrə qitələri bir-birinə bağlamırıq. Enerji xətləri məsələsində də davamlı olaraq belə bağlantıların qurulması Türkiyə ilə Azərbaycan arasındakı bu əlaqələrin, bu həmrəyliyin nə qədər güclü olduğunu göstərir. TANAP bunun ən gözəl nümunəsidir.

Hazırda TANAP ilə bağlı işlər intensiv şəkildə davam edir. İnşallah, çox davam etməyəcək, qısa müddətdən sonra Azərbaycan qazı buradan Avropaya nəql olunacaqdır.

Təbii ki, bu bəzi qüvvələri narahat edir. Bildiyiniz kimi, Bakı–Tbilisi–Qars dəmir yolu inşa ediləndə «Bunu necə inşa edəcəksiniz? Bunun həyata keçmə ehtimalı yoxdur» – deyənlər var idi. Ancaq dünən açılışını etdik, qatarımızı səfərə yola saldıq və biz də 15 dəqiqə səfərdə olduq. İnşallah, bundan sonra oradan da on minlərlə, yüz minlərlə sərnişinə təkcə Bakı–Tbilisi–Qars deyil, elə bir gün gələcək ki, Pekindən Londona qədər bu xətdən istifadə etmək qismət olacaqdır. Bunları, inşallah, görəcəyik. Allah bizə o günləri də göstərəcəkdir. Mən buna inanıram.

Bu yolla təkcə insanlar səfər etməyəcəklər. Buradan çox ciddi yükdaşımaları da olacaq ki, bu da xüsusilə iqtisadiyyata faydası baxımından, bu yüklərin ucuz qiymətə daşınması baxımından çox böyük önəmə malikdir. Digər mühüm məsələ artıq Türkiyə və Azərbaycan arasında 1,6 milyard dollarlıq ticarət dövriyyəsinin həcmidir ki – neftin qiymətlərinin aşağı düşməsi ilə əlaqədar bir qədər çətinlik oldu, ancaq indi yenidən vəziyyət düzəldi – əminəm, bunu qısa müddətdə 5 milyard dollara çatdıra bilərik. İnşallah, buna nail olacağıq. Türkiyə və Azərbaycan hər sahədə bu addımları atacaqdır. Dünən Nazirlər Kabinetimiz bir qərar qəbul etdi. Qarşıya Naxçıvandan Türkiyəyə ildə 120 milyon dollarlıq idxal həcmi hədəfini qoyduq. Beləliklə, Naxçıvanı daha da inkişaf etdirmək, canlandırmaq üçün «Sən yalnız deyilsən, qardaş» – deməyin, inşallah, addımını atacağıq.

Təbii ki, bütün bunlarla yanaşı, siyasi, hərbi, iqtisadi, ticari, mədəni sahələrdə Türkiyə–Azərbaycan həmrəyliyi güclənməkdə davam edir. Bir az əvvəl qardaşımın da dediyi kimi, həm bizim qarşılıqlı səfərlərimiz, həm də nazirlərimizin intensiv görüşləri Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin, həmrəyliyin hansı səviyyədə olduğunu göstərir. Qurumlarımızın gördüyü işlər də eyni qaydada. Xüsusilə son zamanlar müdafiə

sənayesi sahəsindəki həmrəyliyimiz təbii ki, böyük əhəmiyyət kəsb edir. Əlbəttə, turizmi inkişaf etdirmək, mədəni əlaqələrimizi, həmçinin universitetlər arasındakı əlaqələrimizi genişləndirmək məqsədilə atdığımız və atacağımız addımlar da böyük əhəmiyyət daşıyır.

Beləliklə, Türkiyənin və Azərbaycanın həm bu həmrəyliyi, həm də beynəlxalq təşkilatlardakı həmrəyliyi çox vacibdir. Qarşıda Azərbaycanın EKSPO məsələsi vardır. Türkiyə təbii ki, bu məsələdə də bütün imkanları, bütün gücü ilə Azərbaycanı dəstəkləyəcəkdir. EKSPO-nun burada hazırlanmasında və keçirilməsində bütün təcrübəmizi bölüşməyə çalışacağıq.

Gəldiyimiz andan etibarən həm şəxsən mənə, həm də nümayəndə heyətimə göstərilən diqqətə görə bir daha minnətdarlığımı bildirirəm. «Türkiyə–Azərbaycan həmrəyliyi, qardaşlığı yaşasın!» – deyirəm.

## İRAN İSLAM RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*1 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də İran İslam Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Tehranın Mehrabad Beynəlxalq Aeroportunda dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi İranın İqtisadi İşlər və Maliyyə naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri Məsud Kərbasian və digər yüksəkvəzifəli dövlət və hökumət rəsmiləri qarşıladılar.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*Tehran*

*1 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Tehranda İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan və İran xalqları arasında tarixi, mədəni və dini köklərin mövcudluğunun əlaqələrimizin möhkəmlənməsində rolu qeyd edildi. Son 5 ildə dövlət başçıları arasında 10 görüşün keçirilməsi uğurlu əməkdaşlığımızın səviyyəsinin göstəricisi kimi qiymətləndirildi, siyasi əlaqələrin uğurla inkişaf etdiyi bildirildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olundu. Prezident İlham Əliyev Ermənistanın işğalçılıq siyasəti və münaqişənin həlli ilə bağlı danışıqlar prosesinin vəziyyəti barədə məlumat verdi. Hərbi və hərbi-texniki sahədə əməkdaşlıq məsələləri və bu istiqamətdə perspektivlər müzakirə olundu, regional məsələlərə toxunuldu, terrorizm və ekstremizmə qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparıldı. Qeyd edildi ki, Azərbaycan–Rusiya–İran üçtərəfli əməkdaşlığı böyük potensiala malikdir və bu format çox önəmli sahələrdə əməkdaşlıq üçün yaxşı nəticələr verə bilər.*

*Görüşdə iqtisadi əməkdaşlıq məsələləri müzakirə olundu, ticarət dövriyyəsinin keçən il 70 faiz, bu ilin 9 ayında isə 33 faiz artması yüksək qiymətləndirildi. Söhbət zamanı qarşılıqlı sərmayə qoyuluşu, energetika, neft-qaz, nəqliyyat sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinin uğurla icra olunduğu vurğulandı.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Tehran*

*1 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Tehranda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşmüşdür.*

**V l a d i m i r P u t i n**: Hörmətli İlham Heydər oğlu!

Sizi görməyimə çox şadam – bu dəfə Tehranda. Biz müntəzəm görüşürük və telefonla danışırıq, daimi əlaqədəyik. Bu təbiidir, çünki bizim ölkələrimiz arasındakı münasibətlər xüsusi xarakter daşıyır. Sözsüz ki, bu, strateji tərəfdaşlıq xarakteridir.

Biz Sizinlə Azərbaycan ilə Rusiyanın nə qədər tellərlə bağlı olduğunu bilirik. Qeyd etməliyəm ki, ikitərəfli əlaqələrin inkişafı üzrə, ümumiyyətlə, səylərimiz hədər getmir. Mən bu ilin ilk doqquz ayında əmtəə dövriyyəsinin artımını nəzərdə tuturam. Bu, demək olar ki, 62 faizdir.

Biz digər istiqamətlərdə də işləyirik, regional problematika üzrə daim məsləhətləşirik. Sizinlə ikitərəfli formatda görüşmək imkanına görə çox şadam.

**İ l h a m Ə l i y e v:** Sağ olun, Vladimir Vladimiroviç!

Mən də Sizi yenidən görməyimə çox şadam. Biz bu il dəfələrlə görüşmüşük və bizim görüşlərimiz həmişə yaxşı nəticələrə aparıb çıxarır. Çünki biz münasibətlərin inkişafına yeni impuls veririk. Çox şadıq ki, iqtisadi sahədə də əmtəə dövriy-

yəsi müəyyən mürəkkəb proseslərdən sonra artır. Bu, biznes qurumları arasında böyük qarşılıqlı marağın olduğunu göstərir, əmtəə dövriyyəsinin artımı da bizim iqtisadiyyatımızın bərpasının, qarşılıqlı marağın göstəricisidir.

Bizim Rusiya ilə münasibətlərimiz strateji xarakter daşıyır və biz həmin münasibətləri elə bu cür səciyyələndiririk. Bütün istiqamətlərdə – humanitar, iqtisadi, energetika, nəqliyyat, hərbi-texniki sahələrdə əməkdaşlıq edirik. Buna görə də bu, dostlar, qonşular, yaxın tərəfdaşlar arasında tammiqyaslı münasibətlərdir.

Həmçinin çox şadam ki, bugünkü görüş üçtərəfli sammit müstəvisində keçir. Mən deyərdim ki, bu da qlobal miqyaslı çox mühüm hadisədir. Çünki bu əməkdaşlıq dərin tarixi köklərə və bizim ölkələrimizin beynəlxalq arenada göstərdikləri qarşılıqlı maraqlara, qarşılıqlı dəstəyə əsaslanır. Belə ki, yeni görüşümüzə və əminəm ki, əlaqələrimizin möhkəmlənməsinə yeni təkan verəcək mühüm məsələləri müzakirə edəcəyimizə çox şadam.

## İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*Tehran*

*1 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Tehranda İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamenei ilə görüşmüşdür.*

*Görüşdə xalqlarımız arasındakı tarixi, mədəni və dini bağlılığın ölkələrimizi bir-birinə daha da yaxınlaşdırdığı qeyd edildi. Azərbaycan ilə İran arasındakı dostluq əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi.*

*İki ölkə arasında əlaqələrin bundan sonra da inkişaf etməsi üçün yaxşı imkanların mövcudluğu vurğulandı.*

## AZƏRBAYCAN, İRAN VƏ RUSİYA DÖVLƏT BAŞÇILARININ ÜÇTƏRƏFLİ ZİRVƏ GÖRÜŞÜ

*Tehran*

*1 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin noyabrın 1-də Tehranda üçtərəfli Zirvə görüşü keçirilmişdir.*

*İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və Rusiya Federasiyasının Prezidenti Vladimir Putini qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Sonra dövlət başçılarının üçtərəfli Zirvə görüşü keçirildi.*

*İran, Azərbaycan və Rusiya prezidentləri görüşdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli prezidentlər!

Hörmətli Zirvə görüşünün iştirakçıları!

İlk növbədə, İran İslam Respublikasının Prezidenti cənab Həsən Ruhaniyə göstərdiyi qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Bugünkü Zirvə görüşünün böyük əhəmiyyəti vardır. Bu görüş keçən il yaradılmış üçtərəfli, yüksək səviyyəli əməkdaşlıq formatının möhkəmləndirilməsi işində mühüm addımdır.

Keçən ilin avqust ayında Bakıda İran, Rusiya, Azərbaycan prezidentlərinin ilk Zirvə görüşü keçirilmişdir. Görüşün gözəl

nəticələri üçtərəfli əməkdaşlığın dərinləşməsinə xidmət etmişdir. Əminəm ki, bugünkü görüş də bir çox önəmli məsələlərin həllində öz rolunu oynayacaqdır.

Azərbaycan dünyada yeganə ölkədir ki, onun həm İran, həm də Rusiya ilə sərhədləri vardır. Ölkələrimizin coğrafi vəziyyəti əməkdaşlığımızın önəmli amilidir. Xalqlarımızın tarixi əlaqələri isə 3 ölkə arasında tərəfdaşlığın möhkəm təməlini təşkil edir. Azərbaycan İran və Rusiya ilə beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq həyata keçirir. İranla İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı Rusiya ilə MDB, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində birgə fəaliyyətimizi qeyd etmək istərdim. Biz BMT çərçivəsində də fəal əməkdaşlıq edirik. Bu gün dünyada beynəlxalq hüquq normalarının bərqərar olması gündəlikdə duran ən önəmli məsələlərdən biridir. Əfsuslar olsun ki, bir çox hallarda bu normalar işləmir və kobudcasına pozulur. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi buna əyani misaldır. Ermənistan Azərbaycanın əzəli torpağı, ayrılmaz hissəsi olan Dağlıq Qarabağı və ətraf 7 rayonu 20 ildən çoxdur ki, işğal altında saxlayır. İşğal edilmiş torpaqlarda Azərbaycan əhalisi etnik təmizləmə siyasətinə məruz qalıb, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür.

Qeyd etmək lazımdır ki, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən bu münaqişə ilə bağlı müvafiq qərar və qətnamələr qəbul olunubdur. Bunların sırasında dünyanın aparıcı qurumu olan BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrini, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər təşkilatların qəbul etdiyi oxşar qərar və qətnamələri göstərmək olar. Ancaq Ermənistan buna məhəl qoymur, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmir, işğalçı siyasətini davam etdirir. Erməni işğalına tezliklə son qoyulmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri dərhal icra edilir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul edilmiş qətnamələr isə 20 ildən çoxdur ki, kağız üzərində qalır. Bu, ikili standartların göstəricisidir. Bugünkü status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Bizim qaçqın və köçkünlərimiz öz ata-baba torpaqlarına qayıtmalı və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir.

Hörmətli görüş iştirakçıları, üçtərəfli format iqtisadi əməkdaşlığımızın daha yüksək səviyyəyə qaldırılması üçün yaxşı imkan yaradıbdır. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu gündəlikdə olan vacib məsələlərdəndir. Qeyd etmək lazımdır ki, Azərbaycanın Rusiya və İran ilə ticarət dövriyyəsi 2017-ci ilin yanvar–sentyabr aylarında 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artıbdır. Gələcəkdə biz bu müsbət dinamikanı saxlamalı və artırmalıyıq. İrandan və Rusiyadan Azərbaycan iqtisadiyyatına qoyulan sərmayənin həcmi artır. Keçənilki Zirvə görüşündən sonra İran şirkətləri Azərbaycanda Avtomobil və Dərman Preparatları zavodlarının tikintisinə iri həcmdə sərmayələr qoymuşdur. Rusiya şirkəti daha bir Dərman Preparatları zavodunun tikintisinə böyük sərmayə yatırır. Azərbaycan da öz növbəsində, hər iki ölkəyə sərmayə qoyuluşunu artırır. Bu sərmayə layihələri qarşılıqlı dostluğun və inamın təzahürüdür. Üç ölkə arasında əlaqələrin uğurlu inkişafının nəticəsi olaraq, biznes dairələri də daha inamla sərmayə qoymağa başlamışlar. Ümid edirəm ki, bugünkü Zirvə görüşü də ölkələrimizin biznes dairələrinin daha da ruhlandırılmasına və qarşılıqlı sərmayə qoyuluşunun artırılmasına xidmət edəcəkdir.

Ölkələrimiz neft-qaz sahəsində də uğurlu əməkdaşlıq həyata keçirir. İran və Rusiya şirkətləri 20 ildən artıqdır ki, Xəzərin Azərbaycan sektorunda neft-qaz yataqlarının işlənilməsində iştirak edir.

Elektroenergetika sahəsində də əməkdaşlıq inkişaf edir. Azərbaycan həm İran, həm də Rusiya ilə öz enerji xətlərini birləşdiribdir. Azərbaycanın və Rusiyanın enerji sistemləri para-

lel iş rejimində fəaliyyət göstərir. İki ölkənin enerji sistemlərini Xaçmaz–Dərbənd və Yalama elektrik verilişi xətləri birləşdirir. İran–Azərbaycan enerji sistemlərini isə İmişli–Parsabad elektrik xətləri birləşdiribdir. Araz çayında Ordubad və Marazad Su-Elektrik stansiyalarının tikintisi haqqında imzalanmış Saziş qüvvəyə minib və icra edilir. Ordubad Su-Elektrik Stansiyasının tikintisi uğurla gedir.

Nəqliyyat sektorunda da üçtərəfli əməkdaşlıq yaxşı nəticələr verir. Bu il Azərbaycan öz dəmir yolunu İran sərhədinə qədər inşa edibdir. Eyni zamanda, Astara çayı üzərində 82 metr uzunluğunda dəmir yolu körpüsü tikib istifadəyə vermişik. Bundan əlavə, İran ərazisində 1,4 kilometr yol və terminalların tikilməsi üçün 35 hektarlıq ərazi Azərbaycan tərəfindən uzunmüddətli icarəyə götürülübdür.

Bu il 3 ölkə arasında dəmir yollarında daşınma tarifləri razılaşdırılıbdır. Beləliklə, Azərbaycan–Rusiya sərhədindən Azərbaycan–İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilibdir. Bu yol Şimal–Cənub nəqliyyat dəhlizinin önəmli hissəsidir. Azərbaycan İran ərazisində Astara–Rəşt dəmir yolunun tikintisinin maliyyələşdirilməsində iştirak etməyə hazırdır. Artıq İran tərəfi ilə Astara–Rəşt dəmir yolunun tikintisi və avadanlıqlarla təchiz olunması layihəsi üzrə 500 milyon dollar dəyərində kredit sazişi ilə bağlı danışıqlar bu yaxınlarda uğurla başa çatıbdır.

Gələn il Bakı–İran sərhədi müasir magistral avtomobil yolu istismara veriləcəkdir. Bakı–Rusiya sərhədi magistral avtomobil yolunun son hissəsinin inşası da gələn il ən yüksək səviyyədə başa çatdırılacaqdır. Beləliklə, Şimal–Cənub nəqliyyat dəhlizinin Azərbaycan hissəsinin yaradılması prosesi son mərhələyə qədəm qoyub. Şimal–Cənub nəqliyyat dəhlizi bir çox ölkələr üçün böyük əhəmiyyət kəsb edir.

Hörmətli həmkarlar, bizi birləşdirən Xəzər dənizi ümumi sərvətimizdir. Xəzər sülh, dostluq və əməkdaşlıq dənizidir. Xəzər

dənizində sərhəd mühafizəsi işində etibarlı əməkdaşlıq mövcuddur.

Rusiya Müdafiə Nazirliyinin təşəbbüsü ilə keçirilən «Beynəlxalq Ordu oyunları – 2017» çərçivəsində bu yaxınlarda Bakıda «Dəniz kuboku – 2017» beynəlxalq yarışları təşkil olundu. Bundan əlavə, hərbi dəniz qüvvələrimizin gəmiləri qarşılıqlı olaraq dostluq səfərləri həyata keçirir. Xəzərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, narkotrafik, qaçaqmalçılığa qarşı birgə mübarizə yaxşı nəticələrə gətirib çıxarıbdır. Bu sahələrdə əməkdaşlıq böyük əhəmiyyət kəsb edir.

Azərbaycan sivilizasiyalararası, dinlərarası dialoqun möhkəmləndirilməsi işinə də öz töhfəsini verir. Bizim təşəbbüsümüzlə 2008-ci ildə başlanan, 100-dən çox müsəlman və xristian ölkəsini birləşdirən «Bakı prosesi» BMT tərəfindən dəstəklənir və yüksək qiymətləndirilir.

2015-ci və 2017-ci illərdə 100-dən çox ölkənin iştirakı ilə Bakıda keçirilən birinci Avropa və IV İslam Həmrəyliyi oyunları idman yarışları olmaqla bərabər, eyni zamanda, mədəniyyətlərarası dialoqa verdiyimiz növbəti töhfə idi.

Çıxışımın sonunda qeyd etmək istərdim ki, İran, Rusiya, Azərbaycan üçtərəfli əməkdaşlığı regionda təhlükəsizliyin, sabitliyin, iqtisadi inkişafın təmin olunmasına xidmət edir. Bu əməkdaşlıq əyani şəkildə göstərir ki, qonşular arasında münasibətlər necə qurulmalıdır. Biz dostluq və mehriban qonşuluq nümunəsi göstəririk.

Bizim əlaqələrimiz qarşılıqlı hörmət, anlaşma, xoş niyyət və dostluq prinsiplərinə əsaslanır. Əminəm ki, üçtərəfli əməkdaşlığımız gələcəkdə də uğurla davam etdiriləcəkdir.

Diqqətinizə görə sağ olun.

* * *

*Görüşün sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Zirvə görüşünün Birgə Bəyannaməsini imzaladılar.*

## AZƏRBAYCAN, İRAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLARI

*Tehran*

*1 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin noyabrın 1-də Tehranda üçtərəfli Zirvə görüşü başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### İran prezidenti Həsən Ruhaninin bəyanatı

Hörmətli qonaqlar!

Rusiya Federasiyasının Prezidenti möhtərəm cənab Vladimir Putinə və Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə təşəkkürümü bildirirəm. Mənim dəvətimi qəbul edib Tehrana gəliblər ki, ikinci üçtərəfli görüşümüzü keçirə bilək. Bu görüş üç ölkənin dostluğuna və qonşuluğuna əsaslanır. Ölkələrimiz arasındakı dostluq, səmimiyyət, coğrafi qonşuluq və mədəni əlaqələr səbəb oldu ki, biz əlaqələrin genişləndirilməsi üçün daha əzmkar olaq və mövcud imkanlardan istifadə edək.

Həm Bakı, həm də Tehran görüşündə çox mühüm məsələləri müzakirə etdik. Biz o məsələləri bundan sonra da həll etməyə çalışacağıq.

Birinci məsələ 3 ölkə arasında tranzit məsələsidir. Eləcə də Asiya regionu ilə Avropa regionu arasında tranzitin yaradıl-

masıdır. Əslində bu 2 qitəni Şimal–Cənub nəqliyyat dəhlizi birləşdirəcəkdir. Biz qərar qəbul etdik ki, Bəndər-Abbas limanı Helsinkiyə birləşsin və beləliklə, Asiya Avropa ilə birləşdirilsin. Bu tranzit marşrutu Azərbaycan, Rusiya, Şərqi və Şimali Avropadan keçir. Biz eləcə də avtomobil yolları və dəniz nəqliyyatı sahəsində də əməkdaşlığın genişləndirilməsini istəyirik. Xəzərin sahilində yerləşən 3 ölkə bu dənizin regionda sülh dənizi olaraq, imkanlarından istifadə edib ölkələrimizin inkişafına nail olmalıyıq.

İqtisadi sahədə də 3 ölkənin əlaqələrini daha da gücləndirməyi qərara almışıq. Biz bu sahədə çox önəmli bir addım – Avrasiya İttifaqına birləşmək üçün addım atmışıq. Bu, İran ilə Avrasiya İttifaqı arasında əlaqələrin genişləndirilməsi üçün çox mühüm addımdır. Həmçinin biz 3 ölkə arasında yaşıl gömrük zonasının yaradılmasını və vahid gömrük standartlarının tətbiq edilməsini istəyirik.

Bankçılıq sahəsində əməkdaşlığın genişləndirilməsi, milli valyutadan istifadə olunması məsələsinə də toxunduq. Biz İran ilə Azərbaycan, İran ilə Rusiya, eləcə də 3 ölkənin bir-biri ilə ikitərəfli və üçtərəfli ticari mübadilələrdə özlərinin milli valyutalarından istifadə imkanlarını müzakirə etdik.

Enerji sahəsində əməkdaşlıq üçün çox yaxşı imkanlar vardır. Hər 3 ölkə neft və qaz ehtiyatlarına, regionda çox imtiyazlı bir mövqeyə malikdir. Bizim bir-birimizlə texnoloji sahədə, neft-qaz istehsalı və ixracı sahələrində əməkdaşlığımız və bu sahələrə müştərək investisiyaların yatırılması çox önəmlidir. Biz 3 ölkənin elektrik enerjisi şəbəkələrinin bir-birinə birləşdirilməsini çox vacib hesab edirik və biz ölkələrimizin elektrik enerjisindən qarşılıqlı olaraq istifadə etməliyik.

Xəzər dənizində ekoloji sahədə də əməkdaşlığı çox istəyirik və bu dənizin 3 sahil ölkəsi olaraq, biz əməkdaşlığı genişləndirməliyik. Eləcə də Xəzər dənizinin hüquqi statusunun təyin olunmasını tezliklə sona çatdırmalıyıq ki, bu dənizin imkanlarından istifadə edək.

Cənab Vladimir Putin təklif etdi ki, növbəti görüş Rusiyada keçirilsin və biz bunu qəbul etdik. Biz cənab Putinə bu təklifinə görə təşəkkür edirik. Növbəti görüşümüz gələn il Rusiyada keçiriləcəkdir.

Biz 3 ölkə arasında əməkdaşlıqdan əlavə, regional əməkdaşlıq, regional təhlükəsizlik sahəsində əməkdaşlıq barədə də danışdıq. Hər 3 ölkənin regionun təhlükəsizliyində, xüsusən də terrorizm və radikalizmlə mübarizədə rolu çox önəmlidir. Xüsusilə də Rusiya ilə bizim əməkdaşlığımız çox səmərəli olub. İranın, Türkiyənin və Rusiyanın Astanada keçirilən müzakirələri Suriyada sülhün bərqərar olması üçün çox önəmli idi. Bu görüşümüzdə də hər 3 ölkənin regional təhlükəsizlik, terrorizmlə, radikalizmlə, narkotik qaçaqmalçılığı ilə mübarizə sahələrində əməkdaşlıqla bağlı müzakirələr apardıq.

Biz mehriban qonşuluq siyasətimizlə, öz imkanlarımızdan istifadə etməklə, ölkələrimizin və xalqlarımızın inkişafı üçün bir-birimizə kömək etməliyik. Sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli prezident Ruhani!

Hörmətli prezident Putin!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab prezident Ruhaniyə dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Yenidən qardaş ölkədə olmağımdan çox məmnunam. Bu gün biz Azərbaycan–İran və Azərbaycan–Rusiya əlaqələrinin gələcək inkişafı ilə bağlı prezident Ruhani və prezident Putin ilə görüşlər keçirdik. Bir daha gördük ki, bizim əlaqələrimiz çox uğurla, sürətlə inkişaf edir və əlaqələrimiz yüksək səviyyədədir.

Üçtərəfli əməkdaşlıq formatına gəldikdə, bildiyiniz kimi, birinci Zirvə görüşü ötən ilin avqust ayında Azərbaycanın təşəbbüsü ilə Bakıda keçirilmişdir. Bugünkü Zirvə görüşü isə onu göstərir ki, bu formatın çox böyük əhəmiyyəti və gözəl gələcəyi

vardır. Üçtərəfli əməkdaşlığımız tam təbiidir. Çünki xalqlarımızı ortaq tarix, coğrafiya birləşdirir. Əsrlərboyu xalqlarımız bir-biri ilə sıx əlaqədə olmuşlar.

Üçtərəfli əməkdaşlıq formatının regional təhlükəsizlik üçün böyük əhəmiyyəti vardır. Hesab edirəm ki, bizim uğurlu əməkdaşlığımız regionda sabitliyin, təhlükəsizliyin təmin edilməsində çox mühüm rol oynayır. Əlbəttə, bizi birləşdirən bir çox iqtisadi infrastruktur layihələridir ki, prezident Ruhani bu barədə öz çıxışında söylədi. Azərbaycan dünyada yeganə ölkədir ki, onun həm Rusiya ilə, həm İranla quru sərhədi var və bu coğrafi yerləşmə, əlbəttə, diktə edir ki, biz bütün sahələrdə çox uğurlu əməkdaşlıq edək.

Keçən Zirvə görüşündən ötən dövr ərzində çox önəmli hadisələr baş veribdir. Cəmi 1 ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, ötən il əldə edilmiş razılaşmalar bu gün həyatda öz əksini tapır. Xüsusilə iqtisadi sahədə əməkdaşlığı qeyd etməliyəm. Bu gün də Zirvə görüşü zamanı rəqəmlər səsləndirildi, bizim Rusiya ilə bu il ticarət dövriyyəmiz 60 faizdən çox, İranla 30 faizdən çox artıbdır. Keçən il İran–Azərbaycan ticarət dövriyyəsi isə 70 faiz artıbdır. Bu ilk növbədə, onu göstərir ki, 3 ölkə arasında çox səmimi dostluq münasibətləri vardır. Təbii ki, iqtisadi sektor, biznes dairələri bunu görür və bundan faydalanır. Artan ticarət dövriyyəsi göstərir ki, bizim iqtisadiyyatımız uğurla inkişaf edir və dünyada neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizim iqtisadiyyatımıza ciddi təsir göstərməmişdir.

Keçən Zirvə görüşündən ötən dövrdə Azərbaycan öz dəmir yolu infrastrukturunu təkmilləşdirib və İran sərhədinə qədər qalan hissəni inşa edibdir. Həmçinin Astaraçay üzərində körpü də tikilib və birinci qatar Azərbaycan–İran sərhədini bu ilin mart ayında keçibdir. Hazırda Şimal–Cənub nəqliyyat dəhlizinin Azərbaycan ərazisində olan hissəsi tam istismara hazırdır. Eyni zamanda, mən bunu da Zirvə görüşü zamanı söylədim, mətbuat da bunu bilsin, İran ilə Azərbaycan arasında Astara–Rəşt dəmir yolunun maliyyələşdirilməsi ilə bağlı

razılaşmalar əldə edilib, sənəd paraflanıb və indi daxili prosedurlar təşkil ediləndən, o prosedurlardan keçəndən sonra bu məsələ də öz həllini tapacaqdır.

Neft-qaz sahəsində əməkdaşlığımızın tarixi vardır. Bu əməkdaşlıq da təbiidir. Çünki üç ölkə dünya enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verir. Neftin qiymətinin sabitləşməsində ölkələrimizin çox böyük rolu olubdur. Bu gün biz görürük ki, OPEK və qeyri-OPEK ölkələri bir-biri ilə səmimi əməkdaşlıq edir və bu əməkdaşlıq nəticəsində hazırda neftin qiyməti məqbul səviyyəyə qalxıbdır.

Biz həm İranla, həm Rusiya ilə elektrik xətlərimizi birləşdirmişik və bu da regional əməkdaşlıq üçün çox gözəl zəmin yaradır. Bir sözlə, 1 il ərzində bir çox məsələlər öz həllini tapıb və bu gün əldə edilmiş razılaşmalar və Tehran Bəyannaməsinin icra edilməsi nəticəsində əminəm ki, gələn Zirvə görüşünə qədər biz daha da yaxşı nəticələr haqqında ictimaiyyəti məlumatlandıracağıq.

Bir daha demək istəyirəm ki, bizim əməkdaşlığımız təbiidir, səmimidir, dostluq, qarşılıqlı hörmət əsasında qurulubdur və bu əməkdaşlıq xalqlarımız, ölkələrimiz və region üçün çox böyük əhəmiyyət daşıyır.

Bu Zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyi üçün prezident Ruhaniyə bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

## Rusiya prezidenti Vladimir Putinin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Öz tərəfimdən birgə işimizin nəticələri ilə bağlı məmnunluğumu bildirmək istərdim. İran rəhbərliyinə dəvətə görə, Tehran sakinlərinə isə şəhərdə bizim gediş-gəlişimizə səbirlə dözdüklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Biz bunun heç də asan olmadığını gördük. Amma ümidvaram ki, bizim bugünkü işimiz hədər getmədi. Biz həqiqətən, üçtərəfli formatın çox mühüm məsələlərini müzakirə etdik və əminəm ki, bu

minvalla işimiz aşkar xoşniyyətli, müsbət nəticəyə doğru səylərlə ölkələrimizə, dövlətlərimizə və xalqlarımıza fayda gətirəcəkdir.

Biz sabitlik, cinayətkarlıqla, terrorizmlə mübarizə sahələrində mühüm məsələləri müzakirə etdik, amma əsas diqqət iqtisadi xarakterli problemlərə yönəlibdir. Mənim həmkarlarım artıq bu barədə danışdılar. Mən təkrarlamaq istəməzdim. Yalnız əlavə etmək istərdim ki, burada haqqında danışılan çox mühüm Şimal–Cənub dəhlizi artıq sınaq rejimində işləyir. Ötən il Hindistandan İran vasitəsilə Rusiyaya və digər ölkələrə yüklər göndərilib. Bu marşrut öz iqtisadi məqsədyönlülüyünü və səmərəliliyini nümayiş etdiribdir.

Yaxşı məlumdur ki, Rusiya, İran və Azərbaycan iri karbohidrogen istehsalçılarıdır. Amma bu o deмək deyil ki, biz rəqabət aparmalıyıq. Bu o deməkdir ki, biz öz səylərimizi əlaqələndirməliyik. Yeri gəlmişkən, OPEK çərçivəsində əlaqələndirmə artıq öz müsbət nəticələrini verib. Amma bu kartelə üzv olmayan ölkələr həmin işə qoşulmasaydılar, bu, mümkün olmazdı. Qaz istehsalçıları təşkilatı çərçivəsində də eyni hadisə baş verir. Burada da biz əməkdaşlıq edirik və gələcəkdə də əməkdaşlıq edəcəyik. Mən diqqəti ona yönəltmək istərdim ki, bizim ölkələrimizin hər birində karbohidrogenlərin böyük həcmdə istehsalına baxmayaraq, nə qədər qəribə olsa da, bu xammalı bir-birimizə göndərməyə maraq vardır. Mən daxili logistikanı nəzərdə tuturam. Məsələn, biz İranın şimalına Azərbaycanın boru kəməri nəqliyyat sistemləri ilə qazı göndərməyə hazır olduğumuzu təsdiq edirik. Bu da bizim tərəfdaşlarımız üçün iqtisadi cəhətdən məqsədyönlü ola bilər. Biz digər sektorlarda münasibətlərin inkişafından da danışmışıq. Bizim nöqteyi-nəzərimizcə humanitar, təhsil, səhiyyə sahələrində əməkdaşlıq, dövlətlərimizin regionları arasında əlaqələr və təbii ki, mədəniyyət sahəsində əlaqələr olduqca mühümdür. Təbii ki, mənim həmkarlarım da bu barədə danışdılar. Biz hamımız Xəzəryanı dövlətlərik. Ümidvaram ki,

biz Xəzər problematikası, Xəzərin statusu ilə bağlı yaxın vaxtlarda imzalanacaq razılaşmalarımızın bütün parametrlərini uyğunlaşdıracağıq.

Bugünkü səfər zamanı ikitərəfli danışıqlar da baş tutdu. Azərbaycan Prezidenti ilə biz tez-tez görüşürük. Biz müəyyən, daha mühüm istiqamətlər üzrə mövqelərimizi dəqiqləşdirdik, ikitərəfli formatda əmtəə dövriyyəsinin artımını qeyd etdik və qarşılıqlı fəaliyyətimizin perspektiv istiqamətləri barədə danışdıq. Prezident Ruhani ilə, təbii ki, ikitərəfli əlaqələr, o cümlədən iqtisadiyyat sahəsində əlaqələr barədə danışdıq. Bu həm energetika, həm nəqliyyat maşınqayırması və kənd təsərrüfatıdır. İranın Ali Rəhbəri ilə də ətraflı danışıq baş tutdu. Danışıq çox məzmunlu, çox faydalı idi. Hər iki görüşdə biz regionda təhlükəsizliklə bağlı vəziyyəti, İranın nüvə problematikası ilə əlaqədar müqavilə və təbii ki, Suriyadakı vəziyyət məsələlərini ətraflı müzakirə etdik. Mən qeyd etmək istərdim ki, biz İranla olduqca məhsuldar işləyirik. Bizim birgə səylərimiz, həmçinin Türkiyənin səyləri sayəsində Suriya problematikası ilə bağlı məsələləri razılaşdıra bilirik. Bildiyiniz kimi, terrorizmlə mübarizə sahəsində Astanada keçirilən və növbəti raundu yenicə müsbət yekunlaşan danışıqlar prosesi uğurla inkişaf edir. Burada hələ çox məsələlər, problemlər vardır. Bunlardan heç birini birtərəfli qaydada həll etmək mümkün deyil. Bu problemi heç bir tərəf, heç bir ölkə birtərəfli qaydada həll edə bilməz. Biz iranlı tərəfdaşlarımız və dostlarımızla gələcək müsbət əməkdaşlığa bel bağlayırıq və bugünkü səfərin nəticələrini çox yüksək qiymətləndiririk. Bugünkü iş zamanı yaradılan ab-havaya görə Prezidentə təşəkkürümü bildirmək istəyirəm. Diqqətə görə minnətdaram.

* * *

*Sonra rəsmi ziyafət verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi ziyafətdə iştirak etdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyevin İran İslam Respublikasına işgüzar səfəri noyabrın 1-də başa çatdı.*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞİNZO ABEYƏ**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Yaponiya münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da möhkəmlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın genişlənməsi yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə fəaliyyətinizdə daim uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2017-ci il*

## MONTENEQRONUN XARİCİ İŞLƏR NAZİRİ SRCAN DARMANOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Monteneqronun Xarici İşlər naziri Srcan Darmanoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən çox yaxşı əlaqələrin, yüksək səviyyəli əməkdaşlıq formatının mövcud olduğunu deyən dövlətimizin başçısı Monteneqro Prezidenti və Baş nazirinin Azərbaycana, özünün isə Monteneqroya səfərlərini məmnunluqla xatırlatdı, həmçinin müxtəlif nazirlər və digər rəsmi şəxslərin də qarşılıqlı səfərlər həyata keçirdiyini qeyd etdi, bütün bu səfərlərin ikitərəfli əməkdaşlığımızın inkişaf etdirilməsi baxımından əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin iqtisadiyyat, enerji, sərmayə qoyuluşu, ticarət və turizm daxil olmaqla, müxtəlif sahələrdə əməkdaşlıq etdiyini dedi. Azərbaycan ilə Monteneqro arasında enerji sahəsində əməkdaşlıq haqqında imzalanmış Memoranduma toxunan dövlətimizin başçısı bu istiqamətdə işlərin uğurla aparıldığını qeyd etdi, Memorandumun bu baxımdan çox faydalı olacağına ümid etdiyini bildirdi.*

*Həm Azərbaycanın, həm də Monteneqronun inkişaf etmiş turizm infrastrukturuna malik olduğunu bildirən prezident İlham Əliyev hər iki istiqamətdə daha çox turistlərin gəlməsinə ehtiyac olduğunu qeyd etdi.*

*Azərbaycana ilk dəfədir ki, səfər etdiyini vurğulayan Monteneqronun Xarici İşlər naziri Srcan Darmanoviç ölkəmizin qısa müddət ərzində əldə etdiyi nailiyyətlərin onda dərin təəssürat*

*yaratdığını bildirdi. Səfəri çərçivəsində Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etməkdən şərəf duyduğunu deyən Srcan Darmanoviç ulu öndərin Azərbaycanın inkişafında böyük rol oynadığını vurğuladı, prezident İlham Əliyevin onun siyasətini uğurla davam etdirdiyini və ölkənin sürətli inkişafına nail olduğunu dedi.*

*Dövlət başçısı Monteneqronun Xarici İşlər naziri Srcan Darmanoviçin Bakıya səfərinin ölkəmizlə bağlı daha çox təəssüratlar əldə etməsi baxımından önəmli olacağına əminliyini bildirdi.*

## RUSİYA FEDERASİYASI FEDERASİYA ŞURASININ SƏDR MÜAVİNİ İLYAS UMAXANOV VƏ DAĞISTAN RESPUBLİKASI XALQ MƏCLİSİNİN SƏDRİ XİZRİ ŞİXSAİDOV İLƏ GÖRÜŞ

*2 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Rusiya Federasiyası Federasiya Şurasının Sədr müavini, ikitərəfli Komissiyanın həmsədri İlyas Umaxanovu və Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin Sədri Xizri Şixsaidovu qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Sizi yenidən görməyimə çox şadam. Bu il həm İlyas Maqomedsalamoviç, həm də Xizri İsayeviç Azərbaycan dövlətinin ali ordeni – «Dostluq» ordeni ilə mükafatlandırılıblar. Müvafiq sərəncamlar mənim tərəfimdən bu ilin martında və iyulunda imzalanıb. Demək istəyirəm ki, Azərbaycanda sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirlər. Sizin fəaliyyətiniz Rusiya Federasiyası ilə Azərbaycanın, Dağıstanla Azərbaycanın qardaşlıq əlaqələrinin möhkəmlənməsinə yönəlib. Siz Dağıstanın nümayəndələrisiniz. Dağıstanı Azərbaycan ilə çoxəsrlik dostluq, qardaşlıq, əməkdaşlıq telləri bağlayır. O cümlədən Siz Rusiya dövlətinin, Rusiya hökumətinin nümayəndələrisiniz. Siz Moskvada və Dağıstanda Rusiya Federasiyasının inkişafı işində çox mühüm rolu yerinə yetirirsiniz. Həmçinin çox uğurla tərəqqi edən Rusiya ilə Azərbaycan arasında əlaqələrin inkişafında mühüm rol oynayırsınız. Azərbaycanda sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirlər, bizim xalqımızın, ölkəmizin böyük dostları kimi tanıyırlar.

Bizim xalqlarımız arasında mövcud olan sıx əlaqələr bu gün uğurla inkişaf edir. Elə dünən axşam Rusiya prezidenti Vladimir Vladimiroviç Putinlə növbəti görüşdə biz münasibətlərimizin ikitərəfli gündəliyinə nəzər yetirdikdə aşkar etdik ki, öz həllini tələb edən heç bir məsələ yoxdur. Biz sadəcə, əldə olunan nailiyyətləri – həm iqtisadi, həm nəqliyyat, həm enerji, həm də siyasi sahələrdə əməkdaşlığımızın nəticələrini yada saldıq və müvafiq qurumlara münasibətlərin gələcək inkişaf yollarını müəyyənləşdirmək üçün göstərişlər verdik. Yəni bu, münasibətlərin elə bir səviyyəsinin göstəricisidir ki, hətta prezidentlər səviyyəsində həllini tələb edən hansısa xüsusi məsələ yoxdur. Bütün məsələlər çox uğurla həll edilir. Əlbəttə, bu gün Rusiya və Azərbaycan mehriban qonşuluq, tərəfdaşlıq və etibarlı dostluğun yüksək səviyyəsini nümayiş etdirirlər. İlyas Maqomedsalamoviç və Xizri İsayeviç, şəxsən sizin rolunuz böyükdür. Mən sizin Rusiya–Azərbaycan münasibətlərinin möhkəmlənməsinə necə səy göstərdiyinizi və töhfə verdiyinizi dərindən bildiyimə görə bunu tamamilə səmimi deyirəm.

*Dövlətimizin başçısı «Dostluq» ordenlərini İlyas Umaxanova və Xizri Şixsaidova təqdim etdi.*

**İlyas Umaxanov** *(Rusiya Federasiyası Federasiya Şurasının Sədr müavini, ikitərəfli Komissiyanın həmsədri):* İlham Heydər oğlu, mən səmimi minnətdarlığımı bildirmək istərdim. Yəqin ki, Xizri İsayeviç də bu minnətdarlıq sözlərinə qoşular. Çünki bizim üçün Azərbaycanın bu yüksək mükafatını Prezidentdən almaq böyük şərəfdir. Biz bu mükafatı dövlətlərarası, parlamentlərarası əlaqələrin və əlbəttə, regionlararası, ilk növbədə, bizim sevimli Dağıstanla əməkdaşlığın möhkəmlənməsi istiqamətində qərarların qəbul edilməsinə göstərdiyimiz kiçik töhfələrə verilən qiymət kimi dəyərləndiririk. Mən fəxr edirəm ki, bizim soyadları uzun illər dostluq və hörmət birləşdirib. Bu münasibətlər müharibə və müharibədən sonrakı illərə gedib çıxır. Həmin illərdə Sizin babanız Dağıstan Vilayət Partiya Komitəsinin Birinci katibi idi. O,

faktiki olaraq, mənim atamı ordudan geri çağıraraq, Dağıstan Vilayət Partiya Komitəsinin hərbi şöbəsinə rəhbərliyi təklif etmişdi. Sonralar Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyevi Dağıstanla, atamla, Dağıstan rəhbərləri ilə xüsusi, yəqin ki, müstəsna etimadlı münasibətlər birləşdirirdi. Güman edirəm ki, bütün sonrakı nəsillərin vəzifəsi Sizin bu gün Vladimir Vladimiroviç Putinlə ləyaqətlə apardığınız dostluq, əməkdaşlıq, gələcəyə yönəlmiş estafeti qəbul edərək, fəal davam etdirməkdir.

Çox hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji, bizim qardaş Azərbaycana isə rifah və tərəqqi arzulamaq istəyirəm. Bugünkü gün unudulmazdır.

**X i z r i  Ş i x s a i d o v** *(Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin Sədri):* Əgər bir-iki söz demək mümkündürsə, mən İlyas Maqomedsalamoviçin dediklərinə qoşuluram. Amma Əziz Əliyevin Dağıstan üçün tarixi rolunu xatırlatmaq istərdim. O əslində dağıstanlıları Sibirə sürgün olmaqdan xilas edib. Bu deportasiya isə Dağıstan üçün böyük itkilərə səbəb ola bilərdi. Biz indiyədək bunu yaxşı xatırlayırıq. Bu gün şəhərlərdə onun adını daşıyan küçələr, təhsil müəssisələri vardır. Mahaçqalanın mərkəzi küçələrindən biri onun adını daşıyır, 6 metrlik heykəli ucaldılıbdır. Bu abidənin qarşısına müxtəlif əlamətdar günlərdə insanlar toplaşır, gül-çiçək gətirir və ona etdiyi bütün işlərə görə təşəkkürlərini bildirirlər. Mən həmçinin Azərbaycanın qonşusu olaraq demək istəyirəm ki, biz bu insanları doğma, yaxın hesab edirik. Biz Azərbaycanın bütün istiqamətlərdə – siyasi, iqtisadi sahələrdə iri addımlarla irəliləməsindən çox məmnunuq. İnsanlara, öz xalqınıza olan belə münasibətə görə sağ olun. Əlbəttə, bunun əsasını ümummilli lider, böyük Heydər Əliyev qoyubdur.

*Xizri Şixsaidov dövlət başçımızın sözlərini xatırladaraq bildirdi ki, prezident İlham Əliyev öz çıxışlarında Dağıstanın Azərbaycana çox yaxın bir diyar olduğunu söyləmişdir və bu sözlərə görə bir daha minnətdarlığını ifadə edərək dedi:*

– Dağıstana, Rusiyaya belə münasibətə görə çox sağ olun. Biz həmişə dostluğa sadiq, əsrlərboyu bir yerdə yaşayan və bir-birini dəstəkləyən etibarlı, yaxın xalqlar olacağıq. Azərbaycan xalqına təzim edirəm. Sizə isə cansağlığı və uzun ömür arzulayıram.

**İ l h a m Ə l i y e v:** Xoş sözlərinizə görə çox sağ olun. Mən bir daha sizin dediklərinizi təsdiqləmək istəyirəm. Çox sağ olun ki, xatırlayırsınız. Bu həqiqətən də belədir. Dağıstan bizim üçün qardaş diyardır. Azərbaycan və Dağıstan xalqları arasında tarixi, ənənəvi qardaşlıq münasibətləri Qafqazda və bizim regionumuzda sabitliyin vacib amilidir. Həmçinin dağıstanlılara Əziz Əliyevin xatirəsini əziz tutduqlarına görə minnətdarlığımı bildirmək istərdim. Onun nəvəsi və Azərbaycan Prezidenti kimi, bu mənim üçün çox qiymətlidir. Dağıstandakı qardaşlarımıza onun xatirəsinin əbədiləşdirilməsinə, abidəsinin ucaldıldığına, küçəyə onun adının verilməsinə görə dərin təşəkkürümü bildirirəm. Bu gün Azərbaycanın rəhbəri kimi, əlbəttə, mən öz fəaliyyətimdə bu tarixi xatirəni qəlbimdə saxlayıram. O, Dağıstanı, dağıstanlıları çox sevirdi. Onlar da onu sevirdilər. Onun xatirəsinin qorunması böyük işdir. Əlbəttə, bu gün onu da qeyd etmək istərdim ki, bizim ənənəvi münasibətlərimizin möhkəmlənməsində Dağıstanın rəhbəri İlyas Maqomedsalamoviçin atası Maqomedsalam Umaxanov və Heydər Əlirza oğlu Əliyev böyük rol oynamışlar. Mən onların keçən əsrin 70–80-ci illərindəki münasibətlərini, görüşlərini, söhbətlərini xatırlayıram. Bu gün biz onların davamçılarıyıq. Münasibətlərimizi yeni keyfiyyət səviyyəsinə qaldırırıq. Bir daha sizi təbrik edirəm, Rusiya, Dağıstan və Azərbaycan naminə uzun fəal ömür arzulayıram.

# XALQ ARTİSTİ RAUF ABDULLAYEVƏ «İSTİQLAL» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*2 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, Xalq artisti, Dövlət mükafatı laureatı Rauf Abdullayevə «İstiqlal» ordenini təqdim etmişdir.*

**İ l h a m Ə l i y e v:** İlk növbədə, sizi yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illərdir ki, Azərbaycanın musiqi sənətinə böyük töhfə verirsiniz, 20 ildir ki, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və dirijoru vəzifəsində çalışırsınız. Sovet dövründə – keçən əsrin 80-ci illərində də bu orkestrə rəhbərlik etmisiniz. Ondan sonra bir müddət xaricdə çalışmısınız və 20 il bundan əvvəl Azərbaycana qayıdıb yenə də bu orkestrə rəhbərlik etməyə başlamısınız. 20 ildir ki, bizim hamımızı öz sənətinizlə sevindirirsiniz.

Ulu öndər Heydər Əliyev sizin fəaliyyətinizə çox yüksək qiymət verirdi. Mən sizinlə onun çoxsaylı görüşlərinin şahidi olmuşam. Bilirəm ki, onun sizə münasibəti çox yaxşı, çox müsbət idi. Bütün rəsmi tədbirlərdə siz iştirak edirdiniz.

Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir. Siz 1997-ci ildə «Şöhrət», 2012-ci ildə isə «Şərəf» ordenləri ilə təltif olunmusunuz. Bu yaxınlarda mənim sərəncamımla Azərbaycan dövlətinin ali ordeni olan «İstiqlal» ordeni ilə də təltif edilmisiniz.

* * *

*Prezident İlham Əliyev «İstiqlal» ordenini Xalq artisti Rauf Abdullayevə təqdim etdi.*

*Xalq artisti Rauf Abdullayev ümummilli lider Heydər Əliyevin incəsənət adamlarına, o cümlədən onun rəhbərlik etdiyi orkestrə daim diqqət göstərdiyini minnətdarlıqla xatırlatdı.*

**R a u f A b d u l l a y e v** *(Xalq artisti):* Ulu öndər Heydər Əliyev bizə, bizim orkestrə həmişə dəstək göstərirdi, həmişə bizim yanımızda idi. Hər dəfə konsertlərdən sonra yığışanda söhbət zamanı həmişə soruşardı, nə var-nə yox, işlər necədir? Arzularımızı ona söyləyərdik və hamısını həll edərdi. Bu bizə böyük qayğı idi.

Siz də onun layiqli davamçısı olaraq bizim incəsənət, mədəniyyət işçilərimizə həmişə hörmət edirsiniz, onlara fəxri adlar, ordenlər verirsiniz. Sizin qayğınızı hamımız hiss edirik. Biz də Sizə, Mehriban xanıma möhkəm cansağlığı, xoşbəxtlik arzulayır, işlərinizdə uğurlar diləyirik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

## FRANSA MİLLİ ASSAMBLEYASININ FRANSA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*2 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 2-də Fransa Respublikası Milli Assambleyasının Fransa–Azərbaycan dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşmüşdür.*

*Qonaqları salamlayan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Pyer Alen Rafanı Fransa—Azərbaycan dostluq qrupunun rəhbəri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Milli Məclisin üzvü olduğu zaman Azərbaycan–Fransa dostluq qrupuna rəhbərlik etdiyini söyləyən Mehriban Əliyeva qrupun fəaliyyətinin ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinə təkan verdiyini bildirdi. Azərbaycanın Birinci vitse-prezidenti gələcək fəaliyyət nəticəsində əlaqələrimizdə olan potensialdan daha yaxşı istifadə ediləcəyinə və bunun əlaqələrimizin daha da möhkəmlənməsinə səbəb olacağına əminliyini ifadə etdi.*

*Bu il Azərbaycan ilə Fransa arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd edildiyini vurğulayan Mehriban Əliyeva ötən illər ərzində ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdiyini diqqətə çatdırdı. Birinci vitse-prezident bildirdi ki, Azərbaycan Fransa ilə münasibətlərdə bütün sahələrə önəm verir. Mehriban Əliyeva ölkələrimizin prioritetləri sırasında humanitar sahəni xüsusi vurğulayaraq, son illər bu sahədə böyük uğurların əldə edildiyini bildirdi. Təhsil sahəsindəki əməkdaşlığa toxunan Azərbaycanın Birinci vitse-prezidenti bu istiqamətdə ölkələrimiz arasında reallaşdırılan iri layihələrdən da-*

*nışdı. Qeyd etdi ki, ölkəmizdə Fransız liseyi, Fransız–Azərbaycan Universiteti fəaliyyət göstərir və bu həm Azərbaycanın təhsil sisteminin, həm də ikitərəfli əlaqələrin inkişafına xidmət edir.*

*Son illər Fransanın və Azərbaycanın müxtəlif şəhərləri arasında yaxşı əməkdaşlığın qurulduğunu, şəhərlərin qardaşlaşması haqqında sazişlərin imzalandığını xatırladan Mehriban Əliyeva bu istiqamətdə ilk addımların mədəniyyət sahəsində atıldığını, həyata keçirilən layihələrin Fransanın regionlarında ölkəmizi tanıtmaq məqsədi daşıdığını bildirdi. Azərbaycanın Birinci vitse-prezidenti bu sahədə atılan addımların iqtisadi əlaqələrə də müsbət təsir göstərdiyini yaxşı hal kimi dəyərləndirdi. Mehriban Əliyeva bir çox sahələrdə uğurlu əməkdaşlığın qurulduğunu qeyd etdi və eyni zamanda, potensialın da böyük olduğunu vurğuladı. Ümidvar olduğunu bildirdi ki, bu potensialdan istifadə edilərək, ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətləri daha da möhkəmlənəcəkdir. Pyer Alen Rafanın ölkəmizə ilk səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirən Mehriban Əliyeva ona gələcək fəaliyyətində müvəffəqiyyətlər arzuladı.*

*Fransa–Azərbaycan dostluq qrupunun rəhbəri Pyer Alen Rafan bu vəzifədə fəaliyyəti dövründə ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsi üçün səylə çalışacağını bildirdi.*

## İTALİYA SENATININ SƏDR MÜAVİNİ LİNDA LANZİLLOTTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliya Senatının Sədr müavini xanım Linda Lanzillottanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İtaliya Senatının Sədr müavini xanım Linda Lanzillotta ölkəmizə səfərinin səmərəli və maraqlı keçdiyini və bunun Azərbaycan ilə dostluğun möhkəmləndirilməsi baxımından önəmli olduğunu qeyd etdi.*

*Enerji sektorunun ölkələrimiz arasında əməkdaşlıq üçün ən əsas sahə olduğunu deyən Linda Lanzillotta TAP layihəsinə ölkəsinin sadiqliyini vurğuladı və əminliklə bildirdi ki, bu həm də Azərbaycan ilə İtaliya arasında əlaqələrin genişləndirilməsi üçün çox əhəmiyyətlidir.*

*Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı görülən işlərə toxunan qonaq İtaliyanın ölkəmizlə infrastruktur, kənd təsərrüfatı sahələrində əməkdaşlıq etməkdə maraqlı olduğunu dedi. «Milan Ekspo–2015» sərgisini xatırladan Linda Lanzillotta bu sərgidə Azərbaycan pavilyonunun çox böyük maraqla qarşılandığını və yüksək qiymətləndirildiyini bildirdi.*

*Prezident İlham Əliyev uğurla inkişaf edən İtaliya–Azərbaycan ikitərəfli əlaqələrinə ölkəmizin böyük önəm verdiyini dedi və İtaliyanın Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu vurğulayaraq, burada neft ixracının başlıca rol oynadığını xüsusi qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında uzunmüddətli əməkdaşlığın inkişaf etdirilməsində TAP layihəsinin böyük əhəmiyyət daşıdığını dedi və bu layihənin qrafikə uyğun*

*olaraq uğurla icra edildiyini və işlərin vaxtında başa çatdırılacağına ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi»nin digər hissələrində, o cümlədən «Şahdəniz», «Cənubi Qafqaz» boru kəmərində işlərin 100 faiz, TANAP layihəsində isə 80 faizdən çoxunun yerinə yetirildiyini dedi. Qlobal enerji təhlükəsizliyi layihəsi kimi, «Cənub Qaz Dəhlizi»nin əhəmiyyətini vurğulayan dövlət başçısı İtaliyanın Azərbaycanın əsas qaz ixrac edəcəyi ölkələrdən biri olduğunu qeyd etdi və bunun əlaqələrimizin inkişafı üçün xüsusi önəm daşıdığını dedi.*

*Ticarət əlaqələrimizin şaxələndirilməsi üçün daha fəal iş aparılmasının vacibliyini qeyd edən dövlətimizin başçısı hazırda əsas diqqətin digər istiqamətlərə – sənaye, kənd təsərrüfatı, infrastruktur, nəqliyyata yönəldilməsinin zəruriliyini bildirdi. Azərbaycanda icra olunan layihələrdə İtaliya şirkətlərinin iştirakına toxunan prezident İlham Əliyev ölkəmizin gələcək inkişafı ilə bağlı Bakıda və regionlarda həyata keçiriləcək infrastruktur və digər layihələrdə iştirak etmək üçün İtaliya şirkətlərini Azərbaycana dəvət etdi.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında müxtəlif sahələrdə əməkdaşlıq imkanları və onların daha da genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

## FRANSA MİLLİ ASSAMBLEYASININ FRANSA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN RƏHBƏRİ PYER ALEN RAFAN İLƏ GÖRÜŞ

*3 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Fransa Milli Assambleyasının Fransa–Azərbaycan dostluq qrupunun rəhbəri Pyer Alen Rafanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Pyer Alen Rafanı Fransa parlamentinə seçilməsi münasibətilə təbrik etdi və onun Fransa–Azərbaycan dostluq qrupunun rəhbərlik etməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Pyer Alen Rafanın Azərbaycana səfərinin ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını dedi. İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı qeyd etdi ki, Fransa–Azərbaycan əlaqələri bu gün çox yüksək səviyyədədir və siyasi, iqtisadi, energetika, infrastruktur sahələrində əməkdaşlığımız yaxşı nəticələr verir. Prezident İlham Əliyev bir çox fransız şirkətlərinin uzun illər Azərbaycanda fəaliyyət göstərməsinin önəmini vurğuladı. Dövlət başçısı bildirdi ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransa Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində də öz rolunu oynayır. Lakin erməni lobbisi dünyanın müxtəlif ölkələrində Azərbaycanla və Dağlıq Qarabağla bağlı uydurma və yalan məlumatlar yayır, beynəlxalq ictimaiyyəti çaşdırmağa cəhd edir və münaqişənin ədalətli həllinə mane olmağa çalışır.*

*İkitərəfli əlaqələrin gündəliyinin kifayət qədər geniş olduğunu deyən prezident İlham Əliyev bu əlaqələrin gələcək illərdə daha da güclənəcəyini əminliklə qeyd etdi.*

*Fransa Milli Assambleyasının Fransa–Azərbaycan dostluq qrupunun rəhbəri Pyer Alen Rafan Bakıda prezident İlham Əliyevlə görüşdən böyük şərəf duyduğunu və Fransa–Azərbaycan dostluq qrupuna rəhbərlik etməkdən fərəh hissi keçirdiyini bildirdi. Pyer Alen Rafan vurğuladı ki, Fransa ictimaiyyətinin, o cümlədən Fransa prezidenti Emmanuel Makronun arzusu budur ki, Fransa–Azərbaycan münasibətləri bundan sonra daha da yüksək səviyyəyə qalxsın. O həmçinin ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni əlaqələrin möhkəmləndirilməsi istiqamətində gələcəkdə də çalışmağın zəruriliyini qeyd etdi. Pyer Alen Rafan Azərbaycan haqqında reallıqların Fransa cəmiyyətinə olduğu kimi çatdırılmasının vacibliyini vurğuladı. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Pyer Alen Rafan bildirdi ki, Fransa münaqişənin həlli ilə bağlı mövcud olan qətnamələrə sadiqdir.*

*Görüşdə ölkələrimiz arasında kosmik sənaye, inşaat, nəqliyyat, su təsərrüfatı, metro, dəmir yolu, hərbi-texniki və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN AÇILIŞI İLƏ BAĞLI « EURONEWS » TELEKANALININ AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ VƏ GÜRCÜSTANIN BAŞ NAZİRİ İLƏ MÜSAHİBƏSİ

*3 noyabr 2017-ci il*

*«Euronews» telekanalının «Fokus» verilişində noyabrın 3-də Bakı–Tbilisi–Qars dəmir yolunun açılışına həsr olunan reportaj yayımlanmışdır. Telekanalın müxbiri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğandan və Gürcüstan Respublikasının Baş naziri Giorgi Kvirikaşvilidən müsahibə almışdır.*

**M ü x b i r:** Azərbaycan və Türkiyə prezidentləri, Gürcüstan, Qazaxıstan və Özbəkistanın Baş nazirləri Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisini yekunlaşdırdılar. Onun təntənəli açılışı oktyabrın 30-da baş tutdu. 846 kilometr nəqliyyat yolları! Bu, qədim İpək yolunun ən uzun sahəsidir. Yolun tikintisi praktiki olaraq 4 milyard dollara başa gəldi. Proqnozlara əsasən, 2034-cü ilədək bu relslərlə ildə 17 milyon tonadək yük daşınacaqdır.

**İ l h a m Ə l i y e v:** Asiyadan Avropaya və Avropadan Asiyaya bundan qısa yol yoxdur. Bizim tariflərin razılaşdırılması üzrə gələcək vəzifəmiz onu iqtisadi cəhətdən də çox cəlbedici etməkdir. Uzunmüddətli perspektivdə yüklərin həcmi artacaqdır. Əlbəttə, bu, böyük gəlir, iş yerləri və əməkdaşlıq deməkdir.

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Şübhəsiz ki, sərnişin daşınmasının strateji və sosial-iqtisadi mənası da vardır.

Sərnişin qatarları ildə 3 milyonadək insanı daşıya bilər. Onlar Azərbaycan, Gürcüstan və Türkiyə arasında 2018-ci ildə hərəkətə başlayacaqdır. Perspektivdə turizmin güclü inkişafı

gözlənilir. Bundan başqa, Avropa və Asiya daha yaxın olacaq və qarşılıqlı fəaliyyət üçün daha çox imkanlar yaranacaqdır.

**G i o r g i  K v i r i k a ş v i l i**: Layihə təkcə ölkələrin iqtisadiyyatını deyil, bu ölkələrin xalqlarını da birləşdirir. İnteqrasiya, əməkdaşlıq nə qədər sıx olarsa, regionda və onun hüdudlarından kənarda iqtisadi, ticari artım, təhlükəsizlik o qədər də çox olar.

Tarixi an – ilk yük qatarı Bakının Ələt limanını tərk edərək, artıq Türkiyəyə yol alır. Bu vaqonlarda 3200 ton taxıl vardır. İndi digər müştərilərlə danışıqlar gedir. Bir çoxlarını sürət cəlb edir. Əgər əvvəllər Çindən Avropaya bəzi yüklər 1 aydan çox müddətə çatırdısa, indi söhbət yalnız 2 həftədən gedir.

**C a v i d  Q u r b a n o v** (*«Azərbaycan Dəmir Yolları» QSC-nin sədri*): Biz hesabladıq, 5 milyon tona yaxın yük vardır – taxıl, Rusiya metalı, Rusiya taxta-şalbanı, Çin yükləri. Onlar da artıq gəlib çatır.

Artıq digər ölkələr, o cümlədən Qazaxıstan, Türkmənistan, Pakistan, Çin və Hindistan Bakı–Tbilisi–Qars layihəsində iştirak etmək istəklərini bildiriblər.

**M ü x b i r: Azərbaycan bu layihənin gerçəkləşməsi üçün həlledici rollardan birini oynayıb. İndi bizim müşahidə etdiklərimizin, bu dəmir yolunun işə salınmasının strateji əhəmiyyəti nədən ibarətdir?**

**İ l h a m  Ə l i y e v:** Bu, tarixi hadisədir. Bu yol qitələri, Avrasiyanı birləşdirir. Bu, Asiya ilə Avropa arasında ən qısa yoldur. Azərbaycan Türkiyə və Gürcüstan ilə birlikdə onun tikintisində çox fəal iştirak edib. Çox şadam ki, bu gün biz birlikdə bu tarixi hadisəni qeyd edirik: Türkiyə Prezidenti, gürcüstanlı, qazaxıstanlı, özbəkistanlı dostlarımız – Baş nazirlər, Türkmənistandan, Tacikistandan nazirlər. Yəni onların iştirakı bu layihənin nə qədər əhəmiyyətli olduğunu göstərir. Bu, ən qısa, ən etibarlı yoldur. Bu yol bütün region üçün firavanlıq, sabitlik, inkişaf gətirəcəkdir.

**M ü x b i r: Bəs strateji vəzifələr nədən ibarətdir? Siz ondan nə gözləyirsiniz?**

**İ l h a m Ə l i y e v:** Biz bu yolla, Azərbaycan ərazisi vasitəsilə yüklərin tədricən 17 milyon tona qədər artacağını gözləyirik. Uzunmüddətli perspektivdə yüklərin həcmi artacaqdır. Əlbəttə, bu, böyük gəlir, iş yerləri və əməkdaşlıq deməkdir.

**M ü x b i r: Qlobal mənada sizin ölkələrin əməkdaşlığını gücləndirməkdən başqa, iqtisadi cəhətdən bu yol sayəsində dünyada hansı dəyişikliklər baş verə bilər?**

**İ l h a m Ə l i y e v:** Düşünürəm ki, bu yolun iqtisadi cəhətdən böyük əhəmiyyəti vardır. Bu yol boyunca yerləşən bütün ölkələr ondan istifadə edəcəkdir. Çünki yenə də deyirəm, bu, ən qısa yoldur. Asiyadan Avropaya və Avropadan Asiyaya bundan qısa yol yoxdur. Bizim tariflərin razılaşdırılması üzrə gələcək vəzifəmiz onu, həmçinin iqtisadi cəhətdən çox cəlbedici etməkdir. Buna görə də biz bunun üzərində birlikdə işləyəcəyik.

**M ü x b i r: Sualım prezident Ərdoğanadır. Bu gün bizim burada müşahidə etdiklərimizin – dəmir yolunun işə salınmasının Türkiyə üçün hansı əhəmiyyəti vardır?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Hər şeydən əvvəl Avropa–Asiya bağlantısı kimi, bu dəmir yolu çox mühüm strateji bir sərmayə olaraq həyata keçirildi. Bu, tarixi İpək yolunun digər mərhələsinin ən ciddi sərmayəsi oldu. Yəni Azərbaycan, Türkiyə və Gürcüstan olaraq, bu qərarı qəbul etdiyimiz vaxt bəziləri bu işin mümkün olacağına inanmırdılar.

**M ü x b i r: Bu layihədə Türkiyənin strateji və iqtisadi gözləntiləri nədən ibarətdir?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Əvvəla, bu yolun strateji baxımdan istər yük, istərsə də sərnişin daşınmasında şübhəsiz ki, mühüm əhəmiyyəti vardır. Bilirsiniz ki, xərclər baxımından yükdaşımalarında dəmir yolu sistemi dəniz nəqliyyatı ilə rəqabət içindədir, dəmir yolu ilə daşınmaların maliyyə xərcləri xeyli azdır. Sərnişin daşınmasında da qəza riski, demək olar ki, yox dərəcəsindədir.

**M ü x b i r: Sonuncu sualım Gürcüstanın Baş nazirinədir. Prinsipcə, artıq verdiyim eyni sualdır.**

**Gürcüstan üçün bu strateji layihədə iştirakın əhəmiyyəti nədən ibarətdir?**

**G i o r g i K v i r i k a ş v i l i:** Bakı–Tbilisi–Qars layihəsi həqiqətən, strateji layihədir. Çünki o, strateji tərəfdaş olan 3 ölkəni – Türkiyə, Gürcüstan və Azərbaycanı birləşdirir. Bu layihə parlaq əməkdaşlığın nümunəsidir. Belə ki, bu, təkcə ölkələrin iqtisadiyyatını deyil, bu ölkələrin xalqlarını birləşdirir. İnteqrasiya, əməkdaşlıq nə qədər çox olarsa, regionda və onun hüdudlarından kənarda iqtisadi, ticari artım, təhlükəsizlik o qədər çox olar. Bizim dost və qardaşlarımızın – Qazaxıstanın, Özbəkistanın Baş nazirlərinin, Türkmənistan və Tacikistanın nazirlərinin açılışda iştirakı bu layihənin əhəmiyyətini göstərir. Çünki «Bir kəmər – bir yol» layihəsi Asiya ilə Avropanı birləşdirən layihədir və praktiki olaraq, bütün qitəni inkişaf etdirir. Mərkəzi Asiya və Cənubi Qafqaz Türkiyə ilə birlikdə Avrasiya qitəsini birləşdirən mühüm bənddir. Belə ki, o daha çox iqtisadi artım və daha çox sabitlik gətirir.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB DONALD TRAMPA**

Hörmətli cənab Prezident!

Texasda baptist kilsəsinə silahlı hücum nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu faciəli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2017-ci il*

## BAKI METROPOLİTENİNİN RETRO VAQONLARININ BƏRPADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*6 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da metronun «İçərişəhər» stansiyasında Bakı Metropoliteninin 50 illik yubileyi ilə əlaqədar keçirilən metropolitendə istismar edilmiş retro vaqonların bərpadan sonra təqdimatı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı retro vaqonlara baxış keçirdi.*

*Xatırladaq ki, 1967-ci il noyabrın 6-da Bakı Metropoliteninin «İçərişəhər» stansiyasından ilk qatar uzunluğu 10 kilometrdən bir qədər az olan xətt üzrə hərəkətə başlayıb. «Sahil», «28 May», «Gənclik» və «Nəriman Nərimanov» stansiyaları həmin xəttin üzərində yerləşirdi. Ulu öndər Heydər Əliyevin istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi zaman iqtisadiyyatın digər sahələrində olduğu kimi, metro da sürətli inkişaf yolu keçib, istismara buraxılan stansiyaların sayı 14-ə, xətlərin ümumi uzunluğu isə 22 kilometrə çatdırılıbdır.*

*«Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlət başçısına retro vaqonlar barədə məlumat verdi.*

*Mıtişşi Maşınqayırma zavodunda istehsal olunan ilk belə retro vaqonlar «A» tipli vaqonlar adlandırılırdı. Bu vaqonlar 1934-cü ilin sonunda hazırlanıb. Həmin vaqonlarda oturmaq üçün 52 və ayaq üstə dayanmaq üçün 120 yer var idi. Bu tipli vaqonlardan biri 1968-ci ildə yol ölçmək üçün Bakıya göndərilmişdir.*

*Retro tipli digər vaqonlar «Q» tipli vaqonlar idi. Yeni mühərrikli vaqonlar Qorki xətti üçün nəzərdə tutulduğuna görə «Q» tipli adlandırılırdı. Bu vaqonların istismar müddəti 1983-cü ildə başa çatıbdır.*

*Təqdimatı olan «E» tipli digər vaqonların hazırlanmasına isə 1956-cı ildə başlanılıb. «E» tipli ilk sınaq vaqonu 1959-cu ilin sonlarında istehsal olunub. Bu tipli vaqonlar Sovet İttifaqı dövründə 5 şəhərin – Moskva, Leninqrad, Kiyev, Bakı və Tbilisinin metropolitenlərinə göndərilirdi. Bakıya «E» tipli 47 ədəd vaqon çatdırılmışdı.*

*Sonra prezident İlham Əliyev retro vaqonlardan ibarət qatarla «İçərişəhər» stansiyasından «Nəriman Nərimanov» stansiyasına gəldi.*

*2003-cü ildə Bakı Metropoliteni yeni inkişaf mərhələsinə qədəm qoyub. 50 illik yubileyi qeyd edilən Bakı Metropoliteninin hazırda 25 stansiyası, 1 elektrik deposu və 36,6 kilometr uzunluğunda 3 xətti vardır. «Bakı Metropoliteni xətlərinin konseptual inkişaf sxemi»nə əsasən gələcəkdə metropolitenin ümumi şəbəkəsi 3 mövcud – yaşıl, qırmızı və bənövşəyi, həmçinin 2 əlavə yeni xətt – mavi və sarı xətlər olmaqla, 5 xətdən, 76 stansiyadan, 6 elektrik deposundan və 119,1 kilometr metro xəttindən ibarət olacaqdır. Perspektivdə 51 yeni stansiyanın inşa edilməsi və 84,3 kilometr uzunluğunda metro xəttinin çəkilməsi nəzərdə tutulubdur.*

*Azərbaycan prezidenti İlham Əliyevin müvafiq sərəncamı əsasında 2014-cü ildə Bakı Metropoliteni və «Azərtunel-metrotikinti» Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə səhmləri dövlətə məxsus «Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyəti yaradıldıqdan sonra silsilə yeniliklər biri-birini əvəzlədi.*

*Retro vaqonlarla tanış olan prezident İlham Əliyev 50 illik yubileyi münasibətilə Bakı Metropoliteninin kollektivini təbrik etdi, yeni-yeni uğurlar arzuladı.*

## BAKI METROPOLİTENİNİN 50 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMİN İŞTİRAKÇILARINA

Hörmətli mərasim iştirakçıları!

Sizi Bakı Metropoliteninin 50 illik yubileyi münasibətilə səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı və gələcək işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan paytaxtında yeraltı nəqliyyatın yaradılması ideyası hələ keçən əsrin 30-cu illərinin əvvəllərində şəhərin perspektiv inkişafı üzrə baş planı işləndiyi vaxt meydana çıxmışdı. İkinci dünya müharibəsinin başlanması həmin planın və eləcə də metro tikintisi ideyasının gerçəkləşdirilməsinə imkan vermədi. Sonrakı dövrlərdə qarşıya çıxan müxtəlif çətinliklərə baxmayaraq, metro inşaatçılarının böyük zəhməti bahasına 1967-ci ilin noyabr ayında Bakı Metropoliteninin birinci növbəsi işə salındı ki, bu da Azərbaycanın həyatında baş vermiş mühüm və əlamətdar hadisə idi.

Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik edərkən məhz onun diqqət və qayğısı sayəsində Bakı Metropolitenində tikinti işlərinin sürəti intensivləşdi, yeni xətlər istismara verildi, yaşayış massivlərinin Bakının mərkəzi ilə nəqliyyat əlaqəsi xeyli yaxşılaşdırıldı.

Ötən yarım əsr ərzində Bakı şəhərinin infrastrukturunda və əhalinin ictimai nəqliyyatla təminatında metropolitenin fəaliyyətinin nəticəsi olaraq, köklü dəyişikliklər baş vermiş, onun ümumşəhər sərnişindaşımalarındakı payı davamlı artmışdır. Metropolitenin istismarı sahəsində irimiqyaslı işlər aparılmış və müasir avadanlıqlarla təchiz edilən maddi-texniki bazası təkmilləşdirilmişdir.

Dövrün tələblərinə uyğun texnologiyaların tətbiqi, yeni standartlara keçidin başlıca meyar olması və insan resurslarının lazımınca dəyərləndirilməsi bu gün Bakı metrosunun inkişafında keyfiyyətcə yeni mərhələyə keçidi təmin etmişdir. Metro stansiyalarının tərtibat baxımından milli memarlıq sənətinin ornamentlərlə zəngin nümunələrinə çevrilməsi xüsusilə sevindiricidir.

Perspektivdə metro şəbəkəsi genişləndiriləcək və inkişaf etdiriləcəkdir. Metropoliten müasir tələblərə müvafiq surətdə yenidən qurulacaq, sərnişinlərə təhlükəsiz xidmət səviyyəsi daha da yüksələcəkdir.

İnanıram ki, «Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyətinin texniki hazırlığa malik peşəkar kollektivi bundan sonra da özünün iş ahəngini qoruyub saxlayacaq, əzmlə çalışaraq, üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün bacarıq və qüvvəsini əsirgəməyəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 noyabr 2017-ci il*

**KAMBOCA KRALI ƏLAHƏZRƏT**
**NORODOM SİHAMONİYƏ**

Əlahəzrət!

Kamboca Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı və xoşbəxtlik, dost Kamboca xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 noyabr 2017-ci il*

## AVROPA İTTİFAQI «ŞƏRQ TƏRƏFDAŞLIĞI»NIN XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİRLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Avropa İttifaqı «Şərq Tərəfdaşlığı»nın xüsusi tapşırıqlar üzrə səfirlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa İttifaqı Şurasına sədrlik edən Estoniyanın Avropa İttifaqı «Şərq Tərəfdaşlığı»nda xüsusi səlahiyyətli səfiri Yaan Reynhold Estoniya Respublikasının Baş naziri Yuri Ratasın salamlarını prezident İlham Əliyevə çatdırdı. O, Avropa İttifaqı rəhbərliyi və qəbulda iştirak edən bütün səfirlər adından bildirdi ki, təmsil etdiyi qurum Azərbaycanla əlaqələrə xüsusi diqqət yetirir və Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı çox müsbət şəkildə inkişaf edir. Yaan Reynhold qeyd etdi ki, yeni sazişlə bağlı əhəmiyyətli irəliləyiş əldə edilib və Avropa İttifaqı bu istiqamətdə səylərini bundan sonra da əsirgəməyəcəkdir.*

*Yaxın vaxtlarda Brüsseldə keçiriləcək «Şərq Tərəfdaşlığı» Sammitinə toxunan səfir qeyd etdi ki, Avropa İttifaqı «Şərq Tərəfdaşlığı»na və bu tərəfdaşlıqla bağlı olan layihələrə tam sadiqdir və bu əməkdaşlığı yüksək qiymətləndirir. Diplomat bir daha vurğuladı ki, Avropa İttifaqı–Azərbaycan əlaqələri pozitiv və dinamik şəkildə inkişaf edir.*

*Azərbaycan Prezidentinin Brüsselə son səfərinə toxunan Yaan Reynhold bildirdi ki, təmsil etdiyi təşkilat bu səfərə böyük önəm verir və təsadüfi deyil ki, səfərin növbəti günündə yeni saziş üzrə danışıqlara başlanılıbdır. O vurğuladı ki, Avropa*

*İttifaqı–Azərbaycan əməkdaşlığı mövcud potensialın tam həyata keçirilməsi baxımından möhkəm əsaslara söykənir. Səfir bildirdi ki, demokratik islahatlar sahəsində Azərbaycanın əldə etdiyi inkişaf önəmlidir və Azərbaycanın dini azadlıq, tolerantlıq, mədəniyyətlərarası dialoq sahəsində əldə etdiyi təcrübə çox dəyərlidir. Yaan Reynhold xüsusilə energetika sahəsində strateji əməkdaşlığın böyük önəm daşıdığını diqqətə çatdırdı.*

*Dövlət başçısı Avropa İttifaqı–Azərbaycan əlaqələri ilə bağlı deyilən fikirlərə görə minnətdarlığını bildirdi. Bu ilin fevralında Brüsselə səfərinə toxunan prezident İlham Əliyev qeyd etdi ki, bu səfər «Şərq Tərəfdaşlığı» çərçivəsində və ümumilikdə Avropa Komissiyası ilə əlaqələrin inkişafında böyük rol oynayıbdır.*

*Dövlət başçısı Azərbaycanla Avropa İttifaqı əlaqələrinin genişlənməsi baxımından «Şərq Tərəfdaşlığı» təşəbbüsünün əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın təşkilata üzv olan 10-dan çox ölkə ilə strateji tərəfdaşlığa dair sənədlərin imzalanmasını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Azərbaycanla Avropa İttifaqı arasında sazişə toxunan dövlətimizin başçısı bu sahədə də işlərin çox müsbət istiqamətdə irəlilədiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, siyasi əlaqələrimiz uğurla inkişaf edir, əməkdaşlığımız çoxşaxəlidir və geniş sahələri, o cümlədən demokratik inkişaf, multikulturalizm, iqtisadi və digər sahələri əhatə edir.*

*Avropanın Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu vurğulayan dövlət başçısı qeyd etdi ki, investisiya, enerji təhlükəsizliyi, nəqliyyat, sosial müdafiə sahələrində də əlaqələr inkişaf edir.*

*Prezident İlham Əliyev belə geniş tərkibdə nümayəndə heyətinin səfərini uğurlu əməkdaşlığımızın təzahürü kimi dəyərləndirdi və ümidvar olduğunu bildirdi ki, bu səfər nümayəndə heyətinin üzvlərinin Azərbaycanda gedən inkişaf proseslərinin şahidi olması və ölkəmiz haqqında daha çox informasiya əldə etməsi üçün yaxşı imkan yaradacaqdır.*

*Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlət başçısı Estoniya Respublikasının Baş naziri Yuri Ratasın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Estoniyanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ MALİYYƏ NAZİRİ ƏKLİL ƏHMƏD HAKİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Əfqanıstan İslam Respublikasının Maliyyə naziri Əklil Əhməd Hakiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında güclü tərəfdaşlıq əlaqələrinin olduğunu qeyd edərək, əməkdaşlığımızın artıq siyasi dialoq kimi mühüm sahəni və digər istiqamətləri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin inkişafında dövlət başçıları arasında keçirilən görüşlərin əhəmiyyətini vurğulayaraq, Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qaninin ölkəmizə səfərini və onunla müxtəlif beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırlatdı. Dövlət başçısı yüksək səviyyədə keçirilən görüşlər və danışıqlarda əldə edilmiş razılaşmaların tam şəkildə həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Ölkəmizin Əfqanıstanı dəstəklədiyini vurğulayan prezident İlham Əliyev Azərbaycanın hərbi qulluqçularının Əfqanıstanda sülhməramlı missiyada iştirakının və logistik təchizatda fəal rolunun əhəmiyyətini qeyd etdi. Dövlət başçısı eyni zamanda, investisiya və iqtisadiyyat sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirdi.*

*Əfqanıstan İslam Respublikasının Maliyyə naziri Əklil Əhməd Hakimi ilk növbədə, Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Nazir*

*Azərbaycanın ölkəsinə verdiyi dəstəyin Əfqanıstan rəhbərliyi və xalqı tərəfindən yüksək qiymətləndirildiyini bildirdi. O qeyd etdi ki, səfərinin əsas məqsədi əldə olunmuş razılaşmaların həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirəsindən ibarətdir.*

*Dövlətimizin başçısı Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstan Prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## XƏZƏRDƏ 2 MİLYARD TON NEFTİN HASİL OLUNMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*8 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycanda 2 milyard ton neftin hasil olunması münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişdir.*

*Dövlət başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli neftçilər!

Xanımlar və cənablar!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Azərbaycanda 2 milyardıncı ton neft hasil edilibdir. Bu münasibətlə Azərbaycan neftçilərini və bütün Azərbaycan xalqını təbrik edirəm.

Bu, tarixi bir hadisədir. Azərbaycan neftçiləri bütün dövrlərdə Azərbaycan xalqına xidmət ediblər. Müstəqillik dövründə onların zəhməti hesabına Azərbaycan böyük iqtisadi potensial yarada bilibdir. Neftçi Azərbaycanda çox şərəfli və hörmətli peşədir, həmişə belə olub, bu gün də belədir. Mən Azərbaycanın ümumi inkişafında Azərbaycan neftçilərinin rolunu çox yüksək qiymətləndirirəm.

Azərbaycan neftin vətənidir, Azərbaycanda bunu hər kəs bilir. İndi dünya ictimaiyyəti də bilir ki, dünyada sənaye üsulu ilə

ilk dəfə neft 1846-cı ildə Azərbaycanda çıxarılmışdır və o vaxt dünyanın neftə olan tələbatının əsas hissəsini Azərbaycan təmin edirdi. Tarixdə ilk dəfə olaraq XX əsrin ortalarında dənizdə də neft Azərbaycan neftçiləri tərəfindən çıxarılmışdır və bu da tarixi hadisədir. Azərbaycan neftçiləri sovet dövründə Xəzərin bütün neft-qaz yataqlarının aşkar olunmasında əsas rol oynamışlar, Rusiya Federasiyasında yeni neft yataqlarının kəşfində onların rolu çox böyükdür. Təsadüfi deyil ki, «ikinci Bakı», «üçüncü Bakı» adlandırılan yerlər var ki, onlar da Azərbaycan neftçilərinin adı ilə bağlıdır. Neftçilərimiz xarici ölkələrdə də işləyirdi, oraya ezam olunurdular. Əlbəttə, bu, Azərbaycanda neft sənayesində çalışan insanların peşəkarlığını, fədakarlığını göstərir.

Azərbaycan dünyada neft ölkəsi kimi tanınır. Bu gün isə qaz ölkəsi kimi də tanınır. Müstəqillik dövründə bu istiqamətdə çox önəmli addımlar atılıbdır. Sovet dövründə də Azərbaycan neftçiləri Sovet İttifaqının ümumi inkişafına çox böyük töhfələr veriblər. O vaxt Azərbaycan müttəfiq respublikalar arasında ikinci respublika idi ki, donor kimi tanınırdı. Yəni biz ümumittifaq büdcəsinə daha çox vəsait ayırırdıq, nəinki alırdıq. Əlbəttə ki, Azərbaycan neftçilərinin bu sahədə payı çox böyük idi.

1971-ci ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə Azərbaycanda 1 milyardıncı ton neftin hasilatının qeyd edildiyi təntənəli mərasim keçirilmişdir. Keçən əsrin 70–80-ci illərində Heydər Əliyev Azərbaycan Respublikasının ümumi inkişafına çox böyük töhfə vermişdir, o cümlədən neft sənayesinin inkişafı üçün çox böyük addımlar atılmışdır. O vaxt neft hasilatının artırılması, yeni qurğuların işə düşməsi, Dərin Özüllər zavodunun məhz Azərbaycanda tikilməsi, Neftayırma zavodunun rekonstruksiyası və digər önəmli hadisələr Azərbaycanın neft potensialını böyük dərəcədə möhkəmləndirmişdir. O illərdə yaradılmış potensial, xüsusilə Dərin Özüllər zavodunun fəaliyyəti bu gün də bizim neft potensialımızı gücləndirir. Əgər vaxtilə bu zavod Azərbaycanda yox, başqa bir yerdə tikilsəydi, o zaman müstəqillik dövründə bizim xarici tərəfdaşlarla işlərimiz ləng gedə bilərdi. Dərin Özül-

lər zavodu bugünkü neft strategiyamızın həyata keçirilməsində xüsusi rol oynayır.

Heydər Əliyev Azərbaycandan gedəndən sonra bütün sahələrdə olduğu kimi, neft-qaz sahəsində də tənəzzül yavaş-yavaş özünü büruzə verməyə başladı və keçən əsrin 90-cı illərinin ərəfəsində artıq neft hasilatı ilə bağlı problemlər yarandı. Müstəqilliyimizin ilk illərində bu problemlər daha da dərinləşdi. Müstəqilliyimizin ilk illəri bizim üçün çox ağır keçirdi, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkəni idarə edənlər məsuliyyətlərini dərk edə bilmədilər, səriştəsiz, bir çox hallarda savadsız kadrlar qabağa çəkildi, ölkə xaosa büründü, anarxiya hökm sürürdü, Bakıda və digər şəhərlərdə qanunsuz silahlı birləşmələr meydan oxuyurdu və bütün bu xoşagəlməz hadisələr nəticədə vətəndaş müharibəsi təhlükəsinə gətirib çıxardı. Yenə də Heydər Əliyev öz tarixi missiyasını icra etdi. Azərbaycanı bu böyük bəlalardan qurtardı, Azərbaycana sabitlik gətirdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu. Məhz 1993-cü ildən başlayaraq, Azərbaycan bu günə qədər inkişaf yolu ilə gedir.

Ancaq Azərbaycan iqtisadiyyatına, Azərbaycan sənayesinə, o cümlədən neft sənayesinə vurulmuş zərbələr çox ağır idi. Bugünkü mərasimdə Azərbaycanın tanınmış neftçiləri, veteranlar, o illəri yaxşı xatırlayan insanlar əyləşiblər. Onlar çox yaxşı bilirlər ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın neft sənayesinin vəziyyəti necə idi. Bu vəziyyətdən çıxış yolu axtarıb tapmalı idik və Heydər Əliyevin neft strategiyası yeganə çıxış yolu idi. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması bu sahədə dönüş yaratdı. «Əsrin müqaviləsi»nin imzalanması tarixi hadisədir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və bayaq qeyd etdiyim kimi, çox ağır çağırışlarla üz-üzə qalmışdı, iqtisadiyyat, demək olar ki, tamamilə dağıdılmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi, inflyasiya 1000 faizlərlə ölçülürdü, kütləvi işsizlik hökm sürürdü, yoxsulluq dərəcəsi artırdı. Belə bir vəziyyətdə Azərbaycana xarici sərmayəni gətirmək doğrudan da böyük müdriklik və uzaqgörənlik tələb edirdi və Heydər Əliyevin neft strategiyası, bax, bu ça-

ğırışlara cavab verdi. Xarici tərəfdaşlarla 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi » bizim üçün bir çıxış yolu idi, bizə güc verdi, nəfəs verdi, investisiya gətirdi. Azərbaycan özünü dünyada tanıtdıra bildi. Azərbaycana, ilk növbədə ölkəmizin neft-qaz sektoruna böyük şirkətlər tərəfindən maraq artdı və bu maraq praktiki işlərə gətirib çıxartdı.

Mən o illəri yaxşı xatırlayıram. Dövlət Neft Şirkətinin bir qrup rəhbər işçisi 1994-cü ildə danışıqlar aparmaq üçün Amerikanın Hyuston şəhərinə ezam edildi. Orada 1 aydan çox danışıqlar aparıldı. Xoşbəxt müəllim o danışıqların çox fəal iştirakçısıdır. Bu danışıqlar nəticəsində sentyabr ayında kontrakt imzalandı. Bu kontrakt o vaxt üçün ən məqbul və əlverişli şərtlərlə imzalanmışdı. Biz bunu elə o vaxt – 1994-cü ildə deyirdik. O vaxt bizdə kontraktın şərtlərini təhlil edə biləcək mütəxəssislər, demək olar ki, yox idi. Ancaq biz deyirdik və bilirdik ki, Azərbaycanın maraqları maksimum dərəcədə təmin edildi və bugünkü reallıq bunu göstərir.

Bu gün bu kontrakt qüvvədədir. Kontrakt nəticəsində Azərbaycana milyardlarla dollar sərmayə qoyulub. Kontraktın icrası nəticəsində minlərlə, on minlərlə Azərbaycan mütəxəssisi təlim alıb, təhsil alıb və bu gün konsorsiumun işçilərinin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Kontrakt nəticəsində Azərbaycanda böyük infrastruktur layihələri, böyük tikinti işləri icra edilib və ölkə iqtisadiyyatına milyardlarla, on milyardlarla dollar gəlir gətiribdir.

1994-cü il Azərbaycanın neft sənayesində dönüş nöqtəsi idi, «Əsrin müqaviləsi»nin tarixi əhəmiyyəti artıq həyatda özünü sübut etdi və eyni zamanda, bu, bir yol açdı. Göstərdi ki, gənc müstəqil dövlət olan Azərbaycan xarici tərəfdaşlarla düzgün iş qura, öz milli maraqlarını müdafiə edə bilər. Beləliklə, bizə olan maraq artdı, maraq artdıqca ölkəmizə sərmayə qoyuluşu da artmağa başladı. Bir çox kontraktlar imzalandı, mən onların arasında «Şahdəniz» kontraktını xüsusilə qeyd etməliyəm. 1996-cı ildə imzalanmış bu kontrakt indi Azərbaycanın və

Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayır.

Neftçilər yaxşı bilirlər ki, o vaxt prinsipcə qaz yataqlarına dünyada o qədər də böyük maraq göstərilmirdi. Çünki bu, aşağıgəlirli sahə hesab olunurdu və o vaxt enerji təhlükəsizliyi haqqında, ümumiyyətlə, söhbət aparılmırdı. «Şahdəniz» yatağının müxtəlif parametrləri təhlil edilərkən, bir sıra mütəxəssislər bəzən belə qənaətə gəlirdilər ki, bu, iqtisadi cəhətdən o qədər də çox cəlbedici layihə deyil. Ancaq həyat onu göstərdi ki, bu, iqtisadi cəhətdən çox cəlbedici layihədir və ölkəmizin iqtisadi, siyasi potensialının güclənməsində çox müsbət rol oynamışdır.

Bu gün Azərbaycan dünyada neft və qaz hasil edən ölkə kimi tanınır. Bizim dünyadakı rolumuz, gücümüz artır və bunun təməlində Heydər Əliyevin neft strategiyası dayanır. Keçən əsrin 90-cı illərində neft sənayesi ilə bağlı bir çox tarixi hadisələr baş verdi. Mən xüsusilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsini qeyd etməliyəm. Ulu öndər Heydər Əliyev öz əlləri ilə bu kəmərin təməlini qoydu və 2006-cı ildə biz bu kəməri istifadəyə verdik. 2007-ci ildə bizim qaz ixracımızın əsas infrastruktur layihəsi olan Bakı–Tbilisi–Ərzurum qaz kəməri işə düşdü və bu kəmər əsasında bu gün «Cənub Qaz Dəhlizi» layihəsi icra edilir. Ötən əsrin 90-cı illərində Bakı–Novorossiysk və Bakı–Supsa neft kəmərlərinin biri təmir olundu, digəri yenidən tikildi. Elə o vaxt neft infrastrukturunun əsası qoyuldu və 2000-ci illərdə bu proses davam etdirildi.

Hazırda Bakıda ən müasir qazma qurğuları, platformalar inşa edilir. «Şahdəniz-2» üçün bütün tikinti işləri Azərbaycanda icra edilmişdir. Azərbaycanın minlərlə, bəlkə də on minlərlə vətəndaşı bu işlərə cəlb edilmişdir. Dünyanın ən böyük neft-qaz terminalı – Səngəçal terminalı da bizim böyük sərvətimizdir. Neft əməliyyatlarının aparılması üçün bizim Gəmiqayırma zavodumuzda istənilən növ gəmilər istehsal olunur. Onlardan biri – bu nəhəng gəmiyə «Xankəndi» adını vermişik – bu yaxınlarda istifadəyə verildi.

Bir sözlə, bu gün «Əsrin müqaviləsi»nin nəticələri sadəcə olaraq, Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Onun çox geniş və çox böyük təsiri olub və bu gün də vardır. Biz «qara qızıl»ı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır. Bunu hər kəs bilməlidir.

Azərbaycanın timsalında eyni zamanda, göstərilir ki, dövlət və xarici sərmayədarlar birlikdə necə iş qurmalıdırlar? Bu iş hansı prinsiplər əsasında qurulmalıdır? Burada da Azərbaycan bir nümunədir. Çünki biz tərəfdaşlarımızla, xüsusilə əsas strateji investor olan *bp* şirkəti ilə çox sağlam zəmində, qarşılıqlı dəstək, qarşılıqlı inam, qarşılıqlı maraqlar əsasında əməkdaşlıq qurmuşuq. Həm investorlar, Azərbaycana milyard dollarlarla vəsait qoyan konsorsiumlar, həm də Azərbaycan dövləti böyük gəlir əldə edir. Burada hər iki tərəf fayda götürür və uğurlu əməkdaşlığın təməlində məhz bu dayanır.

Mən bu gün *bp* şirkətinin Azərbaycandakı fəaliyyətini xüsusilə qeyd etmək istərdim. 23 ildir ki, *bp* bizim tərəfdaşımızdır və aparıcı layihələrimizdə bizimlə bərabər çox fəal rol oynayır. Demək istəyirəm ki, bütövlükdə çıxarılmış 2 milyard ton neftin təxminən 700 milyon tonu müstəqillik dövründə, onun 460 milyon tonu isə konsorsium tərəfindən hasil edilibdir. Ona görə qoy bizim ictimaiyyət bir daha bilsin ki, xarici tərəfdaşlar, xüsusilə *bp* şirkəti Azərbaycanın inkişafında, Azərbaycanın iqtisadi potensialının güclənməsində nə qədər böyük rol oynamışdır. Bir daha demək istəyirəm ki, bunun da təməlində dövlətlə xarici tərəfdaşlar arasındakı əməkdaşlıq dayanır.

*bp*–SOCAR əməkdaşlığı bu gün bir çox ölkələr üçün nümunədir. «Əsrin müqaviləsi», «Şahdəniz» yatağı üzrə imzalanmış və icra edilən kontrakt Dövlət Neft Şirkətini böyük beynəlxalq şirkətə çevirib. Yəni bir neçə il bundan əvvəl mənim tərəfimdən qarşıya məqsəd qoyulmuşdur ki, SOCAR böyük beynəlxalq neft şirkətinə çevrilməlidir. Biz bu məqsədlə SOCAR-ın fəaliyyətini genişləndirdik, bir çox müəssisələr SOCAR-a verildi. Bu gün həm ölkə daxilində, həm xaricdə Azərbaycan Dövlət Neft Şirkətinin çox böyük fəaliyyəti vardır. Bizim xaricə qoyduğumuz investisiyalar milyardlarla dollarla ölçülür. Təkcə Türkiyədəki layihələrə 20 milyard dollara yaxın sərmayə qoyulması nəzərdə tutulub ki, onun təxminən yarısı artıq yatırılıbdır. Digər ölkələrdə, Avropa ölkələrində, yaxın qonşuluqda SOCAR-ın çox böyük işləri, sərmayəsi vardır. Azərbaycan dövləti SOCAR-ın fəaliyyətini dəstəkləyir. Bu bizim iqtisadi gücümüzü artırır, bizə gələcəkdə yeni mənbələrdən də böyük həcmdə valyuta axını təmin ediləcəkdir. Mən hazırda ölkə daxilində icra edilən 2 layihəni – SOCAR Polimer və Karbamid zavodlarının tikintisini qeyd etmək istərdim. Bu 2 layihənin ölkəmizin qeyri-neft sektorunun inkişafında çox böyük əhəmiyyəti vardır. Hər 2 layihə qrafik üzrə icra edilir və əminəm ki, gələn il istifadəyə veriləcəkdir.

Beləliklə, Heydər Əliyevin neft strategiyası bu gün yeni istiqamətlərlə zənginləşdirilmişdir. Bu strategiya bu gün Azərbaycanın ümumi inkişafına çox böyük dəstək verir. Hazırda biz yeni layihələr üzərində işləyirik. Bildiyiniz kimi, «Cənub Qaz Dəhlizi» uğurla icra edilir. Bu da dünya miqyasında nəhəng layihədir. Sərmayə qoyuluşu 40 milyard dollara bərabərdir və bütün işlər qrafik üzrə gedir. «Şahdəniz-2» və «Cənubi Qafqaz» kəməri, demək olar ki, 100 faiz, TANAP 80 faizdən çox icra edilibdir. Beləliklə, biz «Cənub Qaz Dəhlizi» layihəsini də uğurla icra edirik, əminəm ki, tam icra edəcəyik.

Bu il «Əsrin müqaviləsi»nin uzadılması ilə bağlı yeni saziş imzalanıbdır. Bu da tarixi hadisədir. 2050-ci ilə qədər daha yax-

şı şərtlərlə kontrakt imzalanıb. Bu kontraktın icrası nəticəsində Azərbaycana 3,6 milyard dollar sadəcə olaraq, bonus şəklində veriləcəkdir. Dövlət Neft Şirkətinin payı 11 faizdən 25 faizə qaldırılıbdır. SOCAR eyni zamanda, operator funksiyasını daşıyacaq və mənfəət neftinin 75 faizi 2050-ci ilə qədər, yəni kontraktın bütün müddəti ərzində Azərbaycana qalacaqdır.

Bu bir daha onu göstərir ki, bizim çox böyük və zəngin təbii resurslarımız vardır. Yaxşı yadımdadır ki, biz Bakı–Tbilisi–Ceyhan neft kəmərini inşa edərkən, o vaxt işimizə maneçilik törətmək istəyən qüvvələr var idi. Bizə qarşı kampaniyalar, şər-böhtan kampaniyası aparılırdı. Ortaya süni bir ekoloji mövzu qoyulmuşdu ki, guya burada ekologiya pozulacaqdır. Halbuki bu gün Bakının vaxtilə çirklənmiş yerlərində biz parklar saldıq, cənnət yaratdıq. Elə Bibiheybət yatağının – ən qədim neft yatağının əvvəlki görüntüləri necə idi, indiki görüntüləri necədir! Əvvəlki görüntülər bir fəlakət mənzərəsi idi. Bu gün isə bu, Bakının ən gözəl parklarından biridir. Yəni biz ekoloji vəziyyətin yaxşılaşdırılmasına da çox böyük vəsait qoyuruq. Amma o vaxt bunu bəhanə gətirərək, işimizi əngəlləmək istəyirdilər.

İkinci mövzu neft ehtiyatları ilə bağlı idi. Deyirdilər ki, Azərbaycanda neft yoxdur, Bakı–Tbilisi–Ceyhan kəmərini tikmək lazım deyil, bu heç vaxt özünü doğrultmayacaq. Bax, biz artıq 1997-ci ildən başlayaraq, konsorsiumla birlikdə 20 il ərzində neft hasil edirik. Qeyd etdiyim kimi, konsorsium ancaq «Azəri–Çıraq–Günəşli»dən 460 milyon ton neft hasil edibdir. Lakin bundan da çox təsdiqlənmiş ehtiyat vardır. Kontraktın 2050-ci ilə qədər uzadılması onu göstərir ki, bizim kifayət qədər neftimiz var, qoy heç kim narahat olmasın. Eyni mövzunu qazla bağlamaq istəyirdilər, yenə də bədxahlar, bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda qaz yoxdur. Ancaq bu gün «Şahdəniz-2» layihəsi reallıqdır. Qeyd etməliyəm ki, bizim təsdiq edilmiş, dəqiqləşdirilmiş neft ehtiyatlarımız 1,5 milyard tondur, proqnoz isə 2 milyard tondur. Təsdiq edilmiş qaz ehtiyatlarımız 2,6 trilyon

kubmetrdir, proqnoz təqribən 3-4 trilyon kubmetrə bərabərdir. «Azəri–Çıraq» yatağının işlənilməsi onu göstərir ki, biz həmişə çox konservativ rəqəmlər ortaya qoyuruq. Mən yaxşı xatırlayıram ki, 1994-cü ildə kontrakt imzalananda «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun ehtiyatları 511 milyon tona bərabər səviyyədə hesablanmışdı. Hətta mən o vaxt Dövlət Neft Şirkətində gənc bir işçi kimi, təəccüb edirdim ki, bunu necə dəqiqliklə hesablaya bilərlər – 511? Niyə 510 yox, 512 yox, 511? Əlbəttə, bu şərti rəqəm idi. Ancaq bugünkü hesablamalar onu göstərir ki, yataqların ehtiyatı minimum 2 dəfədən çoxdur. Çünki o 511 şərti rəqəminin 462-si artıq çıxarılıb. 2050-ci ilə qədər də görün nə qədər neft olacaqdır?!

Ona görə əminəm ki, bizim proqnozlarımız həyatda öz təsdiqini tapacaq. Çünki mövcud ehtiyatların qiymətləndirilməsini biz çox konservativ şəkildə aparırıq. «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku minimum 2050-ci ilə qədər işləyəcəkdir. «Şahdəniz» yatağı əminəm ki, minimum 100 il bundan sonra da fəaliyyət göstərəcəkdir. Yaxın gələcəkdə biz Abşeron yatağından qaz hasilatını gözləyirik. «Ümid», «Babək» yataqlarının çox böyük perspektivləri vardır. Gələn ildən Dövlət Neft Şirkəti bu yataqlarda da çox fəal iş aparacaqdır. Müəyyən işlər aparılır, daha da böyük həcmdə işlər aparılacaqdır.

Bizim maliyyə vəziyyətimiz çox sabitdir, çox müsbətdir. Heç bir problemimiz yoxdur. Bu məsələdə də bədxahlar bizi gözdən salmağa çalışırlar ki, guya Azərbaycanın maliyyə vəziyyəti yaxşı deyil. Bizim maliyyə vəziyyətimiz bir çox ölkələr üçün nümunə ola bilər. Biz ancaq bu ilin 9 ayında valyuta ehtiyatlarımızı 4,5 milyard dollar artırmışıq. İlin sonunadək hələ nə qədər artacaqdır. Bizim xarici borcumuz ümumi daxili məhsulun 18 faizini təşkil edir. Bu, bir çox ölkələr üçün arzuolunan, möcüzə kimi səslənən bir rəqəmdir. Bizim iqtisadi uğurlarımızı aparıcı iqtisadi forum olan Davos Forumu qiymətləndirir. Dünya miqyasında 35-ci yerdəyik. Bizim heç bir maliyyə problemimiz, çətinliyimiz yoxdur. Neft sənayesinə gələn il də böyük vəsait ayrılacaqdır. Əlbəttə,

Dövlət Neft Şirkəti özü də pul qazanır. Ancaq dövlət həmişə bu şirkəti dəstəkləyir və dəstəkləməlidir. Çünki bu bizim strateji aktivimizdir, strateji sərvətimizdir.

Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərini tam şəkildə təmin edib. Biz vaxtilə xaricdən qaz alırdıq, indi xaricə satırıq. Elektrik enerjisi alırdıq, indi onu satırıq. İndi nefti satırıq, neft məhsullarını satırıq. Biz böyük həcmdə qaz satacağıq və ölkəmizə daha çox pul gələcək. Biz bu vəsaitdən də çox səmərəli və şəffaf şəkildə istifadə edirik. Bildiyiniz kimi, neftdən əldə olunan bütün gəlirlər Dövlət Neft Fondunda şəffaf şəkildə saxlanılır. Bu da beynəlxalq auditdən keçən, dünyanın ən şəffaf neft fondlarından biridir. Biz o vəsaiti ölkə üçün vacib olan layihələrə ayırırıq. Həm ehtiyatı artırırıq, həm ən vacib sosial və infrastruktur layihələrinə bu vəsaitdən istifadə edirik. Əlbəttə, Azərbaycan Respublikasının Milli Məclisi bu xərcləri təsdiq edəndən sonra. Onların sırasında köçkünlərin problemlərinin həlli – 100-ə yaxın şəhərcik salınıb – məktəblər, infrastruktur layihələri, əlbəttə ki, neft sənayesinin inkişafı ilə bağlı olan layihələr, xüsusilə nəhəng qazma qurğusunun tikintisi Dövlət Neft Fondunun xətti ilə maliyyələşdirilibdir. Bakı–Tbilisi–Qars dəmir yolu da məhz o mənbədən maliyyələşdirilmişdir.

Biz bu yaxınlarda Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını qeyd etdik. Bu, böyük tarixi nailiyyətdir. Bu dəmir yolunun istifadəyə verilməsi Azərbaycan xalqı və dövləti qarşısında tarixi xidmətdir. Biz bunu bu gün də bilirik, bunu gələcəkdə də hər kəs daha çox görəcək və hiss edəcəkdir. Bunun da maliyyə mənbəyi haradan gəlib? Dövlət Neft Fondundan. Dövlət Neft Fonduna haradan gəlib? Neftçilərin zəhməti hesabına. Əgər Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum tikilməsəydi, o dəhliz açılmasaydı, vəsaitimiz olmasaydı biz bunu necə tikə bilərdik? Mən prezident vəzifəsinə seçiləndən, demək olar ki, dərhal sonra bu layihə ilə məşğul olmağa başladım. Görürdüm ki, burada böyük çətinliklər vardır. İlk növbədə, maliyyə çətinliyi və texniki məsələlərin həlli. Ölkələr arasında bir çox razılaşmalar əldə

olunmalı idi. O vaxt biz bunu həll etdik. Bu layihə ilə bağlı siyasi əngəllər törədilməyə başlandı. Əgər maliyyə imkanlarımız olmasaydı, biz Bakı–Tbilisi–Qarsı hansı pulla tikə bilərdik? Nəzərə alın ki, bu yolun böyük hissəsi Azərbaycan ərazisindən keçir – 504 kilometr. Gürcüstan ərazisindən keçən 200 kilometrdən çox hissəsinin də maliyyə və texniki məsələlərini Azərbaycan həll edibdir. Yolun uzunluğu təxminən 850 kilometrə yaxındır. Yəni səmərəli fəaliyyət nəticəsində, şəffaf Neft Fondunda saxlanılan vəsait hesabına və neftçilərin zəhməti sayəsində biz buna nail ola bildik.

Bu gün Azərbaycan çiçəklənən dövlətdir. Hara baxsan göz oxşayır. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bizim bütün şəhərlərimiz abadlaşır. Əsrlərboyu insanları incidən bütün problemlər həll olunur. Qazlaşdırılma, içməli su, elektrik, yollar – biz bunu nəyin hesabına edirik? Gəlirlərin hesabına. Gəlirlərin əsas mənbəyi nədir? Azərbaycan neftçilərinin zəhməti hesabına çıxarılan neftdir. Azərbaycan vətəndaşları bunu həmişə bilməlidirlər. Biz bu gün haqlı olaraq qeyri-neft sektorundan danışırıq və bu sahədə böyük işlər görülür. Dayanıqlı inkişaf üçün qeyri-neft sektoru inkişaf etməlidir. Çünki bu, ölkə iqtisadiyyatının şaxələndirilməsinə xidmət göstərir və bu sahədə çox böyük nailiyyətlər vardır. Mən dəfələrlə demişəm ki, prioritet istiqamət qeyri-neft sektorudur. Nə üçün? Çünki mən hesab edirəm ki, neft-qaz sektorunda əldə edilmiş bütün nəticələr proqram üzrə gedir və nəyi əldə etmək istəmişiksə, onu da əldə etmişik. Bir dənə də olsun icra edilməmiş və qrafikdən çıxmış layihə yoxdur. Ona görə təbii ki, qeyri-neft sektoru prioritetdir. Ancaq ölkə iqtisadiyyatı, ölkəmizin gələcək inkişafı üçün neft sənayesi, neft-qaz sektoru həmişə həlledici rol oynayacaqdır.

Biz bu gün iqtisadi müstəqilliyi təmin etmişik. İqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır. Əgər biz kimdənsə asılı olsaq, heç vaxt müstəqil siyasət apara bilmərik, heç vaxt öz prinsipial mövqemizi indiki qədər ifadə edə bilmərik. İqtisadi

müstəqillik siyasi müstəqilliyə gətirib çıxartdı ki, bu gün Azərbaycan dünya miqyasında müstəqil siyasət aparan nadir ölkələrdən biridir. İqtisadi müstəqillik isə neftçilərin zəhməti hesabına təmin edilir. Hər kəs bilməlidir ki, hələ uzun illər bundan sonra da ölkəmizin neft-qaz sektoru bizim üçün əsas dayaq olacaqdır. Ona görə Azərbaycan dövləti və neftçilər bundan sonra da bütün səylərini qoymalıdırlar ki, biz bu sektoru inkişaf etdirək.

Bir milyardıncı ton neftin hasil edilməsi münasibətilə 1971-ci ildə Heydər Əliyevin sədrliyi ilə Opera və Balet Teatrında təntənəli mərasim keçirilmişdi. Bu gün müstəqil Azərbaycanda, ulu öndərin adını daşıyan bu möhtəşəm Mərkəzdə biz 2 milyardıncı ton neftin hasilatını qeyd edirik. Müstəqillik ən böyük sərvətimizdir. Yalnız müstəqillik dövründə Azərbaycan böyük zirvələrə çata bildi, müstəqillik dövründə xalq öz təbii sərvətlərinin sahibi oldu. Hesab edirəm ki, bugünkü mərasimin ulu öndərin adını daşıyan Mərkəzdə keçirilməsi həm təbiidir – çünki bu bizim əsas toplantı salonumuzdur, əsas mərkəzimizdir – həm də rəmzi xarakter daşıyır. Çünki Heydər Əliyevin ötən əsrin həm 70–80-ci illərində, həm də 90-cı illərində göstərdiyi xidmətlər bu gün Azərbaycan reallıqlarını təmin edir. Biz isə öz növbəmizdə, bundan sonra da Azərbaycanın neft-qaz sənayesinin inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Əziz dostlar, mən bir daha sizi bu tarixi hadisə münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan neftçilərinə eşq olsun!

* * *

**R ö v n ə q A b d u l l a y e v** (*SOCAR-ın prezidenti*): Möhtərəm cənab Prezident!

Bu gün Vətənimizin qədim neft tarixinə yeni və şanlı bir səhifə yazılır. 2 milyardıncı ton Azərbaycan neftinin hasil edilməsi neft sənayesinin inkişafında növbəti zirvə nöqtəsi, yaddaşlarda uzun müddət yaşayacaq şərəfli bir hadisədir. Zati-

alinizin bu təntənəli mərasimdə iştirakı isə onu neftçilərimiz üçün əsl bayrama çeviribdir.

Cənab Prezident, Sizin bu gün burada iştirak etməyiniz, neftçilərin böyük bir qrupunu Azərbaycanın fəxri adlarına layiq görməyiniz, orden və medallarla təltif etməyiniz onların fədakar əməyinə verdiyiniz yüksək qiymətin, göstərdiyiniz böyük qayğı və diqqətin daha bir təzahürüdür. Siz həmişə özünüzü neftçi hesab etdiyinizi deyirsiniz. Çoxminli neftçi kollektivimiz isə bundan qürurlanır, Sizinlə fəxr edir, Sizə arxalanır. Neftçi əməyinə həmişə böyük dəyər verdiyinizə, Azərbaycan neftçilərinin fəaliyyətini, neft-qaz sənayesinin inkişafını daim diqqət mərkəzində saxladığınıza, bizə göstərdiyiniz sonsuz qayğınıza görə bütün neftçilər adından Sizə dərin minnətdarlığımızı bildirir və dönə-dönə təşəkkür edirəm. Cənab Prezident, Sizi əmin edirəm ki, Azərbaycan neftçiləri Vətənimizin iqtisadi qüdrətinin daha da möhkəmlənməsi naminə bundan sonra da əzmlə çalışacaq, var qüvvələrini, zəngin bilik və təcrübələrini bu istiqamətdə səfərbər edəcəklər.

Bu şanlı nailiyyət ilk növbədə, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda zati-alinizin müdrik rəhbərliyi altında uğurla davam etdirilən enerji strategiyamızın zəfər təntənəsidir. Bu gün biz xalqımızın ümummilli lideri Heydər Əliyevin nurlu xatirəsini dərin hörmət və sonsuz ehtiramla yad edirik. Azərbaycanın neft-qaz sənayesinin böyük inkişaf dövrü ulu öndərin adı ilə sıx bağlıdır. Bugünkü uğurlarımız hələ sovet dövründə ümummilli liderin gərgin əməyi sayəsində axtarış-kəşfiyyat, qazma, hasilat, emal, maşınqayırma, nəqliyyat və başqa sahələrdə yaradılmış zəngin infrastruktur potensialının gücünə əsaslanır. Müstəqillik illərində ulu öndər qədim tarixi olan neft-qaz sənayemizi yeni və misilsiz inkişaf mərhələsinə qaldırmışdır. Ulu öndərin siyasi qətiyyətinin və uzaqgörənliyinin bariz təzahürü olan «Əsrin müqaviləsi» çərçivəsində 1997-ci ildən başlayaraq, 20 il

ərzində «Azəri–Çıraq–Günəşli» neft yataqları blokundan 460 milyon ton neft hasil edilibdir.

Möhtərəm prezidentimiz cənab İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun təkmilləşdirilmiş enerji strategiyasının uğurlu nəticələrini Azərbaycan vətəndaşları olaraq, bizim hər birimiz öz həyatımızda əyani şəkildə görürük. Vətənimiz qısa müddətdə böyük inkişaf yolu keçib: ölkənin siması tamamilə dəyişərək müasirləşib, iqtisadiyyat şaxələndirilib, sənaye, xüsusilə qeyri-neft sektoru inkişaf edir, xalqımızın maddi rifah halı davamlı olaraq yaxşılaşır, neft gəlirləri insan kapitalına çevrilir.

Azərbaycanda hasil olunmuş neftin 2 milyard ton həddinə çatdırılması xalqımızın rəşadətli əməyini təcəssüm etdirir. Biz bu uğura babalarımızın, atalarımızın, müəllimlərimizin, minlərlə neftçinin, inşaatçının, nəqliyyatçının və başqa şərəfli əmək adamlarının gərgin səyləri nəticəsində gəlib çatmışıq. Onların əmək rəşadəti yeni nəsillər üçün örnəkdir. İndi neft mədənlərində, kəşfiyyat dəstələrində, qazma buruqlarında, emal və kimya zavodlarında, tikinti meydançalarında öz ata-babalarını əvəz edən istedadlı gənclərimiz onların işini uğurla davam etdirirlər.

Yeri gəlmişkən, belə bir əlamətdar gündə xarici tərəfdaşlarla ötən müddət ərzində birgə səmərəli və qarşılıqlı faydalı fəaliyyətin müsbət nəticələrini də qeyd etməyə bilmərəm.

Mən burada alimlərimizin əməyini xüsusi vurğulamaq istəyirəm. Azərbaycan neft sənayesinin bütün inkişaf mərhələlərində alimlərimiz mühəndis-texniki işçilərlə sıx yaradıcılıq əməkdaşlığı şəraitində çalışıb və istehsalatın elm tutumunun yüksəlməsinə, mütərəqqi metod və texnologiyaların geniş tətbiqinə nail olublar. Bu əməkdaşlıq bu gün də uğurla davam edir. SOCAR-ın Elm Fondu neftçilərlə alimlərin birgə fəaliyyətinin yeni formatı olaraq, Azərbaycan elminin inkişafına xidmət edir.

Neft hasilatında əldə olunan nailiyyətlər SOCAR-ın inkişafı üçün böyük imkanlar yaradıb. Cənab Prezident, Sizin tap-

şırığınız və dəstəyinizlə son illər müasirtipli, rəqabətqabliyyətli bir şirkətə çevrilmək yolunda inamla addımlayırıq. Ölkə daxilində və xaricdə bir sıra iri investisiya layihələri həyata keçiririk. Gürcüstanda, İsveçrədə, Türkiyədə, Rumıniyada, Ukraynada və bir çox başqa ölkələrdə əldə etdiyimiz aktivlər beynəlxalq enerji sektorunda şirkətimizin mövqeyini gücləndirməkdədir. Müstəqil dövlətimizin və onun müdrik rəhbərinin dəstəyi ilə qarşımızda açılan yeni üfüqlərə doğru durmadan irəliləmək, yerin təkindən çıxarılan milli sərvətə əlavə dəyər qatmaq, treydinq, emal və qaz-kimya texnologiyalarını təkmilləşdirmək hesabına əlavə qazanc əldə etmək qarşımızda duran növbəti əsas vəzifələrdəndir. Ölkəmizdə qeyri-neft sektorunun inkişafına və iqtisadiyyatın şaxələndirilməsinə mühüm töhfə olacaq SOCAR Polimer, SOCAR Karbamid layihələri, Türkiyədə «STAR» Neft Emalı zavodunun inşası məhz bu məqsədlərə xidmət edir. Artıq gələn ildən etibarən bu zavodlar istismara veriləcək və gücümüzə güc qatacaqdır. Heydər Əliyev adına Neft Emalı zavodunun, «Azərikimya»nın, PETKİM-in modernləşdirilməsi layihələri də eyni strategiyanın tərkib hissəsidir. Bu müəssisələr bir-birinin məhsullarından xammal kimi istifadə etməklə, yeni istehsal sahələrinin yaradılmasına təkan verəcəkdir.

Azərbaycanın neft-qaz sənayesinin əzəmətli bir dövrünə yekun vurduğumuz bu möhtəşəm mərasimdə onu da qeyd etməliyəm ki, neftçilər həmişə cəmiyyətimizin avanqard qüvvəsi olublar. Bu möhtəşəm tarixin iştirakçıları kimi, biz sosial məsuliyyətimizi heç vaxt unutmuruq, ölkəmizdə gedən böyük quruculuq və yüksəliş proseslərində yaxından iştirak edirik. Regionların sosial-iqtisadi inkişafı layihələrinin həyata keçirilməsində, Heydər Əliyev Fondunun təşəbbüslərinin reallaşmasında, respublikamızda elmin, təhsilin, səhiyyənin, mədəniyyətin, idmanın davamlı inkişafında neftçilərimiz bundan sonra da əzmlə çalışacaqlar.

Möhtərəm cənab Prezident, çoxminli kollektivimiz adından Sizi bir daha əmin etmək istəyirəm ki, neftçilər xalqımızın daha işıqlı sabahı naminə əllərindən gələni edəcək, indikindən daha yaxşı çalışacaq, daha böyük uğurlara imza atacaqlar. SOCAR ilbəil inkişaf edəcək, qazanılmış peşəkar təcrübəni, əvvəlki nəsillərin zəngin mənəvi irsini, şanlı ənənələrini, Vətənə məhəbbət, dövlətə sonsuz sədaqət prinsiplərini yaşadacaq, gələcək nəsillərə çatdıracaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**Q ə d i m Ə l i y e v** *(«28 May» Neft-Qaz Çıxarma İdarəsinin 10 saylı özülünün rəisi):* Möhtərəm cənab Prezident!

Odlar yurdu Azərbaycanda bu gün böyük bayramdır. 2 milyardıncı ton neftin hasil edilməsini böyük təntənə ilə qeyd edirik. Bu ilk növbədə, əsası ulu öndərimiz tərəfindən qoyulmuş yeni neft strategiyasının Sizin tərəfinizdən uğurla davam etdirilməsinin məntiqi nəticəsidir. Bu qələbə əsas Sizin qələbənizdir, Siz başda olmaqla, bütün Azərbaycan xalqının qələbəsidir. Bu əlamətdar gün münasibətilə icazə verin, ilk növbədə, möhtərəm cənab Prezident, Sizi təbrik edim.

Mən 20 ildir ki, «Günəşli» yatağının «28 May» Neft-Qaz Çıxarma İdarəsinin dərin dəniz özüllərində çalışıram. Həyatımın yarısı Xəzərin qoynunda keçib. Dənizin sərt üzünü də görmüşəm, xoş üzünü də. Lakin nə külək, nə qasırğa, nə tufan bizi qorxutmayıb. Əksinə, daha əzmlə çalışmışıq. Bu gün təntənəsini qeyd etdiyimiz 2 milyard ton neftin 180,5 milyon tonu məhz mənim çalışdığım «28 May» Neft-Qaz Çıxarma İdarəsinin payına düşür. Vətənimizin iqtisadi gücünün artırılması istiqamətində xidmətimizlə qürur duyuruq. Bu biz neft işçilərinin həyat amalıdır.

Sizin sərəncamınızla qabaqcıl neftçilər yüksək dövlət mükafatlarına layiq görülürlər, fəxri adlar, fərdi təqaüd, orden və medallar alırlar. Mən bu gün özümü bu qabaqcıl insanların sırasında görməkdən qürur duyuram. Məni «Tərəqqi» medalına layiq gördüyünüz üçün Sizə minnətdaram. Söz veririk ki, bizim

qarşımızda qoyduğunuz bütün vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün daha əzmlə çalışacağıq, Azərbaycan neft sənayesinin şöhrətini daha yüksəklərə qaldıracağıq.

Möhtərəm Prezidentimiz, dəniz neftçiləri bu günə qədər olduğu kimi, bundan sonra da Sizin siyasətinizi dəstəkləyəcək və hamılıqla Sizin yanınızda olacaqlar.

Möhtərəm Prezidentimiz, biz dünən «Neft Daşları»nda ilk neftin çıxarılmasının 68-ci ildönümünü qeyd etdik. Bu gün də bayramdır. Bu bayrama «Günəşli» neftçiləri də öz əmək nailiyyətləri ilə gəliblər. Biz dünən «Günəşli» yatağındakı 7 saylı özüldə yüksək texnologiyalarla qazılmış 29 saylı quyunu istismara təhvil verdik. Sizi əmin etmək istəyirəm ki, biz çoxminli neftçi ordusu zati-alinizin müdrik rəhbərliyi ilə bundan sonra da yeni-yeni uğurlara imza atacağıq. Dövlətimizə və Sizə sədaqətimizi əməli işlə göstərəcəyik. Bu həmişə belə olacaqdır. Çiçəklənən Azərbaycan naminə yolunuz daim açıq olsun, əziz Prezidentimiz!

Diqqətinizə görə təşəkkür edirəm.

**Q a r i  C o u n s** (*bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti*): Zati-aliləri möhtərəm cənab Prezident!

Möhtərəm qonaqlar, xanımlar və cənablar!

Belə bir auditoriyanın qarşısında çıxış etməkdən şərəf duyuram. Bu gün biz çox əlamətdar bir hadisəni qeyd edirik – Azərbaycanın neft hasilatı 2 milyard tonu keçib.

2 milyard ton!

Bəziləri üçün bu, böyük olsa belə, adi bir rəqəmdir.

Bəziləri üçün bu, dövlətin tarixində şərəfli bir səhifədir.

Şəxsən mənim üçün isə bu rəqəm möhtəşəm bir uğur hekayəsidir.

İlk növbədə, bu, gerçəkləşmiş uzaqgörən siyasətin uğur hekayəsidir.

1994-cü ildə – Azərbaycan müstəqilliyini yenicə bərpa etdiyi bir dövrdə ümummilli lider Heydər Əliyev ölkənin qapılarını *bp* də

daxil olmaqla, xarici investorların üzünə açdı və Azərbaycanın müasir tarixində ilk beynəlxalq neft sazişini imzaladı. Haqlı olaraq «Əsrin müqaviləsi» adlandırılmış «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku üzrə «Hasilatın Pay Bölgüsü» haqqında Sazişin imzalanması nəticəsində dənizdə və quruda yerləşən dünya səviyyəli neft infrastrukturu ərsəyə gəldi və bütün bunlar güclü iqtisadi inkişafa təkan verdi. Ən önəmlisi isə «qara qızıl»ı insan kapitalına çevirməyə imkan yaratdı.

Bu gün biz «qara qızıl»ın parlaq gələcəyini görə bilmiş mərhum prezident Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edirik.

İkincisi, bu öz bəhrəsini vermiş qətiyyətli səylərin uğur hekayəsidir. Mən yalnız son dövrləri nəzərdə tutmuram.

Azərbaycan dünyanın ən qədim neft sənayelərindən birinə malikdir. Mexaniki qazma üsulunun yarandığı yer, ilk dəniz platformasının vətəni, birinci neft boru kəmərinin inşa edildiyi ölkə – bütün bunlar Azərbaycanda yaşayan minlərlə zəhmətkeş insanın əməyi sayəsində gerçəkləşmiş neft sənayemizin möhtəşəm nailiyyətlərindən sadəcə, bir neçəsidir. Bu gün biz keçmişdə işləmiş cəsarətli neftçilərimizin xatirəsini ehtiramla yad edirik. Bizim bugünkü uğurlarımız məhz həmin nəhənglərin çiynində bu qədər əzəmətli görünür.

Biz həmçinin bu gün bu şərəfli peşəni davam etdirən fədakar neftçilərə də təşəkkürümüzü bildiririk.

Üçüncüsü, bu, möcüzələr yaradan beynəlxalq tərəfdaşlığın zəfəridir.

Bu il *bp* Azərbaycandakı fəaliyyətinin 25 illiyini qeyd edir. Əsrin ötmüş dörddəbir hissəsi ərzində bizim Azərbaycan hökuməti və partnyor şirkətlər ilə olan tərəfdaşlığımız, bir sözlə desək, mükəmməl olmuşdur. Bu tərəfdaşlıq Xəzərin dərinliklərindən karbohidrogenlərin hasil olunmasına, emal edilməsinə və Avropadakı yanacaqdoldurma məntəqələrinə və qaz sobalarına nəqlinə imkan verən güclü regional infrastruktur yaradıbdır.

Cənab Prezident, ötən 25 il ərzində Azərbaycanın beynəlxalq neft konsorsiumları ilə imzaladığı hər bir müqaviləyə verdiyiniz qətiyyətli dəstəyə görə Sizə və hökumətinizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

«Hasilatın Pay Bölgüsü» haqqında sazişlər Azərbaycanda *bp*-nin və tərəfdaşlarımızın yatırdığı sərmayələrin etibarlı təminatçısıdır.

Cənab Prezident, Sizin səyləriniz və sənayeyə yaxından bələd olmağınız qarşılıqlı etimadın yaranmasında və möhkəmlənməsində əvəzsiz rol oynayıbdır.

Beləliklə, bu 3 element – uzaqgörən siyasət, qətiyyətli səylər və tərəfdaşlıq 2 milyard tonun uğur hekayəsinin əsasını təşkil edir. Lakin yalnız keçmiş zəfərlərdən və hazırkı nailiyyətlərdən danışsaq, bu hekayə yarımçıq qalar. Mənim fikrimcə, «2 milyard ton» nailiyyətini həqiqətən də möhtəşəm edən məhz qarşıdakı perspektivlərdir.

Sentyabrın 14-də bütün dünya parlaq gələcək vəd edən, tərəfdaşların və Azərbaycan hökumətinin yenidən tərtib olunmuş «Azəri», «Çıraq» və «Günəşli» yataqları üzrə sazişin imzalanmasının şahidi oldu. Bu saziş artıq bir çoxları tərəfindən «Yeni əsrin müqaviləsi» adlandırılır.

İnanıram ki, yenilənmiş saziş yalnız Azərbaycan iqtisadiyyatına növbəti böyük sərmayə axını gətirməklə kifayətlənməyəcək, həm də ölkənin neft sənayesinin tarixində texnoloji inkişaf və insan nailiyyətləri ilə zəngin olan yeni bir səhifə açacaqdır.

Bu gün qeyd etdiyimiz kimi, biz yenə də bu gözəl, möhtəşəm salona yığışacağıq və uğur hekayəmizin təməlini təşkil edən 3 əsas prinsip – uzaqgörən siyasət, qətiyyətli səylər və sarsılmaz tərəfdaşlıq sayəsində parlaq gələcəklə bağlı arzularımızın gerçəkləşməsinin şahidi olacağıq.

Təşəkkür edirəm.

**M a h i r ə  Ə s ə d z a d ə** *(Bakı Ali Neft Məktəbinin birinci kurs tələbəsi)*: Əziz Prezidentimiz!

Hörmətli mərasim iştirakçıları!

Bu möhtəşəm tarixi bir gündə sizin qarşınızda, Azərbaycan neftçiləri qarşısında mənim kimi gənc tələbə üçün çıxış etməyin nə qədər qürurverici, həyəcanlı olduğunu təsəvvür etmək qeyri-mümkündür. Ulu öndər Heydər Əliyevin adını daşıyan Mərkəzin tribunasından hamınızı tarixi gün münasibətilə təbrik edirəm.

Möhtərəm cənab Prezident, mən əslən Qarabağdan, Cocuq Mərcanlı kəndindənəm. Köçkün ailəsində böyümüşəm, qaçqın məktəbində oxumuşam. Yaranan şəraitdən asılı olaraq, ailəmlə birlikdə Bakıya köçmək məcburiyyətində qalmışdıq. Lakin indi Siz bizə kəndimizi qaytardınız, evimizi, məscidimizi qaytardınız. Ən əsası, Qarabağa qayıtmaq ümidimizi bir daha gücləndirdiniz. Bütün dünyaya sübut olundu ki, Sizin rəhbərliyinizlə Qarabağ işğaldan azad olunacaqdır. Qarabağ bizimdir, bizim olacaqdır!

Uşaqlıqdan ən böyük arzum neftçi olmaq, SOCAR ailəsinə qoşulmaqdır. Buna nail olmaq üçün gecə-gündüz oxumuşam, elə gecələr olub ki, yuxusuz qalmışam. Həyəcanlı anlar yaşamışam. Həyatımın ən böyük arzularından olan Bakı Ali Neft Məktəbinə qəbul olunmaq üçün bu il qəbul imtahanlarında maksimum 700 bal toplamışam, 17 yaşımda Sizin sərəncamınızla Prezident təqaüdünə layiq görülmüşəm. İndi isə hazırda Sizin yaratdığınız və mayın 1-də açılışını etdiyiniz, ən müasir laboratoriyalarla təchiz edilmiş, dünyanın nüfuzlu universitetlərindən geri qalmayan Universitet şəhərciyinə malik Bakı Ali Neft Məktəbində təhsilimi davam etdirirəm. Budur neft kapitalının insan kapitalına çevrilməsi. Qəhrəman, fədakar neftçi ata və qardaşlarımız! Neftçi peşəsi dünyada azərbaycanlıların milli peşəsi kimi qəbul olunur. Babalarımız çətin dövrdə yaşayıb, işləyiblər, neft sənayesinin təməlini qoyublar. Atalarımız böyük yeniliklərə imza atıblar.

Sizi əmin edirik ki bizim nəsil, gələcək nəsil bu böyük şanlı yolu ləyaqətlə davam etdirəcək, Azərbaycanın neft sənayesinin

inkişafı yolunda üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirəcəyik. Bunun üçün yüksək təhsil almalı, ali məktəbimizdə bizə yaradılan gözəl şəraitdən, savadlı müəllimlərimizdən, yüksək səviyyədə təşkil olunan istehsalat təcrübəsindən yararlanıb bu inamı doğrultmalıyıq.

1971-ci ildə 1 milyard ton neftin çıxarılması qeyd olunub. Bu gün isə biz 2 milyard ton neftin çıxarılmasını qeyd edirik. Bizim və gələcək nəslin vəzifəsi isə 3 milyard ton neftin çıxarılmasıdır. Əmin edirəm ki, biz bu vəzifənin öhdəsindən ləyaqətlə gələcəyik.

Əziz Prezidentimiz, hörmətli mərasim iştirakçıları! Vətənimizdə təkcə bu ildə dünyada nadir qazma qurğusu olan «Heydər Əliyev» qurğusu yaradıldı, yenə də dünyada nadir, xüsusi təyinatlı «Xankəndi» gəmisi inşa edildi, «Yeni əsrin müqaviləsi» imzalandı, Bakı–Tbilisi–Qars dəmir yolu xətti çəkildi. Bütün bu qüdrətli işləri öz gücümüzlə, öz potensialımızla, heç kimin köməyi olmadan etdik. Çünki Azərbaycanın 2 böyük sərvəti vardır – Azərbaycan xalqı və Azərbaycan nefti. Ən başlıcası isə bu sərvətləri düzgün idarə edən, Azərbaycanı xoşbəxt gələcəyə inamla aparan möhtərəm Prezidentimiz vardır.

Əziz neftçilər, mehriban SOCAR ailəsi, bir daha bayramımız mübarək olsun! Qəhrəman, fədakar neftçilərimiz daim var olsun!

**Xoşbəxt Yusifzadə** *(SOCAR-ın Birinci vitse-prezidenti)*: Hörmətli prezidentimiz cənab İlham Əliyev!

Hörmətli mərasim iştirakçıları!

Mən sizin hamınızı bu bayram münasibətilə təbrik edirəm. Bu doğrudan da çox böyük bayramdır. Azərbaycanın belə bir uğur qazanması heç də asan iş deyil. İndi burada cənab prezident İlham Əliyev çox gözəl, məzmunlu çıxış etdi. Özü də hiss etdiniz ki, bu çıxış təkcə rəhbər çıxışı deyildi. Bu, neftçilərlə bir yerdə işləyən, neftçilərlə hər gün bu əziyyəti görən, onların işindən xəbəri olan bir şəxsiyyətin çıxışı idi. Bu, təəccüblü deyil. Çünki cənab İlham Əliyev 10 il neftçilərlə işləyib. Bir var ki, həmişə

kənardan baxasan, bir də var ki, onlarla bir yerdə olasan. Cənab İlham Əliyevin bizimlə bir yerdə olmasının, neftçilərin çəkdikləri əziyyəti, neftin heç də asan hasil olunmadığını gözləri ilə görməsinin nəticəsidir ki, indi də neftçilərə diqqət və qayğısını, köməyini əsirgəmir. Ümumiyyətlə, Azərbaycanda təkcə neftçilərə deyil, bütün sahələrdə çalısan insanlara yüksək diqqət və qayğı göstərilir. Azərbaycan bütün istiqamətlərdə inkişaf edir. Azərbaycan dünya miqyasında tanınan respublikaya çevrilibdir.

Mən sovet vaxtında yaşamışam, indi də yaşayıram. Onda da Azərbaycanı görmüşdüm, indi də Azərbaycanı görürəm. Azərbaycanı o vaxt çox yerdə tanıyan yox idi. İndi Azərbaycanın bayrağını cənab İlham Əliyev göylərə qaldırıb. Biz hamımız bununla fəxr edirik. Bu gün cənab İlham Əliyev neftçilərə mükafatlar verdi. Bu mükafatların ən böyüyü cənab İlham Əliyevin özünə düşür. Bizim cənab Prezidentə mükafatımız ona məhəbbətimiz, hörmətimiz, yaxşı işimiz ola bilər. Respublikamızın gələcəyi naminə gördüyü işlərdə həmişə ona kömək edək, onunla bir yerdə olaq. Elə etməliyik ki, respublikamızın bayrağı gələcəkdə daha da yüksəklərə qalxsın.

Bir-iki kəlmə də milyarddan demək istəyirəm. Mənim fərqim bundadır ki, həm 1971-ci ildə 1 milyardıncı ton neftin hasil edilməsi ilə bağlı mərasimdə iştirak etmişəm, həm də indi 2 milyardıncı ton neftin hasil edilməsinə həsr olunmuş mərasimdə iştirak edirəm. Daha üçüncü milyard barədə söz deyə bilmərəm. Amma bu 2 milyardda iştirak etmişəm. Birinci milyardda mənə orden də veriblər. 1971-ci il martın 28-də biz birinci milyard ton nefti hasil etdik. O vaxt ulu öndər Heydər Əliyev Moskvada XXIV qurultaydakı çıxışında demişdi ki, balaca bir respublikanın – Azərbaycanın neftçiləri 1 milyard ton neft hasil ediblər. Bunu bütün dünyaya eşitdirdi ki, Azərbaycan 1 milyard ton neft çıxarıbdır. Sonra Bakıda mərasim keçirildi. Bu barədə cənab İlham Əliyev çıxışında danışdı. Həmin mərasimdə neftçilər mükafatlandırıldılar. Bu doğurdan da bir bayrama çevrildi. Birinci milyard ton neft hasil olunanda cənab Heydər

Əliyev cəmi 2 il idi ki, respublikaya rəhbərlik edirdi. Amma ikinci milyard ton neftin hasilatına başlanması cənab Heydər Əliyevin adı ilə bağlıdır.

İndi mən burada qısa rəqəmləri söyləmək istəyirəm. Çünki bu haqda ümumi danışıldı. Birincisi, o vaxt biz dənizin dərinliyi 40 metrə qədər olan sahələrində bütün yataqları kəşf etmişdik. Amma böyük dərinliklərə getməyə bizdə heç bir imkan yox idi. Cənab Heydər Əliyev Azərbaycana üzən yarımdalma qazma qurğuları, 400-dən artıq gəmi, həmçinin kran gəmiləri gətirtdi. Bundan başqa, Heydər Əliyev Dərin Özüllər zavodunu inşa etdirdi. «Günəşli» yatağı kəşf olunmuşdu. Burada işləmək, neft çıxarmaq lazım idi. Əgər Dərin Özüllər zavodu olmasaydı, biz «Günəşli»də işləyə bilməyəcəkdik. Əgər 1991-ci ildə Azərbaycanda 11 milyon ton neft hasil edilmişdisə, onun 6,7 milyon tonu «Günəşli»nin payına düşürdü. Mən onu demək istəyirəm ki, əgər «Günəşli» olmasaydı, görün Azərbaycanda neft hasilatı nə vəziyyətdə olardı. O zavodu Həştərxanda tikmək istəyirdilər. Cənab Heydər Əliyevin böyük hörməti, tələbi nəticəsində zavod Azərbaycanda tikildi. O zavodun indi də Azərbaycanın neftçıxarma sənayesindəki rolunu siz yaxşı bilirsiniz.

Gəmilərin alınması kəşfiyyat işlərinin miqyasını artırdı. «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun dərinlikdəki hissəsi kəşf olundu. Bu yataqlarda iş başlandı və böyük miqyas aldı. Bunun sayəsində ikinci milyard ton neftin 300 milyon tonunu biz sovet dönəmində – 1971-ci ildən 1991-ci ilə qədər olan dövrdə hasil etdik. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndən sonra 700 milyon ton neft hasil olundu. Görün bu rəqəmlər arasında nə qədər böyük fərq vardır. Həmin 700 milyon tonun hasil edilməsində xarici şirkətlərin bizim Xəzərdə işə başlamasının böyük rolu oldu. Bunu da ulu öndər Heydər Əliyevin neft strategiyası, «Əsrin müqaviləsi» təmin etdi. Prezident İlham Əliyev qeyd etdi ki, biz ay yarım Hyustonda qaldıq. Nəticə heç də asan başa gəlmədi. Hər gün elə hadisələr baş

verirdi ki, ya qarşı tərəf razılaşmayıb gedirdi, ya da biz. Cənab İlham Əliyevin neft sahəsi ilə əlaqədar böyük işi elə oradan başlandı. Onun Beynəlxalq Münasibətlər İnstitutunu bitirməsi, xarici dilləri bilməsi bu məsələnin həllində çox böyük rol oynadı. «Əsrin müqaviləsi»nin imzalanmasında cənab İlham Əliyevin xidmətləri barədə danışmaqla qurtarmaz. Bu xidmətlər sayəsində Azərbaycanı dünya da, nəhəng şirkətlər də tanıdılar. Sonrakı illərdə 34 müqaviləyə imza atıldı. «Əsrin müqaviləsi», demək olar ki, ikinci milyardın əsasını təşkil etdi. Bu da sonra Bakı–Tbilisi–Ceyhan kəmərinin tikilməsini şərtləndirdi. O vaxt bir çoxları deyirdilər ki, bəlkə bu kəmər lazım deyil. Ancaq mən bu kəmərin əhəmiyyəti barədə bir rəqəmi diqqətinizə çatdırmaq istəyirəm. Əgər xarici bazarlara 459 milyon ton neft çıxarılıbsa, onun 342 milyon tonu Bakı–Tbilisi–Ceyhan kəməri ilə nəql olunub. İndi təsəvvür edin, Bakı–Tbilisi–Ceyhan olmasaydı, biz nə edə bilərdik? Bunların hamısı ulu öndər Heydər Əliyevin neft strategiyasının bəhrələridir. Cənab prezident İlham Əliyev bu strategiyanı uğurla davam etdirir. Azərbaycanda neft hasilatı gündən-günə artır.

İndi biz sizinlə bir yerdə bu bayramı qeyd edirik. Allahın köməyi ilə üçüncü milyard ton neftin hasilatına bu gündən başlandı. Biz üçüncü milyarda nə vaxt çata bilərik? Hesablamalar göstərir ki, biz Azərbaycanda üçüncü milyard ton nefti təqribən 2060-cı ildə hasil edə bilərik. Azərbaycanda 2 trilyon kubmetr qazı isə daha tez – 2055-ci ildə hasil edə bilərik.

Burada əyləşənlərə Allahdan uzun ömür, möhkəm can-sağlığı, xoşbəxtlik arzu edirəm. Arzu edirəm ki, cənab İlham Əliyev başda olmaqla, üçüncü milyard ton neftin hasil olunmasını da belə bayram edəsiniz.

* * *

*Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının neft sənayesi sahəsində uzunmüddətli səmərəli fəaliy-*

*yətinə görə Xoşbəxt Yusifzadə birinci dərəcəli «Əmək» ordeni ilə təltif edildi.*

*Dövlət başçısı ordeni Xoşbəxt Yusifzadəyə təqdim etdi.*

*Sonda Azərbaycanın neft sənayesinin tarixinə həsr edilən videoçarx nümayiş olundu.*

## ŞAHMAT ÜZRƏ AVROPA KOMANDA ÇEMPİONATININ QALİBLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Şahmat üzrə Avropa komanda çempionatının qaliblərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Azərbaycan növbəti böyük uğura imza atıb. Bu dəfə idmanın şahmat növündə, intellektual idman növündə qazanılmış qələbə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan komandası Avropa çempionatında 1-ci yer tutub və çempion olub. Bu möhtəşəm qələbə münasibətilə şahmatçıları, məşqçiləri, Federasiyanı ürəkdən təbrik edirəm.

Bu, bütün Azərbaycan xalqını sevindirən qələbədir. Şadam ki, bu birinci qələbə deyil, üçüncü qələbədir. Yəni 3 dəfə Azərbaycan şahmatçıları Avropada 1-ci yeri tutublar. Bu onu göstərir ki, budəfəki qələbə də təsadüfi deyil, əsl qələbədir. Bu qələbə Azərbaycan xalqının istedadına, intellektinə əsaslanan qələbədir.

Gərgin mübarizədə bizim şahmatçılarımız Azərbaycan xalqının intellektual potensialını bütün Avropaya və eyni zamanda, dünyaya bir daha nümayiş etdirdilər. Mən sizi dəvət etdim ki, bu qələbə münasibətilə sizi şəxsən təbrik edim. Bilirəm ki, siz bu gecə Bakıya böyük qələbə ilə, kuboklarla qayıtmısınız və bütün Azərbaycan xalqını sevindirmisiniz.

Şahmatın Azərbaycanda inkişafı çox sürətlə gedir. Bilirsiniz ki, bölgələrdə müasir şahmat məktəbləri, şahmat evləri yaradılır. Biz vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ənənəni bərpa etmişik. O vaxt – keçən əsrin 70–80-ci illərində, demək olar ki, bütün bölgələrimizdə müasir şahmat məktəbləri açılmışdır. Əfsuslar olsun ki, ötən əsrin 90-cı illərinin əvvəllərində onların bir çoxu bağlanmış, yaxud da ki, təyinatı dəyişdirilmişdir, özəlləşdirməyə açılmışdır. İndi onların bir çoxunda digər obyektlər yerləşir. Biz isə bütün bölgələrdə yeni şahmat evlərinin, məktəblərinin tikintisi ilə bağlı çox ardıcıl iş aparırıq. Bölgələrdə yerləşən şahmat evlərinin bir çoxunun açılışında mən şəxsən iştirak etmişəm. Əlbəttə ki, Bakıda böyük Şahmat Mərkəzinin yaradılması gündəlikdə duran vacib məsələlərdən biridir. Əminəm ki, biz yaxın gələcəkdə bunu da edəcəyik.

Azərbaycanda beynəlxalq yarışlar mütəmadi qaydada keçirilir. Vüqar Həşimovun adını daşıyan beynəlxalq turnir artıq dünya miqyasında çox mötəbər yarış kimi qiymətləndirilir. Əlbəttə, dünyanın aparıcı şahmatçılarının bu turnirdə iştirakı bunun səviyyəsini göstərir. Biz hamımızın iştirak etdiyimiz Ümumdünya Şahmat Olimpiadasını da xatırlayırıq. Bu da çox möhtəşəm idman yarışı idi. Azərbaycanda belə bir tədbirin keçirilməsi, əlbəttə, bizim şahmat sahəsində əldə etdiyimiz uğurların təzahürüdür. Bu dəfə də Azərbaycan komandası bir daha bizi sevindirdi. Komandamızın iştirakçıları gənclərdir, gənc nəsildir, müstəqillik dövründə yetişmiş şahmatçılardır. Bu qələbə doğrudan da həm müstəqilliyimizin uğurlu inkişafını, həm də ölkəmizin intellektual səviyyəsini göstərir. Azərbaycan Olimpiya oyunlarında, Avropa və İslam Həmrəyliyi oyunlarında dünyaya sübut etdi ki, böyük idman ölkəsidir. Biz Bakıda keçirilmiş Avropa oyunlarında 2-ci, İslam Həmrəyliyi oyunlarında isə 1-ci yerə layiq görüldük. Yay Olimpiya oyunlarında medalların sayına görə biz dünya miqyasında 14-cü yerdəyik. Bu, tarixi nailiyyətdir, tarixi qələbədir. Bu qələbə – şahmat sahəsində əldə edilmiş qələbə onu göstərir ki,

xalqımızın çox güclü intellektual potensialı da vardır. Bu, əlbəttə, ölkəmizi və xalqımızı fərqləndirən amillərdən biridir. Həm döyüş idman növlərində, həm komanda idman növlərindəki uğurlarımız, həm də intellektual idman növündə – şahmatda bu qələbə doğrudan da bizim hamımızı çox sevindirir.

Mən xarici mətbuatı da izləmişəm. Bilirəm ki, bu qələbə xarici mətbuatda çox geniş işıqlandırılıbdır. Avropa qitəsində şahmat sahəsində 1-ci olmaq, özü də üçüncü dəfə 1-ci olmaq doğrudan da böyük tarixi qələbədir.

Mən sizi dəvət etdim ki, şəxsən təbrik edim. Əvvəlki illərdə bizim görüşlərimiz çox olmuşdur. Siz bu binada dəfələrlə olmusunuz. Sizin ulu öndərlə şəkliniz bütün bölgələrdə şahmat evlərinin divarında asılıbdır və bu, gənc uşaqlar üçün də bir nümunədir. Mən də bölgələrdə o şahmat məktəblərinin açılışında uşaqlarla görüş əsnasında həmişə deyirəm ki, siz də bizim tanınmış şahmatçılar kimi olmalısınız, dünya miqyasında qələbə qazanmalısınız, xalqımızı sevindirməlisiniz və Azərbaycanı təbliğ etməlisiniz. Sizin indiki qələbəniz də əminəm ki, şahmatın Azərbaycanda populyarlaşmasında öz müsbət rolunu oynayacaq, şahmat bölmələrinə axın daha da güclənəcəkdir.

Bu sizin ümumi qələbənizdir. Sizi təbrik edirəm, yeni uğurlar və qələbələr arzulayıram.

* * *

**F a i q  H ə s ə n o v** *(Azərbaycan Şahmat Federasiyasının Birinci vitse-prezidenti, beynəlxalq hakim)*: Möhtərəm cənab Prezident, ilk növbədə, mən Sizə komanda adından minnətdarlığımı bildirirəm ki, vaxt tapıb bizi qəbul edirsiniz. Biz Sizinlə üçüncü dəfədir ki, görüşürük. Bugünkü görüş çox xoş görüşdür, sevinc görüşüdür. Mən başqa bir cəhətdən Sizə bir daha minnətdarlığımı bildirirəm, Sizə «Sağ olun» – deyirəm. Biz orada olarkən respublikanın bütün ictimai həyatı ilə təmasda idik, baxırdıq ki, ölkəmizdə nə baş verir. XXI əsrin layihə-

sini – Bakı–Tbilisi–Qars dəmir yolunu Siz açdınız, izləyirdik. Bu münasibətlə mən Sizi təbrik etmək istəyirəm. Bu, xalqımız üçün tarixi hadisədir. Ona görə ki, dəmir İpək yolunun açılması Azərbaycanı Avropaya bağlayır. Gələcəkdə biz də həmin yolun sərnişin qatarından istifadə edəcəyik. Həm də uşaqlar belə bir təklif etdilər ki, ilk sərnişin qatarı hərəkətə başlayanda biz dünyanın güclü şahmatçılarını çağıraq və qatarda bir turnir təşkil edək və bu, bir hadisə olsun. Bu turniri ən güclü şahmatçılarla, Türkiyə və Gürcüstan şahmatçıları ilə bir yerdə keçirək.

Bu il bizim komanda, əlbəttə, çox güclü idi. Bizim hamımızın məqsədi yalnız birinci yerə çıxmaq idi. Mən bir məqamı da Sizin diqqətinizə çatdırmaq istəyirəm ki, biz orada «Qarabağ»ın Madriddə «Atletiko» ilə oyununa kompüter vasitəsilə baxırdıq. Bizim şahmatçıların hamısı futbol həvəskarıdır. Hər şahmatçının sevimli komandası var. Amma «Qarabağ» oynayanda, aydın məsələdir, hamımız «Qarabağ»a baxır və azarkeşlik edirdik. «Qarabağ» oyunu gözəl nəticə ilə başa çatdırandan sonra ertəsi gün biz Ermənistan komandası ilə oynadıq. Bu cür ruh yüksəkliyindən sonra hamı dedi ki, «Qarabağ» belə oynayıbsa, Ermənistanla oyunda bizim ayrı yolumuz yoxdur. Biz gərək yalnız qələbə çalaq. Bu doğrudan da belə oldu. Bundan sonra uşaqlar özləri də dedilər ki, artıq biz qızıl medala yol açdıq.

*Faiq Həsənov bildirdi ki, bu qələbədə bütün qrossmeysterlərimizin böyük rolu vardır. O vurğuladı ki, Azərbaycan komandasının üzvləri Beynəlxalq Şahmat Federasiyasının reytinq siyahısında 2700 və daha çox əmsalı olan şahmatçılar sırasındadırlar. Faiq Həsənov qeyd etdi ki, şahmatçılarımız Teymur Rəcəbov və Şəhriyar Məmmədyarov Beynəlxalq Şahmat Federasiyasının il ərzində ən güclü şahmatçılar arasında keçirdiyi Qran-pri turnirində ilk üçlüyə düşüblər və onların mükafat qazanmaq imkanları çox yüksəkdir. 2017-ci ildə şahmat yarışlarında əldə edilən qələbələrdən danışan Federasiyanın vitse-prezidenti bildirdi ki, gənc şahmatçılarımız bu il keçirilən Avropa çempionatında 2 qızıl, 2 gümüş, 1 bürünc medal qazanaraq, komanda hesabında 2-ci olublar.*

*Bundan başqa, SOCAR-ın klubu olan «Odlar yurdu» da bu il Avropa çempionatının mükafatçılarındandır.*

*İdmançılara, o cümlədən şahmatçılara göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlığını bildirən Faiq Həsənov son illərdə respublikamızın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da idmanın bu növünün inkişaf etdiyini vurğuladı. O, Bakıda 42-ci Ümumdünya Şahmat Olimpiadasının yüksək səviyyədə keçirilməsinin bütün dünyada böyük məmnunluqla qarşılandığını dedi.*

**Şəhriyar Məmmədyarov** (*milli komandanın üzvü*): Cənab Prezident, diqqətinizə görə çox sağ olun.

Hələ yeniyetmə olarkən bizim əldə etdiyimiz nəticələrə Siz həmişə diqqət göstərmisiniz. Bəlkə də başqa ölkələrdə belə nəticələrə heç kim diqqət yetirməzdi. Amma Siz hələ o vaxt inanırdınız ki, biz bu gün Avropanın ən güclüsü və ən yaxşısı olacağıq.

Biz birinci dəfə Avropa çempionu olanda və ölkəmizə qayıdanda komanda yoldaşlarımız özlərini elə göstərirdilər ki, guya bu bizim üçün normal nəticədir. Həqiqətdə isə biz o nəticəni çox çətinliklə qazanmışdıq. Amma bu gün komanda gedib Avropa çempionu olanda elə bil hamı öyrəşib, elə bil hamı başa düşür ki, Avropanın ən güclü, ən yaxşı komandası gəlir. Bu gün Azərbaycan şahmatı yəqin ki, tarixinin ən parlaq anlarını yaşayır. Bu gün Azərbaycanda 2700-dən yuxarı əmsalı olan 4 şahmatçı vardır. Bu gün artıq dünyanın üçlüyündə olmaq – dünyanın üçlüyünə gəlib çıxmışıq – dünyanın bir nömrəli şahmatçısı olmaq da mümkündür, bu çox yaxındır. Dünya çempionluğu uğrunda mübarizədə birinci olmaq, tacı Azərbaycana qaytarmaq – bunlar hamısı artıq sadəcə, söz deyil, bu, artıq bir reallıqdır, çox yaxındadır.

Bunların hamısının, əlbəttə, bir səbəbi var – diqqət və qayğı. Biz Sizin diqqətinizi hər zaman hiss edirik. Bakıda keçirilən olimpiadalara, ümumiyyətlə, hər il Azərbaycanda keçirilən turnirlərə göstərilən ən böyük dəstəyə, diqqətə və qayğıya görə

şahmatçılarımız adından, həmçinin Qran-pri yarışına görə bu görüşə gələ bilməyən Teymur Rəcəbovun, Arkadi Naydiçin adından Sizə dərin təşəkkürümüzü bildirirəm. Biz bir komandayıq, məğlub olanda hamımız məğlub oluruq, heç bir oyunçunu ayırmırıq. Biz bir dost komanda kimi, hər yerdə göstərmişik ki, Azərbaycan həm dostluğu, həm uğur qazanmağı bacaran, zəkalı insanları olan intellektlər diyarıdır.

Bizim üçün yaradılan şəraitə görə çox sağ olun. Bizə göstərdiyiniz diqqət və qayğıya – 20 il bundan əvvəl başlayan diqqət və qayğınıza görə bu gün Sizə səmimi-qəlbdən «Çox sağ olun» – deyirik. Təşəkkür edirik, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bir daha sizi təbrik edirəm. Bir daha qeyd etmək istəyirəm ki, bu, böyük qələbədir. Bu qələbə Azərbaycan intellektinin, Azərbaycan zəkasının təntənəsidir. Bu qələbəni, qələbə sevincini Azərbaycan xalqına siz bəxş etmisiniz. Sizə yeni uğurlar və yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

*Sonra şahmat üzrə milli komandamızın indiyədək Avropa çempionatlarında qazandığı kuboklar dövlət başçısına təqdim olundu.*

## GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏR

*10 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Gəncə şəhərinə səfərə gəlmişdir.*

*Əvvəlcə dövlət başçısı ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verildi. Gəncənin ulu öndərin abidəsinin ucaldığı Heydər Əliyev adına baş meydanı şəhər sakinlərinin və qonaqların istirahəti üçün çox gözəl məkanlardan biridir.*

# GƏNCƏ DÖVLƏT FİLARMONİYASININ AÇILIŞI MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Gəncə Dövlət Filarmoniyasının yeni binasının açılışı mərasimində iştirak etmişdir.*

*Bu mədəniyyət ocağının təməli prezident İlham Əliyev tərəfindən 2012-ci ildə qoyulub, inşaat işləri 2017-ci ilin noyabrında başa çatdırılıbdır.*

*Dövlət başçısı filarmoniyanın rəmzi açılışını bildirən lenti kəsdi və bina ilə tanış oldu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, altımərtəbəli binada inzibati, məşq, qrim, rejissor və istirahət otaqları, bufet yaradılıb. Burada 1200 nəfərlik konsert və 300 yerlik iclas zalları, 10 loja və 1 VIP loja da tamaşaçıların ixtiyarına veriləcəkdir. Filarmoniyada kitab satışı da həyata keçiriləcəkdir. Binanın üçüncü mərtəbəsinin eyvanında Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, Qara Qarayevin, Niyazinin və Arif Məlikovun heykəlləri qoyulub. Ərazidə açıq havada yay konsert meydançası, baxış qülləsi, 500 avtomobil yerlik yeraltı dayanacaq və ümumi sahəsi 2000 kvadratmetr olan 2 korpusdan ibarət ikimərtəbəli qalereya inşa edilibdir.*

*Filarmoniyanın yeni binasında mədəni tədbirlərin yüksək səviyyədə keçirilməsi, əməkdaşların və yaradıcı kollektivlərin səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Gəncə Dövlət Filarmoniyasının yeni binasının istifadəyə verilməsi Azərbaycanda mədəniyyət sahəsinə göstərilən dövlət qayğısının əyani təsdiqidir.*

*Filarmoniyanın ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, dekorativ gül kolları əkilibdir. Binanın qarşısında 2 fəvvarə quraşdırılıb və milli ornamentlərlə bəzədilibdir.*

*Sonra prezident İlham Əliyev Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün Gəncənin həyatında çox gözəl və əlamətdar gündür. Biz Gəncə Dövlət Filarmoniyasının açılışını birlikdə qeyd edirik. Bu münasibətlə sizi və bütün gəncəliləri ürəkdən təbrik edirəm. Bu doğrudan da çox gözəl, əlamətdar hadisədir. Filarmoniya ən yüksək standartlara uyğun tikilib, həm xarici görünüşü, həm də daxili tərtibatı baxımından ən yüksək standartlara cavab verir. Gəncəyə əlavə yaraşıq verəcək bu filarmoniyanın şəhərin mədəniyyət və incəsənət sahələrinə çox böyük töhfəsi olacaqdır.

Gəncə qədim mədəniyyət mərkəzidir. Gəncədə bütün dövrlərdə ədəbiyyat, incəsənət, memarlıq sənəti inkişaf etmişdir. Gəncənin bugünkü qədim siması onun zəngin tarixini əks etdirir. Gəncə dahi Nizaminin yurdudur. Azərbaycan xalqının Gəncədə yaşayıb-yaratmış görkəmli nümayəndələri bizim milli sərvətimizdir. Əlbəttə, Gəncə kimi qədim şəhərə çox gözəl filarmoniya binası da lazım idi. Gəncəlilər bir neçə il bundan əvvəl bu təkliflə müraciət etdilər və göstəriş verildi ki, filarmoniya tikilsin. Gəncənin, demək olar ki, ən gözəl yerlərindən biri seçildi və çox gözəl memarlıq üslubunda filarmoniya tikildi. Burada 2 konsert zalı yaradılıb. Böyük konsert zalının oturacaqlarının sayı 1200-dür, yəni çox böyük konsert zalıdır. Filarmoniyanın ümumi sahəsi 40 min kvadratmetrə yaxındır. Onu da qeyd etməliyəm ki, Bakı Filarmoniyası ilə müqayisədə Gəncə Filarmoniyası həm böyükdür, həm də daha əzəmətlidir, möhtəşəmdir. Əlbəttə, belə gözəl binada

keçiriləcək tədbirlər, konsertlər, tamaşalar əminəm ki, gəncəlilər üçün çox xoş olacaqdır.

Gəncə qədim mədəniyyət mərkəzidir və öz qədimliyini saxlamaqla, bu gün yeniləşir, gözəlləşir. Mən son illər ərzində Gəncədə dəfələrlə olmuşam. Bu mənim prezident kimi, Gəncəyə 15-ci səfərimdir. Gəncənin yeniləşməsi ilə bağlı bir çox addımlar atılıb. Bu gün həm qədim, həm də müasir Gəncə nəinki Azərbaycanın, o cümlədən regionun mərkəzlərindən biridir. Burada infrastrukturla bağlı bir çox layihələr icra edilib. Qazlaşdırılma 100 faiz səviyyəsindədir, elektrik enerjisi tam təmin edilir, içməli su layihəsi icra olunur. Bildiyiniz kimi, bu layihə çox böyük vəsait tələb edən layihədir, texniki cəhətdən o qədər də asan layihə deyil. Bu layihənin icrası üçün əlavə addımlar atılacaqdır. Əminəm ki, 2019-cu ildə Gəncədə içməli su problemi də tamamilə aradan qaldırılacaq və sakinlər sutkaboyu təmiz içməli su ilə təmin olunacaqlar.

Yol infrastrukturunun təkmilləşdirilməsi, müasirləşməsi üçün addımlar atılıb, yenə də atılacaqdır. Bakı–Gəncə avtomagistralı dünyanın ən yüksək standartlarına cavab verir, dördzolaqlı gözəl, hamar, sürətli bir yoldur. Biz gələn ildən başlayaraq, Gəncə–Gürcüstan sərhədi avtomobil yolunu da genişləndirəcəyik. Bizim həm digər şəhərlərimizə, həm də sərhədə gedən bu yol indi ikizolaqlıdır, genişləndirildikdən sonra dördzolaqlı olacaqdır.

İstəyirəm gəncəlilər onu da bilsinlər ki, Bakı–Gəncə sürət qatarının işə salınması ilə bağlı məsələlərin araşdırılması üçün mənim tərəfimdən göstəriş verilibdir. Bilirsiniz ki, indi Azərbaycan dünyanın ən müasir qatarlarını alır və bu proses davam etdiriləcəkdir. Birinci sürət qatarları Bakı–Sumqayıt, Bakı–Gəncə qatarları olacaqdır. Dəmir yolunun yenidən qurulması prosesi uğurla gedir. Bakı–Böyük Kəsik dəmir yolu indi də təbii ki, tam istismardadır, ancaq o yolun keyfiyyətinin yaxşılaşdırılması nəticəsində qatarların sürəti təqribən 120 kilometrə bərabər olacaqdır. Beləliklə, Bakıdan Gəncəyə qatarla çox qısa müddət ərzində və çox komfortlu şəkildə gəlmək

mümkün olacaqdır. Bütün bu layihələr ona görə icra edilir və ediləcək ki, biz insanlar üçün daha yaxşı şərait yaradaq, insanlar daha yaxşı yaşasınlar. İnfrastruktur layihələrinin icrası məhz bu məqsədi güdür. Onların bir çoxu həll olunub, qalan məsələləri də həll edəcəyik. Əvvəlki illərdə də Gəncədə sosial layihələrlə, sənaye layihələri ilə bağlı bir çox gözəl işlər görülübdür. Bu gün mən bir neçə obyektin açılışında və təqdimatında iştirak edəcəyəm. Onlardan biri Dövlət Aqrar Universitetinin yataqxana binasıdır. Bu, ikinci bina olacaqdır. Birinci binanı da mən açmışam, o, 520 yerlik binadır. Bu binada 500-dən çox tələbə yaşayacaqdır. Şəhərdəki 1 saylı məktəb əsaslı təmir olunub, mən oraya da baxacağam. Böyük ticarət mərkəzləri – «Gəncə Mall», «Grand Qafqaz» kompleksi açılır. Bu 2 böyük ticarət obyektində minlərlə insan işlə təmin olunacaqdır. Gəncədə yeni parklar salınıb. Onların da təqdimatı bu gün nəzərdə tutulub. Biz yeni muzeyin açılışını da edəcəyik. İndi Gəncə muzeylər şəhəridir. Gəncə Azərbaycan xalqına o qədər görkəmli şəxsiyyətlər bəxş edib ki, onların hamısının Gəncədə muzeyləri olmalıdır və bu məsələ də öz həllini tapır.

Yadımdadır, əvvəlki illərdə Gəncədə Müalicə-Diaqnostika Mərkəzinin, şəhər xəstəxanasının, «ASAN xidmət» Mərkəzinin, Olimpiya İdman Kompleksinin, sənaye obyektlərinin açılışları olub. Görülən bütün bu işlər Gəncənin həm sənaye, həm iqtisadi, həm mədəni həyatında çox mühüm rol oynayan amillərdir.

Növbəti illərdə biz bu günə qədər həllini tapmayan, ancaq həllini gözləyən məsələləri də həll edəcəyik, ilk növbədə, əlbəttə, iqtisadi inkişafla bağlı məsələləri. Gəncədə yeni müəssisələrin yaradılması, 2 önəmli obyektin tikintisi nəzərdə tutulur, iş yerlərinin açılması istiqamətində böyük işlər görülür. Mən bu gün sizə onu da bildirmək istəyirəm ki, Gəncə Dram Teatrının tikintisi ilə bağlı göstəriş verilib. Çox güman ki, gələn ildən başlayaraq, teatrın tikintisi davam etdiriləcək, lazımi vəsait ayrılacaq və artıq bu teatrın tikintisinin nə vaxt başa çatacağı gəncəlilərdən asılı olacaqdır. Müasir böyük idman sarayının

tikintisi də nəzərdə tutulur. Hələ 2000-ci illərin əvvəllərində Azərbaycanın ilk olimpiya idman mərkəzlərindən biri Gəncədə tikilmişdir. Artıq o vaxtdan təqribən 15 il keçir. Sonra bu Olimpiya İdman Mərkəzi əsaslı təmir olundu. Ancaq Gəncə əhalisinin və idmanla məşğul olmaq istəyənlərin sayı artır, uşaqlar idmana böyük maraq göstərirlər. Ona görə yeni müasir idman sarayının tikintisi də nəzərdə tutulubdur.

Bilirəm ki, gəncəliləri bir məsələ də narahat edir. O da çoxmənzilli binaların təmiri məsələsidir. Şəhərdə 72 belə bina vardır və bu binaların təmiri də nəzərdə tutulacaqdır.

Beləliklə, bugünkü görüşümüz hesab edirəm ona görə əlamətdardır ki, bu gözəl, möhtəşəm filarmoniyanı biz birlikdə açırıq. Eyni zamanda, Gəncənin gələcək inkişafı ilə, görüləcək işlərlə bağlı bildirirəm ki, Gəncə daim diqqət mərkəzindədir və şəhərin inkişafı, abadlaşdırılması, gözəlləşdirilməsi məni çox-çox sevindirir. Çünki Gəncə hər bir Azərbaycan vətəndaşı üçün əziz, doğma şəhərdir, bizim qədim mədəniyyət, incəsənət mərkəzimizdir. Son illər Gəncənin abadlaşdırılması istiqamətində çox yaxşı işlər görülür. Mən onu da bildirmək istəyirəm ki – 15 səfərimin təcrübəsi müqayisə aparmaq üçün, əlbəttə, mənə kifayət qədər imkan verir – son illər ərzində Gəncə doğrudan da çox sürətli inkişaf dövrünü yaşayır. Tarixi binalar bərpa olunur, yeni binalar tikilir, xiyabanlar, parklar, yaşıllıqlar salınır. Gəncə şəhərinə giriş indi çox gözəl və möhtəşəmdir, dahi Nizaminin əsərləri göz oxşayır. İndi dünya miqyasında böyüklüyünə görə üçüncü park Gəncədədir. Bu hamımızı sevindirir. Heydər Əliyev parkı doğrudan da möhtəşəm bir ictimai istirahət zonasıdır.

Mən bütün bu uğurlar, nailiyyətlər münasibətilə gəncəliləri, şəhər rəhbərliyini təbrik etmək istəyirəm, onların fəaliyyətini yüksək qiymətləndirirəm. Mən bundan sonra da Gəncənin hərtərəfli inkişafı üçün əlimdən gələni edəcəyəm ki, şəhər daha da gözəlləşsin, daha da abadlaşsın. Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm.

* * *

**S a m i r  C ə f ə r o v** (*Gəncə Dövlət Filarmoniyasının direktoru, Xalq artisti):* Möhtərəm cənab Prezident, icazə verin, Sizi Gəncə ictimaiyyəti, bütün musiqisevərlər adından salamlayım və Sizə şəhərimizə «Xoş gəlmisiniz!» – deyim.

Hər bir xalq özünün milli-mənəvi xəzinəsi, mədəniyyəti, incəsənəti, musiqisi ilə dünya miqyasında tanınır və bəşər sivilizasiyasına öz töhfələrini verir. Azərbaycanımız öz adını dünya mədəniyyəti tarixində Şərqdə milli teatrın, operanın və baletin əsasını qoyan ilk ölkə kimi yazdırmışdır. Bu gün də Azərbaycanın bir müstəqil ölkə kimi yaşaması, inkişafı və dünya miqyasında şöhrəti dövlətimizin siyasi, iqtisadi qüdrəti ilə yanaşı, xalqımızın mədəniyyəti və incəsənəti ilə sıx bağlıdır. Ulu öndərimiz Heydər Əliyev mədəniyyət və incəsənətin inkişafına daim qayğı ilə yanaşmışdır. Bu gün də Siz Azərbaycan mədəniyyətinin, həmçinin çox zəngin musiqi ənənələrinin yaşadılmasına və inkişafına xüsusi diqqət göstərirsiniz. Son illərdə Azərbaycan Milli Konservatoriyasının yeni inzibati tədris kompleksinin, Beynəlxalq Muğam Mərkəzinin tikilməsi, Azərbaycan Dövlət Filarmoniyasının, Yaşıl Teatrın, Dövlət Musiqili Teatrının əsaslı təmiri dediklərimizin bariz nümunəsidir.

Bu gün Sizin iştirakınızla doğma Azərbaycanımızın mədəniyyət və incəsənət tarixinin növbəti səhifəsi yazılır. Uzun illər yararsız vəziyyətdə olan, istifadəsiz qalmış Gəncə Dövlət Filarmoniyasının Sizin sərəncamınızla yeni inşa edilmiş binası istifadəyə verilir. Bu Sizin Azərbaycan musiqi mədəniyyətinə verdiyiniz növbəti töhfə və göstərdiyiniz qayğının təzahürüdür. Mən dəqiq bilirəm ki, bu gün gəncəlilərlə yanaşı, bütün Azərbaycan sevinir. Ona görə ki, bu gün Sizin sayənizdə dahi şairimiz Nizami Gəncəvinin yurdu – qədim Gəncə belə bir möhtəşəm mədəniyyət ocağına sahib olur.

Mən dünyanın bir çox səhnələrində çıxış etdiyimə görə deyə bilərəm ki, yeni inşa edilmiş filarmoniya binası heç də onlardan geri qalmır. Mübaliğəsiz belə deyərəm ki, Gəncə Dövlət Filarmoniyasının yeni binası Milanın La Skala Operası, Sidneyin Opera Teatrı, Nyu Yorkun Metropoliten Opera Teatrı, Berlinin Konsert Zalı, Vyananın Opera Teatrı, Azərbaycan Dövlət Filarmoniyası kimi mədəniyyət ocağı, musiqi mərkəzi olmaqla yanaşı, möhtəşəm bir memarlıq abidəsidir.

Cənab Prezident, özünəməxsus orijinal üslubda inşa edilmiş belə bir möhtəşəm binanı bizə bəxş etdiyinizə görə Sizə bütün musiqi ictimaiyyəti adından dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, möhtəşəm memarlıq abidəsi olan bu filarmoniya gələcəkdə dünyanın ən gözəl mədəniyyət ocaqları sırasında öz layiqli yerini tutacaqdır. Şübhəsiz ki, bu bina təkcə Gəncənin yox, Azərbaycanın görməli yerlərindən və qürur mənbələrindən biri olacaqdır. Musiqi sənətinin inkişafına, təbliğinə xidmət edəcək bu filarmoniya dünya musiqi mədəniyyətində özünəməxsus yeri olan Azərbaycan musiqisinin daha böyük şöhrət qazanmasına xidmət edəcəkdir.

Ölkəmizin mədəniyyətinin inkişafı və bütün dünyada uğurla təbliği işindəki böyük xidmətlərinə görə Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya da dərin təşəkkürümü bildirirəm. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən, müxtəlif ölkələrdən tanınmış ifaçıları, kollektivləri bir araya gətirən və dünya musiqi xəritəsində Azərbaycanın adını tanıdan «Muğam aləmi», Qəbələ, Üzeyir Hacıbəyli və digər beynəlxalq musiqi festivalları bu müsabiqələri ənənəyə çevirərək, müasir mədəniyyət tariximizə yeni səhifələr yazıbdır. Artıq bizim musiqi mədəniyyətimiz dünya musiqisinin ən nüfuzlu nümunələrindən birinə çevrilibdir.

Möhtərəm cənab Prezident, mən öz həyatımda qazandığım bütün nailiyyətlərə görə birinci növbədə, ulu öndərimiz Heydər Əliyevə minnətdaram. Mənim ulu öndərlə görüşüm həyatımın bir dönüş nöqtəsinə çevrildi. O məni Bakı Musiqi Aka-

demiyasında oxutdurdu, sonra Moskvaya – Qalina Vişnevskaya adına Opera Mərkəzinə göndərdi. Təhsilimi aldıqdan sonra Azərbaycan Opera və Balet Teatrında çalışdım. Bu illərdə Azərbaycanı dünyanın hər yerində təmsil etməkdən qürur duymuşam. Fəaliyyətimdə hər an Sizin və hörmətli Mehriban xanımın dəstəyini görmüşəm. Bunlara görə Sizə və Mehriban xanıma dərin minnətdarlığımı bildirirəm. Onu da demək istəyirəm ki, noyabrın 7-də Sizin sərəncamınızla Heydər Əliyev Mərkəzində Tofiq Quliyevin 100 illik yubiley tədbiri keçirildi. Çox möhtəşəm bir konsert oldu. Demək istəyirəm ki, orada bizim simfonik orkestrin musiqiçiləri öz aralarında Sizə dərin təşəkkürlərini bildirdilər. Sizin sərəncamınızla onların hər biri maaşdan əlavə, 500 manat alacaqlar. Bu çox böyük diqqətdir. Sizə minnətdarlığımızı bildiririk. Bizim filarmoniyaya yeni geyimlər, yeni alətlər verildi. Buna görə də Sizə minnətdarlığımızı bildiririk. Çalışacağıq ki, belə festivallarda biz öz töhfəmizi verək. Biz həmişə Sizinləyik. Allah Sizi qorusun!

**F u a d Ə l i y e v** (*Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin sədri, akademik*): Cənab Prezident, icazə verin, mən də şəhərimizin ziyalıları, elm ictimaiyyəti adından Sizə dərin minnətdarlığımızı bildirim. Siz qeyd etdiyiniz kimi, bu, Gəncəyə 15-ci səfərinizdir. Hər səfərinizdə Gəncə sakinləri Sizi böyük arzu ilə, sevinclə qarşılayırlar. Siz bütün gəncəlilərin fəxrisiniz. Çünki çıxışınızda da dediyiniz kimi, Gəncədə çox möhtəşəm işlər görülüb. Bu gün Gəncədə uşaqdan böyüyə kimi, hamı Sizi gözləyir və hər gəlişinizdə həm sosial, həm iqtisadi sahələrdə yeni açılışlarla bizi sevindirirsiniz.

Cənab Prezident, ulu öndərimiz 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələrkən ilk səfər etdiyi şəhər Gəncə olmuşdur. O, Gəncədə böyük istehsal, sənaye, elm, mədəniyyət sahələrində çox böyük işlər görmüşdür. Azərbaycan Milli Elmlər Akademiyasının bu gün fəaliyyət göstərdiyim və Sizin yaratdığınız Gəncə bölməsinin də bünövrəsini ulu öndərimiz ötən əsrin 80-ci illərində qoyub. Buna görə də Gəncəmizdə artıq 3

universitetdə kadr potensialının formalaşmasına, birgə elmi tədqiqatların aparılmasına hələ o dövrdən şərait yaranıbdır.

Möhtərəm Prezidentimiz, Siz çıxışınızda muzeylər haqqında danışdınız. Mən Mehriban xanıma dərin minnətdarlığımı bildirmək istəyirəm. Dünyanın heç bir yerində az bir vaxtda 7 muzey tikilməyib. Bəlkə də tikilə bilər, ancaq muzeylərin milli mədəni vəsaitlərlə, arxeoloji tədqiqat materialları ilə təmin olunması doğrudan da Gəncəmizin, Azərbaycanımızın çox qədim tarixə, etnoqrafik tarixə malik olduğunu bir daha sübut etdi. Cənab Prezidentimiz, biz gəncəlilər fəxr edirik ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təməli Gəncədə qoyuldu. Siz onu rəva bildiniz və o yaradıldı. İndi bu Beynəlxalq Mərkəz artıq beynəlxalq humanitar forumlar keçirir. Biz hər dəfə o forumlara diqqətlə baxırıq, oradakı məruzələri diqqətlə analiz edirik və çox sevinirik ki, bu gün Azərbaycana dünyanın ən böyük dövlət xadimləri, Nobel mükafatçıları, böyük ictimai xadimlər gəlirlər. Çox sağ olun ki, onların bir qrupunu da Gəncəyə göndərirsiniz. Gəncədə «dəyirmi masa»lar, elmi müzakirələr keçirilir və hər dəfə Gəncənin havası ilə yanaşı, təmizliyi, binaları barədə bizə suallar verilir. Biz də hər dəfə deyirik ki, cənab Prezidentimizin sayəsində yalnız Bakıda deyil, Azərbaycanın bütün regionlarında dinamik və hərtərəfli inkişaf prosesi gedir. Biz sevinirik ki, dünya poeziyasının parlaq ulduzu Nizami Gəncəvi ilə yanaşı, dünyanın ilk demokratik qadınlarından biri olan Məhsəti xanımın yubileyi də Sizin sayənizdə yalnız Gəncədə, Bakıda deyil, dünyanın bir çox yerlərində, xüsusilə Fransada, İtaliyada qeyd edilir. Birinci xanım Mehriban Əliyeva da çox sağ olsun ki, onların əsərlərinin müxtəlif əcnəbi dillərə çevrilməsi, oxuculara çatdırılması sayəsində artıq Avropa Gəncə üçün çox yaxın olub. Biz bu yaxınlarda Fransa–Azərbaycan I Forumunda, yəni regionda, xüsusilə istehsal sahəsində müqavilələrin bağlanması, Şampan şəhəri ilə qardaşlaşmağımız və sair – bunlar hamısı Sizin beynəlxalq arenada Gəncəni tanıtmağınızın əsasını qoyub. Heç də təsadüfi deyil ki, Gəncə şəhəri «2016-cı il Avropa gənclər paytaxtı» seçildi. Çünki

artıq Avropada da Gəncəni çox yaxşı tanıyırlar və ona görə də biz buna nail ola bildik. Bizim üçün ən fəxarət doğuran tədbirlərdən biri də budur ki, «MDB ölkələrinin mədəniyyət paytaxtı» layihəsi burada çox yüksək səviyyədə keçirildi. Tədbirdə iştirak edən dövlət xadimləri Azərbaycanın ikinci mədəniyyət mərkəzi olan Gəncəni gördükdə həqiqətən, heyrətləndilər və bizə dedilər ki, belə böyük işlər görən Prezidentinizlə fəxr edə bilərsiniz.

Ümumiyyətlə, gəncəlilər ulu öndərimizə də, Sizə də həmişə sadiq olmuşlar. Çünki Siz qeyd etdiniz, Gəncə tarixən dövlətə, dövlətçiliyə sadiq bir şəhər olmuşdur. Tarixi islahatların çoxu elə Gəncədə həyata keçirilmişdir. Gəncə doğrudan da hələ qədimlərdən regionun mərkəzi olmuşdur. Bu gün Gəncə artıq 300–350 minlik şəhər deyil, cənab Prezident. Siz Heydər Əliyev Mərkəzini açarkən çıxışınızda qeyd etdiniz ki, artıq Gəncə sənaye mərkəzinə çevrilib və burada on minlərlə yeni iş yeri açılıbdır. Çox sağ olun ki, bu gün bizim «Det.AL» Alüminium zavodunun məhsulları dünyaya ixrac olunur. Bu da Azərbaycanın innovativ texnologiyalar əsasında gördüyü işləri bir daha bütün dünyaya çatdırır.

Bu gün Siz qeyd etdiniz ki, bir neçə zavodun artıq təməli qoyulub, bu yaxınlarda məhsul verəcəkdir. Bu, Gəncəyə olan diqqətdir və bunun səbəbidir ki, artıq Gəncənin əhalisi 500 mini keçir. Bu gün sosial mənzillərin tikilərək istifadəyə verilməsi, sözsüz ki, Sizin diqqət və qayğınızın bəhrəsidir. Biz bütün bunlara görə, cənab Prezidentimiz, Sizə minnətdarıq. Şəhərimizin elm və təhsil işçiləri Gəncədə elmin, təhsilin inkişafına göstərdiyiniz yüksək diqqət və qayğıya görə Sizə dərin təşəkkürlərini bildirirlər. Gəncəyə gəldiyiniz və burada bizə şad xəbərlər verdiyiniz üçün Sizə bir daha minnətdarıq. Allah Sizi qorusun. Çox sağ olun, cənab Prezident.

**Pərvanə Qurbanova** (*Gəncə Dövlət Dram Teatrının aktrisası, Xalq artisti*): Cənab Prezident, Gəncəmizə xoş gəlmisiniz! Sizin Gəncəyə bu səfəriniz də hafizələrimizdə dərin hisslər buraxır. Hər dəfə Gəncəyə gəlişiniz ulu şeyx Nizami yurduna

bir gözəllik, bir möhtəşəmlik bəxş edir. Sizin şəhərimizə xüsusi diqqət və qayğınız, burada aparılan abadlıq, quruculuq, yenidənqurma işləri öz tarixi dəyərlərini qoruyub saxlamaqla yanaşı, gündən-günə inkişaf edən, gəncləşən Gəncəmizi daha da gözəlləşdirir. Xüsusilə Sizin Gəncə mədəniyyətinə və bu sahədə çalışan insanlara qayğınız bir daha bizləri yeni-yeni yaradıcılıq uğurlarına sövq edir.

Möhtəşəm Gəncə Dövlət Filarmoniyasının tikilməsi və gəncəlilərin ixtiyarına verilməsi şəhərimizin tarixinə Sizin adınızla bağlı «qızıl» hərflərlə yazılacaq çox əlamətdar, çox böyük tarixi hadisədir. Eləcə də Gəncə Dövlət Dram Teatrı üçün yeni binanın tikilməsi ilə bağlı Sizin xüsusi göstərişiniz bizim üçün çox sevindiricidir. Bu bir daha Sizin Gəncəyə, gəncəli sənətkarlara göstərdiyiniz yüksək diqqət və qayğının əyani təzahürüdür. Bütün bunlar üçün Gəncənin mədəniyyət işçiləri adından Sizə dərin təşəkkürümü, minnətdarlığımı bildirirəm. Biz həmişə Sizinləyik, cənab Prezident. Bizim dualarımız həmişə Sizinlə olsun. Allah Sizi qorusun, Allah Sizə yar olsun!

**İlham Əliyev:** Çox sağ olun. Doğrudan da bu gün çox əlamətdar bir gündür. Bu filarmoniyanın tikintisi, açılışı çox tarixi bir hadisədir. Təkcə ona görə yox ki, belə bir möhtəşəm bina tikilib və gəncəlilərin sərəncamına verilir. Ona görə ki, bu binanın, bu möhtəşəm memarlıq abidəsinin tikilməsi dövlətimizin gücünü və siyasətini göstərir, xüsusilə indiki şəraitdə – dünyada müəyyən dərəcədə tənəzzül, iqtisadi və maliyyə böhranı, xoşagəlməz halların çoxalması yaşanır. Deyə bilərəm ki, indi bir çox ölkələrdə nəinki filarmoniyalar tikilmir, ümumiyyətlə, inkişafla bağlı perspektivlər də yoxdur. Amma görün Azərbaycan nə dərəcədə inkişafda olan ölkədir, bizim imkanlarımız nə dərəcədə böyükdür ki, biz hətta o qədər də asan olmayan illərdə də mədəniyyət ocaqlarına bu qədər diqqət göstəririk, bu qədər vəsait ayırırıq. Filarmoniyanın binası başqa cür də ola bilərdi. Daha sadə, daha az xərc tələb edən bina ola bilərdi. Ancaq bizim yanaşmamız ondan ibarətdir ki, Gəncə kimi tarixi şəhərə

belə gözəl memarlıq abidəsi yaraşır. Ona görə biz bunu etdik. Həm gəncəlilər sevinir, həm də mən çox sevinirəm. Çünki hər bir adam öz əməyinin nəticəsini görəndə, əlbəttə ki, çox sevinir.

Bu gün ölkəmizdə səhiyyə, təhsil, mədəniyyət, sənaye, infrastruktur inkişaf edir, bütün sahələrdə inkişaf var. Siz də qeyd etdiyiniz kimi, Gəncə bu gün böyük sənaye mərkəzinə çevrilir. Buradakı bir çox zavodlar ölkəmizin qeyri-neft sektorunun inkişafında çox önəmli rol oynayır. Burada minlərlə iş yeri yaradılıb. Gəncə Avtomobil zavodunu qeyd etmək kifayətdir ki, biz onun timsalında Azərbaycanda sənaye istehsalının necə inkişaf etdiyini görək. Biz vaxtilə Belarus ilə traktor istehsalı sahəsində müqavilə bağladıq və burada Belarus traktorları, ondan sonra yük maşınları, avtobuslar yığılmağa, istehsal olunmağa başlandı. İndi bu zavod nəhəng bir sənaye mərkəzidir. Gəncə Avtomobil zavodu indi digər ölkələrdə sənaye sahələrinin yaradılmasında iştirak edir. İnkişaf ona gətirib çıxarıb ki, həm daxili tələbat təmin edilir, iş yerləri yaradılır, həm qeyri-neft sektoru inkişaf edir və biz artıq qonşu ölkələrə də öz məhsulumuzla, texnologiyalarımızla çıxırıq.

Burada Nizami Gəncəvi Beynəlxalq Mərkəzi haqqında da qeyd olundu. Bu da çox tarixi bir hadisədir. Çünki bu mərkəzin yaradılması dünya miqyasında bir hadisə oldu. Biz bu mərkəzi yaradarkən, əlbəttə, görürdük ki, bunun çox böyük gələcəyi vardır. Hesab edirəm, bir çoxları təsəvvür etmirdilər ki, bu mərkəzin dünya miqyasında nə qədər böyük rolu olacaqdır. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin xətti ilə keçirilən qlobal forumlar dünya miqyasında nadir beynəlxalq tədbirlərdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən artıq 5 dəfə Bakı Qlobal Forumu keçirilib. Bu forumlarda onlarla həm fəaliyyətdə olan, həm də sabiq dövlət və hökumət başçıları iştirak edir. Hər il bu forum keçirilir və forumun işində mən də iştirak edirəm. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini ən azı ildə bir dəfə qəbul edirəm. Həmişə onlara tövsiyə edirəm ki, mütləq Gəncəyə də gedin. Onlar dəfələrlə burada olublar və Gəncə haqqında onların təəssüratları çox müsbətdir.

Biz Gəncənin timsalında ölkəmizin ümumi inkişafını görürük. Sənaye istehsalı, iş yerlərinin, insanlar üçün şəraitin yaradılması, humanitar sahədəki fəaliyyətimiz – bunlar hərtərəfli inkişaf deməkdir. Bu gün Azərbaycan cəmiyyəti bu inkişafdan bəhrələnir. Bu gün ölkəmizdə sabitlik, inkişaf təmin olunur. Biz bir çox önəmli layihələrə imza atdıq. Təkcə bu ilin hadisələrini sadalamaq kifayətdir ki, görək bizim energetika, nəqliyyat, dəmir yolu, idman sahələrində nə qədər uğurlarımız vardır. Bu il İslam Həmrəyliyi oyunlarının keçirilməsi böyük hadisədir. Bu oyunlarda 50-dən çox ölkədən 3000-dən artıq idmançı iştirak edirdi. IV İslam Həmrəyliyi oyunlarını ən yüksək səviyyədə keçirdik və idmançılarımız da bizi sevindirdilər, 1-ci yerə layiq görüldülər. Biz müsəlman aləmində 1-ci, Avropada 2-ciyik.

Gəncədən keçəcək Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı tarixi hadisədir. Biz bu tarixi layihəni qonşu ölkələrlə birlikdə reallaşdırdıq.

Energetika sahəsində isə «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun istismar müddətinin uzadılması ölkəmizə on milyardlarla dollar əlavə sərmayə gətirəcəkdir. Bütün bunlar ölkəmizin xeyrinə işləyir. Həm iqtisadiyyatımız, həm də siyasi gücümüz artır. Bütün uğurlarımızın təməlində Azərbaycan xalqının zəhməti dayanır. Bu gün hər bir yerdə inkişaf göz qabağındadır. Həm Bakıda, həm Gəncədə, həm də bütün bölgələrdə, bütün şəhərlərdə vətəndaşlar çox böyük həvəslə quruculuq işlərində iştirak edirlər.

Gəncə Dövlət Aqrar Universitetinin də indi çox böyük funksiyaları, çox böyük əhəmiyyəti vardır. İndi kənd təsərrüfatı ölkəmizdə çox böyük sürətlə inkişaf edir. Kənd təsərrüfatı məhsullarının ixracı təqribən 40 faiz artıbdır. Yataqxanaların da tikintisi o məqsədi güdür ki, qonşu bölgələrdən gələn tələbələr orada rahat qala bilsinlər. Bilirəm ki, avadanlıqla, texnika ilə təmin olunursunuz ki, orada oxuyan uşaqlar artıq bu texnikaya öyrəşsinlər.

Ölkəmizin çox böyük potensialı var – ilk növbədə, insan kapitalı. Biz vəsaiti əsasən insan kapitalına yönəltmişik. Əlbəttə ki, iqtisadiyyatımızın dayağı olan enerji sektorunu, qeyri-neft sektorunu, kənd təsərrüfatını, sənaye istehsalını da inkişaf etdiririk. Bu gün dünya xəritəsinə baxanda – əlbəttə, mən Azərbaycanı heç bir ölkə ilə müqayisə etmək istəmirəm – istər-istəməz görürük ki, doğrudan da Azərbaycan uğurlu, sürətli, dayanıqlı inkişaf nümunəsi göstərir. Bu bizi çox sevindirir. Biz bu ili də yaxşı göstəricilərlə başa vuracağıq. Gələn il daha da uğurlu olacaqdır. Mən bu yaxınlarda qeyd etdim ki, bizim heç bir maliyyə problemimiz yoxdur. Əgər olsaydı, biz sosial layihələrə bu qədər vəsait yönəldə bilməzdik. Ona görə bir daha demək istəyirəm ki, Dram Teatrının və İdman Sarayının, o cümlədən çoxmənzilli 72 binanın təmiri və tikintisi ilə bağlı vəsait qıtlığı olmayacaqdır. Sadəcə olaraq, siz burada işləri elə qurun ki, bu məsələlər tezliklə öz həllini tapsın və biz sizinlə növbəti açılışlarda görüşək. Sağ olun.

## Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri üçün yeni inşa edilmiş 514 yerlik yataqxana kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Gəncədə Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri üçün yeni inşa edilmiş 514 yerlik yataqxana kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı yataqxana kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, hazırda universitetdə 4834 nəfər tələbə bakalavriat pilləsi üzrə təhsil alır. Onlardan 3883 nəfər əyani və 951 nəfər qiyabi bölmələrdə oxuyur. Əyani bölmədə təhsil alan tələbələrin 75 faizi respublikanın müxtəlif şəhər və rayonlarından gəlmiş gənclərdir.*

*Bu təhsil ocağının 520 yerlik yeni tələbə yataqxanası 2016-cı ildə prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. 2015-ci ildə 514 yerlik daha bir yataqxana kompleksinin tikintisinə başlanılıb və burada inşaat işləri 2017-ci ilin oktyabrında tam başa çatdırılıbdır. Ümumi ərazisi 13640 kvadratmetr olan kompleks dördü 7 mərtəbəli və biri 6 mərtəbəli olmaqla, 5 korpusdan ibarətdir. Kompleksdəki 257 otağın hamısı zəruri mebel və inventarla təchiz edilib. Hər mərtəbədə istirahət guşələri və mətbəx yaradılıb. Burada qeydiyyat şöbəsi, 120 nəfərlik akt və fitnes zalları, kafe, məişət və ticarət xidməti obyektləri, kitabxana, müayinə otağı və stomatoloji kabinet, valideynlərlə görüş otağı yaradılıbdır.*

*Azərbaycan Kənd Təsərrüfatı İnstitutu 1929-cu ildə Bakıda yaradılıb və 1931-ci ildə Gəncəyə köçürülübdür. 1979-cu ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanına əsasən «Şərəf nişanı» ordeni ilə təltif edilib. Nazirlər Kabinetinin 2009-cu il tarixli Qərarı ilə İnstitut Azərbaycan Dövlət Aqrar Universiteti adlandırılıbdır.*

*Yataqxananın su, elektrik, istilik və rabitə xətləri ilə təmin edilməsi üçün fərdi qazanxana, hovuz, nasosxana və transformator yarımstansiyası inşa olunubdur.*

*Kompleksin ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi üçün hərtərəfli imkan yaradılıbdır.*

## «Grand Qafqaz» ticarət kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Gəncədə «Grand Qafqaz» ticarət kompleksinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevə «Grand Qafqaz» ticarət kompleksi barədə məlumat verildi. Bildirildi ki, kompleksin inşasına 2014-cü ilin may ayında başlanılıb, 2017-ci ilin oktyabr ayında isə*

*tikinti işləri başa çatdırılıbdır. Layihənin həyata keçirilməsinə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5 milyon manat güzəştli kredit ayrılıbdır.*

*Ümumi ərazisi 20 hektar, tikintialtı sahəsi isə 83500 kvadratmetr olan kompleksdə hər biri 44100 kvadratmetrlik «modul» tipli 5 «Yaşıl market» topdansatış mərkəzi inşa edilib. Burada kənd təsərrüfatı və ərzaq məhsullarının saxlanılması üçün ay ərzində 1000 ton məhsul qəbuletmə imkanına malik, ümumi sahəsi 4500 kvadratmetr olan anbar tikilib, 5400 kvadratmetr sahədə soyutma sistemi quraşdırılıbdır. Kənd təsərrüfatı məhsullarının satışı üçün 9000 kvadratmetr sahədə 2500, o cümlədən meyvə-tərəvəz məhsulları üçün 2000, ət və süd məhsulları üçün 500 satış yeri yaradılıbdır.*

*«Grand Qafqaz» ticarət kompleksində iri və xırdabuynuzlu heyvanların və quşların kəsimi, həmçinin diri balıqların satışı üçün 3500 ticarət obyekti tikilib. Burada 1,3 hektar ərazidə avtopark yaradılıb. Ticarət kompleksinin istifadəyə verilməsi nəticəsində 5000 nəfər yeni iş yeri ilə təmin ediləcəkdir.*

*Prezident İlham Əliyev kompleksin meyvə-tərəvəz satışı sahəsi ilə tanış oldu.*

*Dövlət başçısına kompleksdə təmsil olunan «Ərzaq məhsullarının tədarükü və təchizatı» Açıq Səhmdar Cəmiyyətinin fəaliyyəti barədə də məlumat verildi. Bildirildi ki, avtomobillər vasitəsilə respublikanın bütün bölgələrindən orta bazar qiymətinə tədarük olunan ekoloji baxımdan təmiz məhsullar ilk növbədə, dövlət satınalan təşkilatlarının tələbatına yönəldilir. Məhsulun tələbatdan artıq qalan hissəsi isə paytaxt rayonlarında həftəsonu keçirilən yarmarkalara və xarici bazarlara göndərilir. Cari ilin 9 ayı ərzində 40 min ton ərzaq və kənd təsərrüfatı məhsulları tədarük olunaraq, təchizata yönəldilib və yerli istehsalçıların dövriyyəsinə külli miqdarda vəsait daxil olubdur. Tədarük-təchizat sistemini daha da təkmilləşdirməyi və genişləndirməyi planlaşdıran Açıq Səhmdar Cəmiyyəti gələn il*

*yerli istehsalçılardan daha çox məhsul qəbul etməyi nəzərdə tutur.*

## Mirzə Şəfi Vazeh Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Gəncədə Mirzə Şəfi Vazeh Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilmiş muzey binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Gəncədə tarixi mədəni irsin qorunması və təbliği istiqamətində görülən işlər 2017-ci ildə də davam etdirilir. Bu məqsədlə Gəncədə XIX əsrdə yaşamış Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və tanınmış maarifçi Mirzə Şəfi Vazehin adını daşıyan muzey yaradılıb. Mirzə Şəfi Vazeh 1794-cü il iyunun 14-də Gəncədə anadan olub. Erkən yaşlarından poeziyaya böyük həvəs göstərən Mirzə Şəfi Vazeh mədrəsədə dinin əsaslarını öyrənib, burada təhsilini başa çatdırdıqdan sonra isə ərəb və fars ədəbiyyatı, Azərbaycan və rus klassiklərinin əsərləri, sufilik fəlsəfəsi ilə dərindən maraqlanıb. Ərəb və fars dillərini öyrəndikdən sonra Şərqin bir çox klassiklərinin yaradıcılığı ilə yaxından tanış olub. Cavad xanın qızı Püstə xanımın yanında mirzəlik edən Şəfi sonralar Vazeh təxəllüsü ilə Azərbaycan və fars dillərində şeirlər yazaraq, bu dillərin poeziya ənənələrini inkişaf etdirib. Şair öz əsərlərində insan ruhunun əzəmətini, sevgi, həyat eşqi, gözəllik kimi dəyərləri vəsf edirdi. Vazeh «Kitabi-türki» adlı ilk Azərbaycan dili dərsliyinin müəlliflərindən biri olub. Şair sonradan yaradıcılığını Tiflisdə davam etdirib. O, XIX əsrin 20-ci illərində Gəncədə yaratdığı «Divani-Hikmət» ədəbi məclisinin fəaliyyətini 1844-cü ildə Tiflisdə yenidən bərpa edib. Həmin dövrün tanınmış şair, yazıçı və filosoflarının çoxu, o cümlədən Vazehin şagirdi və davamçısı Mirzə Fətəli Axundzadə axşamlar tez-tez bu məclisdə toplaşardılar. O vaxt Qafqaza gəlmiş*

*alman şairi və şərqşünası Fridrix fon Bodenştedt də mədəniyyət və ədəbiyyat ocağı olan, Qərbi Avropa, rus və Azərbaycan poeziyasını özündə birləşdirən «Divani-Hikmət» məclisinə gəlir, burada Vazehdən fars və Azərbaycan dili dərsləri alırdı. Vazehdən Şərq dilləri dərsi alan Bodenştedt Almaniyaya qayıtdıqdan sonra şairin şeirlərini tərcümə edərək, nəşr etdirir. Onun tərcüməsində Mirzə Şəfi Vazehin şeirləri dünya şöhrəti qazanır. Bir sözlə, milli poeziyamızın klassiki Mirzə Şəfi Vazehin yaradıcılığı Azərbaycan ilə Avropa arasında ədəbi-mədəni əlaqələrin inkişafında mühüm yer tutur.*

*Prezident İlham Əliyevə muzeydə görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, şəhərin «Gülüstan» ərazisində yerləşən muzeyin inşasına 2016-cı ilin martında başlanılıb və tikinti işləri 2017-ci ilin noyabrında sona çatdırılıbdır. Milli memarlıq üslubunda inşa olunan muzeyin ətrafında Mirzə Şəfi Vazehin adını daşıyan park salınıbdır.*

*Diqqətə çatdırıldı ki, muzeydə mütəfəkkir şairin həyat və yaradıcılığına, həmçinin qəzəllərinə, müxəmməslərinə, məsnəvilərinə və rübailərinə həsr olunmuş müxtəlif tablolar və sənədlər toplanıb. Burada həmçinin Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsinin gücləndirilməsi haqqında ulu öndər Heydər Əliyev tərəfindən 1981-ci il iyunun 8-də imzalanmış Qərar və prezident İlham Əliyevin «Mirzə Şəfi Vazehin 220 illik yubileyinin keçirilməsi haqqında» 2014-cü il 3 fevral tarixli Sərəncamı da nümayiş olunur. Muzeydə şairin yaradıcılığında xüsusi yer tutan «Divani-Hikmət» ədəbi məclisinə aid xüsusi guşə yaradılıb. Qeyd edək ki, bu ədəbi fəlsəfi məclisin üzvləri arasında Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Molla Abdulla, Mirzə Mehdi Naci, Mirzə Yusif Vidadi, maarifçilərdən Eristavi, Çavçavadze, Qriqoryev ilə yanaşı, alman şərqşünasları Bodenştedt, Adolf Berje və başqaları da var idi. Məclisdə ədəbi-irfani-fəlsəfi mübahisələr, təhlillər aparılır, yaxşı şeir yazmaq uğrunda yarışlar keçirilir, diqqət çəkən hər hansı bir şeirə bənzətmələr yazılır, yeni fikirlər formalaşırdı. Vazeh*

*«Divani-Hikmət» ədəbi məclisinin yığıncaqlarını canlı fəlsəfi diskussiyalar formasında keçirirdi.*

*Bildirildi ki, muzeyin ikimərtəbəli binasında sərgi və konfrans zalları, inzibati otaqlar yaradılıb. Burada şairin şeirlərinin nəşrləri, ədibin həyat və yaradıcılığına həsr olunmuş elmi-tədqiqat və bədii əsərlər, həmçinin mütəfəkkirin 220 illik yubileyi ilə bağlı Gəncə nəşrləri nümayiş olunur.*

*Azərbaycan mədəniyyəti və incəsənətinin təbliğinə xüsusi önəm verən Heydər Əliyev Fondu da Mirzə Şəfi Vazehlə bağlı 2007–2015-ci illər ərzində müxtəlif kitablar nəşr etdirib. Dövlət başçısına məlumat verildi ki, Mirzə Şəfi Vazehin Almaniyada 1850-ci ildən 1924-cü ilə qədərki dövrdə nəşr olunmuş kitabları Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və dəstəyi ilə 2014-cü ildə Azərbaycana gətirilib. Həmin kitablar muzeydə sərgilənir.*

*Bütün bunlar onu deməyə əsas verir ki, Vazeh Şərq poeziyasının çoxəsrlik ənənələrini layiqincə yaşadıb və yüksək insanpərvərliyi, mənəvi gözəlliyi tərənnüm edən diqqətəlayiq irs yaradıb. Onun yaradıcılığı Azərbaycanın Avropa ilə ədəbi-mədəni əlaqələrinin inkişafında özünəməxsus yer tutur. Mirzə Şəfi Vazehin şəxsiyyəti və yaradıcılığı onu Şərq poeziyası klassikləri pleyadasının parlaq nümayəndələrindən biri hesab etməyə əsas verir. Görkəmli şair, pedaqoq və maarifçi-filosofun həyat və yaradıcılığına, onun Şərq və Qərb sivilizasiyalarının müdrikliyini özündə üzvi şəkildə birləşdirən poetik irsinin qeyri-adi taleyinə maraq bu gün də azalmır.*

*Məlumat verildi ki, muzeyin yerləşdiyi parkın ərazisi 2 hektardır. Parkın giriş hissəsində müasir və klassik memarlıq elementlərini təcəssüm etdirən mərmər üzlüklə bəzədilmiş, hündürlüyü 7 metr, uzunluğu 17 metr olan tağbənd qurulub. Parkın ərazisində yaşıllıq salınıb, dekorativ gül kolları əkilib, 2 fəvvarə quraşdırılıbdır. Bir sözlə, parkda sakinlərin və şəhərin qonaqlarının istirahəti üçün hər cür şərait yaradılıb. Parka gələnlər görkəmli maarifçi Mirzə Şəfi Vazeh barədə ətraflı mə-*

*lumat da əldə edə biləcəklər. Burada şairin heykəli ucaldılıb. Heykəlin arxasındakı divara mozaika işləmələrlə Mirzə Şəfi Vazehin və onun müasirləri olan Fridrix Bodenştedtin, Abbasqulu ağa Bakıxanovun, Qasım bəy Zakirin, Mirzə Fətəli Axundzadənin, eləcə də bir sıra tarixi şəxsiyyətlərin süjetli təsvirləri həkk olunubdur.*

**Əziz Əliyevin adını daşıyan Mədəniyyət və istirahət parkının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Gəncədə görkəmli dövlət xadimi Əziz Əliyevin adını daşıyan Mədəniyyət və istirahət parkının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı parkın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Parkda görkəmli dövlət xadimi Əziz Əliyevin abidəsi ucaldılıb. Postamentlə birlikdə abidənin hündürlüyü 4 metrdir.*

*Prezident İlham Əliyev abidənin önünə gül dəstəsi qoydu.*

*Dövlət başçısına parkda yaradılan şəraitlə bağlı məlumat verildi. Bildirildi ki, ümumi ərazisi 2 hektar olan park şəhərin «Gülüstan» yaşayış massivindəki Əziz Əliyev prospektində yerləşir. Bu istirahət məkanının inşasına 2016-cı ilin martında başlanılıb, tikinti işləri 2017-ci ilin oktyabrında başa çatdırılıbdır. Parkın ərazisində yaşıllıq zolaqları salınıb, dekorativ gül kolları əkilib, geniş abadlıq-quruculuq işləri görülübdür. Burada 4 fəvvarə quraşdırılıbdır.*

*Yeni istirahət məkanında sakinlərin, eləcə də uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıbdır. Bundan başqa, parkda idmanla məşğul olmaq üçün imkanlar da vardır. İstirahət guşəsində 25 ədəd müxtəlif idman qurğusu quraşdırılıb və mini-futbol meydançası inşa edilib, parkın ərazisinə dekorativ hasar çəkilibdir. Bir sözlə, bu park şəhər sakinlərinin və Gəncəyə gələn qonaqların ən sevimli istirahət məkanlarından biri olacaqdır.*

*Ölkəmizin ikinci böyük şəhəri olan Gəncədə istifadəyə verilən Əziz Əliyev adına parkda yaradılan şərait və imkanlar şəhərdə gedən inkişafın mühüm elementi olmaqla, ölkəmizdə həyata keçirilən sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha təsdiqləyir.*

## «Yeni Gəncə» yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da 2x40 meqavat-amper (mVA) gücündə 110/35/10 kilovoltluq (kV) «Yeni Gəncə» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdi. Bildirildi ki, yarımstansiyanın ümumi sahəsi 11 min kvadratmetr təşkil edir. Burada 110, 35 və 10 kV-luq qapalı paylayıcı qurğular, elektrik avadanlıqları, elektron tipli «rele» mühafizəsi və avtomatikası, texniki onlayn nəzarət dolabları, açılma və qoşulmaların avtomatik idarəetmə sistemi quraşdırılıb. Yarımstansiya binasının zirzəmisində 35 və 10 kV-luq kabel kanallarının estakadası və rəfləri yerləşdirilib. Bununla yanaşı, yarımstansiyanı qidalandıran 110 kV-luq birinci və ikinci «Yeni Gəncə» hava xətlərinin 24 kilometrlik hissəsi yenidən qurulub. Gəncə şəhərinin mərkəzi hissəsinin 30 faizdən çoxunun elektrik enerjisi ilə təminatında 110/35/10 kV-luq «Yeni Gəncə» yarımstansiyası mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, «Yeni Gəncə» yarımstansiyasından çıxan 10 kV-luq «Yeni Gəncə» və 10 kV-luq dördüncü «Yeni Gəncə» hava xətlərindən 30 min abonent elektrik enerjisi ilə təchiz olunur.*

*Bununla yanaşı, hazırda inşa olunan 35/10 kV-luq «Məhsəti» yarımstansiyasını qidalandırmaq üçün «Yeni Gəncə» yarımstansiyasından 3,1 kilometr uzunluğunda 35 kV-luq birinci və ikinci «Məhsəti» kabel, həmçinin 35/10/6 kV-luq «Sənaye Rabitə» yarımstansiyasının qidalandırılması üçün 35 kV-luq birinci və*

*ikinci «Sənaye Rabitə» elektrik verilişi xətləri çəkilibdir. «Yeni Gəncə» yarımstansiyasının hazırda inşa olunan yarımstansiyalarla əlaqələndirilməsi nəticəsində Gəncə şəhərində ilk dəfə olaraq 110 və 35 kV-luq dairəvi elektrik təchizat sxemi yaradılacaqdır.*

*Dövlət başçısı yarımstansiyanı işə saldı.*

*Ümumilikdə son 2 ildə 89 min abonenti olan Gəncə Elektrik Şəbəkəsinin xidməti ərazisində elektrik təchizatının yaxşılaşdırılması, elektrik enerjisi verilişində yaranan fasilələrin qarşısının alınması məqsədi ilə 35 kV-luq «Nizami» yarımstansiyası inşa olunub, şəhər ərazisində yüksəkgərginlikli 110/35 kV-luq hava xəttinin əvəzinə 3,1 kilometr, aşağıgərginlikli 10/6 kv-luq hava xəttinin əvəzinə isə 75,5 kilometr yeraltı kabel və Gəncə şəhərində 4 kilometr 110 kV-luq, 2 kilometr 35 kV-luq, 20,2 kilometr 10/6 kV-luq hava xətləri çəkilib, 305 kilometrdən çox magistral, 92 kilometrə yaxın abonent xətti özünüdaşıyan izolyasiyalı naqillərlə əvəz edilibdir. Şəhərdə 75 yeni komplekt transformator məntəqəsi, eyni zamanda, 4211 sayğac quraşdırılıbdır. Ən son texnologiyalara əsaslanan belə layihələr həm Gəncədə, həm də digər bölgələrdə yenidən qurulma tədbirlərinin ardıcıl olaraq həyata keçirildiyini bir daha göstərir.*

*«Yeni Gəncə» yarımstansiyasının ətrafı abadlaşdırılıb və yaşıllıq zolaqları salınıbdır.*

## «Majestic Palace» hotelinin tikintisi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Gəncədə «Majestic Palace» hotelinin tikintisi ilə tanış olmuşdur.*

*Dövlət başçısına tikinti işlərinin gedişi ilə bağlı məlumat verildi. Bildirildi ki, 104 yerlik hotelin inşasına 2015-ci ilin aprelində başlanılıb. Hazırda inşaat işlərinin son mərhələsi həyata keçirilir. Hotelin binası 7 mərtəbəlidir. Burada biri kral, 8-i suit, 10-u delüks və 33-ü standart olmaqla, ümumilikdə 52 otaq yaradılacaqdır. Hoteldə 120 nəfərlik restoran, 20 yerlik iclas zalı da olacaqdır. Tikinti işləri zamanı 50 avtomobil yerlik yeraltı dayanacaq inşa edilib. Hotelin dayanıqlı elektrik enerjisi ilə təminatı üçün ərazidə 1000 kV-luq transformatorun və 1500 kV-luq generatorun quraşdırılması nəzərdə tutulubdur.*

*Belə müasir hotelin yaradılması ilk növbədə, Gəncənin turizm potensialının daha da artırılmasına töhfə verəcəkdir. Bundan başqa, belə layihələrin həyata keçirilməsi həm də yeni iş yerlərinin açılmasında mühüm əhəmiyyət daşıyır. Belə ki, yeni hoteldə 50 nəfər işlə təmin ediləcəkdir.*

*Prezident İlham Əliyevə, həmçinin şəhərdə aparılan abadlıq-quruculuq işləri ilə bağlı icra edilən və inşası nəzərdə tutulan sosial infrastruktur layihələri barədə də məlumat verildi.*

## «Gəncə Mall» ticarət mərkəzində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da «Gəncə Mall» ticarət mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısına ticarət mərkəzində yaradılan şəraitlə bağlı məlumat verildi. Bildirildi ki, Heydər Əliyev prospekti ilə Həsən Əliyev küçəsinin kəsişməsində yerləşən «Gəncə Mall»un inşasına 2014-cü ilin avqust ayında başlanılıb və 2017-ci ilin okt-*

*yabr ayında tikinti işləri başa çatdırılıbdır. Bu ticarət kompleksinin ümumi sahəsi 26293 kvadratmetr, ticarət sahəsi isə 11000 kvadratmetrdir. 8 mərtəbədən ibarət mərkəzin binasının 4 mərtəbəsi zirzəmi səviyyəsindədir. Zirzəmilərin 1-ci, 2-ci və 3-cü mərtəbələrində 411 avtomobil tutumlu yeraltı dayanacaq yaradılıb. Bundan başqa, burada supermarket də fəaliyyət göstərir. Ticarət kompleksində şəhər sakinlərinə və qonaqlara bir çox xidmətlərin göstərilməsi nəzərdə tutulur. Burada elektron məhsulları, məişət avadanlıqları, mebel, parfümeriya və ev aksesuarları mağazaları vardır. «Gəncə Mall»da, həmçinin ayaqqabı, geyim, uşaq geyimləri, idman malları mağazaları fəaliyyət göstərir və alıcılara dünyanın tanınmış brendlərinin məhsulları təqdim olunur.*

*Qeyd edildi ki, burada aptek, kitab mağazası, müxtəlif restoranlar və «Cinema Plus» kinoteatrı da yerləşir. Ticarət mərkəzində 800 nəfərin yeni iş yeri ilə təmin edilməsi nəzərdə tutulubdur.*

*«Gəncə Mall» ticarət mərkəzi kimi obyektlərin istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialını və vətəndaşlara xidmətin yüksək səviyyədə təşkilini nümayiş etdirir. Bundan başqa, bu layihənin icrası həm də Gəncə şəhərinin görkəminin müasirləşməsinə böyük töhfə verir.*

## Gəncə şəhər 1 saylı tam orta məktəb binasında aparılan əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da İsmət Qayıbov adına Gəncə şəhər 1 saylı tam orta məktəb binasında aparılan əsaslı təmir və yenidən qurulma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısına məktəbin binasında aparılan əsaslı təmir işləri ilə bağlı məlumat verildi. Bildirildi ki, ümumi sahəsi 4,8 hektar olan məktəb 2140 şagird-yerlikdir. Məktəbin 980 şagird-yerlik bi-*

*rinci korpusu 1934-cü ildə, 1160 şagird-yerlik ikinci korpusu isə 1974-cü ildə inşa edilib. Burada əsaslı təmir və yenidən qurulma işlərinə 2015-ci ilin may ayında başlanılıb və 2017-ci ilin noyabrında tam başa çatdırılıbdır. Binanın hər 2 korpusu 4 mərtəbədən ibarətdir. Burada 80 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, 2 informatika otağı, kitabxana, 200 yerlik akt zalı, idman zalı və 100 yerlik bufet vardır.*

*Qeyd edildi ki, hazırda bu məktəbdə 1157 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 109 müəllim məşğul olur. Bu təhsil ocağı həmişə məzunları ilə fəxr edib. Diqqətə çatdırıldı ki, məktəbin məzunları arasında 4 elmlər doktoru, 36 elmlər namizədi vardır. Ali məktəblərə qəbulun nəticələrinə görə, son 3 ildə 160 məzun tələbə adı qazanıbdır.*

*Məktəb müasir avadanlıqlarla, videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri ilə təchiz edilib. Binaya yeni internet və telefon xətləri çəkilib. Məktəbin təbii qazla işləyən qazanxanası, transformator yarımstansiyası təmir edilib, su təminatı üçün 150 tonluq çən quraşdırılıb, yanğın əleyhinə 100 kubmetrlik anbar tikilibdir.*

*Ərazidə açıq idman meydançası yaradılıb, binanın həyatində geniş abadlıq və yaşıllıq işləri aparılıbdır.*

**İRAN İSLAM RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin qərbində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 noyabr 2017-ci il*

**İRAQ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB HEYDƏR ƏL-ABADİYƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizdə baş vermiş güclü zəlzələ nəticəsində insan tələfatı və dağıntılar barədə xəbərdən olduqca kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İraq xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 noyabr 2017-ci il*

**FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAHMUD ABBASA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Fələstin Dövlətinin Elan Edilməsi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Fələstin əlaqələrinin genişlənməsi və möhkəmlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 noyabr 2017-ci il*

## YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 25 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*14 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev noyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində keçirilən Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Yeni Azərbaycan Partiyasının üzvləri!

Əziz dostlar!

Mən sizi və Yeni Azərbaycan Partiyasının bütün üzvlərini partiyamızın qarşıdan gələn 25-ci ildönümü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Partiyamızın bütün üzvlərinə cansağlığı, yeni uğurlar arzulayıram.

25 il əvvəl ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Bu, böyük tarixi hadisə idi. Ondan təqribən 1 ay əvvəl bir qrup vətənpərvər insan – məşhur «91-lər» Heydər Əliyevə müraciət ünvanlamışdılar. Ulu öndər müraciətə müsbət cavab verərək, yeni yaradılacaq partiyaya rəhbərlik etməyə hazır olduğunu bildirmişdir və partiyanın təsis konfransının keçirilməsi

haqqında qərar qəbul edilmişdir. Təbii ki, təsis konfransı Bakıda keçirilməli idi. Ancaq o vaxt Azərbaycanda hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş AXC–Müsavat hakimiyyəti buna imkan vermədi. Baxın, özünü demokrat adlandıran dairələr, hakimiyyət imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis konfransı Bakı şəhərində keçirilsin. Belə olan halda, 500-dən çox nümayəndə, bütün bölgələri təmsil edən vətəndaşlar Naxçıvana gəldilər və ulu öndərin rəhbərliyi ilə partiyamızın təsis konfransı keçirildi.

Bu doğrudan da tarixi bir hadisə, müasir Azərbaycan dövlətçiliyi tarixində dönüş nöqtəsi idi. O vaxt 91 vətənpərvər insan bu tarixi missiyanı öz üzərinə götürüb Heydər Əliyevə müraciət göndərmişdi. Onların bu əməyi Azərbaycan tarixində öz layiqli yerini tutmuşdur və partiyamızın yaradılması ölkəmizdə gedən xoşagəlməz proseslərin gələcəkdə qarşısının alınmasında xüsusi rol oynamışdır. Bu müraciətin səbəbləri də aydındır. Ulu öndər Heydər Əliyev ötən əsrin 70–80-ci illərində gördüyü işlərə, Azərbaycana verdiyi töhfələrə görə xalqımızın böyük sevgi və rəğbətini, dəstəyini qazanmışdır. Sovet dönəmində ən geridə qalmış respublikalardan biri olan Azərbaycan məhz onun dövründə ən qabaqcıl respublikaya çevrilmişdi. Keçən əsrin 70-ci illərində və 80-ci illərinin əvvəllərində onun fəaliyyəti nəticəsində respublikada böyük quruculuq işləri aparılmışdır və Azərbaycan, sözün əsl mənasında, hərtərəfli şəkildə inkişaf edirdi. Ondan sonrakı dövrdə Moskvada yüksək vəzifədə çalışarkən, həmişə Azərbaycana böyük diqqət və qayğı göstərmişdir.

XIX əsrin 90-cı illərinin əvvəllərində – xalqımız üçün ən ağır dövrdə yenə də Heydər Əliyev öz liderlik keyfiyyətlərini göstərmiş, böyük cəsarət, vətənpərvərlik göstərmiş və qanlı 20 Yanvar hadisələrini Sovet İttifaqının mərkəzində, Moskva şəhərində pisləmişdir. Mən o günü yaxşı xatırlayıram. Mən fəxr edirəm ki, o gün atamla birlikdə idim və Heydər Əliyevin o qətiyyətli çıxışı, Vətəninə, xalqına olan bağlılığı bütün

Azərbaycan xalqına bir daha göstərdi ki, o, xalqa bağlı olan böyük liderdir.

Ondan sonra Naxçıvanda işləyərkən müstəqilliyə gedən yolu açdı. Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını Dövlət bayrağı elan etmişdir və atılmış digər addımlar ona xalqın məhəbbətini daha da artırmışdır. Bununla bərabər, o vaxt Azərbaycanda hakimiyyətdə olan AXC–Müsavat cütlüyü xalqın inamını tamamilə itirmişdi. Onların antimilli siyasəti xalqda böyük hiddət doğururdu. Bacarıqsızlıq, qeyri-peşəkarlıq nəticəsində ölkə, demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkəmizi xaos, anarxiya bürümüşdü, qeyri-qanuni silahlı birləşmələr küçələrdə əli silahlı gəzirdilər, insanları incidirdilər. O illərdə ölkəmizi kütləvi rüşvətxorluq bürümüşdü. Torpaqlarımızın işğal altına düşməsi, iqtisadi böhran, sənaye böhranı, hərbi böhran, demək olar ki, ölkəmizin gələcək müstəqil həyatına böyük təhlükə yaradırdı. Belə olan halda, əlbəttə ki, xalq öz ümidini Heydər Əliyevə bağlamışdı. Ona görə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi. Partiya yaradılandan sonra bütün cəmiyyətimizdə böyük dəstəyə malik oldu.

Bu gün Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox insanı birləşdirir, onların 40 faizi gənclərdir. Yəni bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu çox müsbət haldır. Bu onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana əyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir.

O illərdə isə ölkəmizin gələcək inkişafı o qədər də aydın deyildi. Çünki Yeni Azərbaycan Partiyası noyabr ayında yaradılmışdı. Ondan sonra ölkədə dərin böhran daha da kəskinləşdi, 1993-cü ilin yay aylarında AXC–Müsavat cütlüyü ölkəmizdə

qardaş qanı axıtdı, vətəndaş müharibəsi başlamışdı və bunun nəticəsində torpaqlarımızın işğalı prosesi davam etmişdir.

Azərbaycan xalqı o vaxt bir daha öz böyüklüyünü, müdrikliyini göstərərək, Heydər Əliyevi hakimiyyətə dəvət etdi və 1993-cü ildən başlayaraq, bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir. 1993–2003-cü illər tariximizdə sabitlik, islahatlar və inkişaf illəri kimi qalacaqdır. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu. O illərdə bizim milli ideologiyamız – azərbaycançılıq ideologiyası təqdim edildi və xalq tərəfindən bəyənildi. O illərdə Azərbaycan beynəlxalq təcriddən çıxdı və Dağlıq Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bildi.

Biz beynəlxalq aləmdə fəal siyasət apararaq, Azərbaycanı tanıtmaq istiqamətində böyük işlər görə bildik. İqtisadi islahatlar, onların təməli məhz o illərdə qoyulmuşdu. O vaxt ölkə iqtisadiyyatının inkişafı üçün xarici sərmayənin cəlb edilməsi əsas şərt idi. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bunu da bacardı. O illərdə Azərbaycana cəlb olunmuş xarici sərmayə, demək olar ki, həmin dövrdə və hətta bu gün də ölkəmizin iqtisadi inkişafını şərtləndirən əsas amillərdən biridir.

Bir sözlə, 1993–2003-cü illərdə Azərbaycanda aparılmış böyük işlər ölkəmizi gücləndirdi. Azərbaycan bütün çətin sınaqlardan şərəflə çıxa bildi və bugünkü sürətli inkişafın təməli də o illərdə qoyuldu.

Ondan sonrakı 14 il ərzində Azərbaycan ulu öndər Heydər Əliyevin siyasətinə sadiq qalaraq, uğurla, inamla inkişaf edib. Bu gün Azərbaycan güclü ölkəyə çevrilibdir. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən bu gün son 14 il ərzində görülmüş işləri sadalamaq istəmirəm. Görülən işlər göz qabağındadır. Onu deyə bilərəm ki, Azərbaycan bütün istiqamətlər üzrə konseptual yanaşma və proqramlar əsasında çox böyük tarixi uğurlara imza atıbdır. Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıbdır. Təkcə BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilməyimiz faktını qeyd

etmək kifayətdir ki, beynəlxalq aləm görsün ki, Azərbaycana dünya miqyasında nə qədər böyük rəğbət və dəstək vardır.

Bu 14 il ərzində iqtisadi islahatlar baxımından Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkə olmayıb. İqtisadiyyat 3 dəfədən çox artıb, yoxsulluq təxminən 50 faizdən 5 faizə düşüb. Xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir, ondan da az səviyyədədir. Valyuta ehtiyatlarımız ümumi daxili məhsulun 100 faizini təşkil edir, yəni ona bərabərdir.

Azərbaycan beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Forumunun son hesablamalarında iqtisadiyyatların rəqabətqabliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir. Yəni bu rəqəm deməyə əsas verir ki, bizim iqtisadi siyasətimiz mükəmməldir. Bu, ölkəmizin ümumi inkişafında, insanların rifah halının yaxşılaşmasında öz əksini tapır. Energetika, nəqliyyat sahələrində görülmüş işlər haqqında deyə bilərəm ki, son vaxtlar bir çox yeniliklər baş veribdir. Yəni bir sözlə, Azərbaycan bütün sahələr üzrə, o cümlədən hərbi-texniki sahədə böyük uğurlara nail ola bilibdir. Bu uğurların təməli 1992-ci ilin noyabrında qoyulubdur. O vaxt Yeni Azərbaycan Partiyasının yaradılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini qoruya və möhkəmləndirə bildi. Bu gün bütün dünya görür ki, Azərbaycan özünə güvənən, öz daxili resurslarına arxalanan, müasir ənənələrə bağlı olan güclü dünyəvi dövlətə çevrilibdir.

Bu gün qarşıda duran bəzi vəzifələr haqqında danışmaq istərdim. Son 25 il ərzində partiyamız uğurla inkişaf edib və bütün seçkilərdə – həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlibdir. Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz

ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq.

Daxili siyasətlə bağlı qarşıda duran vəzifələrə gəldikdə, Azərbaycanda bundan sonra da sabitlik təmin ediləcəkdir. Heç bir ölkə sabitlik olmadan inkişaf edə bilməz. Bu gün biz görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda nə investisiyalar gəlir, nə də sosial rifah artır. Ümumiyyətlə, ölkələrin taleyi çox acı olur. Azərbaycanda sabitliyin təminatçısı isə Azərbaycan xalqıdır. Məhz xalq–iqtidar vəhdəti bu sabitliyi şərtləndirir. Bu vəhdət imkan verir ki, biz uzunmüddətli inkişaf strategiyamızı planlaşdıraq. Bu, imkan verir ki, bu gün Azərbaycana milyardlarla dollar xarici sərmayə qoyulur və Azərbaycan xalqı rahat, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır. Ona görə bundan sonra da biz elə işləməliyik ki, Azərbaycan daim inkişaf etsin. Mən şübhə etmirəm ki, Azərbaycanda bundan sonra da ictimai-siyasi sabitlik təmin olunacaqdır.

Azərbaycanda bundan sonra da bütün azadlıqlar təmin ediləcəkdir. Biz demokratik cəmiyyət qururuq. Yeni Azərbaycan Partiyasının yaradılması demokratiyanın təzahürü idi. Buna baxmayaraq, o vaxt hakimiyyəti dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC–Müsavat cütlüyü ən antidemokratik addımlar atmağa hazır idi ki, bu partiyaya əngəllər törətsin. Ancaq Yeni Azərbaycan Partiyası o vaxt ölkədə siyasi sistemin yaradılmasına da çox böyük töhfə vermişdir. Bu gün biz demokratiya yolu ilə gedirik. Azərbaycanda bütün azadlıqlar – söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı, sərbəst toplaşma azadlığı tam şəkildə təmin edilir. Lakin sərbəst toplaşma azadlığından istifadə etməyə çalışan, özünü müxalifət adlandıran bir dəstə insan hesab edir ki, onlara qarşı hansısa süni əngəllər törədilir. Halbuki bu, qətiyyən belə deyil, o uğursuz mitinqlərin səbəblərini onlar özlərində axtarmalıdırlar. Xalq o ünsürlərə çoxdan «yox» deyib. Onlar üçün

Azərbaycanın siyasi səhnəsində yer yoxdur. Ona görə yox ki, biz onlara maneçilik törədirik. Ona görə ki, onların, necə deyərlər, kitabı çoxdan bağlanıb. Qeyri-konstruktiv hərəkətləri, aqressiv davranışları onlara xalqın nifrətini birə-on artırır.

Xüsusilə indiki şəraitdə, internet dövründə nəyisə gizlətmək mümkün deyil. Azərbaycan xalqı çox yaxşı bilir ki, bu gün özünü müxalifət adlandıran bir dəstə xaricdən idarə olunur. Onlara xaricdən komandalar verilir. O komandalar nəticəsində müəyyən dövrdə hərəkətə keçirlər, fəallaşırlar. Sonra da görəndə ki, mitinqlərinə 1000 nəfərdən az adam gəlir, necə deyərlər, suyu süzülə-süzülə yenə kənara çəkilirlər. Bu bir daha onu göstərir ki, Azərbaycan xalqı xaricdən idarə olunan ünsürlərin – beşinci kolonun ölkəmizdə hansısa mövqelərə sahib olmasına heç vaxt imkan verməyəcəkdir.

Metodologiya da çox bəsitdir, çox sadədir. Xaricdə bir yalan uydurulur, bir şər-böhtan kampaniyasına rəvac verilir. Ondan sonra bu yalan, böhtan xarici mətbuatda dərc edilir. Daha sonra bunun əsasında da müəyyən tərpənmə – mən canlanma deməzdim – müşahidə olunur. Bu tərpənmə 1-2 mitinqdə özünü göstərir. Həmişə olduğu kimi, axırıncı mitinq onun təşkilatçıları üçün məyusedici olur, bununla da məsələ qurtarır.

Yəni bu gün siyasi mübarizəni bu formada aparmaq istəyən dəstəyə – bunlara heç qüvvə də demək olmaz – heç nə dərs olmur. Vaxt dəyişir, insanlar dəyişir, Azərbaycan dəyişir, siyasi mübarizə metodları dəyişir, onlar isə hələ də köhnə təfəkkürlə yaşamaq istəyirlər və öz mənasız həyatlarını bu işlərə sərf edirlər.

O ki qaldı bütün azadlıqlara, Azərbaycanda heç bir məhdudiyyət yoxdur. Sərbəst toplaşma azadlığı, söz azadlığı, bütün digər azadlıqlar Azərbaycanda tam şəkildə təmin edilir və təmin ediləcəkdir. Demokratiyaya bizim bağlılığımız hansısa təşkilata xoş gəlmək üçün deyil, biz bunu şüurlu surətdə edirik ki, ölkəmiz hərtərəfli şəkildə inkişaf etsin. Çünki iqtisadi islahatlar siyasi islahatlarla paralel aparılmalıdır.

Xarici siyasətlə bağlı deyə bilərəm ki, bizim xarici siyasətimiz həyatda özünü təsdiqləyib və bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Biz növbəti illərdə də müstəqil xarici siyasət aparacağıq, biz bunu indi də aparırıq. O qədər də böyük olmayan ölkələr üçün müstəqil xarici siyasət aparmaq heç də asan deyil, ancaq çox şərəflidir. Bəzi ölkələr başqa yol seçirlər, bəzi ölkələr başqa böyük ölkələrin qanadının altında yer alırlar. Bu bəlkə daha rahat yoldur. Ancaq bizim yolumuz şərəfli yoldur, ləyaqətli yoldur, müstəqillik yoludur. Eyni zamanda, bu, uğur gətirən yoldur. Çünki həyat və Azərbaycanın dünya miqyasındakı indiki rolu göstərir ki, bu, yeganə düzgün siyasətdir. Müstəqil siyasət bundan sonra da aparılacaqdır. Bu siyasətin əsas prinsipi Azərbaycan dövlətinin və Azərbaycan xalqının milli və dövlət maraqlarıdır. Bu bizim üçün əsas şərtdir. Harada ki, bu maraqlar təmin edilir, biz bu təşəbbüslərə qoşuluruq. Harada görürük ki, maraqlarımıza ziddir, əlbəttə, Azərbaycan o təşəbbüslərin iştirakçısı ola bilməz.

Hesab edirəm ki, hər bir ölkə üçün qonşularla münasibətlər xüsusi əhəmiyyət daşıyır. Biz qonşu ölkələrimizlə qarşılıqlı hörmət və inam əsasında çox gözəl və işgüzar münasibətlər qura bilmişik. 30 oktyabr – 1 noyabr tarixlərində 4 qonşu ölkənin liderləri ilə mənim görüşlərim olubdur və bu 2-3 gün ərzində həm Şərq–Qərb, həm Şimal–Cənub nəqliyyat dəhlizlərinin işə salınması və inkişafı istiqamətində çox önəmli hadisələr qeydə alınıbdır. Əgər qonşu ölkələrlə bizim gözəl münasibətlərimiz olmasaydı, əlbəttə, bu layihələr haqqında heç danışmağa da dəyməzdi. Bu gün Azərbaycan haqlı olaraq Avrasiya qitəsində nəqliyyat mərkəzlərinin birinə çevrilmək əzmindədir və biz bunu edirik. Nəqliyyat sahəsində tranzit ölkə statusunu almaq üçün mütləq qonşularla isti münasibətlər olmalıdır. Bu, xarici siyasətimizin əsas prioritetidir və çox sevindirici haldır ki, qonşu ölkələrlə bizim heç bir problemimiz yoxdur.

Biz bundan sonra da beynəlxalq təşkilatlarda fəal iştirak edəcəyik. «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı bizim üçün əsas prioritet təşkil edir. Biz 15 ildən çoxdur ki, Avropa Şurasının fəal üzvüyük və bir çox tədbirlər bu təşkilatın xətti ilə keçirilibdir. Ancaq son vaxtlar Avropa Şurasının baş katibinin fəaliyyəti nəticəsində bu qurum ilə Azərbaycan arasında süni böhran yaradılmışdır. Bu böhranın təşəbbüskarı biz deyilik. Biz sadəcə olaraq, bizə qarşı aparılan riyakar və ədalətsiz siyasətlə bağlı adekvat addımlarımızı atırıq. Bizə olan hücumları heç vaxt cavabsız qoymamışıq. Ona görə də bizim adekvat cavabımız yerində və vaxtında atılan addımdır. Hesab edirəm ki, ümumiyyətlə, Avropa Şurası kimi tanınmış beynəlxalq təşkilat hər hansı bir fərdin uğursuz ambisiyalarının qurbanına çevrilməməlidir. Ümid edirəm ki, bu təşkilatla bağlı olan məsələlər də öz həllini tapacaqdır. Biz bunu istəyirik, ümid edirik. Əgər bu böhran dərinləşsə, onda, əlbəttə, Azərbaycan öz seçimində tam azad olacaqdır. Biz üzv olduğumuz bütün təşkilatlara könüllü şəkildə daxil olmuşuq və könüllü şəkildə də çıxa bilərik. Heç kim bizi zorla hər hansı bir təşkilatda saxlaya bilməz.

İqtisadi sahə ilə bağlı qeyd etməliyəm ki, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində bundan sonra da ardıcıl siyasət aparılacaqdır. Bu siyasət öz nəticələrini verir. Bu gün neftdən asılılıq azalır. Ancaq onu da bilməliyik ki, neft-qaz sektoru bundan sonra uzun illər ərzində iqtisadiyyatımızın aparıcı qüvvəsi olacaqdır. Qeyri-neft sektorunda isə xüsusilə bu il çox ciddi islahatlar aparılıb və ixracımız da kəskin artıb, 9 ayın nəticələri çox müsbətdir. Kənd təsərrüfatı, qeyri-neft sektoru, qeyri-neft sənayesi sürətlə artır. Bizim valyuta ehtiyatlarımız artır, növbəti illərdə də artmalıdır. Valyuta ehtiyatlarımız bu ilin 9 ayında 4,5 milyard dollar artıbdır. Neftin qiymətinin aşağı səviyyədə olmasını nəzərə alsaq, bu çox böyük nailiyyətdir. Bu nailiyyət onu göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir. Bir çox ölkələr üçün bizim maliyyə vəziyyətimiz əlçat-

mazdır. Təkcə onu demək kifayətdir ki, xarici dövlət borcumuz 20 faizdən azdır və valyuta ehtiyatlarımız ümumi daxili məhsula bərabərdir. Ona görə növbəti illərdə iqtisadi sahədə, regional inkişaf sahəsində, əlbəttə, islahatlar dərinləşəcək və bu bizə imkan verəcək ki, qeyri-neft sektoru hesabına daha da böyük mənfəət əldə edək.

Dağlıq Qarabağ münaqişəsinin həlli işində bizim prinsipial mövqemizdə heç bir dəyişiklik olmayacaqdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Biz heç vaxt imkan verə bilmərik ki, tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Beynəlxalq hüququn normaları tam tətbiq edilməlidir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra olunmalıdır, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir. Bu, prinsipial mövqedir. Bu mövqe tarixə və beynəlxalq hüquqa əsaslanır. Çünki Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Çünki bütün dünya, bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ona hörmətlə yanaşır. Dağlıq Qarabağ isə Azərbaycanın ayrılmaz hissəsidir. Bu il bunu təsdiqləyən növbəti hadisə baş vermişdir. Yenə də Ermənistanın ağılsızlığı nəticəsində Dağlıq Qarabağda keçirilmiş qanunsuz referendum bütün dünya ictimaiyyəti tərəfindən qəbul edilmədi. Həm qonşu ölkələr, həm Minsk qrupuna həmsədr olan ölkələr, həm də Avropa İttifaqı və digər təşkilatlar bu referendumun nəticələrini tanımadılar. Tanımamaqla bir daha təsdiqlədilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Xocalı soyqırımının tanıdılması ilə bağlı ardıcıl səylər bundan sonra da davam etdiriləcəkdir. 5 il bundan əvvəl partiyamızın 20 illik yubileyində mən qeyd etmişdim ki, artıq 3 ölkə Xocalı soyqırımını rəsmən tanıyıb. İndi bu ölkələrin sayı 10-dan çoxdur – cəmi 5 il ərzində. Bu istiqamətdə də ardıcıl siyasət aparılacaqdır.

Bununla paralel olaraq, biz hərbi gücümüzü də artıracağıq. Buna yüksək dərəcədə nail ola bilmişik. Beynəlxalq reytinqlərə görə, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bundan sonra da ordumuza nə qədər vəsait, texnika lazımdırsa, o qədər də ayrılacaqdır. Heç bir məhdudiyyət olmayacaqdır. Hərbi gücümüz torpaqlarımızın azad olunmasında və ərazi bütövlüyümüzün bərpasında öz rolunu oynayacaq və oynayır. Aprel döyüşləri, torpaqlarımızın bir hissəsinin, xüsusilə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsinin işğalçılardan azad edilməsi ordumuzun gücünü bütün dünyaya göstərmişdir.

Ermənistan yenə də çalışır ki, aprel döyüşləri haqqında təhrif olunmuş versiyasını dünya ictimaiyyətinə təqdim etsin, ancaq bu çox gülünc cəhdlərdir. Sadəcə, onu demək kifayətdir ki, bu gün biz onların işğal edilmiş torpaqlarda vaxtilə qazdıqları səngərlərdə oturmuşuq və o səngərlərdən böyük bir əraziyə nəzarət edirik. Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, Azərbaycan xalqının, əsgərinin gücünü göstərdi. Göstərdi ki, Azərbaycan dövləti və xalqı heç vaxt işğalla barışmayacaq, nəyin bahasına olursa olsun, öz ərazi bütövlüyünü bərpa edəcəkdir.

Ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan 2 istiqamət üzrə – energetika və nəqliyyat sahələrinin gələcək inkişafı ilə bağlı bizim çox aydın hədəflərimiz vardır. Neft-qaz sahəsində bütün vəzifələr icra edildi. «Azəri–Çıraq–Günəşli» kontraktının müddəti uzadıldı. «Cənub Qaz Dəhlizi»nin icrası da uğurla gedir. Əminəm ki, gələn il biz TANAP layihəsinin açılışını qeyd edəcəyik.

Bütövlükdə, «Cənub Qaz Dəhlizi»nin tamamlanması 2020-ci ildə nəzərdə tutulur. Mən burada da heç bir problem görmürəm. Sadəcə olaraq, biz qrafik üzrə getməliyik. Avropa İttifaqı da Azərbaycanı bu layihənin həyata keçirilməsində aparıcı ölkə kimi tanıyır. Doğrudan da bu layihənin icrasında bizim rolumuz danılmazdır və aparıcıdır.

Nəqliyyat sahəsinə gəlincə, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsindən sonra əsas səylərimiz onunla bağlı olacaq ki, biz yüklərin həcmini artıraq. İndi biz bu məsələ üzərində çalışırıq. Bununla yanaşı, Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində əlavə addımlar atılmalıdır. Biz öz ərazimizdə, demək olar ki, bütün işləri gördük. İndi bu layihənin tamamlanması üçün əlavə texniki və maliyyə resurslarımızı ortaya qoymağa hazırıq. Beləliklə, bu 2 layihə Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzinə çevirəcəkdir. Bu bizim həm siyasi, həm iqtisadi maraqlarımızın təmin edilməsində çox mühüm rol oynayacaqdır.

Azərbaycanda müasir texnologiyaların inkişafı, üçüncü süni peykin orbitə çıxarılması gündəlikdə duran məsələlərdən biridir.

Gələcək fəaliyyətimizlə bağlı, əlbəttə ki, hər bir sahə üzrə konseptual yanaşma vardır. Əgər mən bu gün bütün planlar haqqında danışsam, bir neçə saat vaxt lazım olacaqdır. Mən bu gün sizin və ictimaiyyətin diqqətinə gələcəkdə əsas, önəmli istiqamətlər üzrə görüləcək işlər haqqında fikirlərimi çatdırdım. Bir daha demək istəyirəm ki, bu planların reallaşması üçün bütün imkanlar vardır. Biz bu günə qədər heç vaxt boş vədlər verməmişik, nəyi demişiksə, onu da təmin etmişik. Bizə ictimaiyyət, xalq tərəfindən olan inamın böyük hissəsi məhz bununla bağlıdır. Ancaq real planlar, real nəticələr və problemlər haqqında danışmışıq. Əlbəttə, cəmiyyətdə kifayət qədər problemlər vardır. Biz onları bilirik və bu problemlərin həlli istiqamətində öz fəaliyyətimizi, səylərimizi ardıcıl şəkildə davam etdirəcəyik.

Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti, rolu vardır. Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi, bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər.

Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir.

Beləliklə, məndə partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər vardır.

Mən bu gözəl yubiley münasibətilə partiyamızın bütün üzvlərini bir daha təbrik etmək istəyirəm. Yeni Azərbaycan Partiyasına yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Sloveniya əlaqələrinin genişlənməsi, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Sloveniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2017-ci il*

**LATVİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB RAYMONDS VEYONİSƏ**

Hörmətli cənab Prezident!

Latviya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Latviya arasındakı ənənəvi dostluq münasibətlərinin, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2017-ci il*

**OMAN SULTANI**
**ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Oman xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2017-ci il*

## BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ ƏLAQƏLƏR NAZİRİ ALOYZİO NUNES FERREYRANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Braziliya Federativ Respublikasının Xarici Əlaqələr naziri Aloyzio Nunes Ferreyranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Braziliyanın Xarici Əlaqələr naziri Aloyzio Nunes Ferreyranın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin inkişafı baxımından önəmini qeyd etdi. Əməkdaşlığımızın genişləndirilməsi istiqamətində bundan sonra da addımlar atmağın zəruriliyini qeyd edən prezident İlham Əliyev ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi və Braziliyanın Xarici Əlaqələr nazirinin Azərbaycana rəsmi səfərini bunun yaxşı göstəricisi kimi dəyərləndirdi. Gələcək illərdə qarşılıqlı iqtisadi əməkdaşlığa diqqət yetirilməsinin vacibliyini vurğulayan dövlət başçısı ölkələrimiz arasında ticarət dövriyyəsinin hələ ki, aşağı səviyyədə olduğunu bildirdi. İnvestisiya layihələrinə toxunan prezident İlham Əliyev biznes dairələrinin birgə fəaliyyəti sayəsində daha da yaxşı nəticələrə nail olmağın mümkünlüyünü vurğuladı. Dövlət başçısı Azərbaycan–Braziliya əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə və nazir Aloyzio Nunes Ferreyranın ölkəmizə səfərinin yaxşı nəticələr verəcəyinə əminliyini ifadə etdi.*

*Braziliyanın Xarici Əlaqələr naziri Aloyzio Nunes Ferreyra öz növbəsində, prezident İlham Əliyevin əməkdaşlığımızın inkişaf etdirilməsi ilə bağlı söylədiyi fikirlərlə tam razı olduğunu*

*bildirdi. Nazir əlaqələrimizin genişləndirilməsində qarşılıqlı səfərlərin önəmini vurğuladı. Braziliyalı nazir ölkəsinin Azərbaycan ilə əlaqələrin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsində çox maraqlı olduğunu dedi və bildirdi ki, ölkəmizə səfərinin əsas məqsədi bununla bağlı məsələləri müzakirə etməkdir.*

*Görüşdə Azərbaycan ilə Braziliya arasında iqtisadi, sərmayə qoyuluşu, biznes, turizm, təhsil, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# MOLDOVA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ ALEKSANDR JİZDAN İLƏ GÖRÜŞ

*15 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Moldova Respublikasının Daxili İşlər naziri Aleksandr Jizdanı qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycan və Moldova hüquq-mühafizə orqanları, o cümlədən Daxili İşlər nazirlikləri arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi, təcrübə mübadiləsi aparılmasının əhəmiyyəti vurğulandı, Moldovanın Daxili İşlər naziri Aleksandr Jizdanın ölkəmizə səfərinin bu əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

## ABŞERON RAYONUNA SƏFƏR

*16 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə Xırdalan şəhərinin mərkəzində ucaldılmış ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova prezident İlham Əliyevə Heydər Əliyev parkında aparılan yenidən qurulma tədbirləri, rayonda görülən abadlıq-quruculuq işləri və həyata keçirilən layihələr barədə ətraflı məlumat verdi.*

## OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞINDA ABŞERON RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Abşeron Olimpiya İdman Kompleksi prezident İlham Əliyevin «Abşeron və Ağcabədi rayonlarında Olimpiya İdman komplekslərinin tikintisi ilə bağlı tədbirlər haqqında» 2011-ci il 27 may tarixli Sərəncamı əsasında inşa edilib. Bu, ölkəmizdə sayca 42-ci Olimpiya İdman Kompleksidir.*

*Dövlət başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Gənclər və İdman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdi.*

*Bildirildi ki, kompleksdə inşaat işləri ən yüksək səviyyədə aparılıb və bu ilin oktyabrında başa çatdırılıbdır. Buradakı üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25, eni 12,5 metrdir. İdmanın bu növünə də ölkəmizdə yeniyetmə və gənclərin marağı ilbəil artır. Bu zalda üzgüçülük yarışlarını 150 nəfər izləyə biləcəkdir. Güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Bu zalda 150 tamaşaçı yeri vardır. Güləşçilərin məşqlərinin yüksək səviyyədə keçirilməsi üçün ən xırda incəliklər belə, nəzərə alınıb. Ağır atletika və trenajor zalında idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir.*

*Diqqətə çatdırıldı ki, 975 tamaşaçı-yerlik universal idman zalında idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkün-*

*dür. Boks zalında məşqlərin keçirilməsi və yarışların təşkili üçün hərtərəfli imkan yaradılıb. Burada aerobika məşqləri üçün də xüsusi şərait vardır. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunubdur. Kompleksə daxil olan mehmanxanada idmançılar, məşqçilər, qonaqlar mənalı istirahət edə biləcəklər. Burada internet-klub da fəaliyyət göstərir. 70 nəfərlik konfrans zalı müxtəlif tədbirlərin təşkili üçün nəzərdə tutulub. Atıcılıq tiri, silah və tədris otaqları da müasir səviyyədə qurulub. Kompleksin nəzdindəki Şahmat klubu müasirliyi ilə diqqəti çəkir. Son illər ölkəmizdə şahmat üzrə mötəbər beynəlxalq yarışların təşkili, eləcə də Azərbaycan şahmatçılarının ən nüfuzlu turnirlərdə parlaq qələbələri ölkəmizin hər yerində olduğu kimi, Abşeronda da idmanın bu qədim növünə marağı artırıbdır.*

*Qeyd edildi ki, Abşeron Olimpiya İdman Kompleksinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıbdır.*

*Müasir standartlara cavab verən futbol meydançasında keçiriləcək yarışları tribunalardan 1600-ə qədər tamaşaçı izləyə biləcəkdir. Burada mini-futbol meydançası da idmançıların ixtiyarına verilib. Basketbol və voleybol meydançaları, tennis kortu idmansevərlərə dəyərli töhfədir. Kompleksin həyatində geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, istirahət guşələri yaradılıbdır.*

*Komplekslə tanışlıqdan sonra prezident İlham Əliyev Abşeron rayon ictimaiyyətinin nümayəndələri və ölkəmizin tanınmış idmançıları ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Mən burada bizim görkəmli idmançılarımızı görürəm, sizi xüsusilə salamlayıram. Bu gün Abşeron rayonunun həyatında çox əlamətdar bir gündür. Biz Abşeron Olimpiya İdman Kompleksinin açılışını birlikdə qeyd edirik. Bu gözəl hadisə

münasibətilə idmançıları, Abşeron rayonunun sakinlərini ürəkdən təbrik edirəm.

Bu, bölgələrdə inşa edilmiş sayca 42-ci Olimpiya İdman Kompleksidir. Bu rəqəm özlüyündə bir göstəricidir. İndi bizim əksər rayonlarımızda ən müasir idman kompleksləri fəaliyyət göstərir. Əlbəttə, biz növbəti illərdə də yeni komplekslərin tikintisi ilə məşğul olacağıq. Ağcabədi Olimpiya İdman Kompleksi artıq açılışa hazırdır. Bu kompleks yaxın zamanlarda açılacaqdır. Gələn il də yeni komplekslərin açılışı nəzərdə tutulur.

Bu idman obyekti Abşeron rayonu üçün çox böyük əhəmiyyət kəsb edir. Burada 1000 nəfərlik gözəl idman zalı, 1600 nəfərlik stadion, məşq zalları, boks, şahmat bölmələri, açıq idman meydançaları, kort vardır. Bir sözlə, burada idmanın əksər növləri ilə məşğul olmaq mümkündür. Bu, Abşeron rayonu üçün, idmançılar üçün gözəl bir hədiyyədir. Əminəm ki, həm rayon sakinləri, uşaqlar, yeniyetmələr, həm də idmançılar bu kompleksin imkanlarından istifadə edəcəklər. Beləliklə, bütün bölgələrdə müasir idman infrastrukturunun yaradılması istiqamətində növbəti önəmli addım atılır.

Bu kompleksin açılışında bizim olimpiya, dünya çempionlarımız iştirak edirlər. Mən sizi xüsusilə salamlayıram. Əminəm ki, sizin gələcək fəaliyyətiniz də Azərbaycan idmanına xidmət edəcəkdir. Bu gün Azərbaycan dünya miqyasında idman ölkəsi kimi tanınır. Bizim uğurlarımız indi bütün dünya idman ictimaiyyəti tərəfindən qəbul edilir. Bizim idmançılar Azərbaycanı bütün beynəlxalq yarışlarda ləyaqətlə təmsil edirlər, bir çox olimpiya, dünya, Avropa çempionlarımız vardır. Bu il bizim 2 idmançımız – burada iştirak edən Hacı Əliyev və Məhəmmədrəsul Məcidov üçqat dünya çempionu olublar. Bu doğrudan da böyük idman nailiyyətidir. Yəni onlar artıq üçüncü dəfə təsdiqlədilər ki, dünyada birincidirlər. Əlbəttə ki, bizim olimpiyaçılarımızın, üçqat dünya çempionlarımızın qələbələri uşaqları da idman bölmələrinə cəlb edir. Əminəm ki, uşaqlar, yeniyetmələr bu idman kompleksindəki bölmələrdə məşq edəcəklər və gələcəkdə sizin

yerinizi tutacaqlar. Çünki idmanın dayanıqlı inkişafı gənc nəslin yetişməsindən başlayır. Gənc nəslin yetişdirilməsi, hazırlıq prosesinin düzgün qurulması üçün şərait olmalıdır. Onların qarşısında gözəl nümunələr olmalıdır. Onlar da sizin kimi olimpiya, dünya çempionları olmaq istəyirlər. Beləliklə, bu gün Azərbaycanda idmanın kütləviliyi də təmin edilir. Biz, əlbəttə, idmançılarımızın uğurları ilə fəxr edirik. Bu, ölkəmizin şöhrətini daha da yüksəklərə qaldırır. Ancaq bununla bərabər, bundan az əhəmiyyət daşımayan məsələ idmanın kütləviliyidir, vətəndaşlarımızın sağlamlığıdır. İdman insan sağlamlığı üçün bəlkə də əsas vasitədir.

Bu gün idman ölkəmizin müxtəlif yerlərində artıq kütləvi xarakter alıb. Mən həmişə tövsiyə edirəm, bu gün də demək istəyirəm ki, hər bir insan hər gün, hər gün olmasa da, heç olmasa həftədə 3 dəfə idmanla fəal məşğul olsun. Bu, insanların sağlamlığı, ümumiyyətlə, ovqatı üçün çox böyük əhəmiyyət daşıyan məsələdir.

Əlbəttə, biz idmanla bağlı siyasətimizi növbəti illərdə davam etdirəcəyik. Bu gün idmançılarımız bütün beynəlxalq yarışlarda ən yüksək nəticələr göstərirlər. Azərbaycanda keçirilmiş Avropa və İslam Həmrəyliyi oyunlarında biz ən qabaqcıl yerlərdəyik. Bu il İslam Həmrəyliyi oyunları ən yüksək səviyyədə keçirildi və bütün müsəlman aləmində Azərbaycan idmançıları birinci yerə layiq görüldülər. Avropa məkanında isə biz ikinciyik. Bu, gənc müstəqil dövlət üçün tarixi nailiyyətdir və bu nailiyyəti bizə bəxş edən idmançılardır. Mən çox şadam ki, bu gün burada bir neçə olimpiya çempionu – Nazim Hüseynov, Elnur Məmmədli, Namiq Abdullayev, Radik İsayev, Toğrul Əsgərov, Zemfira Məftahətdinova və dünya çempionları iştirak edirlər. Onların sayı kifayət qədər çoxdur. Bir sözlə, bax, budur bizim idmanımızın qələbələri, qalibləri, hər bir ölkə belə idmançılarla fəxr edə bilər.

O ki qaldı Abşeron rayonunun inkişafına, bu rayonda da işlər çox yaxşı gedir. Son illər ərzində böyük quruculuq, abadlıq işləri görülüb, infrastruktur layihələri icra edilir. Rayonda əsas infrastrukturla bağlı problemlər öz həllini tapıbdır. Rayonda 16

yaşayış məntəqəsini əhatə edən 7 yol layihəsi icra edilibdir, qazlaşdırılma 100 faizdir, elektrik təchizatı ilə heç bir problem yoxdur. İçməli su problemi də tədricən həll olunur. Mənə verilən məlumata görə, Xırdalan şəhərinin su problemi həll olunubdur. Digər qəsəbələrdə də məsələ öz həllini tapacaqdır. İş yerləri yaradılır. Abşeron rayonunda 100-dən çox sənaye müəssisəsi fəaliyyət göstərir ki, o müəssisələrdə minlərlə insan işləyir. Sosial infrastruktur yaradılır, bu gözəl Olimpiya Kompleksi, 10-dan çox məktəb tikilib və təmir olunub. Bir sözlə, rayonun hərtərəfli inkişafı üçün çox böyük işlər görülür, yeni parklar, ictimai yerlər yaradılır, binalar təmir olunur. Növbəti sərəncamda təmirə ehtiyacı olan binaların da bərpası nəzərdə tutulur. Bir sözlə, Abşeron rayonu hərtərəfli inkişaf edir, gözəlləşir, abadlaşır. Növbəti illərdə rayonun sosial-iqtisadi inkişafı ilə bağlı əlavə tədbirlər görüləcəkdir.

Biz 2017-ci ili bütövlükdə iqtisadi, sosial, beynəlxalq siyasət sahələrində yaxşı nəticələrlə, uğurlarla başa vururuq. Bir daha göstəririk ki, Azərbaycanda inkişaf dayanıqlıdır və uğurludur. Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcəkdir. Qarşıda duran vəzifələr hələ çoxdur. Biz bütün problemləri, insanları narahat edən məsələləri həll etməliyik. Həm Bakının, həm böyük şəhərlərin, həm də ən xırda kəndin problemi diqqət mərkəzində olmalıdır.

Mən sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm və idmançılara yeni uğurlar arzulayıram. Rayon sakinlərinə isə yeni nailiyyətlər, cansağlığı, əmin-amanlıq diləyirəm. Əminəm ki, Abşeron rayonunda belə gözəl hadisələr çox olacaqdır.

* * *

**H a c ı Ə l i y e v** (*sərbəst güləş üzrə üçqat dünya çempionu, Rio Olimpiadasının mükafatçısı*): Möhtərəm cənab Prezident! Sizi Abşeron gəncləri və idmançıları adından salamlayıram.

Bu gün bizim istifadəmizə verdiyiniz bu möhtəşəm Olimpiya İdman Kompleksi üçün Sizə bütün idmançılarımız adından təşəkkür edirəm.

Cənab Prezident, Azərbaycanda idmana və idmançılara göstərdiyiniz diqqət və qayğının nəticəsidir ki, idmançılarımız bu gün dünya və Avropa çempionatlarında, beynəlxalq yarışlarda uğurlu nəticələr qazanır və Vətənimizi layiqincə təmsil edirlər. Azərbaycan dünyada artıq idman ölkəsi kimi tanınır. Ölkəmizdə keçirilən birinci Avropa oyunları, IV İslam Həmrəyliyi oyunları da bir daha bunu sübut etdi ki, Azərbaycanda idmana və idmançılara yüksək diqqət və qayğı vardır, hər bir şərait yaradılmışdır. Cənab Prezident, bu oyunların ölkəmizdə yüksək səviyyədə keçirilməsinə görə Sizə və Mehriban xanım Əliyevaya bütün idmançılar adından təşəkkürümü bildirirəm.

Möhtərəm Prezident, icazənizlə, özüm haqqında da qısa məlumat verim. Mən Abşeron Uşaq-Gənclər İdman Məktəbinin yetirməsiyəm. Bildiyiniz kimi, mən Avropa çempionu və üçqat dünya çempionuyam. IV İslam Həmrəyliyi oyunlarının qalibi, Braziliyada keçirilən Yay Olimpiya oyunlarının bürünc mükafatçısıyam. Sizin sərəncamlarınızla mən 2015-ci ildə «Tərəqqi» medalına, bu yaxınlarda isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşəm. Mənə və bütün idmançılara göstərdiyiniz bu qayğıya görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

Cənab Prezident, bizi qarşıda böyük yarışlar gözləyir və əsas hədəfimiz də Yaponiyada keçiriləcək Olimpiya oyunlarıdır. Biz, inşallah, əlimizdən gələni edəcəyik ki, bu Olimpiya oyunlarında ölkəmizi layiqincə təmsil edək, qızıl medalların sayını artıraq.

Gələcək işlərinizdə Sizə uğurlar arzulayıram, cənab Prezident. Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirəm. Bizə və bütün idmançılara göstərdiyiniz diqqət və qayğıya görə bir daha təşəkkür edirəm. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Üçqat dünya çempionu olmaq olimpiya çempionu olmağa bərabərdir. Fərdi təqaüdün ve-

rilməsi o məqsədi güdürdü ki, bu doğrudan da böyük nailiyyətdir. Olimpiya çempionu olmaq hər bir idmançının böyük arzusudur. Amma 3 dəfə dünya çempionu olmaq ondan az əhəmiyyət daşıyan məsələ deyil. Bu doğrudan da böyük tarixi hadisədir. Sənin adın tarixdədir, həmişə olacaqdır. Dünya güləş tarixində sənin adın əbədi qalacaqdır. Necə ki, bizim digər olimpiya çempionlarımızın, olimpiya mükafatçılarının adları tarixdə qalır. Mən bunu çox yüksək qiymətləndirirəm.

Çox şadam ki, bizim görkəmli idmançılarımız bu gün buradadır. Onların bir çoxu hələ yarışlarda iştirak edir. Veteranlar da idmandan uzaqlaşmayıblar, idmandadırlar, öz təcrübələrini bölüşürlər. Yəni işlər belə ardıcıl şəkildə gedir. Veteranlara hörmət etməli, fəaliyyətdə olan idmançılara daim dəstək verməliyik. Uşaqlara isə tövsiyə etməliyik ki, bölmələrə gəlin, Namiq, Zemfira, Hacı və digər idmançılar kimi olun. Dövlət sizi həmişə dəstəkləyəcək və siz həyatda öz yerinizi tutacaqsınız. Azərbaycan xalqı sizə həmişə hörmət edəcəkdir.

## ABŞERON RAYONUNDA «ZƏHMƏT-RUZİ» MMC-nin FƏALİYYƏTİ İLƏ TANIŞLIQ

*16 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron rayonunda «Zəhmət-Ruzi» MMC-nin fəaliyyəti ilə tanış olmuşdur.*

*İqtisadiyyat naziri Şahin Mustafayev Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Abşeron rayonu üzrə maliyyələşdirilmiş investisiya layihələri, o cümlədən müasir texnologiyalara əsaslanan investisiya layihələrinə ayrılan güzəştli kreditlər, istifadəyə verilən, tikilməkdə olan və inşası nəzərdə tutulan istehsal və emal müəssisələri barədə dövlət başçısına məlumat verdi.*

*Qeyd olundu ki, son illərdə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun xəttilə Abşeron rayonu üzrə ümumi dəyəri 360 milyon manat olan 602 investisiya layihəsinin maliyyələşdirilməsinə 200 milyon manat güzəştli kredit verilib. Maliyyələşdirilmiş layihələr hesabına 8700 yeni iş yeri açılıb. Müasir texnologiyalara əsaslanan, ümumi dəyəri 261 milyon manat olan 39 investisiya layihəsinə isə 140,5 milyon manat güzəştli kredit ayrılıb. Nəticədə 3 Logistika Mərkəzi, 7 quşçuluq təsərrüfatı, 14 istixana kompleksi, 2 Süd Emalı zavodu, 1 Çörək zavodu, 1 ət emalı, 2 ət kəsimi müəssisəsi, 1 Mebel fabriki, 1 Kərpic zavodu və müasir texnologiyalara əsaslanan digər müəssisələr yaradılıbdır.*

*Bildirildi ki, «Zəhmət-Ruzi» MMC-nin dəyəri 42 milyon manat olan Logistika Mərkəzindən, ət kəsimi, ət və süd emalı müəssisəsindən ibarət aqrar-sənaye kompleksinin ərsəyə gəlməsinə*

*Sahibkarlığa Kömək Milli Fondunun xəttilə 8,3 milyon manat güzəştli kredit ayrılıb. Götürülən kredit artıq tam qaytarılıbdır.*

*Prezident İlham Əliyevə müəssisədə istehsal edilən və «SAB» – «Made in Azerbaijan» brendi altında bazara çıxarılan 60 çeşiddə ət və 40 çeşiddə süd məhsullarının nümunələri təqdim olundu.*

*Diqqətə çatdırıldı ki, «Zəhmət-Ruzi» MMC-nin ət və süd məhsulları AZS – keyfiyyət idarəetmə standartlarının sertifikatına və keyfiyyətə nəzarət sisteminin ISO 9001:2000 sertifikatına layiq görülmüş «SAB» brendi altında bazara çıxarılır.*

*Dövlət başçısı müəssisədə ət məhsullarının istehsalı prosesi ilə tanış oldu. Bildirildi ki, 7000 tonluq Logistika Mərkəzi ən müasir avadanlıqlarla təchiz edilib. Burada illik kəsim gücü 1,8 min ton olan fabrik də fəaliyyət göstərəcəkdir.*

*Qeyd edildi ki, bundan başqa, saatda 2500 quş kəsimi gücünə malik olan fabrik üçün də avadanlıq gətirilib və ilin sonunadək quraşdırılması nəzərdə tutulubdur. İllik istehsal gücü 10 min tona çatan ət emalı sahəsində 60 çeşiddə məhsul istehsal edilir. Ət məhsullarının saxlanma şəraiti ən müasir standartlara uyğundur.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, illik istehsal gücü 7000 ton olan süd emalı sahəsində 40 çeşiddə süd məhsulları, o cümlədən pasterizə edilmiş süd, pendir, xama, kəsmik, qatıq, dovğa, ayran və digər məhsullar hazırlanır. Tezliklə bu aqrar-sənaye kompleksində dondurma da istehsal olunacaqdır. Kompleksin xammala olan tələbatı Abşeron və digər rayonlarda fəaliyyət göstərən fermerlərin təsərrüfatlarında tədarük edilmiş məhsul hesabına təmin ediləcəkdir. «Zəhmət-Ruzi» MMC-nin həyata keçirdiyi layihələr hesabına 150 yeni iş yeri yaradılıb və orta aylıq əməkhaqqı 500 manatdır. Burada istehsal edilən məhsulların Rusiyaya, Qazaxıstana və Asiya ölkələrinə ixracı ilə bağlı müvafiq tədbirlər görülür.*

*Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində ölkəmiz hərtərəfli inkişaf edir. İqtisadiyyatın qeyri-neft sektorunun davamlı inki-*

*şafına nail olunubdur. Buna imkan verən əsas amillərdən biri özəl sektorun diqqət mərkəzində saxlanılmasıdır. Təsadüfi deyil ki, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir. «Zəhmət-Ruzi» MMC-nin fəaliyyəti də məhz belə bir əlverişli mühitin bəhrəsidir.*

*Azərbaycan Prezidentinə kompleksdəki süd məhsullarının satışadək saxlanma anbarları da təqdim olundu.*

# MASAZIR QƏSƏBƏSİNDƏ 5 SAYLI TAM ORTA MƏKTƏBİN AÇILIŞI MƏRASİMİ

*16 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron rayonunun Masazır qəsəbəsində yeni inşa olunmuş 5 saylı tam orta məktəbin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, məktəbin tikintisinə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2015-ci ildə başlanılıb. Yüksək keyfiyyətlə aparılan inşaat işləri bu ilin oktyabrında başa çatdırılıbdır. Məktəbin üçmərtəbəli binasının ümumi sahəsi 4600 kvadratmetrdən çoxdur. Bu təhsil ocağının bir hektarlıq həyətyanı ərazisində idman qurğuları quraşdırılıb. Binanın istilik təchizatı üçün qazanxana, transformator yarımstansiyası, nasosxana və su hovuzu inşa olunub. Yeni məktəb 1200 şagird yerlikdir, burada 41 sinif otağı vardır.*

*Dövlət başçısına məlumat verildi ki, indiyədək Masazır qəsəbəsində fəaliyyət göstərən 4 məktəbdə şagird sıxlığına görə tədris iki və ya üçnövbəli idi. Bu məktəb fəaliyyətə başladıqdan sonra qəsəbədəki digər məktəblərdə olan şagird sıxlığı aradan qaldırılacaqdır.*

*Ən müasir avadanlıqlarla təchiz edilən məktəbdə fizika, kimya və biologiya laboratoriyaları, kitabxana, 163 yerlik akt zalı, həmçinin hər cür şəraiti olan yeməkxana yaradılıbdır. Burada 2 emalatxanada da tədrisin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait vardır. İdman zalı zəruri avadanlıqlarla təchiz edilibdir.*

*Bu məktəbdə yaradılan şərait təsdiqləyir ki, son illərdə təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Artıq ölkədə yeni təhsil konsepsiyası formalaşıb və uğurla həyata keçirilir. Azərbaycanda yüzlərlə yeni məktəb binasının tikilməsi, mövcudlarının əsaslı surətdə yenidən qurulması nəhəng təhsil infrastrukturunun formalaşmasına geniş imkanlar açıbdır.*

## QAZAXISTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ ASKAR MAMİN İLƏ GÖRÜŞ

*16 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Qazaxıstan Respublikası Baş nazirinin Birinci müavini Askar Mamini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Dövlət başçısı Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə beynəlxalq tədbirlərdə keçirdikləri görüşləri xatırladaraq, Qazaxıstan Prezidentinin Azərbaycana son rəsmi səfərini əlaqələrimizin inkişafında mühüm hadisə kimi dəyərləndirdi və bu görüşlər zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparıldığını diqqətə çatdırdı. Əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğunu və artıq müsbət nəticələrin əldə edildiyini qeyd edən prezident İlham Əliyev Qazaxıstan Respublikası Baş nazirinin Birinci müavini Askar Maminin ölkəmizə səfərinin məhsuldar olacağına və səfər zamanı iqtisadiyyat, nəqliyyat, energetika, tranzit yükdaşımaları, investisiya qoyuluşu sahələri ilə bağlı məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu bildirdi.*

*Cənubi Qafqaz regionunda Azərbaycanın Qazaxıstan üçün strateji tərəfdaş ölkə olduğunu vurğulayan Qazaxıstan Respublikası Baş nazirinin Birinci müavini Askar Mamin qeyd etdi ki, ikitərəfli münasibətlərimizin inkişafı istiqamətində böyük potensial vardır. Qonaq bu potensialın reallaşdırılması üçün birgə səylərin göstərilməsinin önəmini vurğuladı. Askar Mamin Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı münasibətilə təbrik-*

*lərini prezident İlham Əliyevə çatdıraraq dedi ki, bu nəqliyyat dəhlizi Asiya–Avropa istiqamətində transkontinental yükdaşımalarının inkişafı işinə böyük töhfə verir. O, əmin olduğunu bildirdi ki, bu dəmir yolu xəttinin işə salınması ilə Azərbaycan, Qazaxıstan və ümumilikdə transxəzər marşrutunun tranzit potensialı tam həcmdə həyata keçiriləcəkdir.*

*Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## ÖZBƏKİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ ALİŞER SULTANOV İLƏ GÖRÜŞ

*17 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Özbəkistan Respublikası Baş nazirinin müavini Alişer Sultanovu qəbul etmişdir.*

*Baş nazirin müavini Alişer Sultanov Özbəkistan Respublikasının prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını prezident İlham Əliyevə çatdırdı. O bildirdi ki, Özbəkistan prezidenti Şavkat Mirziyoyev dövlətimizin başçısı ilə keçirdikləri görüşləri daim böyük məmnunluqla xatırlayır və deyir ki, İlham Əliyev xalqının böyük oğludur. Alişer Sultanov qeyd etdi ki, Özbəkistan Prezidenti ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı imkanlardan tam istifadə edilməsini zəruri sayır. O bildirdi ki, Özbəkistan Prezidenti Azərbaycana səfərini səbirsizliklə gözləyir və bu səfərin səmərəli və məhsuldar keçməsi üçün fəal hazırlıq işləri aparılır. Bu yaxınlarda istifadəyə verilən Bakı–Tbilisi–Qars dəmir yolu barədə fikrini bildirən Alişer Sultanov layihənin regionda mühüm əhəmiyyətə malik olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirərək, Özbəkistan Prezidenti ilə keçirdiyi görüşlərdən məmnunluğunu ifadə etdi. Dövlət başçısı ölkələrimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərinin ortaq tarix, mədəni və dil amillərinə əsaslandığını vurğuladı. Prezident İlham Əliyev siyasi əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdıraraq, dövlət başçıları arasında qarşılıqlı etimadın və beynəlxalq strukturlarda qarşılıqlı dəstəyin olmasının əhəmiyyətini qeyd etdi. Dövlət başçısı*

*ticarət dövriyyəsi, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyini bildirdi.*

*Prezident İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Sergey Viktoroviç, Sizi yenidən Azərbaycanda görməyə çox şadam. Xoş gəlmisiniz! Sizin səfəriniz bizim münasibətlərimizin gələcək inkişafı ilə bağlı məsələləri müzakirə etmək üçün yaxşı fürsətdir. Biz ölkələrimizin dövlətlərarası münasibətlərindən çox məmnunuq. Bu münasibətlər praktiki olaraq bütün sahələri əhatə edir və çox yaxşı dinamikliyə malikdir. Dövlət başçıları səviyyəsində müntəzəm görüşlər keçirilir. Bu il bir neçə görüş keçirilib. Eləcə də xarici siyasət idarələrinin başçıları və müvafiq qurumların rəhbərləri mütəmadi olaraq görüşürlər. Bütün bunlar göstərir ki, münasibətlər yüksək səviyyədədir. Biz artıq bunu çoxdandır strateji tərəfdaşlar arasında münasibətlər kimi səciyyələndiririk və əminəm ki, gələcəkdə əməkdaşlıq potensialını gücləndirəcəyik.

Həmçinin ticari-iqtisadi sahədə yaxşı nəticələri qeyd etmək istərdim. Bu il bizdə ticarət dövriyyəsi, qarşılıqlı sərmayə qoyuluşu artıb. Nəqliyyat sahəsində yeni imkanlar açılır. Biz bu istiqamətdə, energetika sahəsində fəal işləyirik. Əlbəttə, humanitar sahə də bizim ənənəvi əməkdaşlıq sahəsidir. Düşünürəm ki, bizim münasibətlərimiz bütün qonşular və tərəfdaşlar üçün nümunə ola bilər.

Əlbəttə, bu gün həm də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlərdən danışacağıq. Azərbaycan bu münaqişənin tezliklə nizamlanmasında son dərəcə maraqlıdır.

Bir daha xoş gəlmisiniz! Əminəm ki, səfər, həmçinin münasibətlərimizin möhkəmlənməsi işində mühüm məqam olacaqdır.

**S e r g e y  L a v r o v:** Hörmətli İlham Heydər oğlu, dəvətə və Sizinlə görüşmək imkanına görə çox sağ olun. Sizin siyasi dialoqumuza verdiyiniz qiymətlə tam razıyam. Lap bu yaxınlarda – noyabrın 1-də Rusiya Federasiyasının Prezidenti ilə Tehranda növbəti dəfə görüşdünüz. O Sizə səmimi salamlarını çatdırır, məmnuniyyətlə Sizin görüşlərinizi xatırlayır. Biz Vladimir Vladimiroviçlə Sizin aranızda olan razılaşmaların yerinə yetirilməsinə sadiqik. Onu da məmnuniyyətlə qeyd etmək istərdim ki, ticarət dövriyyəsi bizim statistikaya görə, bu ilin ilk 9 ayında ən azı 60 faizdən çox artıb. Bu da 2 il əvvəl özünü göstərən ticarət dövriyyəsinin azalması tendensiyasının qarşısını almaq və Sizin dediyiniz kimi, investisiya qoyuluşu sahəsində tempi artırmaq istiqamətində çox ciddi addımdır.

Bu il Stavropolda uğurla keçirilmiş Regionlararası Forumu qeyd etməliyəm. Bakıda parlamentlərarası Komissiyanın iclası keçirildi. Biz diplomatik münasibətlərin 25 illiyi ilə əlaqədar həmkarımla qarşılıqlı səfərlər etmişik. Moskvada arxiv sənədlərinin sərgisi keçirildi. Sabah bu tarixə həsr edilmiş əlavə tədbir keçirəcəyik. ADA Universitetində çıxış etmək dəvətinə görə təşəkkürümü bildirmək istəyirəm. Sabah məmnuniyyətlə bunu edəcəyəm. Həqiqətən də bizi birləşdirən əlaqələr çoxdur. Bir yaxşı nümunə: lap bu yaxınlarda Moskvada bizim kosmik proqramımızın banilərindən biri, SSRİ-nin Pilotlu Uçuşlar üzrə Dövlət Komissiyasının sədri Kərim Kərimovun 100 illiyi qeyd edildi. Düşünürəm ki, tariximizin belə dövrləri bizi əvvəlki kimi birləşdirməli və yeni qarşılıqlı münasibətlərimizə göstərici olmalıdır. Biz, əlbəttə, mənim həmkarımla beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyətimizdən danışacağıq. Bu fəaliyyət

davamlı şəkildə inkişaf edir. Biz də ATƏT-in Minsk qrupunun həmsədrlər üçlüyünün üzvü kimi, düyünün açılmasına hərtərəfli kömək göstərməkdə və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində irəliləyişi təmin etməkdə maraqlıyıq. Sizinlə tamamilə razıyıq ki, bu istiqamətdə fəal səylər göstərmək lazımdır. Bu qəbula görə bir daha sağ olun.

* * *

*Prezident İlham Əliyev Rusiya Federasiyanın Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.*

## UŞAQLARIN IV ÜMUMRESPUBLİKA FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Əziz uşaqlar!

Sizi – Uşaqların IV Ümumrespublika Forumunun iştirakçılarını, eləcə də ölkəmizin bütün uşaqlarını səmimi-qəlbdən salamlayır, hamınıza ən xoş arzularımı çatdırır, hər birinizə cansağlığı, xoşbəxtlik və gələcək həyatınızda nailiyyətlər arzulayıram.

Uşaqların taleyinə aid məsələlər hazırkı dünyada sabahını düşünən cəmiyyətlərin çox mühüm prioritetlərindəndir. Forumunuzun mütəmadi təşkil edilərək, getdikcə ənənəvi şəkil alması Azərbaycanda uşaq hüquqlarının müdafiəsinə diqqətin təzahürüdür.

Ümummilli lider Heydər Əliyevin «Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir, ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daim xüsusi qayğı göstərilməlidir» sözləri bir an belə, unudulmadan ölkəmizdə uşaq hüquqlarının ən etibarlı şəkildə qorunması üçün zəruri şərait yaradılmışdır. Övladlarımızın yüksək mənəvi və sosial mühitdə böyümələri, müasir standartlara uyğun keyfiyyətli təhsillə, tibbi xidmətlərlə təmin edilmələri və xalqımızın milli dəyərlərə sadiq, mənən zəngin övladları kimi formalaşmaları Azərbaycan dövlətinin uşaqlarla bağlı ardıcıl siyasətinin başlıca prinsipləridir. Uğurla icra olunan çoxsaylı sosial yönümlü layihələr də bu amala xidmət göstərir. Uşaqların müdafiəsi ölkə Konstitusiyası ilə qanunvericilik və normativ-hüquqi aktlarla tənzimlənir. «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu uşaqların beynəlxalq səviyyədə təsbit olunmuş əsas hüquq və azadlıqlarını, bu hüquqların

gerçəkləşdirilməsi istiqamətində üzərimizə düşən vəzifələri aydın əks etdirir.

Siz uşaqlar xoşbəxtsiniz ki, yeni əsrə və yeni minilliyə müstəqil dövlət olaraq qədəm qoymuş ölkəmizdə dünyaya göz açmısınız. Bu ölkənin ildən-ilə daha güclü, daha qüdrətli olması sizin gələcək xoşbəxt və firavan həyatınızın təminatı deməkdir. Azərbaycan sürətli inkişaf yolundadır. İndiki nəsil qüdrətli Azərbaycanı məhz sizə etibar edəcəkdir. Qətiyyətlə deyə bilərəm ki, öz istedadınızı və yaradıcılıq potensialınızı üzə çıxarmağınız üçün ölkəmizdə geniş imkanlar mövcuddur.

Dövlətimiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində hüquqları kobud surətdə pozulmuş qaçqın və məcburi köçkünlərimizin, onların uşaqlarının müdafiəsi naminə öz qüvvəsini səfərbər etmişdir. Əminəm ki, düşmən təxribatına qurban getmiş məsum övladlarımızın qanı yerdə qalmayacaq, erməni təcavüzünə son qoyulacaq, Azərbaycanın haqq işi qalib gələcək və ədalət bərqərar olacaqdır.

Ümidvaram ki, forum çərçivəsində aparacağınız müzakirələr ölkəmizdə uşaqlarla bağlı dövlət siyasətinin layiqincə həyata keçirilməsi işinə öz töhfəsini verəcəkdir.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 noyabr 2017-ci il*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL AUNA**

Hörmətli cənab Prezident!

Livan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Livan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 noyabr 2017-ci il*

## FİFA-nın PREZİDENTİ CANNİ İNFANTİNO VƏ TƏŞKİLATIN BAŞ KATİBİ FATMA SAMOURA İLƏ GÖRÜŞ

*20 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də FİFA-nın prezidenti Canni İnfantinonu və təşkilatın baş katibi Fatma Samouranı qəbul etmişdir.*

*FİFA prezidenti Canni İnfantino Azərbaycana gəlişindən və dövlətimizin başçısı ilə görüşündən məmnunluğunu bildirdi. O, Bakının FİFA İcraedici Futbol Sammitinin keçiriləcəyi dünyanın 12 şəhərindən biri seçilməsinin və ilk sammitin paytaxtımızda keçirilməsinin əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev Bakıda keçiriləcək FİFA İcraedici Futbol Sammitinin önəmini qeyd etdi və bu tədbirin çox uğurlu olacağına əminliyini bildirdi. FİFA prezidenti Canni İnfantinonun və baş katib Fatma Samouranın Azərbaycana səfərini mühüm hadisə kimi qiymətləndirən dövlətimizin başçısı azərbaycanlı futbol azarkeşlərinin bu səfərdən sevinc hissi keçirdiklərini vurğuladı və qeyd etdi ki, bütün bunlar Azərbaycanın dünya futbol ailəsində özünəməxsus yerə malik olduğunu göstərir. Ölkəmizdə idmanın inkişafına toxunan dövlət başçısı bildirdi ki, futbol Azərbaycanda prioritet sahələrdən biridir. İdmanın bu növünün inkişafı ilə bağlı xüsusi proqramın qəbul edildiyini vurğulayan prezident İlham Əliyev Bakıda, eləcə də Azərbaycanın digər şəhərlərində müasir tələblərə cavab verən xeyli sayda stadionun inşa edildiyini və bu gün futbolun inkişafı üçün ölkəmizdə bütün lazımi infrastrukturun tam şəkildə yaradıldığını qeyd etdi. Ölkəmizdə futbola olan marağın və azarkeşlərin sayının durmadan artdığını qeyd edən dövlət başçısı bil-*

*dirdi ki, futbol üzrə Azərbaycan milli komandası və klublar daha yaxşı oyun nümayiş etdirir və bu sahədə daha çox uğurların və qələbələrin qazanılmasına ümidvarıq. Prezident İlham Əliyev əminliklə bildirdi ki, FİFA prezidenti Canni İnfantinonun və baş katib Fatma Samouranın ölkəmizə səfəri Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığı işinə də öz töhfəsini verəcəkdir.*

*FİFA prezidenti Canni İnfantino dedi:*

– Azərbaycan, sözün əsl mənasında, futbol ölkəsidir. Mən hələ FİFA prezidenti olmamışdan öncə UEFA-da çalışdığım dövrdə biz AFFA ilə birgə əməkdaşlıq etmişik. Biz hələ o zaman irəliyə baxaraq, Azərbaycanla birgə layihələr üzərində düşünürdük. Mən və baş katib Fatma Samoura Azərbaycanda ümumilikdə futbolun və futbol hərəkatının inkişafının şahidiyik. Siz artıq 17 yaşına qədər olan qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsini Bakıda təşkil etmisiniz.

*Canni İnfantino Bakının «Avro–2020»yə ev sahibliyi edəcək 13 şəhərdən biri olmasının əhəmiyyətini qeyd etdi. O bildirdi ki, ölkəmizdə futbol infrastrukturunun yaradılmasına və uşaq futboluna böyük önəm verilməsi Azərbaycanda futbolun inkişafına gətirib çıxarıb. Canni İnfantino bildirdi ki, 2019-cu ildə Bakıda keçiriləcək UEFA Avropa Liqasının final matçı Azərbaycanda futbolun inkişafının nəticəsidir. Canni İnfantino futbol üzrə Azərbaycan milli komandasının və «Qarabağ» futbol klubunun uğurlar qazandığını vurğuladı və AFFA-nın fəaliyyətinin bir çox ölkələr üçün nümunə olduğunu qeyd etdi.*

*Sonra Canni İnfantino FİFA-nın xatirə hədiyyələrini dövlət başçısına təqdim etdi.*

**BOSNİYA VƏ HERSEQOVİNA
RƏYASƏT HEYƏTİNİN SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB DRAQAN ÇOVİÇƏ**

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. İnanıram ki, Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bosniya və Herseqovinanın dost xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2017-ci il*

## NATO-nun BAŞ KATİBİ YENS STOLTENBERQ İLƏ GÖRÜŞ

*Brüssel*

*23 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Belçika Krallığına işgüzar səfəri çərçivəsində NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə Alyansın mənzil-qərargahına gəlmişdir.*

*NATO-nun baş katibi Yens Stoltenberq dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.*

*Daha sonra Azərbaycan prezidenti İlham Əliyevin və NATO-nun baş katibi Yens Stoltenberqin görüşü oldu.*

*Görüşdə Azərbaycan ilə NATO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. NATO-nun baş katibi Yens Stoltenberq ölkəmizin qurumun Kosovo və Əfqanıstandakı sülhməramlı missiyalardakı iştirakını yüksək qiymətləndirdi. NATO-nun baş katibi Azərbaycanın Əfqanıstana verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. O vurğuladı ki, Azərbaycanın Əfqanıstana yardımı genişləndirmək planı bu ölkənin iqtisadi inkişafına töhfəsini verə bilər.*

*Prezident İlham Əliyev NATO ilə əlaqələrimizin genişlənməsindən məmnunluğunu bildirdi. Vurğuladı ki, Azərbaycan Əfqanıstanda sülhməramlı əməliyyatlarda və bu ölkənin iqtisadiyyatının yenidən qurulmasında fəal iştirak edir.*

*Söhbət zamanı Azərbaycanın Ceyrançöl ərazisində NATO-nun minatəmizləmə əməliyyatlarına verdiyi dəstəkdən məmnunluq ifadə olundu. Əfqanıstana daşınan yüklər baxımından Azərbaycanın tranzit ölkə kimi əhəmiyyəti vurğulandı.*

*Görüşdə qeyd edildi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlıq həyata keçirilir.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi aparıldı, danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə məlumat verildi.*

*Regional məsələlərin də müzakirə olunduğu görüşdə prezident İlham Əliyev NATO-nun baş katibi Yens Stoltenberqi ölkəmizə səfərə dəvət etdi. NATO-nun baş katibi dəvəti minnətdarlıqla qəbul etdi.*

## NATO-nun BAŞ KATİBİ YENS STOLTENBERQ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Brüssel*

*23 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun baş katibi Yens Stoltenberq noyabrın 23-də Brüssel-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

### NATO-nun baş katibi Yens Stoltenberqin bəyanatı

Prezident Əliyev, NATO mənzil-qərargahına yenidən xoş gəlmisiniz! Sizi burada görməyə çox şadam. Çox konstruktiv görüşə görə Sizə təşəkkürümü bildirirəm. Mən həmçinin Şimali Atlantika Şurası çərçivəsində görüşü də səbirsizliklə gözləyirəm. Siz bu Şurada bütün 29 müttəfiq ölkənin nü-mayəndələri ilə görüşəcəksiniz.

Bu gün biz uzunmüddətli əməkdaşlığımızı müzakirə etdik. Biz Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasına qoşunlar, tranzit imkanları və Əfqanıstan milli təhlükəsizlik qüvvələrinə maliyyə dəstəyi formasında verdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarıq. Həmçinin Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasına qoşunların artırılması ilə bağlı qərarınıza görə Sizə təşəkkürümü bildirirəm.

NATO ilə Azərbaycan arasındakı tərəfdaşlığın başlanğıcı uzun illər bundan öncəyə təsadüf edir. Bu tərəfdaşlığın təməli demokratik dəyərlərə və prinsiplərə sadiqlik əsasında qoyulub. Bu gün bizim praktiki əməkdaşlığımız bacarıqların inkişafından

tutmuş, enerji təhlükəsizliyinə qədər bir çox sahələri əhatə edir və keçmiş sovet ordusundan qalmış partlamamış mina və hərbi sursatların təmizlənməsi üçün etimad fondu çərçivəsində aparılır. Mən həmçinin Sizə BMT Təhlükəsizlik Şurasının qadınlar, sülh və təhlükəsizlik üzrə 1325 saylı qətnaməsini bizim əməkdaşlıq gündəliyimizə daxil etdiyiniz üçün təşəkkürümü bildirirəm. Bütün bunlar Avroatlantik məkanın daha da təhlükəsiz olmasına töhfə verir. Biz seçdiyiniz bütün sahələrdə Sizinlə işimizi davam etdirməyə və əməkdaşlığımızı daha da inkişaf etdirməyə sadiqik. Biz Sizi təhlükəsizlik sahəsində islahatların daha da artırılmasına dəvət edirik və korrupsiya ilə mübarizə sahəsində Sizə dəstək olmaq üçün bizim Dürüstlüyün Artırılması Proqramından tam faydalanmağa çağırırıq.

Bu gün biz, həmçinin Cənubi Qafqazda regional təhlükəsizliyi də müzakirə etdik. Həll olunmamış Dağlıq Qarabağ münaqişəsi narahatlığa səbəb olan məsələdir. Aydındır ki, bu münaqişənin hərbi yolla həll olunması imkanı yoxdur və NATO bu məsələdə birbaşa rola malik deyil. Biz ATƏT-in Minsk qrupunun həmsədrlərinin işini dəstəkləyirik və Ermənistan prezidenti ilə bərpa etdiyiniz dialoq barədə eşitdiyim xəbər məni ruhlandırdı. Biz münaqişənin həllinin danışıqlar yolu ilə davam etdirilməsini və vəziyyətin gərginləşməsinə yol verilməməsini dəstəkləyirik.

Beləliklə, prezident Əliyev, icazə verin, buraya təşrif buyurduğunuz və NATO-nun mənzil-qərargahına baş çəkdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirim. Şimali Atlantika Şurası çərçivəsində görüşünüz əməkdaşlığımızın gələcəkdə necə dərinləşdirilməsinin müzakirə edilməsi nöqteyi-nəzərdən əhəmiyyətli bir fürsət olacaqdır. Bir daha təşəkkür edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, cənab baş katib. Əvvəlcə, dəvətinizə görə təşəkkür edirəm. NATO-nun mənzil-qərargahına bir daha gəlməyimə və əməkdaşlığımıza aid mühüm məsələlərin müzakirəsi üçün imkan əldə etdiyimə görə çox şadam.

Əməkdaşlığımızın artıq yaxşı tarixi vardır. Azərbaycan NATO-nun bir çox əməliyyatlarında – KFOR-da, İSAF-da iştirak etmişdir. İndi isə Azərbaycan Qətiyyətli Dəstək Missiyasına öz töhfəsini verir. Əfqanıstanda təhlükəsizliyi və sülhü təmin etmək üçün 94 hərbi qulluqçumuz NATO hərbçiləri ilə çiyin-çiyinə xidmət edir. Azərbaycan, həmçinin koalisiya qüvvələri üçün multimodal tranzit və ərazimiz üzərindən uçuş imkanlarını təmin edir. Azərbaycan Əfqanıstan ordusunun Milli Etimad Fonduna töhfə verib və cənab baş katibin qeyd etdiyi kimi, Əfqanıstanda sülh, təhlükəsizlik və sabitliyə daha da artıq töhfə vermək üçün hərbi qulluqçularımızın sayını artıracağıq.

2004-cü ildən Azərbaycan Fərdi Tərəfdaşlıq Fəaliyyət Planına qoşulub. 4 sikl bitirilib. Beşinci sikl hazırda icra olunmaqdadır. Bu həmçinin bizim əməkdaşlığımızın vacib elementidir.

Cənab baş katib qeyd etdiyi kimi, biz bu gün regional təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Regional təhlükəsizlik üçün ən böyük təhlükə Ermənistan və Azərbaycan arasında həll olunmamış münaqişədir. Uzun illərdir ki, ərazilərimiz erməni işğalı altındadır, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb və əfsuslar olsun ki, vəziyyət dəyişməz olaraq qalır. ATƏT-in Minsk qrupuna üzv olan ölkələrin prezidentlərinin status-kvonun qəbuledilməzliyi və dəyişməli olduğu ilə bağlı bəyanatlarına rəğmən Ermənistan status-kvonu mümkün qədər çox saxlamaq istəyir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə qəbul edib. Ermənistan 20 ildən artıqdır ki, bu qətnamələri icra

etmir. Münaqişə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır.

Bu gün biz, həmçinin nəqliyyat təhlükəsizliyi ilə bağlı məsələləri də müzakirə etdik. Mən cənab baş katibə məlumat verdim ki, Azərbaycan öz qonşuları ilə birlikdə Bakı–Tbilisi–Qars dəmir yolunun inşasını uğurla tamamlayıb. Bu, Asiya və Avropa arasında ən qısa yoldur və Əfqanıstana təchizat bu marşrut vasitəsilə daha asan və səmərəli olacaqdır.

Bizim NATO ilə əməkdaşlığımızın böyük potensialı var və əməkdaşlığın tarixi bunu nümayiş etdirir. Bu gün mənim NATO-nun mənzil-qərargahına artıq altıncı səfərimdir. Beləliklə, bu, əməkdaşlığımızın çox güclü olduğunu nümayiş etdirir. Biz regionumuzda sülhü, təhlükəsizliyi və sabitliyi təmin etmək üçün tərəfdaşlığımızı davam etdiririk. Çox sağ olun.

## NATO-nun ŞİMALİ ATLANTİKA ŞURASININ İCLASINDA İŞTİRAK

*Brüssel*

*23 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak etmişdir.*

*Şimali Atlantika Şurasının iclasında əvvəlcə NATO-nun baş katibi Yens Stoltenberq çıxış etdi. Sonra o, sözü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi. Ölkəmizin NATO-nun müxtəlif missiya və əməliyyatlarında fəal iştirak etdiyini vurğulayan prezident İlham Əliyev NATO-nun Azərbaycanda ərazilərin minalardan təmizlənməsi işində fəal iştirak etdiyini bildirdi. Qeyd olundu ki, Azərbaycan Əfqanıstandakı sülhməramlı fəaliyyətini genişləndirir və bu ölkə ilə ikitərəfli səviyyədə iqtisadi və digər sahələrdə əməkdaşlığı həyata keçirir.*

*Prezident İlham Əliyev Azərbaycan–Avropa İttifaqı münasibətlərinə toxundu, əməkdaşlığın uğurla inkişafını və onun müxtəlif sahələri əhatə etdiyini bildirdi.*

*Azərbaycanda demokratik inkişaf məsələlərinin daha da genişlənməsini qeyd edən prezident İlham Əliyev ölkəmizdə azad internet, söz, toplaşma və digər azadlıqların təmin edildiyini vurğuladı. Ölkəmizdə iqtisadi inkişaf məsələləri və bu sahədə həyata keçirilən genişmiqyaslı islahatlar barədə danışan dövlətimizin başçısı qeyd etdi ki, 2004-cü ildən Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə,*

*həmçinin işsizlik səviyyəsi 5 faizə düşüb, xarici borcumuz ümumi daxili məhsula nisbətən 20 faizdən də aşağı səviyyədədir.*

*Prezident İlham Əliyev Azərbaycanın dünyada multikulturalizm mərkəzlərindən birinə çevrildiyini, ölkəmizdə multikulturalizmin, tolerantlığın təmin olunduğunu və bununla bağlı bir sıra mühüm tədbirlərin keçirildiyini bildirdi. Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdiyini, Davos Dünya İqtisadi Forumunun ölkəmizin iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə dünya dövlətləri arasında 37-ci yerdən 35-ci yerə layiq gördüyünü qeyd etdi. Dövlətimizin başçısı təhsil, infrastruktur, nəqliyyat və digər sahələrdə əldə olunan uğurları xüsusi vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu qeyd etdi, «Cənub Qaz Dəhlizi» layihəsindən söz açdı, TANAP və TAP layihələrinin uğurla icra edildiyini qeyd etdi və Azərbaycanın uzun illər bundan sonra da Avropanın etibarlı qaz təminatçısına çevriləcəyini bildirdi. Bakı–Tbilisi–Qars dəmir yolunun əhəmiyyətini qeyd edən dövlət başçısı bu yolun Asiya ilə Avropa arasında ən qısa yol olduğunu dedi, Azərbaycanın Şimal–Cənub və Şərq–Qərb arasında mühüm tranzit qovşağına çevrildiyini vurğuladı.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə geniş toxundu, Ermənistanın ölkəmizin 20 faiz torpaqlarını – Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal etdiyini vurğuladı. Ermənilərin həmin ərazilərdə törətdikləri hərbi cinayətlər, Xocalı soyqırımı, günahsız insanların qətlə yetirilməsi və etnik təmizləməyə məruz qalması barədə ətraflı danışan dövlətimizin başçısı ATƏT-in faktaraşdırıcı missiyalarının da işğal olunmuş ərazilərdə dağıntıları qeydə aldıqlarını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnaməsi icra edilmir və Ermənistan status-kvonu saxlamaq niyyətindədir. Prezident İlham Əliyev*

*NATO-nun Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğuladı.*

*Sonra bir çox ölkələrin səfirləri çıxış etdilər və Azərbaycanın NATO-nun missiyalarında fəal rolundan danışdılar, ölkəmizin Əfqanıstana göstərdiyi yardımı və oradakı missiyada iştirakını yüksək qiymətləndirdilər, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini qeyd etdilər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxundular və münaqişənin həllinin zəruriliyini bildirdilər.*

*Sonda dövlətimizin başçısı NATO-dakı səfirlərin suallarını cavablandırdı.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ PETRO POROŞENKO İLƏ GÖRÜŞ

*Brüssel*

*23 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Brüsseldə Ukrayna Respublikasının Prezidenti Petro Poroşenko ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Ukrayna prezidenti Petro Poroşenkonun Azərbaycana səfərini xatırladaraq, bu səfərdən ötən müddət ərzində müxtəlif istiqamətlər üzrə əməkdaşlığın həyata keçirildiyini və yaxşı nəticələrin əldə olunduğunu qeyd etdi. Ukrayna dövlət başçısının Bakıya səfəri zamanı siyasi, iqtisadi, energetika, nəqliyyat, beynəlxalq təşkilatlarda əməkdaşlıqla bağlı müzakirələrin aparıldığını vurğulayan prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, ticarət dövriyyəsinin artırılması üçün lazımi addımlar atılacaq və bunun üçün yaxşı potensial mövcuddur.*

*Prezident Petro Poroşenko prezident İlham Əliyevə Ukrayna–Azərbaycan dostluq münasibətlərinə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyevlə Davosda və Bakıda keçirdikləri görüşləri məmnunluqla xatırladan prezident Petro Poroşenko həmin görüşlər zamanı əldə edilən razılaşmaların reallaşdırılmasından məmnunluğunu ifadə etdi. O, Azərbaycanın Ukraynaya ixracının artmasını iqtisadi əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «ŞƏRQ TƏRƏFDAŞLIĞI» SAMMİTİNİN PLENAR İCLASINDA «AVROPA İTTİFAQI İLƏ TƏRƏFDAŞLIQ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ƏSAS PRİORİTETLƏRİNDƏN BİRİDİR» MÖVZUSUNDA ÇIXIŞ

*24 noyabr 2017-ci il*

*Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun dəvəti ilə noyabrın 24-də Brüsseldə keçirilən «Şərq Tərəfdaşlığı» Sammitində iştirak etmişdir.*

*Dövlətimizin başçısı «Şərq Tərəfdaşlığı» Sammitinin plenar iclasında çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə demək istərdim ki, Avropa İttifaqı ilə tərəfdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Bu ilin fevralında biz yeni sazişlə bağlı fəal danışıqlara başladıq. Ümidvaram ki, bu danışıqlar tezliklə başa çatacaqdır. Bu, ölkələrimiz arasında əməkdaşlığı davam etdirmək üçün imkanlar yaradacaqdır.

Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin, demək olar ki, 50 faizini üzv ölkələrlə olan ticarət təşkil edir. Müstəqillik dövründə Avropa İttifaqından Azərbaycan iqtisadiyyatına 20 milyard dollardan çox investisiya yatırılıb. Bu bizim yaxşı investisiya mühitinə malik

olduğumuzu nümayiş etdirir. Avropa şirkətləri bizim iqtisadiyyatımızı dəstəkləmək üçün xeyli maliyyə vəsaiti yatırmağa hazırdır.

Eyni zamanda, biz üzv dövlətlərlə ikitərəfli formatda əlaqələrimizi fəal şəkildə inkişaf etdiririk. Azərbaycan Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri qəbul edib. Bu o deməkdir ki, Avropa İttifaqına üzv ölkələrin üçdəbiri Azərbaycanı strateji tərəfdaş hesab edir. Bu, gənc müstəqil ölkə üçün çox vacibdir və əlbəttə ki, biz Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək razılaşmanı strateji əlaqələrin gücləndirilməsində daha bir mühüm mərhələ hesab edirik.

Azərbaycan siyasi və iqtisadi islahatlar siyasətini davam etdirir. Biz demokratiyanın inkişafına, insan haqlarının qorunmasına böyük önəm veririk və buna ciddi şəkildə sadiqik.

Biz iqtisadiyyatımızı dəyişdiririk. Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı həm də bizim müstəqilliyimiz üçün güclü təməldir. İqtisadi cəhətdən müstəqil olanda, sözsüz ki, daha müstəqil xarici siyasət yürütmək olar. Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. 2004-cü ildən ümumi daxili məhsul 3 dəfədən çox artıb. Biz işsizlik səviyyəsini 5 faizə endirməyə nail olmuşuq. Xarici borc ümumi daxili məhsula nisbətdə 20 faizdən də aşağı səviyyədədir. Bizim yaxşı kredit reytinqlərimiz vardır. Davos Dünya İqtisadi Forumu iqtisadiyyatımızın rəqabətqabliyyətliliyinə görə ölkəmizi 35-ci yerə layiq görübdür.

Bizim üzləşdiyimiz əsas problem torpaqlarımızın Ermənistan tərəfindən işğalının davam etdirilməsidir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin, demək olar ki, 20 faizi 20 ildən çoxdur Ermənistanın işğalı altındadır. İşğal nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib və biz etnik təmizləmə siyasətinə məruz qalmışıq. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının bizim ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Onlar Ermənistan tərəfindən yerinə

yetirilmir. XXI əsrdə separatizm, təcavüzkar separatizm qəbul edilə bilməz. Separatizmin bütün formaları pislənməlidir və separatizmin bütün təzahürlərinə vahid yanaşma tətbiq edilməlidir. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi, eyni dəyərə malikdir və bərpa olunmalıdır.

Enerji siyasəti bizim Avropa təsisatları ilə yaxından əməkdaşlıq etdiyimiz məsələlər sırasındadır. Genişmiqyaslı enerji layihəsi olan «Cənub Qaz Dəhlizi» uğurla inkişaf edir. Bu layihənin dəyəri 40 milyard ABŞ dollarından artıqdır və bizə əlavə həcmdə təbii qaz hasil etməyə və bunu Azərbaycandan Avropa bazarlarına nəql etməyə imkan verəcəkdir. 3500 kilometrlik qaz xətti yeni marşrut olacaq və Avropa bazarlarına yeni mənbədən qaz nəql edəcəkdir. Bu, enerji təhlükəsizliyi siyasəti ilə bərabər, enerji şaxələndirilməsi siyasətidir, çünki Azərbaycanın qaz yataqlarından hasil ediləcək qaz Avropanın yeganə yeni təbii qaz mənbəyi olacaq və sözsüz ki, Avropa qitəsinin enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişdirəcəkdir. Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir və bu, qarşıdakı onilliklərdə Avropaya təbii qaz nəql etmək üçün yetərli olacaqdır. Azərbaycan «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsi təşəbbüsünü irəli sürdü və biz layihəyə verdiyi davamlı dəstəyə görə Avropa Komissiyasına minnətdarıq. Bu dəstək və layihənin Avropa maliyyə institutları tərəfindən maliyyələşdirilməsi onun uğurla həyata keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın qonşuları ilə birgə həyata keçirdiyi daha bir əhəmiyyətli təşəbbüs ötən ay açılışı olmuş Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən, bununla da Asiya ilə Avropa arasında yeni nəqliyyat əlaqəsini təmin edən Bakı–Tbilisi–Qars dəmir yoludur. Bu, qarşılıqlı ticarət dövriyyəsini artıracaq və bir çox ölkələrə bu layihəyə qoşulmağa imkan verəcək ən qısa nəqliyyat marşrutudur. Beləliklə, Azərbaycan Avropanı Asiya ilə dəmir yolu ilə birləşdirən ölkəyə çevrilibdir. Enerji təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi, iqtisadi inkişaf – bütün

bunlar bizim üçün vacib maraq kəsb edən və əsas prioritet olan sahələrdir.

Eyni zamanda, Azərbaycan insan kapitalına böyük sərmayə yatırıb. Savadlılıq səviyyəsi 100 faizə yaxındır və təhsilli insanlar bizim islahatlarımız üçün əsas aparıcı qüvvə, radikalizmə və dini ekstremizmə qarşı əsas qarantdır.

Azərbaycan dünyada tanınmış multikulturalizm mərkəzlərindən birinə çevrilibdir. Bu gün Azərbaycan Asiya ilə Avropa arasında yerləşən, regionumuzda dərin kökləri, Avropa ilə güclü əlaqəsi olan, Avropa dəyərlərini paylaşan bir ölkədir. Biz Avropa təsisatlarından aldığımız dəstəyə görə minnətdarıq. Əminəm ki, qarşıdakı illərdə Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq uğurla davam edəcək və tezliklə bizim qarşımızda yeni imkanlar açaraq yeni saziş imzalanacaqdır.

* * *

*«Şərq Tərəfdaşlığı» Sammitinin plenar iclası başa çatdıqdan sonra birgə foto çəkdirildi.*

*«Şərq Tərəfdaşlığı» Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində MDB ölkələri ilə münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsdür. «Şərq Tərəfdaşlığı» Azərbaycan da daxil olmaqla, Avropa İttifaqının 6 qonşu ölkəsini əhatə edir.*

*Budəfəki sammitdə Avropa İttifaqına üzv dövlətlər «Şərq Tərəfdaşlığı»na daxil olan 6 ölkənin dövlət və hökumət başçıları ilə gələcək əməkdaşlığı müzakirə etdilər. Onlar həmçinin Riqa Sammitindən sonrakı nailiyyətləri qiymətləndirdilər. Artıq «Şərq Tərəfdaşlığı»na doğru nəticələrə yönəlmiş yanaşmanı dəstəkləmək üçün Avropa İttifaqı 2020-ci ilədək əldə olunacaq 20 əsas nəticəni müəyyənləşdirib. Əsas mərhələlərin isə məhz Brüssel Sammitində müəyyənləşdirilməsi nəzərdə tutulubdur.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Brüsselə işgüzar səfəri noyabrin 24-də başa çatdı.*

**MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ**

Hörmətli cənab Prezident!

Mavritaniya İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Mavritaniya münasibətləri daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mavritaniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 noyabr 2017-ci il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İLİR METAYA**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiqəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 noyabr 2017-ci il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Ər-Rauda məscidinə silahlı hücum nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz dinc insanlara qarşı yönəlmiş bu dəhşətli terror aktından son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı ən sərt şəkildə, qətiyyətlə və ardıcıl mübarizə aparılmasını zəruri və vacib hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Misir xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 noyabr 2017-ci il*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Batumi şəhərində mehmanxanada baş vermiş yanğın nəticəsində insan tələfatı və yaralananlar barədə xəbərdən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Gürcüstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 noyabr 2017-ci il*

## TƏRTƏR RAYONUNA SƏFƏR

*28 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Tərtər rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı ümummilli lider Heydər Əliyevin Tərtər şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov son illər rayonda görülən işlər, həyata keçirilən layihələr barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyektləri tikilib, istehsal müəssisələri yaradılıbdır. Ulu öndər Heydər Əliyevin abidəsinin yerləşdiyi parkda son vaxtlar yenidən qurulma və abadlıq işləri görülüb, əhalinin istirahəti üçün hər cür şərait yaradılıb, yaşıllıq zolağı genişləndirilibdir.*

### Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunmuş yeni binanın açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Tərtər Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunmuş yeni binanın açılışında iştirak etmişdir.*

*Dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Tərtər Tarix-Diyarşünaslıq Muzeyi 1982-ci ildə fəaliyyətə başlayıb və müxtəlif illərdə köhnə, uyğunlaşdırılmış binalarda yerləşdirilibdir. Ötən il muzey üçün yeni binanın inşasına başlanılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri artıq başa çatdırılıb. İkimərtəbəli binada 2 ekspozisiya zalı vardır. Bu zal-*

*larda «Təbiət», «Arxeologiya», «Qafqaz Albaniyası», «Orta əsrlər», «Misgərlik», «XIX əsr», «Azərbaycan milli geyimləri», «Ənənəvi ev», «Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövrü», «Azərbaycan müstəqillik dövrü», «Qarabağ münaqişəsi» adlı bölmələr qurulubdur.*

*Muzeydə ümumilikdə 2000 eksponat var ki, onlardan 250-si ekspozisiya zalında nümayış olunur. Bütün bunlar onu göstərir ki, ölkədə muzey işinin təşkilində əhəmiyyətli uğurlar qazanılıb. Gənc nəslin tarixi keçmişimizə maraq göstərməsini təmin etmək, onların vətənpərvərlik ruhunda tərbiyəsi baxımından muzeylərin böyük rolunu nəzərə alaraq, bu sahədə tədbirlərin daha da gücləndirilməsinə xüsusi diqqət göstərilir. Bu məsələdə Tərtər Tarix-Diyarşünaslıq Muzeyi mühüm rol oynayır. Muzeydə 40 yerlik konfrans zalı, elmi araşdırmalar şöbəsi üçün otaq da yaradılıbdır.*

## Tərtər–Seydimli–Qaradağlı–Sarov avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Tərtər–Seydimli–Qaradağlı–Sarov avtomobil yolunun açılışı mərasimində iştirak etmişdir.*

*Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq, son illər yol infrastrukturunun yenilənməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən, indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilibdir. Bu tədbirlər ilk növbədə, Azərbaycan iqtisadiyyatının gücünü göstərməklə yanaşı, vətəndaşların həyatının yax-*

*şılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir. Belə layihələr sırasında Tərtər–Seydimli–Qaradağlı–Sarov marşrutu üzrə yaşayış məntəqələrini əhatə edən respublika əhəmiyyətli Goranboy–Tərtər avtomobil yolunun tikintisi layihəsi xüsusi əhəmiyyət daşıyır.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlət başçısına məlumat verdi ki, uzunluğu 29,5 kilometr olan Tərtər–Seydimli–Qaradağlı–Sarov avtomobil yolu üçüncü texniki dərəcəlidir. 2 hərəkət zolaqlı, hərəkət hissəsinin eni 8 metr olan yol inşa edilərkən 39,7 min kubmetr torpaq işləri görülüb, müxtəlif diametrli suötürücü borular tikilib, 14 avtobus dayanacağı yaradılıbdır. Bundan əlavə, yol üzərində işıq dirəkləri quraşdırılıb, yol nişanları və göstərici lövhələr yerləşdirilibdir. Yolun 17-ci kilometrliyində İncəçay çayı üzərində uzunluğu 34,8, eni 10,5 metrlik körpü inşa edilibdir.*

*Prezident İlham Əliyevin bu ilin iyulunda imzaladığı sərəncama əsasən tikilən Tərtər–Seydimli–Qaradağlı–Sarov avtomobil yolu 24 min nəfər əhalinin yaşadığı 20 yaşayış məntəqəsini birləşdirir.*

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

# TƏRTƏRDƏ MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN SALINMIŞ YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞINDA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Tərtər rayonunda 1170 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksində yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısının 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na prezident İlham Əliyevin 2011-ci il 21 fevral tarixli Sərəncamı ilə edilmiş əlavələrə uyğun olaraq, Tərtər rayonunda 1170 məcburi köçkün ailəsi üçün yeni yaşayış kompleksi salınıbdır.*

*Qeyd edək ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma yurdlarından didərgin salınaraq, qaçqın və məcburi köçkünə çevrilən soydaşlarımızın yeni mənzillərlə təmin olunması istiqamətində son illərdə əhəmiyyətli tədbirlər görülüb. 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,2 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İndiyədək 50 mindən çox ailənin və ya 250 mindən çox qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasına 2,3 milyard manat vəsait sərf olunub. Bu kateqoriyadan olan insanların sosial problemlərinin*

*həlli üçün indiyədək 6,6 milyard manat vəsait xərclənib. Sahibkarlığın inkişafı məqsədilə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 24 min məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən isə 2000 məcburi köçkün sahibkara 40 milyon manat güzəştli kredit verilib. Bu mikrokreditlərin əksəriyyəti kənd təsərrüfatı layihələrinə yönəldilib. Ötən dövrdə 200 min məcburi köçkün büdcə təşkilatlarında və digər sahələrdə daimi işlə təmin edilib. Bununla da məcburi köçkünlər arasında yoxsulluq həddi son 14 ildə 75 faizdən 12 faizədək azalıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət göstərir. Belə ki, bu ilin mayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən «Ümid Yaşayış Kompleksi»nin təməli qoyulub. Abşeron rayonunun Masazır, Mehdiabad, o cümlədən Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. 1170 məcburi köçkün ailəsi üçün Tərtər rayonunda inşa olunan dördmərtəbəli 34 yaşayış binasının tikintisi də başa çatdırılıbdır.*

*Prezident İlham Əliyev Ağdam rayonundan məcburi köçkün Pakizə Məmmədovanın mənzilində oldu, yaradılan şəraitlə maraqlandı.*

**P a k i z ə M ə m m ə d o v a:** Xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Sizi təbrik edirəm.

**P a k i z ə M ə m m ə d o v a:** Çox sağ olun. Bizə belə bir şərait yaratdığınıza görə çox minnətdaram.

**İ l h a m Ə l i y e v:** Şərait necədir, xoşunuza gəlir?

**P a k i z ə M ə m m ə d o v a:** Çox xoşumuza gəlir. Gələndə buralara baxdım, heç gözümə inanmadım. Allah Heydər Əliyevə qəni-qəni rəhmət eləsin. O bizə belə bir davamçı qoyub. Allah-Taala Sizi həmişə uca eləsin, bayrağımızı Xankəndidə, Şuşada, Kəlbəcərdə yüksəltsin. Mehriban xanımla bərabər, başınızın üstündən heç vaxt yaman yellər əsməsin. O da əlil uşaqlara, ahıllara şərait yaradır, bizim üçün əziyyət çəkir, çox sağ

olsun. Allah Sizə də, ona da uzun ömür versin. Allah həmişə Sizdən razı olsun. Xalqın, köçkünlərin qeydinə qaldığınıza görə çox sağ olun.

**İ l h a m Ə l i y e v:** İndi yeni, çox gözəl, yaraşıqlı mənziliniz vardır. Burada rahat yaşamaq olar.

**P a k i z ə M ə m m ə d o v a:** Çox gözəldir, çox yaxşıdır. Allah Sizə ömür versin.

*Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı Prezidentə məlumat verildi ki, 1170 mənzilin ümumi sahəsi 88000 kvadratmetrdir. Mənzillərdən 120-si bir, 504-ü iki, 472-si üç, 80-i isə dördotaqlıdır. Mənzillərə Tərtər rayonu ərazisində müvəqqəti məskunlaşmış Kəlbəcər, Ağdam, Laçın, Cəbrayıl və Şuşa rayonlarından olan məcburi köçkünlər köçürüləcəkdir.*

*Qeyd olundu ki, 50 hektarlıq torpaq sahəsində inşa edilən yeni yaşayış kompleksində zəruri infrastruktur obyektləri – məktəb, uşaq bağçası, musiqi məktəbi, inzibati bina, klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası inşa edilib. Musiqi məktəbində siniflərin hamısı musiqi alətləri ilə təchiz olunub. 280 yerlik uşaq bağçasında da balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar vardır. Müxtəlif qrupların fəaliyyət göstərəcəyi bağçada balacaların ilkin biliklərə yiyələnmələri üçün bütün tələblər nəzərə alınıbdır.*

*Yaşayış kompleksindəki məktəblə tanış olan dövlət başçısına məlumat verildi ki, bu təhsil ocağı 1200 şagird-yerlikdir. Burada şagirdlərin elmin sirlərinə yiyələnmələri üçün bütün imkanlar vardır.*

*Bildirildi ki, bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 97-ci şəhərcikdir. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib, yol, küçə və kanalizasiya şəbəkəsi yaradılıbdır. Ümumiyyətlə, indiyə qədər salınan yeni yaşayış komplekslərində 152 məktəb, 58 mədəniyyət, 59 səhiyyə müəssisəsi, 60 uşaq bağçası, 2 Olimpiya İdman*

*Kompleksi tikilib, kilometrlərlə yol, su, hava elektrik və qaz xətləri çəkilibdir.*

*Burada ermənilərin Azərbaycana qarşı ərazi iddialarını ifşa edən «Marağa–150» abidəsi barədə də məlumatlar vardır. Ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə köçürülməsini sübut edən tarixi mənbələrdən biri olan bu abidə Tərtər rayonunun Şıxarx qəsəbəsindədir və 1978-ci ildə ermənilərin özləri tərəfindən İran Marağasından Qarabağa köçürülmələrinin 150 illiyi ilə əlaqədar inşa edilibdir. XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları başlananda «Marağa–150» abidəsi ermənilər tərəfindən qəsdən dağıdılıb. Çünki bu abidə ermənilərin əzəli Azərbaycan torpağı olan Qarabağa köçürülməsinin sübutu idi. Lakin mənfur düşmənlərimizin ərazi iddialarına tutarlı cavab olan bu abidənin tarixi-siyasi əhəmiyyəti nəzərə alınaraq, o, yenidən bərpa olunub. Ermənilərin Qarabağa köçürülmələrini sübut edən, həmçinin «Marağa–150» abidəsi ilə bağlı tarixi sənəd, məlumat və fotolar arxivlərdən toplanaraq, Azərbaycan, rus və ingilis dillərində stendlər qurulubdur.*

*Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər. İdman zalı da zəruri avadanlıqlarla təchiz olunub və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan vardır. Akt zalında müxtəlif tədbirlər keçirmək mümkün olacaqdır.*

*Prezident İlham Əliyev məktəbin yeməkxanasında, o cümlədən kitabxanada yaradılan şəraitlə tanış olduqdan sonra Tərtər rayon ictimaiyyətinin nümayəndələri və məcburi köçkünlərlə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün biz Tərtər rayonunda köçkünlər üçün salınmış yeni şəhərciyin açılışında görüşürük. Burada yaşayacaq bütün köçkünləri bu gözəl hadisə münasibətilə təbrik edirəm.

Bu çox böyük layihədir, 1170 ailə bundan sonra 34 çoxmərtəbəli binadan ibarət bu şəhərcikdə rahat yaşayacaqdır. Burada 1200 şagird-yerlik bu gözəl məktəb, uşaq bağçası, musiqi məktəbi, tibb məntəqəsi tikilib. Burada rahat yaşamaq üçün bütün şərait var, infrastruktur yaradılıb – istilik, qaz, işıq, su.

Bu bir daha onu göstərir ki, köçkünlərin problemləri daim diqqət mərkəzindədir və bizim üçün prioritet təşkil edir. Bu, sayca 97-ci qəsəbədir ki, Azərbaycan dövləti köçkünlər üçün istifadəyə verir. Bu qəsəbələrdə 250 mindən çox insan evlərlə, mənzillərlə təmin edilibdir. Bu il 2300 ailə yeni mənzillərə, evlərə köçürülür, gələn il də bu proses davam etdiriləcəkdir. Gələn il ən azı 4000 köçkün ailəsi yeni mənzillərə, evlərə köçürüləcəkdir. Bu, Azərbaycan dövlətinin siyasətini göstərir. Onu göstərir ki, məcburi köçkünlərin problemlərinin həlli bizim üçün əsas məsələdir. Təsadüfi deyil ki, Dövlət Neft Fondunun ilk vəsaiti ulu öndər Heydər Əliyevin göstərişi ilə məhz köçkünlərin problemlərinin həllinə istiqamətləndirilmişdir. Bu siyasət bu gün də davam etdirilir, hər il kifayət qədər böyük vəsait nəzərdə tutulur və bu il də belədir, gələn il də belə olacaqdır. Hələ də çətin vəziyyətdə yaşayan köçkünlər var, onların problemləri də öz həllini tapacaqdır. Qeyd etdiyim kimi, gələn il ən azı 4000 ailə yeni evlərlə təmin ediləcək və beləliklə, tədricən biz bu problemi həll edəcəyik. Bu şəhərcikdə yaşayacaq köçkünlər bu günə qədər çox ağır vəziyyətdə yaşayırdılar. Kimsə kirayədə, kimsə yararsız binalarda, uşaq bağçalarında yaşayırdı. İndi onların həyatında yeni dövr başlayır və bu doğrudan da çox əlamətdar hadisədir. Onu da qeyd etməliyəm ki, bu şəhərcik qısa müddət ərzində tikilib istifadəyə verilir. Tikintinin başlanmasından heç 1 il keçməyib. Bu onu göstərir ki, bu məsələləri qısa müddət ərzində həll etmək üçün bizim kifayət qədər böyük imkanlarımız vardır.

Dövlət Neft Fondunun fəaliyyətinin bir istiqaməti də ölkə üçün ən önəmli layihələrdə maliyyə mənbəyi kimi iştirak etməkdir. Ölkəmiz üçün strateji əhəmiyyət daşıyan bir neçə layihənin maliyyə mənbəyi Dövlət Neft Fondudur. İlk növbədə, köçkünlərin

problemlərinin həlli üçün salınan qəsəbələrin mütləq əksəriyyəti Dövlət Neft Fondunun maliyyə mənbələri hesabına yaradılıbdır. Bu onu göstərir ki – mən həmişə bunu demişəm – biz Azərbaycanda «qara qızıl»ı insan kapitalına istiqamətləndiririk. Neftdən əldə edilən gəlirlər həm ölkə iqtisadiyyatının inkişafına, infrastruktur layihələrinin icrasına, eyni zamanda, sosial məsələlərin həllinə yönəldilibdir və beləliklə, bu ağır problem tədricən öz həllini tapır.

Bu il köçkünlərin həyatında digər önəmli hadisə baş veribdir. Uzun fasilədən sonra Cocuq Mərcanlı kəndinə həyat qayıdıb. Cocuq Mərcanlı kəndinin bərpası istiqamətində indi son addımlar atılır. Birinci mərhələdə biz bu il 50 evin istifadəyə verilməsini qeyd etmişik. Mən o mərasimdə iştirak etmişəm. İndi isə əlavə 100 evin tikintisi başa çatıb və tezliklə o evlərə də Cocuq Mərcanlı kəndinin sakinləri yerləşəcəklər. Orada da bütün infrastruktur yaradılıb, məktəb, tibb məntəqəsi, Şuşa məscidinin bənzəri olan məscid tikilib. Yəni Cocuq Mərcanlıya həyat qayıdıb. Cocuq Mərcanlı kəndinin bərpası xüsusi məna, rəmzi xarakter daşıyır. Onu göstərir ki, Azərbaycan xalqı və Azərbaycan dövləti heç vaxt işğalla barışmayıb və barışmayacaqdır. Uzun illər ərzində digər yerlərdə yaşayan Cocuq Mərcanlı sakinləri imkan yarandıqca öz doğma kəndinə qayıdırlar. Onlar bu arzu ilə yaşamışlar və artıq bu arzu həyatda öz əksini tapdı. Onlar bu arzuya çatdılar. Ona görə Cocuq Mərcanlının bərpası çox böyük rəmzi məna daşıyan bir hadisədir.

Cocuq Mərcanlının bərpası aprel döyüşlərinin uğurlu nəticəsi hesabına mümkün oldu. Keçən il Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək, minlərlə hektar torpağı düşməndən azad etdi və bundan sonra Cocuq Mərcanlıda yaşamaq mümkün oldu. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir, Azərbaycan əsgərinin qələbəsidir, Azərbaycan dövlətinin qələbəsidir. Biz bütün dünyaya bir daha sübut etdik ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, bunu beynəlxalq reytinqlər

də qeyd edir. Bir daha sübut etdik ki, heç vaxt Azərbaycan indiki vəziyyətlə barışmayacaq və öz ərazi bütövlüyünü bərpa edəcəkdir.

Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır, dəstəklənir və bütün beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz sözlərini demişlər. Onların arasında ən mötəbər təşkilat BMT-dir. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edibdir ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Beynəlxalq aləm bu məsələ ilə bağlı öz sözünü deyib. Tarixi ədalət də bizim tərəfimizdədir. Biz hamımız yaxşı bilirik və indi dünya da bilir ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, ermənilər bu ərazilərə XIX əsrdə köçürülmüşdür. Bunu əks etdirən bir çox tarixi sənədlər var və bu sənədlərin bir hissəsi, o hadisəni əks etdirən eksponatlar bu gün açdığım Tərtər Tarix-Diyarşünaslıq Muzeyində nümayiş etdirilir. Bu, elmi kitablarda da öz əksini tapıb. 1978-ci ildə tikilən və ermənilərin İrandan Dağlıq Qarabağa köçürülməsini əks etdirən abidə də bunu təsdiqləyir. O vaxt ermənilərin Dağlıq Qarabağa köçürülməsinin 150 illik yubileyi qeyd olunmuş və bunu əks etdirən abidə ucaldılmışdır. Münaqişə başlayan kimi ermənilər o abidəni dağıtmışlar. Ancaq axıra qədər dağıda bilməmişlər. O abidənin qalıqları tapılıb, bərpa edilib və əyani sübut kimi artıq qorunur. Bu, bütün dünyaya göstərir ki, ermənilər bu ərazidə gəlmədirlər, köçürülüblər. Necə köçürülüblər, kim tərəfindən köçürülüblər – biz bunu da yaxşı bilirik və tarix bunu təsdiqləyir. Mən deyəndə ki, Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır, bunu həmişə tarixi həqiqətə əsaslanıb deyirdim. Bizim ümumi işimiz ondan ibarətdir ki, bütün dünya bunu bilsin və artıq biz bunu görürük. Bizim səylərimiz və yorulmaz fəaliyyətimiz nəticəsində dünyada Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birmənalı fikir formalaşıbdır. Qeyd etdiyim kimi, bütün mötəbər beynəlxalq təşkilatlar Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bunu təsdiqləyən bir çox qərar, qətnamələr qəbul edilibdir. Dağlıq Qarabağın tarixi keçmişi haqqında biz bütün

dünyaya məlumatlar təqdim edirik. Bu yaxınlarda Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Zirvə görüşündə qəbul edilmiş yekun Bəyannamədə də «Şərq Tərəfdaşlığı»na üzv ölkələrin suverenliyi, ərazi bütövlüyü bir daha təsdiqlənib və dəstəklənib. Bu bizim böyük diplomatik nailiyyətimizdir. Münaqişənin həlli yolları bu tarixi həqiqətə, ədalətə və beynəlxalq hüquqa əsaslanmalıdır. Əminəm ki, belə də olacaq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Heç vaxt biz imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın.

Vaxtilə işğal edilmiş və tamamilə dağıdılmış Cocuq Mərcanlıya aprel döyüşləri nəticəsində bu il Azərbaycan vətəndaşları qayıdıblar. Vaxtilə işğal altında olmuş bu ərazidə bu gün, bax, bu gözəl şəhərcik salınıb. Bu bir daha onu göstərir ki, biz öz torpağımızda yaşayırıq, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycana məxsus olan ərazidir, torpaqdır. İndi biz sizinlə bu torpaqda – işğalçılardan azad edilmiş torpaqda görüşürük. Burada Azərbaycan bayrağı dalğalanır və bu torpaqlarda Azərbaycan vətəndaşları yaşayacaq

Mən Tərtər rayonuna müntəzəm olaraq gəlirəm. Keçən il 2 dəfə gəlmişdim. Keçən il içməli su layihəsinin açılışını birlikdə qeyd etmişik. Şadam ki, bu layihə indi Tərtər sakinlərinə gözəl xidmət edir. İndi şəhər əhalisi içməli su ilə tam təmin olunub, bir neçə kəndə də içməli su xətti çəkilibdir. Bu çox gözəl layihədir, gözəl hadisədir. Eyni zamanda, digər infrastruktur layihələri də uğurla icra edilir. Qazlaşdırılma artıq 94 faizə çatıbdır və əminəm ki, yaxın gələcəkdə Tərtərin bütün yaşayış məntəqələri qazla tam təmin ediləcəkdir. Elektrik enerjisi ilə problem yoxdur. Kənd yolları salınır. Bir yolun açılışını bu gün qeyd etdik. Artıq bir neçə kənd yolu layihəsi icra edilibdir. Gələn il də bir neçə kəndi birləşdirən yolların salınması nəzərdə tutulubdur. Bir sözlə, əminəm ki, gələn ilin sonuna qədər Tərtər rayonunun kəndlərinin mütləq əksəriyyəti gözəl yollarla təmin ediləcəkdir. Sənaye istehsalı, sosial məsələlər öz həllini tapır. Gözəl xəstəxana, Gənclər

Mərkəzi, Şahmat məktəbi tikilibdir. Bu gün Tarix-Diyarşünaslıq Muzeyi açıldı.

Tərtərdə kənd təsərrüfatı uğurla inkişaf edir. Pambıqçılıq bərpa edilir. Onu da qeyd etməliyəm ki, mənə mütəmadi olaraq pambıq yığımı ilə bağlı məlumat verilir. Görürəm ki, Tərtər rayonu məhsuldarlığa görə birinci yerdədir. Bu çox gözəl hadisədir. Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm.

Pambıqçılığın ənənələri bərpa edilir. Gələcəkdə daha da böyük ərazidə kənd təsərrüfatı məhsulları yetişdiriləcəkdir. Bu həm məşğulluq deməkdir, həm də maddi rifahı yaxşılaşdıran təşəbbüsdür. Biz hamımız yaxşı bilirik ki, ulu öndər Heydər Əliyevin dövründə pambıqçılıq nə qədər inkişaf etmişdi. Əfsuslar olsun ki, ondan sonra biz, demək olar, bu sahəni itirdik, indi isə bərpa edirik. Biz 2 il ərzində çox böyük uğurlara imza atdıq. Əgər 2015-ci ildə təqribən 30 min ton pambıq yığılmışdırsa, artıq bu gün – hələ ki, yığım davam edir, ilin sonuna qədər davam edəcəkdir – 190 min tondan çox pambıq tədarük olunub. Planlarımız isə ondan ibarətdir ki, biz istehsalı artıraq, xüsusilə məhsuldarlıq hesabına. Hesab edirəm ki, Tərtər zəhmətkeşlərinin təcrübəsi digər bölgələrdə də tətbiq olunmalıdır. Çünki hər bir rayonda məhsuldarlıq heç də sizdə olduğu kimi deyil. Ona görə burada görülən aqrotexniki tədbirlər, suvarma və texnikadan istifadə ilə bağlı təcrübə gərək təhlil edilsin və məhsuldarlığı az olan rayonlara tövsiyə kimi göndərilsin. Mən bu tapşırığı verirəm. Düzdür, indi plan yoxdur, ancaq hədəf vardır. Çox şadam ki, Tərtər o hədəfə artıqlaması ilə çatdı. Tərtər hədəfi təqribən 25 faiz səviyyəsində üstələdi. Bu çox sevindirici haldır. Kənd təsərrüfatının digər sahələrində də yaxşı nəticələr vardır.

Bir sözlə, bu gün Tərtər rayonu uğurla inkişaf edir. Sosial-iqtisadi inkişaf göz qabağındadır. Düşmənlə üz-üzə dayanan tərtərlilər həmişə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində xüsusi rol oynamışlar.

Bu gün eyni zamanda, mən yeni tikilmiş hərbi hissənin açılışında da olacağam. Azərbaycanın hərbi qüdrəti gündən-günə artır.

Qeyd etdiyim kimi, bizim ordumuz beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır. Ordumuzun bütün ehtiyacları təmin edilir. Ən müasir silahlar, texnikalar alınır, şəhərciklər salınır, infrastruktur, hərbi bazalar yaradılır. Əlbəttə, bir daha qeyd etmək istəyirəm ki, Tərtər və tərtərlilər düşmənlə üz-üzə ön xətdə möhkəm dayanıblar.

Sizi bir daha salamlayıram və belə gözəl hadisə münasibətilə təbrik edirəm.

* * *

**İ l q a r  Q a s ı m o v** (*Ağdərə rayonundan məcburi köçkün)*: Cənab Prezident, mən Sizi bu yeni qəsəbəyə köçürüləcək məcburi köçkünlər, soydaşlarım və bütün qarabağlılar adından səmimi-qəlbdən salamlayıram. Bu qəsəbənin ətrafında gördüyünüz o yüksəkliklərdən – 2016-cı ilin aprel zəfəri zamanı azad olunmuş Talış kəndi ətrafındakı və ona paralel digər yüksəkliklərdən – Keçəldağ, Murovdağ yüksəkliklərindən bu qəsəbə ovuc içi kimi görünür. Bizim mənfur düşmənlərimiz orada kol-kos arasından bizi görürlər. Siz burada onların gözü qarşısında bir dağ ucaltmısınız, göz dağı ucaltmısınız.

Ümumiyyətlə, Sizin Azərbaycana rəhbərliyiniz dövründə ailə üzvlərinizlə, Birinci vitse-prezident Mehriban xanımla ölkəmizin iqtisadiyyatının, sənayesinin, kənd təsərrüfatının inkişafı ilə bağlı birlikdə gördüyünüz qiymətli işlər dövlətimizin gələcəyinin təmin olunmasına yönəldilibdir.

Mənim diqqətimi bu yaxınlarda Belçikanın Brüssel şəhərində iki məqam cəlb etdi. Birincisi, Birgə Bəyannamənin qəbul olunduğu Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Sammiti, ikincisi isə NATO-nun toplantısı idi. Hər iki tədbirdə Siz israrla «Azərbaycanda ikinci erməni dövləti yaradılmayacaq» ifadəsini işlətdiniz. Cənab Prezident, mən fəxr edirəm ki, ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə xaricdə təhsil almışam. Onun tövsiyəsi ilə Azərbaycana – öz doğma yurduma qayıtmışam. Bu gün o biliklərimdən istifadə edərək, Sizin qarşınızda çıxış edirəm.

Baxın, mənfur düşmənlərimizin torpaqlarımızda yaratmağa çalışdıqları qondarma «Dağlıq Qarabağ respublikası»nın uydurma «gerb»ində qartal caynağında pilləkən şəkli vardır. Bunun mənası aydındır. Onlar pillə-pillə, pilləkən-pilləkən kiminsə torpaqlarında özlərinə dövlət qurmaq istəyirlər. Amma Siz əvvəlcə Cocuq Mərcanlını, bu gün dayandığımız Ağdərə torpağını pillə-pillə tikərək, quraraq, Qarabağa doğru irəliləyirsiniz. Onlar şəkildə, Siz isə əməldə. Fərq, bax, bundan ibarətdir.

Cənab Prezident, Allah bir insanı cəzalandırmaq istəyəndə əvvəlcə onun ağlını alır. Ağlı alınmış insan isə özünə elə cəza verir ki, yeni cəzaya ehtiyac qalmır. Ermənilər qara əllərini Qarabağa uzadanda Allah-Taala onların ağlını almışdı. İndi qalıblar Qarabağda – nə qaça, nə də qala bilirlər. Bax, məsələ budur.

Bir azərbaycanlı kimi, iki məqamı da nəzərinizə çatdırmaq istəyirəm. Siz bütün ilboyu Birinci vitse-prezidentimizlə birlikdə açılışlar edirsiniz, əlinizdə qayçı lentlər kəsirsiniz. Bəzən qəsəbələrə, kəndlərə, rayonlara çəkilmiş yeni yollarda asfaltın keyfiyyətini öz xidməti avtomobilinizlə yoxlayırsınız. Bu mənə şəxsən qürur verir. Mənim bir arzum var – Siz işğaldan azad olunacaq bütün rayonlarımızda – Şuşada, Laçında, Xankəndidə, Kəlbəcərdə lentlər kəsəsiniz. Arzu edirəm ki, öz avtomobilinizlə Şuşa yolunun keyfiyyətini yoxlayasınız. Diqqətinizə görə sağ olun.

**Tofiq Hacıyev** (*Tərtər sakini*): Möhtərəm cənab Prezident, mən də tərtərlilər adından Sizi salamlayır, Sizə «Xoş gəldiniz!» – deyirəm. Sizin hər dəfə Tərtərə gəlişiniz hamımızı sevindirir. Cənab Prezident, Siz tərtərlilər üçün çox iş görmüsünüz. Onların firavan yaşamaları üçün hər şəraiti yaratmısınız. Bizim gözəl məktəblərimiz, abad yollarımız, daimi içməli suyumuz, işığımız, qazımız vardır.

Tərtərin cəbhə bölgəsində yerləşməsinə baxmayaraq, tərtərlilər özlərini çox sərbəst hiss edirlər. Onlar bir an da olsun öz əmək fəaliyyətlərindən, təsərrüfat işlərindən əl götürmürlər. Çünki onlar

Sizə, aprel döyüşlərində öz qüdrətini sübut etmiş, Ali Baş Komandanı olduğunuz şanlı Azərbaycan Ordusuna inanırlar. Bütün bunlara görə biz tərtərlilər Sizə minnətdarıq.

Çox sağ olun. Allah Sizi qorusun.

### «N» saylı hərbi hissədə yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Tərtər rayonu ərazisində yerləşən «N» saylı hərbi hissədə yaradılan şəraitlə tanış olmuşdur.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Bu gün Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz inkişaf dövrünü yaşayır. Orduda həyata keçirilən islahatların nəticəsidir ki, Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur. Hərbi hissələrin əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədədir. Ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi ilə bağlı birlik və birləşmələrin çoxlu sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub və ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilib. Ən əsası isə həmin təlimlərdə Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı istənilən vaxt qaytarmaq əzmində olduğunu nümayiş etdiribdir.*

*Torpaqlarımızın qorunması və ərazi bütövlüyü uğrunda bu hərbi hissənin şəxsi heyəti də yüksək fədakarlıq göstərib. Onlarla hərbi qulluqçu yüksək fəxri adlara, o cümlədən 8 hərbi*

*qulluqçu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Hərbi hissəyə 2004-cü ildə Ali Baş Komandan tərəfindən döyüş bayrağı təqdim edilibdir.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi hissədə yaradılan şəraitlə tanış oldu. Dövlət başçısına məlumat verildi ki, 6 hektar ərazisi olan hərbi hissədə qərargah binası, 3 əsgər yataqxanası, 360 nəfərlik əsgər yeməkxanası, müxtəlif təyinatlı anbarlar, məişət otaqları və digər infrastruktur bölmələri, 100 maşınlıq avtomobil parkı yerləşir.*

*Müdafiə naziri Zakir Həsənov cəbhədəki əməliyyat şəraiti barədə prezident, Ali Baş Komandan İlham Əliyevə ətraflı məlumat verdi.*

*Bu hərbi hissənin timsalında biz ordumuzda yaradılan yüksək şəraitin şahidi oluruq və bu şərait də öz növbəsində, Azərbaycan Silahlı Qüvvələrinin hər zaman öz döyüşkən ruhunu qorumasına imkan verir. Bunu 2016-cı ildə cəbhədə baş verən hadisələr də göstərdi. Azərbaycan qoşunlarının mövqelərini dağıdıcı silahlardan, ağır artilleriyadan atəşə tutan düşmən layiqli cavabını aldı. Bu döyüş Azərbaycan Ordusunda yüksək mənəvi-psixoloji hazırlığın olduğunu üzə çıxardı. Aprel döyüşünün ən mühüm nəticəsi həm də ondan ibarət oldu ki, Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. Aprel döyüşləri münaqişənin həlli dövründə dönüş məqamı idi. Bütün Azərbaycan cəmiyyətində ruh yüksəkliyinə səbəb olan bu hadisələr bir daha göstərdi ki, xalqımız torpaqlarımızın itirilməsi ilə barışmayıb və heç vaxt da barışmayacaqdır. Bu hadisələr bir daha təsdiqlədi ki, Azərbaycanın danışıqlar masasında mövqeyi hər zaman prinsipiallığa əsaslanıb və bu belə də davam edəcəkdir. Bu prinsipiallıq Azərbaycan Ordusunun güclənməsindən keçir. Artıq neçə illərdir ki, bununla bağlı həyata keçirilən islahatlar öz bəhrəsini verir, Silahlı Qüvvələrin döyüş qabiliyyəti gücləndirilir, ordumuzda vətənpərvərlik ruhu bu gün ən yüksək səviyyədədir. Bununla da millətimizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özü-*

*nütəsdiq imkanı olan Azərbaycan Ordusu xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın Silahlı Qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır.*

## AĞCABƏDİ RAYONUNA SƏFƏR

*28 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Ağcabədi rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı ümummilli lider Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Ağcabədi şəhərində ümummilli lider Heydər Əliyevin abidəsinin ətrafında və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə prezident İlham Əliyevə məlumat verildi. Bildirildi ki, son dövrlərdə Ağcabədidə abadlıq-quruculuq işləri geniş vüsət alıbdır.*

### Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Ağcabədidə Bayraq Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycanda dövlət atributlarına hörmət və ehtiram ulu öndər Heydər Əliyevin xalqımıza ən böyük əmanətidir. Prezident İlham Əliyevin yürütdüyü siyasətdə də millilik, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi xüsusi yer tutur. Bu baxımdan bölgələrdə də müvafiq tədbirlər görülür. Paytaxtımızla yanaşı, ölkənin bütün bölgələrində üçrəngli bayrağımızın şərəfinə meydanlar, muzeylər yaradılır və xüsusi layihələr həyata keçirilir. Bu gün hər bir azərbaycanlı Dövlət bayrağını özünün qürur mənbəyi və and yeri hesab edir. Azərbaycan bayrağı dövlətimizin suverenliyinin rəmzlərindən biri, milli-*

*mənəvi dəyərlərimizə və ümumbəşəri ideallara sadiqliyimizin təcəssümüdür. Məhz ölkəmizdə dövlət bayrağına ehtiram bəslənməsi ilə bağlı aparılan məqsədyönlü və kompleks işlərin məntiqi nəticəsi olaraq, indi Azərbaycanın üçrəngli bayrağı müxtəlif mötəbər beynəlxalq tədbirlərdə, o cümlədən ən nüfuzlu idman yarışlarında yüksəklərdə dalğalanır. Bu da Azərbaycan dövlətinin gücünün və durmadan artan nüfuzunun əyani göstəricisidir. Təqdirəlayiq haldır ki, hər bir azərbaycanlı Vətənimizin bayrağının əbədiliyi və daim ucalarda dalğalanması naminə əlindən gələni əsirgəmir. Ağcabədi rayonunda bir il ərzində tikilmiş Bayraq Muzeyi də Dövlət bayrağımızın tarixi haqqında dolğun məlumatlarla zəngindir.*

*Dövlət başçısı muzeydə yaradılan şəraitlə tanış oldu.*

*Muzeyin sərgi zalında ümumilikdə 3 bölmə yaradılıb. Burada Azərbaycanda xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçülərin geyimləri, müxtəlif dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin bayraqları, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid sənədlər, Azərbaycan SSR-in və müstəqil respublikamızın konstitusiyaları, dövlət atributları, ulu öndərimizin dövlət rəmzləri haqqında kəlamları, poçt markaları, orden və medallar nümayiş olunur. Muzeyin ikimərtəbəli binasında akt və konfrans zalları, elektron kitabxana və digər inzibati otaqlar yaradılıbdır.*

*Yeni muzeyin yerləşdiyi Bayraq Meydanı da gözəlliyi ilə diqqəti cəlb edir. Son vaxtlar meydan genişləndirilib, burada yenidən qurulma işləri görülüb. Meydanda hündürlüyü 65 metr olan bayraq dirəyinin postament hissəsi abadlaşdırılıb, ətrafda yaşıllıq zolaqları salınıbdır. Burada quraşdırılan yeni işıqlandırma sistemi və fəvvarə ərazinin gözəlliyini daha da artırıbdır.*

## Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı təmirdən sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Ağcabədidə Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.*

*Azərbaycan Prezidenti muzeydə yaradılan şəraitlə tanış oldu. Respublikamızın bölgələrində yeni yaradılan və ya əsaslı şəkildə yenidən qurulduqdan sonra istifadəyə verilən Tarix-Diyarşünaslıq muzeyləri tarixi keçmişimizə həssas münasibəti əks etdirir. Bu, dövlət siyasətinin tərkib hissəsidir. Tarixi abidələrin, müqəddəs məkanların bərpası, yeni muzeylərin, mədəniyyət mərkəzlərinin tikilməsi milli-mənəvi dəyərlərimizə hörmət və ehtiramın təzahürüdür. Təqdirəlayiq haldır ki, bu proses ölkəmizin bütün regionlarını əhatə edir.*

*Azərbaycanın bölgələrindəki Tarix-Diyarşünaslıq muzeylərinin əsaslı şəkildə yenidən qurulması qədim tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Belə muzeylərdə həm ölkəmizin, həm də müxtəlif rayonların tarixini əks etdirən çoxlu sayda eksponat toplanır. Azərbaycan tarixinin əsrlərin dərinliklərindən qaynaqlanan izlərini yaşadan belə muzeylərin başlıca üstünlüklərindən biri də ölkəmizin bölgələrinə xas mədəniyyət elementlərinin qorunub saxlanılması ilə bağlıdır. Prezident İlham Əliyev qədim və zəngin mədəniyyət abidələrimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyan Tarix-Diyarşünaslıq muzeylərinin yaradılmasına xüsusi diqqət yetirir. Bu bir daha Azərbaycan dövlətinin milli-mənəvi dəyərlərimizə sadiqliyini əyani şəkildə nümayiş etdirir. Ağcabədidəki Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı şəkildə yenidən qurulması da bu həqiqəti təsdiq edən amillərdən biridir.*

*Binada yaradılan şəraitlə tanışlıq zamanı bildirildi ki, bu muzey 1980-ci ildən fəaliyyət göstərir. Mədəniyyət və Turizm*

*Nazirliyinin sifarişi ilə əsaslı surətdə yenidən qurulan ikimərtəbəli binanın birinci mərtəbəsində fond otaqları, dəftərxana və digər inzibati otaqlar vardır. Burada, həmçinin 60 yerlik konfrans zalı da yaradılıbdır. İkinci mərtəbə isə ekspozisiya zallarından ibarətdir. Ekspozisiya zallarında «Təbiət», «Arxeologiya», «Etnoqrafiya», «Azərbaycan SSR dövrü», «Azərbaycan müstəqillik dövrü» və «Görkəmli şəxsiyyətlər» adlı 6 bölmə vardır.*

*Muzeydə saxlanılan 4782 eksponatdan 360-ı ekspozisiya zalında nümayiş olunur. Əsasən rayon ərazisindən tapılmış və bərpa olunmuş bəzi sənətkarlıq nümunələri, döyüş ləvazimatlarının qalıqları, milli adət-ənənələrimizi əks etdirən ekspozisiyalar qədim keçmişimiz və mədəniyyətimiz barədə dolğun təsəvvür yaradır. Bütövlükdə şanlı tariximizin gənclərə dərindən öyrədilməsi və gələcək nəsillərə çatdırılması baxımından belə muzeylərin müstəsna əhəmiyyəti vardır. Belə muzeylər həm də Azərbaycan tarixinin zənginliyini bir daha nümayiş etdirir.*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 4 saylı Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Ağcabədidə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 4 saylı Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Azərbaycan Prezidenti Körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi sosial-iqtisadi siyasətdə uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə dövlətin gördüyü işlərə Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun ölkəmizdəki məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması, yeni, müasir uşaq müəssisələrinin inşası sahəsindəki fəaliyyəti bu ba-*

*xımdan vacib əhəmiyyət daşıyır. Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etməsi «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» proqramından da görünür. Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb və mühüm nəticələr əldə edilibdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağcabədidə inşa olunan Körpələr evi-uşaq bağçası bir daha aydın göstərir ki, Fondun həyata keçirdiyi belə layihələr ardıcıl xarakter alıb və artıq respublikanın bütün bölgələrini əhatə edir.*

*Dövlət başçısı Körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış oldu.*

*Üçmərtəbəli bu yeni uşaq tərbiyə müəssisəsi 100 yerlikdir. Müasir səviyyədə və yüksək keyfiyyətlə inşa edilən binadakı otaqlar bütün zəruri avadanlıq, o cümlədən uşaqlarla işləmək üçün lazımi inventar və oyuncaqlarla təmin edilibdir. Burada uşaqların bilik və bacarıqlarının üzə çıxarılması üçün hərtərəfli imkanlar yaradılıb. Məşğələ otaqlarında uşaqlar ilkin yazı, rəsm və oxu vərdişlərinə yiyələnəcəklər. Körpələr evi-uşaq bağçasında 2 kompüter otağı fəaliyyət göstərəcək. Balacaların qidalanması və istirahəti üçün də burada gözəl şərait yaradılıb. Bina bütün zəruri sosial infrastrukturla tam təchiz edilib. Burada təhlükəsizliyin təmin edilməsi məqsədilə müşahidə kameraları da quraşdırılıb. Körpələr evi-uşaq bağçasının həyatində balacalar üçün maraqlı attraksionlar quraşdırılıb, yaşıllıq zolağı salınıbdır.*

## QEYDLƏR

**1. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 5– 29, 65, 69, 78, 116, 119, 153, 185–187, 259, 296, 305–309, 326.

**2. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, erməni işğalçıları hələ də

Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. – 6, 7, 15, 16, 19, 20, 21, 29–30, 36, 69, 79, 91, 92, 104, 136, 142, 147, 148, 173, 174, 209, 253, 259, 288, 290, 296, 298, 302, 303, 317, 320, 323, 324.

**3. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 6, 13, 18, 69, 91, 147, 302.

**4. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 6, 7, 20, 29–30, 74, 173, 288, 298, 299.

**5. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən

hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 6, 91, 260, 302.

**6. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 6, 29, 69, 91, 136, 147, 148, 253, 259, 298, 300, 306.

**7. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 9.

**8. Beynəlxalq Valyuta Fondu** (BVF) – beynəlxalq valyuta-maliyyə təşkilatı, BMT-nin ixtisaslaşmış orqanı. BMT-nin Bretton-Vudsda keçirilən konfransının qərarına əsasən (1944) yaradılıb, 1947-ci ildən əməliyyatlara başlayıb. Mənzil-qərargahı Vaşinqtondadır. 189 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədə 2500 nəfərdir. Kvotaların ümumi həcmi 383 milyard dollardır. Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 milyard dollardır.

BVF-nin maliyyə resursları üzv ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan

kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir. 1992-ci ildən Azərbaycan Respublikası BVF-nin üzvüdür. – 9.

**9. Avropa Yenidənqurma və İnkişaf Bankı** – Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 9.

**10. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 9, 39, 40, 92, 199, 254, 302.

**11. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 10, 22, 171–172, 230.

**12. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 10, 16, 17, 50, 61, 63, 68, 112, 172, 194, 196, 260, 306.

**13. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 10, 22, 110–140, 175–178, 204, 313.

**14. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 17, 22, 58–72.

**15. Türkiyə,** T ü r k i y ə  C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 10, 22, 86–94, 100–101, 110–140, 175–178, 204.

**16. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 14, 18, 20, 21, 240 25, 26, 258.

**17. Helsinki Yekun aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 15, 20.

**18. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 17, 29–30, 169–170, 173–174, 230.

**19. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Company of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 16, 37, 193, 196, 197, 198, 199, 202–205, 211–214.

**20. Almaniya,** A l m a n i y a  F e d e r a t i v  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 18.

**21. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 20, 23, 24, 26, 27.

**22. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. – 25.

**23. Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) –** insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın reallaşdırılması məqsədilə Avropa Şurasının (1959) yaratdığı məhkəmə orqanı, iqamətgahı Strasburqda yerləşir. Məhkəmə dövlətlərin müraciətini və Konvensiyanın iştirakçı dövlətlərində onun müddəalarının ehtimalı pozulması ilə əlaqədar fərdi ərizələri nəzərdən keçirir. Məhkəmə qərarlarının yerinə yetirilməsinə nəzarəti AŞ-nın Nazirlər Komitəsi həyata keçirir.

Azərbaycan Respublikası Avropa Məhkəməsinin məcburi yurisdiksiyasını qəbul etmişdir. – 25–26.

**24. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqa-

mətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 21, 69, 91, 94, 147, 258.

**25. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 22, 29– 30, 51–57, 114, 143–144, 146–159, 163–165, 191, 286–288.

**26. Avrasiya İqtisadi İttifaqı** – Belarus, Qazaxıstan və Rusiya tərəfindən 2014-cü il oktyabrın 9-da yaradılmış siyasi və iqtisadi təşkilat. İttifaq 2015-ci il yanvarın 1-dən fəaliyyətə başlamışdır. – 27.

**27. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 29–30, 179, 193.

**28. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü, mediamaqnat. 2017-ci ildən ABŞ-ın 45-ci prezidentidir. – 30, 179.

**29. İspaniya,** İ s p a n i y a K r a l l ı ğ ı – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 506 min km$^2$, əhalisi 47,3 milyon nə-

fərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Kortеslərdir (ikipalatalı parlament – Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 31.

**30. VI Felipe** (d.1968) – 2014-cü ildən İspaniya kralıdır. – 31.

**31. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, 1994-cü ilin əvvəlində Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma torpaqlarına qayıtmışlar. – 35, 92, 209, 322.

**32.** «**Şahdəniz-2**» – Xəzər dənizində çox zəngin qaz yatağı. Burada ilk qazın hasilatına 2018-ci ildə başlanılmış, 2019-cu ildə isə 2 milyard $m^3$ qazın çıxarılması nəzərdə tutulur. *bp*-nin ən böyük layihəsidir. Bu yataqdan qazın Gürcüstan və Türkiyə ərazisi ilə Avropa ölkələrinə nəql edilməsi üçün mövcud infrastrukturun genişləndirilməsi və yeni qaz kəmərlərinin inşa edilməsi nəzərdə tutulur. – 37, 112.

**33.** «**Azəri–Çıraq–Günəşli**» **–** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat

Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 37, 50, 198, 203, 207, 208, 213, 234, 260, 261.

**34. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 38, 50, 63, 68, 102, 110–140, 175–178, 199, 210, 234, 261, 302.

**35. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 39, 51–57, 80–84, 147, 231, 308.

**36. Sergey Lebedev** (d.1948) – Rusiyanın dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidmətinin direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 52.

**37. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 52, 55, 56, 143–144, 146–159, 287, 288.

**38. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 54, 65, 69, 295–303, 326.

**39. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min $km^2$, əhalisi 9 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı

prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 55, 110–140.

**40. Emoməli Rəhmon,** E m o m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 55.

**41. Türkmənistan,** T ü r k m ə n i s t a n  R e s p u b l i k a- s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min $km^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 55, 96, 110–140.

**42. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 55, 96.

**43. Valentina Matviyenko** (d.1949) – Rusiyanın dövlət xadimi. 2003–2011-ci illərdə Sankt-Peterburq şəhərinin meri, 2011-ci ildən Rusiya Federasiyası Federal Şurasının və MDB Parlamentlərarası Assambleyası Şurasının Sədridir. – 56.

**44. Rumen Radev** (d.1963) – Bolqarıstanın hərbi və siyasi xadimi, general-mayor. Bolqarıstanın Hava Qüvvələrinin komandanı, 2017-ci ildən Bolqarıstan Respublikasının Prezidentidir. – 58–72.

**45. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva

Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif

edilmişdir. – 58, 59, 67, 72, 110, 128, 168, 169, 170, 228, 229, 230, 318, 326.

**46. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 66, 68, 72, 205, 226.

**47. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 67, 71, 229, 226, 230.

**48. İpək yolu**, b ö y ü k  İ p ə k  y o l u – beynəlxalq tarixi tranzit ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və

İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 70, 113, 116, 120, 121, 177.

**49. Şah İsmayıl Xətai** (1487–1524) – Azərbaycan Səfəvilər dövlətinin banisi; dövlət xadimi, sərkərdə və şair. 1501-ci ilin payızında Təbrizə daxil olan I Şah İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olmaqla, Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. I Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi.

I Şah İsmayıl «Xətai» təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində şeirlər yazmışdır. – 71.

**50. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici ha-

kimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 74, 204.

**51. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 78–79.

**52. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 78, 79.

**53. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 86, 89–94, 100, 115–117, 128, 129–140, 175–178.

**54. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 87–88, 89–94, 105–106, 113, 141–159, 247.

**55. Eshaq Cahangiri** (d.1957) – İran İslam Respublikasının dövlət xadimi. 1997–2005-ci illərdə İranın Sənaye və Mədənlər naziri olmuşdur. 2013-cü ildən İran İslam Respublikasında vitse-prezident vəzifəsində çalışır. – 87–88, 89–94.

**56. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 89–94.

**57. Şahid Xaqan Abbasi** (d.1958) – Pakistanın siyasi xadimi. 2017-ci ildən Pakistan İslam Respublikasının Baş naziridir. – 89–94.

**58. İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1985-ci ildə Türkiyə, İran və Pakistan tərəfindən yaradılıb. Bu təşkilatın əsas məqsədi üzv ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək, iqtisadi və sosial sahələrdə əlaqələri gücləndirməkdir. Mənzil-qərargahı Tehranda yerləşir. – 89–94, 147.

**59. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 95.

**60. Aleksandr Van der Bellen** (d.1944) – avstriyalı iqtisadçı və siyasətçi. 2017-ci ildən Avstriya Respublikasının Federal Prezidentidir. – 95.

**61. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq

Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 98–99, 113, 115, 119, 124, 176.

**62. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 98–99.

**63. Binəli Yıldırım** (d.1955) – Türkiyənin siyasi xadimi, 2015–2016-cı illərdə Nəqliyyat naziri, 2016–2018-ci illərdə isə Baş nazir olmuşdur. 2018 iyul – 2019 fevral aylarında Türkiyə Böyük Millət Məclisinin Sədri olmuşdur. – 101, 124–125.

**64. Eldar Əzizov,** E l d a r Ə z i z o ğ l u (d.1957) – tarixçi. 2000–2003-cü illərdə Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin, 2003–2011-ci illərdə Gəncə, 2011–2015-ci illərdə Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı, 2015–2018-ci illərdə Bakı şəhəri İcra Hakimiyyəti başçısının müavini, 2018-ci il noyabrın 15-dən Bakı şəhər İcra Hakimiyyətinin başçısıdır. – 107.

**65. Əlcəzair,** Ə l c ə z a i r X a l q D e m o k r a t i k R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 2,38 milyon km$^2$, əhalisi 40,4 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 109.

**66. Əbdüləziz Buteflika** (d.1937) – Əlcəzairin dövlət xadimi, 1999-cu ildən Əlcəzair Respublikasının Prezidentidir. – 109.

**67. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici

orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur–Sultan şəhəridir. – 110–140, 175, 176, 282–283.

**68. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 110–140, 175, 284–285.

**69. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. –

**70. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 122, 284, 285.

**71. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 126, 219.

**72. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 km$^2$, əhalisi 82,5

min nəfərdir. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Qədim, Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olmuşdur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 126, 139, 251, 252.

**73. Şahin Mustafayev,** Ş a h i n A b d u l l a o ğ l u (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 133, 277.

**74. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 134, 328, 329.

**75. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 134.

**76. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 134.

**77. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 111, 112, 138, 194, 200.

**78. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 142, 146–159, 247.

**79. Seyid Əli Xamenei** (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının Ali dini rəhbəridir. – 145.

**80. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul Zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 147.

**81. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 160.

**82. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbay-

can Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin ses-

siyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 162, 165, 166, 167, 168, 180, 182, 191, 192, 193, 194, 196, 202, 207, 213, 216, 221, 227,240, 250, 251, 253, 269, 289, 314, 318, 321.

**83. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i k a- s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 188–189, 295.

**84. Məhəmməd Qani,** Ə ş r ə f Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 188, 189.

**85. «Əsrin müqaviləsi» –** 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 192, 193, 203, 213.

**86. Xoşbəxt Yusifzadə,** Xoşbəxt Bağı oğlu (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2016-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2016-cı ildən isə birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 193, 211–214.

**87.** ***bp,*** «British Petroleum» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 195, 196, 206–209.

**88. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğlu (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003–2005-ci illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru olmuşdur. 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 202–205.

**89. Bakı Ali Neft Məktəbi** (BANM) – Azərbaycanda dövlət ali təhsil müəssisəsi. 2011-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibində yaradılmışdır. Bu ali məktəb beynəlxalq standartlara uyğun ən müasir tədris proqramları və tədris texnologiyaları əsasında sənayenin müasir tələblərinə cavab verən yüksəkixtisaslı mütəxəssislər hazırlayır.

BANM 3 ixtisas üzrə – Neft-qaz mühəndisliyi; Kimya mühəndisliyi; Proseslərin avtomatlaşdırılması mühəndisliyi üzrə mütəxəssislər hazırlayır. – 209–211.

**90. Vüqar Həşimov,** Vüqar Qasım oğlu (1986–2014) – Azərbaycan şahmatçısı, beynəlxalq qrossmeyster, üçqat

Azərbaycan çempionu. 2009-cü ildə Azərbaycan yığmasının heyətində Avropa çempionu olmuşdur. 2011-ci ildə İtaliyada keçirilən «Recco-Emiliya» şahmat turnirinin qalibi olmuşdur. – 216.

**91. Teymur Rəcəbov** (d.1987) – Azərbaycan şahmatçısı, beynəlxalq qrossmeyster. 14 yaşında ikən dünyanın ən gənc qrossmeysteri olmuşdur. 2004-cü ildə FIDE dünya çempionatında yarımfinala qədər yüksəlmişdir. – 218, 220.

**92. Şəhriyar Məmmədyarov,** Şəhriyar Həmid oğlu (d.1985) – Azərbaycan şahmatçısı, beynəlxalq qrossmeyster. 20 yaşadək şahmatçılar arasında ikiqat dünya çempionu tituluna sahib olan yeganə şahmatçıdır. 2017-ci ilin may ayında dünya şahmatçıları arasında «2800 Elo» reytinq balını keçmiş 13-cü şahmatçı olmuşdur. – 218, 219–220.

**93. Üzeyir Hacıbəyli,** Üzeyir Əbdülhüseyn oğlu (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 222.

**94. Fikrət Əmirov,** Fikrət Cəmil oğlu (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı, instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. – 222.

**95. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. – 222.

**96. Niyazi,** T a ğ ı z a d ə - H a c ı b ə y o v N i y a z i Z ü l- f ü q a r o ğ l u (1912–1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. – 222.

**97. Arif Məlikov,** A r i f C a h a n g i r o ğ l u (d.1933) – bəstəkar. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 222.

**98. Fuad Əliyev,** F u a d Y u s i f o ğ l u (d.1950) – kimya elmləri doktoru, professor, AMEA-nın Gəncə bölməsi üzrə sədri, AMEA-nın həqiqi üzvü , Əməkdar elm xadimi, 1983-cü ildən Gəncə Regional Elm Mərkəzinin sədridir. – 229–232.

**99. Mirzə Şəfi Vazeh** (1794–1852) – Azərbaycan şairi, mütəfəkkiri, maarifçisi. Əlyazması halında olan şeir məcmuəsini F.Bodenştedtə hədiyyə vermişdir. Almaniyaya qayıdan Bodenştedt həmin şeirləri almancaya çevirərək, «Şərqdə 1001 gün», «Mirzə Şəfinin şərqiləri» kitablarında nəşr etdirmişdir. Vazehin şeirlərinin Avropada şöhrət qazandığını görən

Bodenştedt 1875-ci ildə özünü onların müəllifi elan etmişdir. Əbədi irsinin cüzi hissəsi bizə çatmışdır. – 238–241.

**100. Cavad xan** (1748–1804) – Gəncə xanı (1785–1804), Ziyadoğluları nəslindən idi. Cavad xan dövründə Qazax, Borçalı, Şəmsəddil, Şamxor və s. yerlər Gəncə xanlığına daxil idi. Gürcüstan Rusiyaya birləşdikdə (1801) Cavad xanın qoşunu Şəmsəddilin 29 kəndini Gəncə xanlığına qatdı. 1803-cü ilin noyabrında çar generalı P.D. Sisianovun komandanlığı ilə Gəncəyə qoşun göndərildi. P.D. Sisianovun tabe olmaq tələbini rədd edən Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. – 239.

**101. Abbasqulu ağa Bakıxanov** (1794–1847) – ədəbi təxəllüsü Qüdsi. Azərbaycan alimi, şairi, mütəfəkkiri və tərcüməçisi. Bakı xanı II Mirzə Məhəmmədin (1784–91) oğlu. 1828-ci ildə Türkməncayda Rusiya–İran danışıqlarında iştirak etmişdi. Bakıxanovun «Gülüstani-İrəm» (1841) əsəri Azərbaycan tarixşünaslığının inkişafında çox böyük rol oynamışdır. – 240.

**102. Mirzə Fətəli Axundzadə** (1812–1878) – böyük Azərbaycan yazıçısı, dramaturqu, materialist-filosofu. Axundzadə Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdı. 1850–55-ci illərdə yazdığı 6 komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 239, 240, 241.

**103. Fələstin Dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti

Fələstin muxtariyyəti yaradıldı. Sahəsi 6,2 min $km^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir – 249.

**104. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının sədri (Fələstin Dövlətinin Prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 249.

**105. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 250–262.

**106. Oman,** Oman Sultanlığı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 309,5 min $km^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı Məskət şəhəridir. – 265.

**107. Qabus bin Səid** (d.1940) – 1970-ci ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. – 265.

**108. Elnur Məmmədli,** Elnur Çingiz oğlu (d.1988) – 2006-cı ildə cüdo üzrə Avropa çempionu, 2007-ci ildə dünya çempionatının gümüş mükafatçısı, 2008-ci il Pekin Olimpiya

oyunlarında isə 73 kq çəki dərəcəsində olimpiya çempionu olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 273.

**109. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 286–288.

**110. Kərim Kərimov,** K ə r i m A b b a s ə l i o ğ l u (1917–2003) – görkəmli hərbi xadim, general-leytenant, mühəndis. 25 il ərzində Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasına başçılıq etmiş K.Kərimovun adı keçmiş SSRİ-də kosmosun öyrənilməsi, bir çox nadir elmi-texniki layihələrin həyata keçirilməsi ilə sıx bağlı olmuşdur. O, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatları laureatı adlarına layiq görülmüş, Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 287.

**111. Yens Stoltenberq** (d.1959) – Norveçin dövlət və siyasi xadimi. 2005–2013-cü illərdə Norveçin Baş naziri, 2014-cü ildən NATO-nun baş katibidir. – 295–303.

**112. Donald Tusk** (d.1957) – Polşa və Avropanın siyasi xadimi. 2007–2014-cü illərdə Polşanın Baş naziri, 2014-cü ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 305.

**113. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 318, 319.

**114. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 199,5

min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 318, 319.

**115. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 319.

**116. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 319.

**117. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 92, 318, 319.

**118. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 318.

## Şəxsi adlar göstəricisi

**Abbasi Şahid** – 89–94
**Abdullayev Namiq** – 273
**Abdullayev Rauf** – 167–168
**Abdullayev Rövnəq** – 202–205
**Abe Şinzo** – 160
**Axundzadə Mirzə Fətəli** – 239, 240, 241
**Aripov Abdulla** – 110, 122–124
**Aun Mişel** – 291
**Bakıxanov Abbasqulu ağa** – 240
**Bellen Aleksander** – 95
**Berdıməhəmmədov Qurbanqulu** – 55, 96
**Berje Adolf** – 240
**Bin Səid Qabus** – 265
**Bodenştedt Fridrix** – 239
**Botev Xristo** – 67
**Buteflikay Əbdüləziz** – 109
**Cabbarov Mikayıl** – 133
**Cahangiri Eshaq** – 87–88, 89–94
**Canikli Nurəttin** – 134
**Cavad xan** – 239
**Cəfərov Samir** – 227–229
**Couns Qari** – 206–209
**Çavçavadze** – 240
**Çoviç Draqan** – 294
**Çavuşoğlu Mövlud** – 134
**Darmanoviç Srcan** – 161–162
**De Quxt Karel** – 13
**Duda Andjey** – 78–79
**Eristavi** – 240

**Əl-Abadi Heydər** – 248
**Əl-Zəyyəni Əbdüllətif** – 76–77
**Əs-Sisi Əbdülfəttah** – 312
**Əliyev Əziz** – 166, 241
**Əliyev Fuad** – 229–232
**Əliyev Hacı** – 272, 275–276
**Əliyev Heydər** – 162, 165, 166, 167, 168, 180, 182, 191, 192, 193, 194, 196, 202, 207, 213, 216, 221, 227, 240, 250, 251, 253, 269, 289, 314, 318, 321
**Əliyev Qədim** – 205–206
**Əliyeva Mehriban** – 58, 59, 67, 72, 110, 128, 168, 169, 170, 228, 229, 230, 318, 326
**Ərdoğan Əminə** – 110, 128
**Ərdoğan Rəcəb Tayyib** – 86, 89–94, 100, 115–117, 128, 129–140, 175–178
**Əmirov Fikrət** – 222
**Əsədzadə Mahirə** – 209–211
**Əzizov Eldar** – 107
**Əsgərov Toğrul** – 273
**VI Felipe** – 31
**Ferreyra Aloyzio** – 266–267
**Flüger Mixael** – 18–19
**Gəncəvi Nizami** – 67, 71, 223, 226, 230
**Hacıbəyli Üzeyir** – 222
**Hacıyev Tofiq** – 327–328
**Hakimi Əklil** – 188–189
**Həsənov Faiq** – 217–219
**Həsənov Zakir** – 134, 328, 329
**Həşimov Vüqar** – 216

**Hüseynov Nazim** – 273
**Hüseynov Zaur** – 180
**Xamenei Seyid Əli** – 145
**Xətai Şah İsmayıl** – 71
**İnnes-Braun Mark** – 103–104
**İnfantino Canni** – 292–293
**İsayev Radik** – 273
**Jeenbekov Sooronbay** – 73
**Jizdan Aleksandr** – 268
**Kanellos Nikolaos** – 75
**Karadjova Gergana** – 17–18
**Kasprşik Anji** – 29–30
**Kərbasian Məsud** – 105–106, 141
**Kərimov Kərim** – 287
**Kondratyev Veniamin** – 51
**Kulişov Vladimir** – 82–84
**Kubiv Stepan** – 85
**Kvirikaşvili Giorgi** – 110, 117–120, 175–178
**Qani Məhəmməd** – 188, 189
**Qarayev Qara** – 222
**Qasımov İlqar** – 326–327
**Qriqoryev** – 240
**Quliyev Tofiq** – 229
**Qurbanov Cavid** – 176
**Qurbanova Pərvanə** – 232
**Lanzillotta Linda** – 171
**Lavrov Sergey** – 286–288
**Lebedev Sergey** – 52
**Mahmud Abbas** – 249
**Makron Emmanuel** – 16, 174
**Mamin Aşkar** – 282–283
**Marqvilaşvili Giorgi** – 313

**Matviyenko Valentina** – 56
**Məftahətdinova Zemfira** – 273
**Meta İlir** – 311
**Məcidov Məmmədrəsul** – 272
**Məhsəti** – 230
**Məlikov Arif** – 222
**Məmmədli Elnur** – 273
**Məmmədov Müstəqim** – 314
**Məmmədova Pakizə** – 318–319
**Məmmədyarov Elmar** – 134
**Məmmədyarov Şəhriyar** – 218, 219–220
**Mirzə Şəfi Vazeh** – 238–241
**Mirziyoyev Şavkat** – 122, 284, 285
**Molla Abdulla** – 240
**Mustafayev Şahin** – 133, 277
**Naci Mirzə Mehdi** – 240
**Naydiç Arkadi** – 220
**Nazarbayev Nursultan** – 282
**Niyazi** – 222
**Pahor Borut** – 263
**Paxomov Anatoli** – 51
**Perez Lars** – 102
**Popov İqor** – 29–30
**Poroşenko Petro** – 85, 304
**Putin Vladimir** – 52, 55, 56, 143–144, 146–159, 165, 287, 288
**Püstə xanım***(Cavad xanın qızı)* – 239
**Radev Rumen** – 58–72
**Radeva Desislava** – 58, 59, 68
**Rafan Pyer** – 169–170, 173–174

**Ratas Yuri** – 185, 187
**Reynhold Yaan** – 185–187
**Rəcəbov Teymur** – 218, 220
**Rəhmon Emoməli** – 55
**Rəhimov Azad** – 270
**Ruhani Həsən** – 142, 146–159, 247
**Saqintayev Bakıtjan** – 110, 120–122
**Samoura Fatma** – 292–293
**Saraç Yekta** – 133
**Si Cinpin** – 98–99
**Sihamoni Norodom** – 184
**Stivens Valter** – 13–15, 28
**Sultanov Alişer** – 284–285
**Stoltenberq Yens** – 295–303
**Suran Nikalas** – 15–17
**Şixsaidov Xizri** – 163–165
**Şofer Endrü** – 29–30
**Tramp Donald** – 30, 179
**Tusk Donald** – 15, 305
**Uld Əbdüləziz Məhəmməd** – 310
**Umaxanov İlyas** – 163–165
**Yeyonis Raymonds** – 264
**Vaşçikovski Vitold** – 78–79
**Viskonti Stefan** – 29–30
**Vidadi Mirzə Yusif** – 240
**Yıldırım Binəli** – 101, 124–125
**Yılmaz İsmət** – 133
**Yusifzadə Xoşbəxt** – 193, 211–214
**Zakir Qasımbəy** – 241
**Zeman Miloş** – 97
**Zeybekci Nihat** – 133

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Ağdam** | – 318, 319 |
| **Ağdərə** | – 326 |
| **Aktau** | – 116, 121 |
| **Albaniya** | – 10, 311 |
| **Almaniya** | – 18 |
| **Amerika Birləşmiş Ştatları** | – 29–30, 179, 193 |
| **Aralıq dənizi** | – 22, 120 |
| **Asiya** | – 11, 17, 68, 93, 111, 115, 175, 308 |
| **Astana** | – 154 |
| **Astara** | – 87 |
| **Avrasiya** | – 93, 111, 121, 178 |
| **Avropa** | – 10, 11, 12, 17, 68, 93, 111, 113, 114, 115, 120, 152, 175, 215, 217, 307, 308 |
| **Avstriya** | – 95 |
| **Avstraliya** | – 103–104 |
| **Balkan** *(yarımada)* | – 66 |
| **Banqladeş** | – 93 |
| **Berlin** | – 228 |
| **Bolqarıstan** | – 10, 17, 22, 58–72 |
| **Bosniya və Herseqovina** | – 294 |
| **Braziliya** | – 266–267 |
| **Brüssel** | – 15, 17, 18, 185, 304–309 |
| **Cenevrə** | – 74 |
| **Ceyrançöl** | – 295 |
| **Cəbrayıl** | – 319 |

**Cənubi Qafqaz** – 178, 298
**Cocuq Mərcanlı** – 35, 92, 209, 322
**Çex Respublikası** – 97
**Çin** – 98–99, 113, 115, 119, 124, 176
**Dağıstan** – 163–165
**Dağlıq Qarabağ** – 6, 7, 15, 16, 19, 20, 21, 29–30, 36, 69, 79, 91, 92, 104, 136, 142, 147, 148, 173, 174, 209, 253, 259, 288, 290, 296, 298, 302, 303, 317, 320, 323, 324
**Estoniya** – 185–187
**Əfqanıstan** – 188–189, 295, 297
**Əlcəzair** – 109
**Ələt** – 116, 176
**Fələstin** – 249
**Fransa** – 17, 29–30, 169–170, 173–174, 230
**Gəncə** – 46, 221–246
**Gürcüstan** – 10, 22, 110–140, 175–178, 204, 313
**Hacıqabul** – 46
**Hindistan** – 113, 176
**Hyuston** – 193
**Xaçmaz** – 149
**Xankəndi** – 318
**Xəzər dənizi** – 11, 17, 70, 114, 148, 150, 153, 158, 191, 213
**Xırdalan** – 269
**Xocalı** – 6, 91, 260, 302
**İndoneziya** – 93

**İraq** – 16, 247
**İran** – 22, 87–88, 89–94, 93, 105–106, 113, 141–159, 247
**İspaniya** – 31
**İstanbul** – 86–94
**İsveçrə** – 74, 204
**İtaliya** – 10, 22, 171–172, 230
**Kamboca** – 184
**Kəlbəcər** – 318, 319
**Kosovo** – 295
**Kurık** – 121
**Qara dəniz** – 17, 22, 66
**Qars** – 126
**Qazaxıstan** – 110–140, 175, 176, 282–283
**Qırğız Respublikası** – 73
**Qvatemala** – 102
**Laçın** – 319
**Lahıc** – 42
**Latviya** – 264
**Livan** – 291
**London** – 115, 132
**Madrid** – 218
**Malayziya** – 93
**Marağa** *(İran)* – 320
**Marazad** – 149
**Masazır** – 280–281, 318
**Mavritaniya** – 310
**Mehdiabad** – 318
**Mersin** – 126
**Mərkəzi Asiya** – 120, 123, 178
**Mərkəzi Avropa** – 61

**Milan** – 228
**Mingəçevir** – 46
**Misir** – 93, 312
**Moldova** – 268
**Monteneqro** – 161–162
**Moskva** – 251
**Naxçıvan Muxtar Respublikası** – 126, 219
**Naxçıvan** – 126, 139, 251, 252
**Neftçala** – 43
**Nyu York** – 60, 228
**Nigeriya** – 93
**Oman** – 265
**Orta Asiya** – 113, 116, 124
**Özbəkistan** – 110–140, 175, 284–285
**Pakistan** – 89–94, 113
**Pekin** – 132
**Polşa** – 78–79
**Ramana** – 318
**Rumıniya** – 204
**Rusiya** – 22, 29–30, 51–57, 114, 143–144, 146–159, 163–165, 191, 286–288
**Sabunçu** – 318
**Sidney** – 228
**Sloveniya** – 263
**Soçi** – 51–57
**Suriya** – 16
**Sumqayıt** – 35
**Şərqi Avropa** – 120
**Şuşa** – 92, 318, 319

**Tacikistan** – 55, 110–140
**Tbilisi** – 120
**Tehran** – 141–159
**Tərtər** – 314–330
**Trapezitsa** – 66
**Türkiyə** – 10, 22, 86–94, 100, 101, 110–140, 175–178, 204
**Türkmənistan** – 55, 95, 110–140
**Ukrayna** – 85, 204, 304
**Veliko Tırnovo** – 68
**Vyana** – 228
**Yalama** – 149
**Yaponiya** – 160
**Yunanıstan** – 10, 75

# MÜNDƏRİCAT

AVROPA İTTİFAQI ŞURASININ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*4 oktyabr 2017-ci il* ........................................................................................5

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ
İLƏ GÖRÜŞ

*7 oktyabr 2017-ci il* ........................................................................................29

İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

*9 oktyabr 2017-ci il* ........................................................................................31

NAZİRLƏR KABİNETİNİN 2017-ci İLİN DOQQUZ AYININ
SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ
QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ
İCLASINDA İŞTİRAK

*9 oktyabr 2017-ci il* ........................................................................................32

YEKUN NİTQİ

*9 oktyabr 2017-ci il* ........................................................................................40

RUSİYA FEDERASİYASININ SOÇİ ŞƏHƏRİNƏ SƏFƏR

*11 oktyabr 2017-ci il* ......................................................................................51

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ MƏHDUD
TƏRKİBDƏ İCLASINDA İŞTİRAK

*11 oktyabr 2017-ci il* ......................................................................................52

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ GENİŞ TƏRKİBDƏ İCLASINDA İŞTİRAK

*11 oktyabr 2017-ci il ..........................................................................55*

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ VƏ ALİ AVRASİYA İQTİSADİ ŞURASININ İCLASLARINDA İŞTİRAK EDƏN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*11 oktyabr 2017-ci il ..........................................................................57*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUMEN RADEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*13 oktyabr 2017-ci il ..........................................................................58*

PREZİDENTLƏRİN VƏ XANIMLARININ BİRGƏ GÖRÜŞÜ

*13 oktyabr 2017-ci il ..........................................................................59*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*13 oktyabr 2017-ci il ..........................................................................60*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUMEN RADEV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*13 oktyabr 2017-ci il ..........................................................................62*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*13 oktyabr 2017-ci il ..........................................................................67*

QIRĞIZ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SOORONBAY JEENBEKOVA

*16 oktyabr 2017-ci il ..........................................................................73*

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*16 oktyabr 2017-ci il* ........................................................................*74*

YUNANISTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ NİKOLAOS KANELLOS İLƏ GÖRÜŞ

*17 oktyabr 2017-ci il* ........................................................................*75*

KÖRFƏZ ƏRƏB DÖVLƏTLƏRİNİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ ƏBDÜLLƏTİF BİN RƏŞİD ƏL-ZƏYYƏNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2017-ci il* ........................................................................*76*

POLŞA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ VİTOLD VAŞÇİKOVSKİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2017-ci il* ........................................................................*78*

MDB SƏRHƏD QOŞUNLARI KOMANDANLARI ŞURASININ 78-ci İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*18 oktyabr 2017-ci il* ........................................................................*80*

UKRAYNA RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ STEPAN KUBİVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2017-ci il* ........................................................................*85*

TÜRKİYƏ RESPUBLİKASINA SƏFƏR

*19 oktyabr 2017-ci il* ........................................................................*86*

İRAN İSLAM RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİ ESHAQ CAHANGİRİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2017-ci il ....................................................................................87*

D-8 İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ IX ZİRVƏ GÖRÜŞÜNDƏ XÜSUSİ QONAQ QİSMİNDƏ İŞTİRAK

*20 oktyabr 2017-ci il ....................................................................................89*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDER VAN DER BELLENƏ

*23 oktyabr 2017-ci il ....................................................................................95*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*24 oktyabr 2017-ci il ....................................................................................96*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİLOŞ ZEMANA

*25 oktyabr 2017-ci il ....................................................................................97*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ, ÇİN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNİN BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*25 oktyabr 2017-ci il ....................................................................................98*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*27 oktyabr 2017-ci il ..................................................................................100*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB BİNƏLİ YILDIRIMA

*27 oktyabr 2017-ci il ........................................................................101*

QVATEMALA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ
TƏYİN OLUNMUŞ SƏFİRİ LARS HENRİK PİRA PEREZ İLƏ
GÖRÜŞ

*27 oktyabr 2017-ci il ........................................................................102*

AVSTRALİYA İTTİFAQININ AZƏRBAYCANDA YENİ
TƏYİN OLUNMUŞ SƏFİRİ MARK İNNES-BRAUN İLƏ
GÖRÜŞ

*27 oktyabr 2017-ci il ........................................................................103*

İRAN İSLAM RESPUBLİKASININ İQTİSADİ İŞLƏR VƏ
MALİYYƏ NAZİRİ MƏSUD KƏRBASİANIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 oktyabr 2017-ci il ........................................................................105*

BAKININ SƏBAİL RAYONUNDA YENİ İDMAN VƏ
İSTİRAHƏT PARKINDA YARADILAN ŞƏRAİTLƏ
TANIŞLIQ

*28 oktyabr 2017-ci il ........................................................................107*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ
BUTEFLİKAYA

*30 oktyabr 2017-ci il ........................................................................109*

BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN AÇILIŞI
MƏRASİMİNDƏ İŞTİRAK

*30 oktyabr 2017-ci il ........................................................................110*

BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN AÇILIŞI MƏRASİMİNİN İŞTİRAKÇILARI ÜÇÜN VERİLƏN ZİYAFƏTDƏ İŞTİRAK

*30 oktyabr 2017-ci il* ........................................................................*128*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN RƏSMİ QARŞILANMA MƏRASİMİ
*31 oktyabr 2017-ci il* ........................................................................*129*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ
*31 oktyabr 2017-ci il* ........................................................................*130*

AZƏRBAYCAN–TÜRKİYƏ YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ ALTINCI İCLASINDA İŞTİRAK

*31 oktyabr 2017-ci il* ........................................................................*131*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*31 oktyabr 2017-ci il* ........................................................................*133*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*31 oktyabr 2017-ci il* ........................................................................*135*

İRAN İSLAM RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*1 noyabr 2017-ci il* ..........................................................................*141*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*1 noyabr 2017-ci il* ..........................................................................*142*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*1 noyabr 2017-ci il* ........................................................................... *143*

İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ
SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*1 noyabr 2017-ci il* ........................................................................... *145*

AZƏRBAYCAN, İRAN VƏ RUSİYA DÖVLƏT
BAŞÇILARININ ÜÇTƏRƏFLİ ZİRVƏ GÖRÜŞÜ

*1 noyabr 2017-ci il* ........................................................................... *146*

AZƏRBAYCAN, İRAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN
MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLARI

*1 noyabr 2017-ci il* ........................................................................... *152*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB ŞİNZO ABEYƏ

*2 noyabr 2017-ci il* ........................................................................... *160*

MONTENEQRONUN XARİCİ İŞLƏR NAZİRİ SRCAN
DARMANOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2017-ci il* ........................................................................... *161*

RUSİYA FEDERASİYASI FEDERASİYA ŞURASININ
SƏDR MÜAVİNİ İLYAS UMUXANOV VƏ DAĞISTAN
RESPUBLİKASI XALQ MƏCLİSİNİN SƏDRİ XİZRİ
ŞİXSAİDOV İLƏ GÖRÜŞ

*2 noyabr 2017-ci il* ........................................................................... *163*

XALQ ARTİSTİ RAUF ABDULLAYEVƏ «İSTİQLAL» ORDENİNİ
TƏQDİMETMƏ MƏRASİMİ

*2 noyabr 2017-ci il* ........................................................................... *167*

FRANSA MİLLİ ASSAMBLEYASININ FRANSA–
AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN ÜZVLƏRİ

İLƏ GÖRÜŞ

*2 noyabr 2017-ci il ........................................................................169*

İTALİYA SENATININ SƏDR MÜAVİNİ LİNDA LANZİLLOTTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2017-ci il ........................................................................171*

FRANSA MİLLİ ASSAMBLEYASININ FRANSA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN RƏHBƏRİ PYER ALEN RAFAN İLƏ GÖRÜŞ

*3 noyabr 2017-ci il ........................................................................173*

BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN AÇILIŞI İLƏ BAĞLI « EURONEWS » TELEKANALININ AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ VƏ GÜRCÜSTANIN BAŞ NAZİRİ İLƏ MÜSAHİBƏSİ

*3 noyabr 2017-ci il ........................................................................175*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA

*6 noyabr 2017-ci il ........................................................................179*

BAKI METROPOLİTENİNİN RETRO VAQONLARININ BƏRPADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*6 noyabr 2017-ci il ........................................................................180*

BAKI METROPOLİTENİNİN 50 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMİN İŞTİRAKÇILARINA

*7 noyabr 2017-ci il ........................................................................182*

KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİHAMONİYƏ

*7 noyabr 2017-ci il* ............................................................................*184*

AVROPA İTTİFAQI «ŞƏRQ TƏRƏFDAŞLIĞI»NIN XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİRLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 noyabr 2017-ci il* ............................................................................*185*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ MALİYYƏ NAZİRİ ƏKLİL ƏHMƏD HAKİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 noyabr 2017-ci il* ............................................................................*188*

XƏZƏRDƏ 2 MİLYARD TON NEFT HASİL OLUNMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*8 noyabr 2017-ci il* ............................................................................*190*

ŞAHMAT ÜZRƏ AVROPA KOMANDA ÇEMPİONATININ QALİBLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 noyabr 2017-ci il* ............................................................................*215*

GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏR

*10 noyabr 2017-ci il* ..........................................................................*221*

GƏNCƏ DÖVLƏT FİLARMONİYASININ AÇILIŞI MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 noyabr 2017-ci il* ..........................................................................*222*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*13 noyabr 2017-ci il* ..........................................................................*247*

İRAQ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏL-ABADİYƏ

*13 noyabr 2017-ci il ............................................................................248*

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA

*13 noyabr 2017-ci il ............................................................................249*

YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 25
İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY
MƏRASİMİNDƏ İŞTİRAK

*14 noyabr 2017-ci il ............................................................................250*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA

*15 noyabr 2017-ci il ............................................................................263*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RAYMONDS VEYONİSƏ

*15 noyabr 2017-ci il ............................................................................264*

OMAN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*15 noyabr 2017-ci il ............................................................................265*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ
ƏLAQƏLƏR NAZİRİ ALOYZİO NUNES FERREYRANIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 noyabr 2017-ci il ............................................................................266*

MOLDOVA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ
ALEKSANDR JİZDAN İLƏ GÖRÜŞ

*15 noyabr 2017-ci il ............................................................................268*

ABŞERON RAYONUNA SƏFƏR

*16 noyabr 2017-ci il ..........................................................................269*

OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞINDA
ABŞERON RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 noyabr 2017-ci il ..........................................................................270*

ABŞERON RAYONUNDA «ZƏHMƏT-RUZİ» MMC-nin
FƏALİYYƏTİ İLƏ TANIŞLIQ

*16 noyabr 2017-ci il ..........................................................................277*

MASAZIR QƏSƏBƏSİNDƏ 5 SAYLI TAM ORTA
MƏKTƏBİN AÇILIŞI MƏRASİMİ

*16 noyabr 2017-ci il ..........................................................................280*

QAZAXISTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ
MÜAVİNİ ASKAR MAMİN İLƏ GÖRÜŞ

*16 noyabr 2017-ci il ..........................................................................282*

ÖZBƏKİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN
MÜAVİNİ ALİŞER SULTANOV İLƏ GÖRÜŞ

*17 noyabr 2017-ci il ..........................................................................284*

RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY
LAVROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*19 noyabr 2017-ci il ..........................................................................286*

UŞAQLARIN IV ÜMUMRESPUBLİKA FORUMUNUN
İŞTİRAKÇILARINA

*20 noyabr 2017-ci il ..........................................................................289*

LİVAN RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL AUNA

*20 noyabr 2017-ci il* ......................................................................... *191*

FIFA-nın PREZİDENTİ CANNİ İNFANTİNO
VƏ TƏŞKİLATIN BAŞ KATİBİ FATMA
SAMOURA İLƏ GÖRÜŞ

*20 noyabr 2017-ci il* ......................................................................... *292*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT
HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB DRAQAN
ÇOVİÇƏ

*22 noyabr 2017-ci il* ......................................................................... *294*

NATO-nun BAŞ KATİBİ YENS STOLTENBERQ
İLƏ GÖRÜŞ

*23 noyabr 2017-ci il* ......................................................................... *295*

NATO-nun BAŞ KATİBİ YENS STOLTENBERQ İLƏ BİRGƏ
MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*23 noyabr 2017-ci il* ......................................................................... *297*

NATO-nun ŞİMALİ ATLANTİKA ŞURASININ İCLASINDA
İŞTİRAK

*23 noyabr 2017-ci il* ......................................................................... *301*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
PETRO POROŞENKO İLƏ GÖRÜŞ

*23 noyabr 2017-ci il* ......................................................................... *304*
«ŞƏRQ TƏRƏFDAŞLIĞI» SAMMİTİNİN PLENAR
İCLASINDA «AVROPA İTTİFAQI İLƏ TƏRƏFDAŞLIQ
AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ƏSAS
PRİORİTETLƏRİNDƏN BİRİDİR» MÖVZUSUNDA ÇIXIŞ

*24 noyabr 2017-ci il* ......................................................................... *305*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ

*24 noyabr 2017-ci il ..........................................................................310*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İLİR METAYA

*24 noyabr 2017-ci il ..........................................................................311*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*24 noyabr 2017-ci il ..........................................................................312*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ

*27 noyabr 2017-ci il ..........................................................................313*

TƏRTƏR RAYONUNA SƏFƏR

*28 noyabr 2017-ci il ..........................................................................314*

TƏRTƏRDƏ MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN SALINMIŞ
YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞINDA RAYON
İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*28 noyabr 2017-ci il ..........................................................................317*

AĞCABƏDİ RAYONUNA SƏFƏR

*28 noyabr 2017-ci il ..........................................................................331*

QEYDLƏR.........................................................................................*336*

*Şəxsi adlar göstəricisi....................................................................... 366*

*Coğrafi adlar göstəricisi.......................................................................... 371*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.